ƏHMƏD CƏFƏRZADƏ

# Yaralı könül





**ƏHMƏD CƏFƏRZADƏ**
**(1929-2000)**

**ƏHMƏD CƏFƏRZADƏ**

# YARALI KÖNÜL

**BAKI – 2017**

**Tərtib edənlər:** **Afaq RAMAZANOVA**
filologiya üzrə fəlsəfə doktoru,
**Turan İBRAHİMOV**
texnika üzrə fəlsəfə doktoru

**Redaktor:** **Kəmalə CƏFƏRZADƏ**

**Cəfərzadə Ə.M. Yaralı könül,** Bakı, Elm və təhsil, 2017, -306 səh.

Kitaba Stalin əleyhinə yazdığı şeirlərə görə psixiatrik xəstəxanalarda saxlanılan, "xalq düşməni" adı alaraq həbs və sürgünə göndərilən filologiya elmləri doktoru Əhməd Cəfərzadənin XX əsrin qanlı-qadalı 40-50-ci illərini əks etdirən şeirləri, «Yaralı könül», «Yarımçıq qalmış gündəlik», «Əfqannamə» və digər əsərləri daxil edilmişdir.

ISBN – 978-9952-8108-44

C $\frac{4603000000}{N-098-2017}$ Qrifli nəşr

© Turan İbrahimov, 2017

## *ÖN SÖZ*

**Əziz oxucular!**

Bu gün ömürlərinin sonuna kimi Azərbaycan mədəniyyəti üçün çalışmış, bu mədəniyyətdə silinməz izlər qoymuş Cəfərzadələr nəslinin kiçik övladı, filologiya elmləri doktoru Əhməd Cəfərzadənin qoyub getdiyi böyük irsindən, dəryadan bir damla kimi seçdiyimiz əsərlərin daxil olduğu "Yaralı könül" kitabını sizlərə təqdim etməkdən qürur hissi duyuruq.

Əhməd Cəfərzadənin əsərlərini küll halında toplamaq elə də asan olmayıb. Zamanında topladığı son dərəcə zəngin, hər bir elm adamının arzulaya biləcəyi arxivi alimin vəfatından sonra düzənini itirmiş, pərən-pərən düşən həyatı kimi dağılmış, bəzi materialları müəmmalı şəkildə yoxa çıxmışdır.

Bu kitabın ərsəyə gəlməsi, bu nəcib əməl qardaşım Turanın böyük zəhmət və inadkarlığı sayəsində başa gəlib. Gözəl şairəmiz Hökümə Billurinin "Mənə nə edirsən, sağlığımda et" kimi dahiyanə misralarını özünə həyat devizi seçən Turan sağlığında da hər cür hörmət və xidmət göstərdiyi ulularımızın xatirəsini əbədiləşdirmək, yarımçıq qalmış işlərini tamamlayaraq xalqa çatdırmaq kimi nəcib missiyasını bu yeni kitabla davam etdirir.

Əhməd Cəfərzadə 1929-cu ildə Bakıda, ədəbiyyata, sənətə vurğun bir ailədə doğulmuşdu. Anası Kərbəlayi Böyükxanım zadəgan, olduqca mükəmməl dünyəvi və dini təhsil görmüş, ədəbiyyatı, türk şeirini, din tarixini gözəl bilən, Hafizi-Quran bir xanım idi. Əhməd belə bir ananın südünü əmmiş, belə bir anadan tərbiyə almışdı.

Sovet hakimiyyəti qurulduqdan sonra Əhmədin bu quruluşla barışmayan atası Kərbəlayi Məhəmməd kəndə köçür, ara-sıra ailəsinə baş çəkmək üçün Bakıya gəlir. Ata nəvazişi görməyən, demək olar ki atasız böyüyən Əhmədin həyatında

önəmli rolu anası Böyükxanım və bacısı, məşhur yazıçı Əzizə Cəfərzadə oynamışdı. Bu iki insana candan bağlı idi. Kiçik yaşlarından öz böyüklərindən yalnız düzlük, insanlara qarşı xeyirxahlıq və mərhəmət görən, belə bir mühitdə böyüyən Əhməd Cəfərzadə yeniyetməlikdən Sovet quruluşuna, Azərbaycanın istila olunmasına üsyankar bir ruhda böyüdü, istiqlal arzuları ilə yaşadı, böyüdükcə onun arzuları da onunla birgə boy atırdı. Lakin Əhmədin taleyinə bu ülvi arzuları həyata keçirmək yox, bu dünyanın daş yükünü daşımaq qisməti düşmüşdü.

Hələ kiçik yaşlarında şəhər və kənd mühitinin son dərəcə ağır bəlalarının şahidi olmuş və bunu öz fenomenal yaddaşına köçürmüşdü. Gənclik illərində yaşadığı Ağsu, Daşkəsən, Şamaxı, Göyçay rayonlarında insanların ağır məişəti, güzəranı kövrək qəlbli gəncin qəlbində dərin, silinməz iz buraxmışdı.

1940-cı ildə hərbçi ilə yeni ailə qurmuş bacısına qürbətdə darıxmasın deyə “cehiz” qoşulan Əhməd Rusiyanın ucqar Xabarovsk vilayətinə uzaq səfərə çıxır. Burada rus dilini bütün incəliklərinə qədər öyrənir. Əhməd sonradan bu soyuq diyarlara siyasi dustaq kimi bir daha dönəcək, sürgün həyatı yaşayacaqdı.

Aclıq illərini, 37-ci ili, dəhşət saçan müharibə illərini görmüş Əhməd çox gənc ikən siyasi şeirlər yazmağa başlamışdır. Bu qan üstündə qurulmuş dövlətə, onun yeddibaş əjdahadan da qorxunc repressiya maşınına qarşı qorxmadan meydan oxuyan Əhməd gənc qəlbinin sadəlöhv inamı ilə yazdığı siyasi şeirləri bu yazıda adının çəkilməsini lazım bilmədiyimiz məşhur bir yazıçıya təqdim edir və öz əliylə özünə hökm yazır, ağlına belə gətirməyəcəyi bəlalara düçar olur. 1953-cü ildə həbs olunur, bütün əlyazmaları, topladığı folklor materialları məhv edilir, dəlixanaya salınır, KQB zindanlarında olmazın müsibətlər

çəkir və Qorki vilayətinin Suxobezvodnoye qəsəbəsinə, daha sonralar Tayşet və Maqadana sürgün olunur.

Stalinin ölümündən 3 il sonra Ə.Cəfərzadə bəraət alaraq vətənə dönür. 30 yaşa yetməmiş bu namərd dünyanın yalnız boz sifətini görmüş, gəncliyini, sağlamlığını, istiqlal arzularını itirmiş Əhməd özündə qüvvə tapdı ki, ali təhsil alsın, namizədlik və doktorluq dissertasiyalarını müdafiə etsin və nəinki vətənində, həmçinin Sovetlər birliyində və xaricdə tanınmış bir alim olsun. Çünki Tanrı ona aşıb-daşan, daşı yarıb çıxa bilən qeyri-adi bir istedad vermişdi. Xalqa, elə, torpağa bağlılıq, vətən, yurd sevgisi, azadlıq arzuları onun həyatının mayasını təşkil edirdi.

1970-ci ilə qədər çox kasıb həyat keçirən, fəqət könlü zəngin Əhməd Cəfərzadənin süfrəsinin başında həmişə çoxlu adam olurdu. Onun təkcə ailə üzvləri ilə süfrə başında oturduğunu görən olmamışdı. Onun bu yaşadək yığdığı var-dövləti bütün SSRİ məkanında və xarici ölkələrdə yaşayan dostları, zəngin ensiklopedik biliyi, qarış-qarış gəzərək eldən-obadan topladığı ağız ədəbiyyatı, qədim əlyazmalar idi.

O zamanlar "Kitabxanalararası abonement" adlı bir təsisat var idi. İstədiyin kitabı gətirdib oxuya bilərdin. Bu təsisatın poçtla kəndə göndərdiyi elmi kitabları vaxtında geri qaytarmaq üçün su kimi içir, elmi araşdırmalar aparmaqdan yorulmurdu.

Yuxarıda qeyd etdiyim kimi dost sarıdan varlı olan, insani münasibətlərdə alimlə çobana fərq qoymayan Əhməd Cəfərzadənin digər dostlarla yanaşı çoxlu repressiya dostları vardı. Onlar Dağıstanda, Amasiyada, Orta Asiyada, Ukraynada, Azərbaycanda yaşayırdılar. İşinin çox olmasına, çoxşaxəli yaradıcılıq və elmi fəaliyyətinə baxmayaraq Əhməd Cəfərzadə dostlarla müntəzəm əlaqə saxlayır, onları evinə dəvət edir, tez-tez dostlarına qonaq gedirdi. 60-cı illərdə Dağıstanın Qızılyurd bölgəsində baş vermiş, dağların başında yerləşən

aulların altını-üstünə çevirmiş dəhşətli zəlzələ zamanı bütün qohum-əqrəbanın pal-paltarını yığıb və xeyli ərzaq alıb fəlakət zonasına, zəlzələdən zərərçəkənlərə, o cümlədən dustaqlıq dostu Xaybullaya yardım etməyə getmişdi.

Əhməd Cəfərzadə hərtərəfli istedad sahibi idi. Onun kimi rəqs edən, deklomasiya deyən yox idi. II Dünya müharibəsindən sonra Bakı Teatr Texnikumunu bitirmiş, bir müddət Gənc Tamaşaçılar Teatrında təcrübə keçmişdi. Bu qabiliyyəti dustaqlıq həyatında da onun karına yetmiş, dustaqların mahnı və rəqs ansamblını yaratmış, məhbəs həyatı keçirən bütün ziyalıları, istedadlı insanları bura toplamış və dustaqxana həyatına bir qədər işıq, ümid işartısı, sevinc qığılcımı gətirməyə çalışmışdı.

Hələ kiçik yaşlarından şeirə böyük həvəs göstərən Əhməd uşaq bağçasında öyrəndiyi şeirləri hamıya xüsusi intonasiya ilə oxuyarmış. Həyatının içindən bir sızıltı kimi keçən, heç vaxt kimsəylə bölüşmədiyi nakam məhəbbət duyğularını lirik şeirlərində əks etdirmiş, lakin bu şeirləri heç zaman üzə çıxarmamışdı. Əsasən satirik şeirlərini hamıya oxumaqdan, məktubla qohum və dostlarına göndərməkdən xüsusi zövq alırdı.

Əhməd əmi səyahət aşiqi idi. Sovetlər Birliyində gəzməmiş yer qoymamışdı. Orta Asiya, Ukrayna, Gürcüstan, Dağıstan, Şimali Qafqaz və Rusiyanın bir çox şəhərlərini qarış-qarış gəzib dolaşmış, bir sıra xarici ölkələrdə elmi simpoziumlarda iştirak etmiş, işgüzar səfərlərdə olmuşdu.

Yeni il qabağı həm bacısı Əzizə xanımın ad gününü qeyd etmək, həm də Yeni ili ana-bacısı ilə birgə keçirmək üçün Bakıya gələrdi. Gələn kimi çoxlu göy-göyərti alar, kənddə bişməyən yeməkləri bişirtdirər, özü də bu biş-düşə həvəslə qoşular, şirin söhbətlər, zarafatlar edərdi.

Əhməd Cəfərzadə teatra böyük sevgi bəsləyirdi. 1937-ildə baxdığı “Maqbet” tamaşasında SSRİ xalq artisti Mərziyə Davudovanın ledi Maqbet obrazı onun uşaq yaddaşında elə dərin iz qoymuşdu ki, o, bu ifanı son günlərinə qədər dönə-dönə xatırlayırdı. Həmçinin sənət müəllimləri Kazım Ziya və Fatma Qədridən böyük sevgiylə söhbət açırdı.

Həyatda çox çilələr çəkmiş Əhməd əmi harda qəfəsdə quş görsəydi, qəfəsi açıb dustaq quşları azadlığa buraxırdı.

Əvvəli də, sonu da əzabdan yoğrulmuş həyatının sonuna kimi ona ana-bacı, ata, əmi, dayı, qardaş olmuş el-obadan ayrılmadı, Maarif Nazirliyi tərəfindən təklif olunan vəzifələrə getmədi, ali məktəblərin dəvətlərini qəbul etmədi. Ona olmazın əzablar yaşatmış şəhər həyatına dönmədi. Ömrünün son illərini sanki inzivaya çəkilmişdi. Böyük kitabxanasından kənara çıxmaq istəmirdi. Gününün çoxunu mütaliədə keçirir, sanki bu sükutun içində rahatlıq tapırdı...

Neçə vaxtdır bu bir-iki kəlmə ön sözü yazmaqda aciz qalmışam. Çünki həyatımın dəyərli bir parçası olan əmimin daha bu dünyada olmadığına inana bilmirəm. Mənə elə gəlir ki, o elə həmin yerlərdə, doğulub boya-başa çatdığı Bakıdan uzaqda, candan bağlı olduğu ellərdə hardasa öz dostlarını, əqidədaşlarını başına yığıb, ömür boyu həsrətində olduğu azad dünyasını qurub yaşayır. Sözsüz ki, o məkanın adı **CƏNNƏTDİR**!

***Kəmalə CƏFƏRZADƏ***

# Ş E İ R L Ə R

## BİLMİRƏM

Gecələr uzundur, havalar soyuq,
Düşünüb sabahı yata bilmirəm.
Qapılar bağlıdır, bəkçilər sayıq,
Düşmənim güclüdür, bata bilmirəm.

Burda rahatlıq yox heç bir insana,
Dərdü-qəm əlindən gəlmişəm cana,
Səadət dönübdür dəli ceyrana,
Qovuram, qovuram, tuta bilmirəm.

Sən alırsan din-imanın **Əhməd**in,
Nahaqdan tökürsən qanın Əhmədin,
İnan ki, alsan da canın Əhmədin,
Haqqı azadlığa sata bilmirəm.

***1948***

## ÖYRƏTMƏMİSƏN

Sən mənə heç zaman haqsızlığı
Zəhər tək içməyi öyrətməmisən.
Doğrudur, vermisən mənə qol-qanad,
Qəfəsdə uçmağı öyrətməmisən.

Qanunların məni dilənçi edib,
İxtiyar, azadlıq əlimdən gedib.
Hər vaxt igidliyi sən təlqin edib,
Meydandan qaçmağı öyrətməmisən.

**Əhməd** bir quludur vahid Allahın,
Başqa bir hökmü var gələn sabahın,
Sən özün heç vaxtı belə günahın
Üstündən keçməyi öyrətməmisən.

***1948***

## BİLMİRƏM

Bir saat deyil ki, ayrıldım səndən,
İyini özgədən ala bilmirəm.
Şad ol deyə xahiş edirlər məndən,
Sənsiz mən tarımı çala bilmirəm.

Duracaqlar keçib gedir yanımdan,
Kədərliyəm, mən bezmişəm canımdan,
Çox sevsəm də səni din-imanımdan,
Gedirəm burada qala bilmirəm.

**Əhməd bəy Əfqani** ayrıldı səndən,
Əfsuslar et, qardaş, ayrıldın məndən,
Ayıq ol, intiqam al sən düşməndən,
Gedirəm, burada qala bilmirəm.

***Mart 1948***

## KAĞIZ

Dərd-qəmini duyan olsa,
Göz yaşını silən olsa,
Gər qədrini bilən olsa,
Deyər din-imandı kağız.

İşin gedib yada düşsə,
Ah-amana, dada düşsə,

Məhkəməyə-zada düşsə,
Bil ki, ev yıxandı kağız.

Bir vərəqçin talanginən,
Atəşlərə qalanginən,
Əhməd deyir inanginən,
Təxti-Süleymandı kağız.

***1948***

## NƏDİR ÖLÜM?

Bahar gəlir, ömrüm gedir,
Coşqunluq cismim tərk edir,
İstəyirəm indi bilim,
Söylə, gülüm, nədir ölüm?

Ağrı tutub kürəyimi,
Vərəm alıb ürəyimi,
İstəyirəm indi bilim,
Söylə, gülüm, nədir ölüm?

O qıvraqlıq yoxdu məndə,
Taqət qalmayıb bədəndə,
İstəyirəm indi bilim,
Söylə, gülüm, nədir ölüm?

Düzgün axmır mənim qanım,
Üzülübdür yazıq canım,
İstəyirəm indi bilim,
Söylə, gülüm, nədir ölüm?

Kimdir məni dərdə salan?
Hüququmu əldən alan?

İstəyirəm indi bilim,
Söylə, gülüm, nədir ölüm?

Yazıq **Əhməd** gül tək solur,
Hər dəqiqə, hər gün ölür,
İstəyirəm indi bilim,
Söylə, gülüm, nədir ölüm?

***1948 - Bakı***

## İYİRMİ YAŞIM

Bu gün tamam olur iyirmi yaşım,
Fəqət bircə kimsə yoxdur yanımda.
Doğrudur sübhü-şam ağrıyır başım,
Qalmayıbdı dəxi taqət canımda.

Bəzən fikr eyləyib söyləyirəm mən,
Nə üçün həyatda gün görməmişəm,
Bu cürlə yüz il də yaşaramsa mən,
Yenə də deyəcəm gün görməmişəm.

Nə hüquq var, nə ixtiyar – azadlıq,
Hər yerdə qurulub min dürlü zindan.
Hər yerdə matəm var, olunmaz şadlıq,
Quru yer üstündə tapşırılır can.

İndi ki, həyatda görməyəcəm gün,
Tez yetiş Əzrayıl, tez yetiş ölüm!
Bu qoca dünyada yoxdur səadət,
Barı mən qəbirdə azadlıq görüm.

Məni el dərdidir qüssələndirən,
Doğrudan ən yaxşı yerdir bu məzar!
Burada **Əhmədi** kədərləndirən
Tezliklə onunçün bir qəbir qazar.

***14 yanvar 1949 – Daşkəsən***

## SƏHƏR BİR DƏ GƏLMƏSİN

Cavan vaxtı dönüb baxdım, gəlib düşdüm bu qürbətə,
Mən ki, tamam biganəyəm buradakı cəmiyyətə.
Bir yerdə ki, etmək olmur təsadüf insaniyyətə,
Getsin burdan gün də, ay da, səhər bir də gəlməsin,
Mənim məhbus olduğumu bu zalımlar bilməsin.

Keçdi ömrüm bu zindanda, işim düşdü bu müşkülə,
Dostlar yıxdı atam evin, lap üzümə gülə-gülə,
Bir yerdə ki, hörmət yoxdur nə qəribə, nə bülbülə,
Çöksün bura qara duman, ulduz belə gəlməsin,
Varlığımı dünyadakı bu zalımlar bilməsin.

Saniyələr ilə dönür, dəqiqələr bir əsr olur,
Burda keçən ömrüm mənim varaq-varaq indi solur,
Baxıb buna yazıq **Əhməd** səbr etməyib, başın yolur,
Ey mələkə, ört pərdəni, səhər bir də gəlməsin,
Mənim əsir olduğumu bu zalımlar bilməsin.

***Yanvar 1949 – Daşkəsən***

## GƏLMƏZ İDİM

Bilsəydim həyatın budur mənası,
Kağız üstündədir qanun əsası,
Bilsəydim həmişə tutacam yası,
Heç vaxtı cahana mən gəlməz idim.

Bilsəydim oynayıb, süzməyəcəyəm,
Həyat bağçasından gül üzməyəcəyəm,
Bilsəydim azdə bir gəzməyəcəyəm,
Heç vaxtı cahana mən gəlməz idim.

Bilsəydim tökəcəm daim göz yaşım,
Görə bilməyəcəm qohum-qardaşım,
Bilsəydim divara döyəcəm başım,
Heç vaxtı cahana mən gəlməz idim.

Öz adım **Əhməd**dir, vətənim Şirvan,
Sübhü-şam çəkirəm ah ilə əfqan.
Bilsəydim zindanda verəcəyəm can,
Heç vaxtı cahana mən gəlməz idim.

***26 iyun 1950***

## ƏYİLMƏRƏM MƏN

Bəsdir yağı düşman, incitmə məni,
Başım vüqarlıdır, əyilmərəm mən.
Burma qollarımı, vurma başıma,
Könül qubarlıdır, əyilmərəm mən.

İstər öldür məni, istər kəs məni,
İstər azad eylə, istər as məni,
Qaranlıq zindanə istər bas məni,
Yumruğum karlıdır, əyilmərəm mən.

İstər burax məni, istər tut məni,
İstər hər bir kəsdən əziz tut məni,
İstər zindanlarda sən çürüt məni,
Dodağım barlıdır, əyilmərəm mən.

İstər saxla məni, istər at məni,
İstər bir quruşa yada sat məni,
**Əhməd**əm, istərsən qula qat məni,
Ürək ah-zarlıdır, əyilmərəm mən.

***06.08.1950***

## YUSİF

Məni bu zindanə necə salmısan?
Görüm ki, təxtini çönsün, ay Yusif[1].
Söylə, hüququmu niyə almısan?
Dövranın tərsinə dönsün, ay Yusif.

Sən ağa etmisən mənə yağını,
Artırırsan yenə sinə dağını,
Sən söndürdün mənim şam çırağımı,
Atanın çırağı sönsün, a Yusif.

Azadlıq nə şeydir mən bilməmişəm,
Ağlayıb göz yaşın mən silməmişəm.
Ömrümdə bir dəfə mən gülməmişəm,
Deməərəm bir dəfə gülsün o Yusif.

Adım **Əhmədağa**, vətənim Şirvan,
Cavankən məskənim olmuş bu zindan.
Çəkibən ürəkdən min ahü-fəğan,
Deyirəm tezliklə ölsün o Yusif.

***24.03.1950***

[1] Yusif – İosif Stalin

## OLSUN

Məni bu dərdə salan dərdə giriftar olsun,
Yatdığı isti yataqlar dönübən qar olsun.

Gül idim vaxtsız ikən çaldı məni bağçamdan,
Deyirəm bari ilahi, onu tez xar olsun.

Sındırıb qol-qanadım aldı məni xanəmdən,
Görüm, ey həqqim, onun yurdu tarü-mar olsun.

Axıdıb göz yaşımı həzz aldı naləmdən,
Gün ola tezlik ilə öz işi ah-zar olsun.

Öldürür mən yazığı zülm ilə zindanlarda,
Görməsin molla üzü meyyidi, murdar olsun.

Heyif ki, dərdlər üzür mən fəqiri-nalani,
Ölməsin **Əhmədağa**, dünyalarca var olsun.

***23.10.1950***

***Tək kamerada oturarkən yazılmış bir neçə şeir***

## AY BACIM!

Sən bilirsən, bir azadlıq ucundan
Mən düşmüşəm bu zindana, ay bacım.
Ağlayıram, eşidən yox səsimi,
Mən qalmışam yana-yana, ay bacım.

Üzülmüşəm, xəyal kimi gəzirəm,
Fikr eyləyib ürəyimi üzürəm,

Hər təhqirə, əziyyətə dözürəm,
Dərdim dönüb bir ümmana, ay bacım.

Nə oğru olmuşam, nə də ki, cani,
Salınmışam bura, ədalət hanı?
Qardaş etibarsız, dost-aşna fani,
Nə pis imiş bu zamana, ay bacım.

Yoxdur güman nicatıma, bilirəm,
Gələcək günümü aşkar görürəm,
Hər dəqiqə, hər saniyə ölürəm,
Ürəyim dönübdür qana, ay bacım.

Dözülməz ağrılar tutur başımdan,
Qocalmışam iyirmi iki yaşımdan,
Coşğun çay yaranar axan yaşımdan,
İnan ki, doymuşam cana, ay bacım.

Sinəm başın qara duman alacaq,
Bəxtim məni zindanlara salacaq,
Özüm tez öləcəm, adım qalacaq,
Ümidim yox bir insana, ay bacım.

Kədərliyəm, ürəyimi dağlaram,
Dərdim üstə əlli düyün bağlaram,
Mən **Əhməd**əm, gecə-gündüz ağlaram,
Yadıma düşübdür ana, ay bacım.

***11.07.1950***

## YUXU GÖRÜRƏM

Göz gəzdirib dörd çevrəmə baxanda,
Elə bilirəm ki, yuxu görürəm.
Dövran məni yandıranda, yaxanda,
Elə bilirəm ki, yuxu görürəm.

Yad ağalar biz bədbəxti döyəndə,
Yazıq millət qara çörək yeyəndə,
Cahil natiq - «biz azadıq» - deyəndə,
Elə bilirəm ki, yuxu görürəm.

Belə zülüm yoxdur Hindü, Ədəndə,
Günah çox Hadini bizdən edəndə,
Nəbati, Məhsəti bizdən gedəndə,
Elə bilirəm ki, yuxu görürəm.

Aldadıb soyurlar el-camaatı,
Min ölüm gətirir günün saatı,
Hambal kimi işlədirlər soldatı,
Elə bilirəm ki, yuxu görürəm.

Daxildə matəm var, çöl toy-büsatı,
Quruyub **Əhməd**in qalmadı matı,
Deyəndə azaddır el mətbuatı,
Elə bilirəm ki, yuxu görürəm.

***17.06.1950***

## İXTİYARIMI

Bəsdir saxladığın, ay yağı düşman,
Qaytar tez aldığın ixtiyarımı,
Yaşaya bilmirəm mən belə, tez ver,
Zor ilə çaldığın ixtiyarımı.

Vurursan neştəri qara gözümə,
Etibar etmirsən doğru sözümə,
Rəhm et bircə mənə, qaytar özümə
Zindana saldığın ixtiyarımı.

**Əhmədağa** üçün məhbəsdir bu yer,
İnsafsızlıq etdi bu zaman, bu devr,
Taxtın tarac olsun, tez özümə ver
Sahibi olduğun ixtiyarımı.

***25.06.1950***

## AĞLAMAQDAN

Könül deyir: tökmə gözün yaşını,
Aşmayacaq burda kar ağlamaqdan.
Tutular ayağın, üzülər canın,
Özün eləyərsən ar ağlamaqdan.

Gözün görməz, qulaqların kar olar,
Ölərsən, yoldaşın muri[1] mar[2] olar.
Bu gen dünya onda sənə dar olar,
Bir gülsən, olarsan xar ağlamaqdan.

Kömək etməz sənə molla, qazılar,
Yollarına atlı kazak düzülər,
Tamami tərsinə dönər yazılar,
Qara saçın olar qar ağlamaqdan.

Ürəyinə yüz min yarə vurular,
Söz qoşub səninçin ağlar qarılar,

---

[1] Mur-qarışqa.
[2] Mar- ilan.

Uca yerdə dar ağacı qurular,
Ey **Əhməd**, yaxşıdır dar ağlamaqdan.

***28.06.1950***

## DÜŞMƏZDİM

Əgər yatmazdısa baxtım, gəlib zindanə düşməzdim,
Vurub, incitməmiş bir şəxs, nahaqdan qanə düşməzdim.

Zəhər olmazdısa sözlər, tutulmaz idisə dizlər,
Görərdisə qara gözlər, qəmi-ümmanə düşməzdim.

Adım gəzməzdisə dildə, dolaşmazdımsa hər feldə,
Gecə-gündüz qalıb çöldə, qara, leysanə düşməzdim.

Qurtarmaz idisə nəqlim[1], ah-vay olmazdısa şüğlim[2],
Əgər qalsa idi əqlim, belə hicranə düşməzdim.

**Əhməd** olmazdısa cahil, əqil versəydi bir aqil,
Azadlıqçın olub sail, dəxi hər yanə düşməzdim.

***29.06.1950***

* * *

Təbiət çıxdığı vaxtda tamami qış libasından,
Yazıq bülbül gəlib şurə, deyir eşqin səfasından.

Alırlar məhbubun əldən, salırlar yazığı dildən,
O da ar etməyib eldən, deyir öz saf vəfasından.

Yazıq insanə aldanma, onu çox da avam sanma,
Daha keçmiş ola yanma, oxu cövrü-cəfasından.

---

[1] Nəql- bir yerdən başqa yerə köçmə, daşınma, yerini dəyişmə, rəvayət, nağıl.
[2] Şuğl- iş, məşğuliyyət.

Cahanda etibar yoxdur, qəmu-dərdü-bəla çoxdur,
Yenə aclar gözü toxdur, o da abru-həyasından.

Baxırsan hər tərəf qandır, qıran insanı insandır,
Gözəl bülbül bir az yan dur qara qartal balasından.

Yazıq **Əhməd** olub məhbus, gecə-gündüz durur məyus,
Vururlar, söyləyirlər – sus, demə dövrün bəlasından.

***28.07.1950***

## MƏNİ

Qara baxtım yenə də saldı bu zindanə məni,
Oldu bir şəm özü, eylədi pərvanə məni.

Vurdular sinəmə yarə, biri kar eyləmədi,
Öldürür söz yarası, çatdırın Loğmanə məni.

Gör necə döndü zəmanə, məni atdı qohumum,
Yığılıb düşmənlərim saldı bu böhtanə məni.

Bir zaman hüsn elinə adili-sultan mən idim,
Hər görən oxşadırdı Yusifi-Kənanə məni.

Neyləyim ki, cavanam, dünyadan kam almamışam,
Əzrayıl ilə fələk saldılar fərmanə məni.

Həsrətindən yarımın Məcnuna döndüm, inanın,
Gəlsə bizlər tərəfə kəsdirin qurbanə məni.

Dərdli **Əhmədağa** söylər ki, yaman oldu halım,
Qorxuram atalar bir dərin ümmanə məni.

***31.07.1950***

## QALMAYIB

Öldürürsənsə, tez ol, bil ki, amanım qalmayıb,
Çıxmağa burdan, inan, bir də gümanım qalmayıb.

Xeyli vaxtdır əsirəm, hər gün, hər saat ölürəm,
Sən də təxir eləmə tabu təvanım qalmayıb.

El mənə tənə edib söyləyir səbr et hələ sən,
Bilirəm kim ölüyəm, mənim zamanım qalmayıb.

Ölməyi fərz bilib ağlayır **Əhmədağa** da,
Nə hüququm var, dilim, dinü-imanım qalmayıb.

***03.08.1950***

## CAN SEVGİLİM

Dərd məni əldən salır, durma yetiş, can sevgilim,
Mahi-rüxsarim solub, oldu ürək qan, sevgilim.

Durma, gəl, mən aşiqin dərdü əlacı səndədir,
Ölməz idim mən, inan, öldürdü hicran, sevgilim.

Olmusan bir şəm, mən pərvanəni yandırma çox,
El gülüb tən eyləyər, düşmandı dövran, sevgilim.

Yüz təbib gəlsə bu gün bircə əlac olmaz mənə,
Üstümə bir sən gəl, ey həkimi-Loğman sevgilim.

Son nəfəsdir çəkirəm, **Əhmədi**-zarəm, deyirəm,
Həsrətindən gör ölür mən kimi insan, sevgilim.

***08.08.1950***

## AZADLIQ HİSSİ

Qəlbimdə bir hiss var, vermir rahatlıq,
Sərbəst buraxmayır məni bir anlıq.

Söyləyir: sahibim, dayanma, durma,
Zalimlər önündə boynunu burma.

Yaraşmayır sənin dağ vüqarına,
Zindanda çürümək gəlsin arına.

Dedim: bu iş üçün yoxdur qüvvətim,
Nə bir silahım var, nə cəsarətim.

Söylədi: nə ağla, nə də ki, inlə,
Ancaq mən fəqiri yaxşıca dinlə.

Azadlıq hissiyəm, gəl məni tanı,
Sənə mən verirəm hər yerdə canı.

Kim desə, yalandır, dünyada heç kəs
Azadlıq hissini məhv edə bilməz.

O hissdən olarsa qəlbində sənin,
Olmazsan əsiri dərdü-qüssənin.

Onu məhv edəməz nə boran, nə qar,
Nə axan göz yaşı, nə də ahü-zar.

Onu sarsıdamaz nə ağır zindan,
Nə nakam məhəbbət, nə də ki, zaman.

O hissin qüvvəti bir yekə dağdır,
O hiss ölənədək yaşayacaqdır.

O hiss nə qədər ki, qəlbində sağdır,
O səni hər yerdən qurtaracaqdır.

***10.09.1950***

## BU GÜN

Dərd əlindən inanın gəlmişəm əfqanə bu gün,
Olmuşam tərki-vətən, düşmüşəm hər yanə bu gün.

Mənə min qəbr əzabı versə də sağlıqda zaman,
Vüqarım Qaf kimidir, əymərəm dövranə bu gün.

Məni bir cüzi hüquqdan belə məhrum elədi,
Sındırıb qol-qanadım tulladı zindanə bu gün.

Bağladı gözlərimi, qoymadı dünyaya baxam,
Qəflətən tutdu məni, vurmadı mərdanə bu gün.

Mən dedim: haqqımı ver, dartdı qopartdı dilimi,
Dəlidir – söyləyərək qatdı hər insanə məni.

Demə, **Əhmədağa** bundan sonra lap lal olacaq,
Bil ki, çox səhv elədin, bənzərəm aslanə bu gün.

***30.09.1950***

## AL BU NAMƏNİ

Canım sənə qurban, ay kəndli qardaş,
Getmə, ayaq saxla, al bu naməni.
Sübhü-şam gözümdən axır qanlı yaş,
Getmə ayaq saxla, al bu naməni.

Deyirsən gəlirəm Şirvan elindən,
Nişanım var qonçasından, gülündən,
Qoy bir öpüm ayağından, əlindən,
Getmə, ayaq saxla, al bu naməni.

Bu bir namə deyil, bir vəsiyyətdir,
Zindanda çəkdiyim cövrü-zillətdir,
Heç açıb oxuma, bir müsibətdir,
Getmə ayaq saxla, al bu naməni.

Yazmışam burada il həsrətindən,
Bülbül həsrətindən, gül həsrətindən,
Müxtəsər yazmışam el həsrətindən,
Getmə ayaq saxla, al bu naməni.

Yazmışam bircə söz doğma qardaşa,
Məndən kənar gəzən o qəlbi daşa,
O məni atsa da mən derəm yaşa,
Getmə ayaq saxla, al bu naməni.

Məni basdırsınlar Tağlı yerində,
İki düzənliyin bağlı yerində,
Köhnə qəbristanın dağlı yerində,
Getmə, ayaq saxla, al bu naməni.

Üstümə qoyulsun bir yazılı daş,
Görənlər şur ilə tökə qanlı yaş,
Öldü **Əhməd** adlı bir cavan qardaş,
Getmə, ayaq saxla, al bu naməni.

***24.10.1950***

*Mən bundan çox mütəəssir oldumsa da, yenə də o yan bu yanda ilişib qalanları və xəyalımda qalanları yenidən bura köçürtməyə çalışdım.*

***Ə.Cəfərzadə***

***Bu yazılar itmişdi. Yadımda qalanı yenidən yazıram.***

## ƏN ACI ŞEY

Bir sabah bir uşaq yanaşıb həmən,
Dedi ki, bağışla, öyrənirəm mən.
Bir qədər fikirləş, yaxşı sal yada,
Ən acı şey olan nədir dünyada?
Müəllim sorurkən həmin sualı,
Nə cavab verdimsə, dəyişdi halı,
Başladım saymağa: natrium, iprit,..
Eşitcək bunları dedi: haydı, get!
Sonra da baxaraq mənə qıyqacı,
Dedi çox şey vardır bunlardan acı.
Doğrusu, çox gəzdim mən kitabları,
Acı şey adında gördüm onları.
Başqa adamlardan sordumsa da mən,
Həmin o kəlməni eşitdim eynən.
İltifat eyləyib söylə görüm, bəs
Ən acı şey nədir? Bilmirmi bir kəs?
Baxıb bir özümə, bir də uşağa,
Ölgün nəzərimi dikdim uzağa,
Dedim ki, unutma, hər gün sal yada,
Həqiqət – ən acı şeydir dünyada.

***İyun 1951***

***1951-ci ilin avqust ayında yazılmış bu yazı itmişdir.***

Çal bu gün tar-qavalı mən sənə mehman oluram,
Müşki-əmbər telinin ətrinə qurban oluram.

Feyzi qılsan məni sən seyr eləməkdən özünə,
İltimas et, ölürəm, mən yenidən can oluram.

***22.07.1951***

* * *

Bir fəlakətdəyəm, viranələrdir məskənim,
Sübhü-şam qan ağlaram, bayquşlar olmuş həmdəmim.

Mən fəqirü-bikəsəm, döndərmişəm aləmdən üz,
Qərq olub bəhri-qəmə tənha üzə miskin gəmim.

Cəngidə məğlub olub, öz taleyimdən küsmüşəm,
Bəndi çox, imdadi yox, getmiş dəxi şöhrət-şənim.

Quş kimi pərvaz edib göylərdə uçmaq istərəm,
Leyki sınmış balu-pər, kəcro fələklərdir qənim.

Dostların tərk etdiyi tənha gəzən **Əfqani**yəm,
İstərəm səndən ölüm,ləngitmə, ey həqqim mənim.

***1954***

* * *

Miskinəm, rəncidəyəm, cümlə-cahandan küsmüşəm,
Məhbusam, zindaniyəm, mülki-virandan küsmüşəm.

Sübhü-şam əfqan edib şur ilə hər dəm ağlaram,
Gəlmişəm zinharə mən, ahü-fəğandan küsmüşəm.

Hakimi-Loğman ilə bilməm nədən olduq qəni,
Tairi-ülviyyətəm, mən asimandan küsmüşəm.

Bir xərab olmuş bağam, hər yarpağım qan ağlayır,
Dinü-dil tərk eyləyib ali-Qurandan küsmüşəm.

Hər bəla aləmdə var mənlə rəfiq olmaq dilər,
Dostlarım döndərdi üz, qəlbim qırandan küsmüşəm.

Bir zaman meydan sürüb yar ilə xəlvət istədim,
İndi də sail mənəm, oxdan, kamandan küsmüşəm.

Ey fələk! Neyçin mənim **Əfqani** etdin namımı,
İstərəm həqdən ölüm, cismilə candan küsmüşəm.

***1954***

* * *

Bir bağam yarpaqlarım vəxtsiz ikən solmaqdadır,
Qəlbimə hədsiz kədər, qəm, qüssələr dolmaqdadır.

Növbahar əyyamıdır aləm geyib güldən libas,
Tək mənim örtüm qara, könlüm viran olmaqdadır.

***1954***

* * *

Kəs mənimlə ülfəti, mən bir fəqir zindaniyəm,
Bivəfa dünyamızın Məcnun misal mehmaniyəm.

Gərdişi-dövran bu gün yüz min bəla vermiş mənə,
Miskinəm, rəncidəyəm, dövranımın düşmaniyəm.

Bir müharib şəxs idim, cəngimdə məğlub olmuşam,
Əymərəm əsla başım, azadlığın qurbaniyəm.

Gülşənim solmuş tamam, bayquşlar olmuş həmdəmim,
Mən bu tapdaq ölkənin hər küncünün sultaniyəm.

Sorma kim ismim nədir, batmış tamam şöhrət-şənim,
Taleyin sızlatdığı qan ağlayan **Əfqani**yəm.

***1954***

* * *

Kəs mənimlə ülfəti, mən bir fəqir zindanəyəm,[1]
Bivəfa dünyamızın Məcnun misal mehmaniyəm.

Gərdişi-dövran bu gün yüz min bəla vermiş mənə,
Miskinəm, rəncidəyəm, dövranımın düşmaniyəm.

Öylə zənn etmə bu gün zərrə peşiman olmuşam,
Zərrəcə xövf etmərəm, azadlığın qurbaniyəm.

Günbəgün artar qəmim, viranələr küncündəyəm,
Mən könüllər məlhəmi, Azərbaycan tərlaniyəm.

Bir xərab olmuş bağam, hər yarpağım qan ağlayır,
Hansı gün azad olam, bax ol günün ehsaniyəm.

Sorma kim namim nədir, getmiş əlimdən adü-san,
Mən bu bədbəxt ölkədə məhbus ölən **Əfqani**yəm.

* * *

Bir fəlakətdəyəm, viranələrdir məskənim,[2]
Sübhü-şam qan ağlaram, bayquşlar olmuş həmdəmim.

Gərdişi-dövran bu gün rəncur edib mən miskini,
Qərq olub bəhri-qəmə tənha üzən yekta gəmim.

---

[1] 2-ci variant
[2] 2-ci variant

Sailəm, azadlığım pay istərəm hər kimsədən,
Günbəgün əfzun olur göz yaşlarım, dərdim, qəmim.

Bir günah işlətmədən məhbusə çevrildim nədən,
Qalmışam zindanidə, kəcro fələklərdir qənim.

Hakimi-dövran mənə zülm eyləyir, ey həqq nədən?
Bilmədim axir nədir dövran ilə üzrüm mənim.

El bilir elm əhliyəm, **Əfqani**dir namim, fəqət,
Öylə bir əyyamidir, keçmir mənim elmim, çəmim.

## GÖRÜNÜR

Baxıram aləm ara, hər tərəf al qan görünür,
Kəndlərin, şəhrilərin cümləsi viran görünür.

O qədər matəm edib dərdü bəla çəkdi könül,
Gənc ikən saç ağarıb surəti-piran görünür.

Çəkdirib cövrü-cəfa Rusiya biçarələrə,
Leyk[1] çox gec ayılıb indi peşiman görünür.

Əski qanunları bir qeyri şəkillərdə verir,
Yazdığı cümləsinin hər sözü böhtan görünür.

Olsa da günlərimin hər biri bir fəsli-bahar,
Yenə də gözlərimə Rusiya düşman görünür.

Miskin **Əfqani** kimi çoxları qürbətdə ölür,
Çünki hər bir meşədə yüz cürə zindan görünür.

***15.06.1956***

[1] Leyk – lakin, ancaq, amma.

## QƏM DÜNYASI

Sənə üz tutanda haq, ya nahaq,
Hamı söyləyir ki, «ey adil Allah».
Doğrusu düşmürəm bu şeyi başa,
Xaliqim, təkmisən, yoxsa ki, qoşa?

Kimə ki, vermisən sim ilə zəri,
Onda yox səxanın, rəhmin əsəri.
Kimə ki, kəramət etmisən səxa,
Onun simü zəri çıxıbdı yoxa.

Əgər «vahid»sənsə bütün dünyada,
Neçin ömrümüzü verirsən bada?
Əgər «vaqif»sənsə cümlə cahanda
Neçin çəkdirirsən cürmü insana?

Əgər «kərim» isən kəramət eylə,
Əgər «rəhim» isən mərhəmət eylə,
Əgər «sabit»sənsə neçin böylə sən
Mövcud cəmiyyəti dəyişdirmirsən?

Əgər «şamil»sənsə fikrim bilirsən,
Əgər «kamil»sənsə neçin gülürsən?
Sən «sabir» olsan da, tükəndi səbrim,
Ya ver yaşayışım, ya da ki, qəbrim.

Əgər «adil»sənsə göstər ədlini,
Apar yer üzündən insan qətlini.
Əgər «qadir»sənsə zülmə ver xitam,
Əfqan ağlamasın hər səhər-axşam.

***03.02.1957***

## DƏRDLI KÖNLÜM

Dərdli könlüm, çox nalələr edirdin,
«Azad» oldun, kəsildimi ah-zarın?
İllər boyu arzulardın görməyə,
Yoxladınmı vəfasını dostların?

Kim deyir ki, həqiqətə güman var?
Ədalət var, yıxılana aman var?
Qayıtdığın indi xeyli zaman var,
Görmədinmi əməlini çoxların?

İndi neçin kədər almış üzünü?
Nədən tez-tez silməkdəsən gözünü?
Qorxursan ki, danışanda düzünü,
Zəncir ilə bağlayalar qolların?

Əgər miskin **Əfqani**sən utanma,
Təhqirlərdən, həbslərdən usanma.
Qaldır eli üsyanlara, dayanma,
Diqqət elə açılıbdır yolların.

***15.03.1957***

* * *

Dostlarım, uçsaq əgər qarşıdakı cənnətə biz,
Çatarıq orda olan bir əbədi nemətə biz.

Görərik sabiti[1] kim saqit[2] edir aləmdə,
Sonra qalib gələrik dəhrdəki[3] zülmətə biz.

---

[1] Sabit – yerində möhkəm duran, təsdiq edilmiş, tərpənməz kimi görünən ulduz.
[2] Saqit – hökmdən düşmüş, etibarını itirmiş, süqut etmiş.
[3] Dəhr – Dünya, cahan, aləm.

İşdi, tapsaq orada haqq-ədalət yaşayır,
Qayıdıb xeyir xəbər söyləyərik xilqətə biz.

Bu necə dövridi ki, zülmü bəla həddən aşıb,
Qorxuruq söyləməyə sirr sözü millətə biz.

Qəlbdə ah çəkir, üzdəsə alqış edirik,
Dönmüşük cansız olan, sadə, zəif alətə biz.

Miskin **Əfqani**, tələs, topla bütün qüvvələri,
Vaxt çatıb birdəfəlik son qoyarıq zillətə biz.

***03.04.1957***

* * *

Zimistan oldu səhralar mənim dərdü-fəqanımdan,
Geyindi qarə dünyalar mənim ahü amanımdan.

Yanır qəlbim, dilim parə, nədəndir geymişəm qarə,
Edən yox dərdimə çarə mənim mülki-viranımdan.

Çalışdım sübhi, axşami, unutdum məclisi-cami,
Birr[1] almaq olmadı kim mənim müdhiş zamanımdan.

Sanırlar şəklidə gəncəm, bəladır yalnız əyləncəm,
Bol olmuş rəncü işgəncəm mənim yersiz gümanımdan.

Gözüm çox tökdü yaş qani xilas etməkçin insani,
Köçür biçarə **Əfqani** mənim tapdaq məkanımdan.

***13.05.1957***

[1] Birr – yaxşı iş.

* * *

Sərvi-qəddim əyilib nun olacaqmış, nə bilim,
Gül dodaq, lalə yanaq tez solacaqmış, nə bilim.

Qafil uçmuş yuvadan can evimin sərdari,
Tərlanın oylağına sar[1] dolacaqmış, nə bilim.

Ey mənə tən eləyən, yoxdu qərarım billah,
Sən tutan cəbhəni əğyar alacaqmış, nə bilim.

Könlümün hakimi heç duymayacaqmış ürəyim,
Miskin **Əfqani** də miskin qalacaqmış, nə bilim.

***dekabr 1957***

* * *

O saat soruşur məni görənlər,
Bu gözəllik ilə haralıyam mən.
Təəccüb etməyin qəti, a dostlar,
Həmin bu dağların maralıyam mən.

Dodağım qonçadır, yanağım lala,
Dilim müsavidir[2] qənd ilə bala,
Gözlərim istəyir aləmi çala,
Baxışları qanlı-qadalıyam mən.

Boyum sərv kimi, qaşlarım kaman,
Aşiqlər hicrimdə çəkir ah-aman,
Mənim tək gözəli yetirməz zaman,
Məhəbbət oxundan yaralıyam mən.

---

[1] Sar- sığırçın.
[2] Müsavi- bərabər, tən.

Qucaqla belimi, öp dodağımı,
Lalə tək qızaran gül yanağımı.
**Əfqani**, öpərkən ağ buxağımı,
Bil ki, çox incitsən, saralıyam mən.

***1948.***

* * *

Eşit mənim harayımı, ey sevgilim, sən,
Gözüm yolda, qulaqlarım səsdədir mənim.
Könül mülkün bürüyübdür duman ilə çən,
Xərabələr olmuş idi məskənim mənim.
Əgər qəlbən sevirsənsə eli, vətəni,
Al tüfəngi, vur düşməni, xilas et məni.

Günəş bizdən üz döndərib, görünmür Ay da,
Dərd əlindən quruyubdur bulaq da, çay da,
Günlər keçir ah-nalədə, fəqanda, vayda,
Gözləyirəm, ey sevgilim, səni bu ayda,
Əgər görmək istəyirsən gülü, gülşəni,
İnam topla, vur düşməni, xilas et məni.

Qoy itilsin qarı düşmən eldən, obadan,
Tikək uçan şəhərləri edək abadan,
Müjdə alaq xoş xəbəri badi-səbadan,
Yoxsa tüfəng, al əlinə beldən, yabadan,
Qoy ölkəmiz olsun tamam bülbül məskəni,
Qoçaqlıq et, vur düşməni, gəl apar məni.

Vətənimiz başdan-başa laləzar olsun,
Hər guşəsi çiçək açmış bir bahar olsun.
Ölkəmizdə nə bir duman, nə də qar olsun,
Qarı düşmən məhv edilsin, tarimar olsun,

Xainlərdən azad elə doğma ölkəni,
Ey sevgilim, vur düşməni, gəl apar məni.

Nə müddətdir bilirsən ki, zindandayam mən,
Axıdıram göz yaşlarım, əfqandayam mən.
Öz həsrətli qardaşıma qurbandayam mən,
Bütün aləm bilsin yerim virandayam mən,
Nə yalvarma, nə əyilmə, topla qüvvəni,
İgid oğlan, hünər göstər, gəl apar məni.

***1954.***

## SEVDİYİM MƏNİM

Bu zillət içində sevmişəm səni,
Bilməm nə insansan, sevdiyim mənim.
Dilim təkrar edir hər an adını,
Cismimdəki qansan, sevdiyim mənim.

Vurğunam daima gülən gözünə,
Az-az söylədiyin xəlvət sözünə,
İnan ki, deyərsən əgər düzünə,
Qəlbimə sultansan, sevdiyim mənim.

Bil ki, son günədək varam sözümdə,
Səbəbi nədirsə, bilməm özüm də,
Mənim nəzərimdə, mənim gözümdə,
Huriyi-qılmansan, sevdiyim mənim.

İndi ki, girmisən özgə bağına,
Baxma işin qarasına, ağına,
Nə zaman istəsən al qucağına,
Artıq hökmüransan, sevdiyim mənim.

Sübhədək sıxgınan incə belimdən,
Abi-kövsəri əm qəndab[1] dilimdən,
Öpüb gözlərimdən, yapış əlimdən,
**Əfqani**yə cansan, sevdiyim mənim.

***1949***

## EY DOST

Mən sənə canımı eylədim fəda,
Qədir-qiymətimi bilmədin, ey dost,
Verdim gənc ömrümü borana, bada,
Axan göz yaşımı silmədin, ey dost.

Hər gün ürəyimi döndərdin qana,
Əsla rəhm etmədin mən tək insana,
Eşqindən görmədim zərrə nişana,
Bircə danışmadın, gülmədin, ey dost.

Nədən **Əfqani**ni yandırdın oda,
Kimsə tapılmadı yetsin imdada,
Bir səni gözlərdim fani dünyada,
Əhdinə düz çıxıb gəlmədin, ey dost.

***1948***

* * *

Bilməm nə qismətdir Xudadan belə,
Bir kimsə olmayır həmzəban[2] mənə.
Hər kimi qəlbidən eşq ilə sevəm,
Ayrılıq üz verir tez zaman mənə.

---

[1] Qəndab – şərbət, qənd şərbəti.
[2] Həmzəban- həmfikir, dilbir, bir dildə danışan.

Kimin sinəsinə qoyam başımı,
Fikrilə axıdam qanlı yaşımı,
Kimlə ki, birlikdə yeyəm aşımı,
Yetişir yüz bəla, yüz fəqan mənə.

İndi də cananım getdi əlimdən,
Tutdu neçə ağrı başü belimdən,
Elə bil ayrıldım doğma elimdən,
Nələr çəkdirmədi bu zindan mənə.

O hər uf deyəndə yandı ürəyim,
O idi sirdaşım, arxam, köməyim,
Bitmədi istəyim, arzum, diləyim,
Min əziyyət verdi bu dövran mənə.

Mən səni hər anda salıram yada,
Bir sənsən sevdiyim fani dünyada,
Neynim, yalvarıram, gəlmir imdada
Nə İncil, nə Tövrat, nə Quran mənə.

Düşünmə, ağlama, fərağətcə yat,
Şənliklə kədəri bir-birinə qat,
Xuda özü sənə tez versin nicat,
Bəlkə onda ola bir dərman mənə.

O xəstə canına qurbanam özüm,
Sənindir ürəyim, sənindir sözüm,
Gecələr sübhədək ağladı gözüm,
Köməklik etmədi bir insan mənə.

Bilmirəm sözlərin doğrudur,yalan,
Bir sənsən həqiqi qəlbimi çalan,

Amma fərağət ol, əzizim, inan,
Düşməndir zəminü-asiman mənə.

İstəməm həsrətlə sazımı çalam,
Firavan həyatda gül kimi solam,
Əgər ki, səninlə birlikdə olam,
Yaxşıdır dağ, dərə, biyaban mənə.

Bil ki, sənə cani-dildən bağlıyam,
İllər xəstəsiyəm, sinə dağlıyam,
**Əfqani**yəm, vətənimin oğluyam,
Gədalər olubdur hökmüran mənə.

* * *

Gözəlim, rəhmə gəl, öldürmə məni,
Çünki bir gecəlik mehmanam sənə.
Ya öldür, ya incit, ya da əzizlə,
Bütün varlığımla qurbanam sənə.

Məni məftun edir şirin sözlərin,
İncə dodaqların, xumar gözlərin,
Adil xaqanısan günəşüzlərin,
Sən Züleyxa olsan, Kənanam sənə.

Zərrə fikr eyləyib geymə qaranı,
Yaxın bir zamanda qıllam çaranı,
Öpüb sağaldaram hər cür yaranı,
Əgər xəstəsənsə, loğmanam sənə.

Bu gündən qəlbidən bir peyman qılaq,
Hər cür şəraitdə mehriban qalaq,
Gərək azadlıqda daim dost olaq,
Dünyada vəfalı **Əfqan**am sənə.

***1948***

* * *

Mənə gün vermədi o zalım fələk,
Dövranım tərsinə döndü də getdi.
Gənc ikən günahsız düşdüm zindana,
Eşqim, arzularım söndü də getdi.

Artıq usanmışam böylə əzabdan,
Bir kimsə oyanmır qəfləti-xabdan,
Dərdlərim yazılsa, çoxdur kitabdan,
Qəlbim bu dünyadan sındı da getdi.

**Əfqan**am, dönmüşəm viranə bağa,
Nökərlər üstümdə olubdur ağa,
Qarşında qul kimi düşdüm torpağa,
Dağ kimi qürurum endi də getdi.

***1948***

## DOSTUM

Nədəndir bilmirəm xeyli zamandı,
Üzündə borandı, kədərdi, dostum.
Bu qədər inciyib etmə ahü-zar,
Çəkdiyin əziyyət hədərdi, dostum.

Nahaqdan uçurma körpünü, bəndi,
Səndən nə şeyx olmaz, nə də əfəndi,
Yaxşı bilirsənmiş hər cürə fəndi,
Bu da bir qəzavü-qədərdi, dostum.

Nə inciklik olub, nə də dəydi göz,
İstər qan-yaş axıt, istər isən döz.
Əgər ki, qəlbimiz desəydi bir söz,
Məhəbbət başadək gedərdi, dostum.

Tapmazsan dünyada mən kimi insan,
Sənə fəda etdim malü-mülkü-can,
Nə Məcnun, nə Fərhad, nə də ki, Sənan
**Əfqan**ın etdiyin edərdi, dostum.

***1947***

* * *

Soldurub gülşənimi, qəlbimi qan eyləmisən,
Gedibən başqa vilayətdə məkan eyləmisən,

Məni həsrətdə qoyub, qeyrisinə can demisən,
Sevgilim, diqqət elə, gör nə divan eyləmisən.

Gecə-gündüz yanıram hicr oduna, barı düşün,
Gör ki, sinəmdə mənim misli tufan eyləmisən.

***1948***

## GÖZÜNƏ SƏNİN

Baxanda üzünə hər aqil insan,
Aşiq olur qara gözünə sənin,
Leyli ilə Məcnun, Yusifi-Kənan,
Aşiq olur qara gözünə sənin.

Sənindir ən uca şöhrət, adi-san,
Aşiqlər qətlinə vermisən fərman.
Misirli Züleyxa, o canlar alan,
Aşiq olur qara gözünə sənin.

Saçların buruqdur, qaşların kaman,
Yanağın lalədir, kipriyin peykan,
Görüb bu surəti həkimi Loğman,
Aşiq olur qara gözünə sənin.

Ləblərin qiyməti ləli-badəxşan,
Əmən kəs onları, arzulamaz nan,
Yer üzündə olan hər dürlü insan
Aşiq olur qara gözünə sənin.

Sənsən gözəlliyə əbədi sultan,
Sənin tək gözəli yetirməz zaman,
Qrek Afrodita, bir də Süleyman
Aşiq olur qara gözünə sənin.

**Əhməd**in ürəyin eyləmisən qan,
Bu səndə adətdir sayılmasın man
Behişt ilə duzəx[1], zəmin, asiman
Aşiq olur qara gözünə sənin.

***10.06.1950***

## İNANMA

Dünyada ömr etsən min il də əgər,
Etibarı yoxdur, canə inanma.
Dünyanın xaqanı etsə də səni,
Nə ağaya, nə sultanə inanma.

Etibar eləmə vari-dövlətə,
Quru adi-sana, uca şöhrətə,
Səni çatdırsa da bu gün hörmətə,
Nahaq təxti-Süleymanə inanma.

Min fikir çəkərsən, düşüb firqətə,
Düşünmə, getməzsən daha cənnətə,
Aldanma öpüşə, uyma şəhvətə,
Gülərüzlü o cananə inanma.

[1] Duzəx – cəhənnəm.

Namərd ilə nanü-nəmək yemə sən,
Çün düşərsən vaxtsız dərdü-qəmə sən.
Sirr sözünü bir dostuna demə sən,
Bu dünyadə bir insanə inanma.

Solar lalə rəngin, üzündə qalmaz,
İndiki qığılcım gözündə qalmaz,
Desə ölüb çölün düzündə qalmaz,
Alimsə də, o Loğmanə inanma.

Dost-aşna sözünün cümləsi saxta,
Yiyələnmək olmur bir yaxşı baxta,
Səni yetirsə də tac ilə taxta,
Vəfasızdır, bu dövranə inanma.

**Əhməd** deyər hər söz mənə əyandır,
Gəl baxtımı bu qəflətdən oyandır,
Vermə ürəyini yara amandır,
Nə Leylayə, nə Kənanə inanma.

***20.06.1950***

## GƏRƏK OLSUN

Aqilsənsə əgər keç o sözdən vaz
İnsanlarda dövlət, var gərək olsun,
Bir qoçaqlıq ilə oğul tanınmaz,
İgidlərdə namus, ar gərək olsun.

Müxənnətin üzü heç vaxt ağ olmaz,
Ölər qarı düşmən, qəti sağ olmaz,
Bir meyvəylə heç bağçadan bağ olmaz,
Bağ olanda heyva, nar gərək olsun.

Ceyran kimi mən də çıxdım ovlağa,
Güzarim o vaxtı düşdü bir dağa,
Nər təpə oxşamaz gözəl yaylağa,
Yaylaqlarda duman, qar gərək olsun.

Dedikcə kədərli, ağırdır həyat,
Quruyub qurtarıb olur **Əhməd** mat,
Bir tütək, qavalla xoş keçməz büsat,
Şadlıqlarda kaman, tar gərək olsun.

***05.06.1950***

## YÜZ OLSUN

Dostluğmuzu pis mənayə yozurlar,
Necə eləyim ki, işlər düz olsun.
Ağzımı yoxuşa, dağa verirlər,
Bəs nə eləyim ki, yolum düz olsun.

Mən sənin uğrunda keçmişəm eldən,
Söyülüb, döyülüb, düşmüşəm dildən,
Mən ki, vurulmuşam sənə könüldən,
Danışan yüz kişi, yüz də qız olsun.

Əlifi lama, ini beyə qatmışam,
Əlifi, beyi, əlifi ora çatmışam,
Yolunda namusu, arı atmışam,
İstər belə sözü deyən yüz olsun.

Çoxdur indi kişiliyin bildirən,
Mənə ləkə vurub eli güldürən,
Bu **Əhmədağa**nı vaxtsız öldürən
İstər atəş olsun, istər buz olsun.

***20.06.1950***

## OLUR

Könül dersən mənim yüz qardaşım var,
Yaddan qardaş olmaz, quru ad olur,
Yolunda tapdığın qazancların qar,
Çovğun, boran olur, bir də bad olur.

Var günündə yeyib, geyib, içirlər,
Səni özlərinə sultan seçirlər,
Düşər gündə salam vermir, keçirlər,
Ac günündə qohum-qardaş yad olur.

Vaxtsız çiçək kimi sol, Əhmədağa,
Qocalıb bənzərsən viranə bağa,
Sən nökər olarsan, nökərin ağa,
Belə gündə düşmanların şad olur.

**Əfqani**yəm, dosta qurban mən oldum,
Olan aqil, yenə nadan mən oldum.
Axır gündə əhli-zindan mən oldum,
Belə gündə əğyar qəni şad olur.

***17.06.1950***

## DÜŞMÜŞƏM

Başına döndüyüm, ay əmioğlu,
Çərxi dönmüş yar əlinə düşmüşəm,
Mən deyim dərdimi say, əmioğlu,
Bir bülbüləm, sar əlinə düşmüşəm.

Pak bilməyir mənim abi-dəstimi,
Çəkməyir köksünə xoş nəfəsimi,

Fikr eyləyir, eşitməyir səsimi,
Qulaqları kar əlinə düşmüşəm.

Qoymayır öpüm o gül yanağından,
Zövq alım bir onun ağ buxağından,
Sorub bir kam alım bal dodağından,
Çox soyuqdur, qar əlinə düşmüşəm.

Bilmirəm rahibdir, yoxsa molladır,
Bir iyləyib mən tək gülü tulladı.
Çox söz verib mən **Əhmədi** aldadır,
Bil, agah ol, xar əlinə düşmüşəm.

***19.06.1950***

## İSTƏMƏ

Ay oğlan, kəsdirmə yol qırağını,
Sev yarını, qeyri cənnət istəmə.
Qucaqla belini, öp dodağını,
Sən Allahdan başqa nemət istəmə.

Gör, mayil ol kaman kimi qaşlara,
Müjgan kipriklərə, qara saçlara,
Rəhm eylə gözümdən axan yaşlara,
Özünə də ağır zəhmət istəmə.

Bütün bu dünyada var mənə hörmət,
Mənimdir ən ali, ən uca şöhrət,
Özüm şirvanlıyam, adım da **Əhməd**,
Sev yarı, həyatda zillət istəmə.

***21.06.1950***

## YAZILSIN

Soruşma mənim adım,
Yoxdur ağızda dadım,
Hər etdiyim fəryadım
Başdaşıma yazılsın.

Fəna keçdi həyatım,
Sındı qolum, qanadım,
İlk günüm, son saatım
Başdaşıma yazılsın.

Ölüb dostum, ustadım,
Solub günəş suratım,
Sudan təmiz, pak adım
Başdaşıma yazılsın.

Az güldüm, çox ağladım,
Yadlara bel bağladım,
Kədərli toy-büsatım
Başdaşıma yazılsın.

Getdi **Əhməd** səyyadım,
Mən də onu qarğadım,
Ən kədərli bayatım
Başdaşıma yazılsın.

***17.06.1950***

## MƏN OYNAYANDA

Dayanma, yorulma, yenə çal, aşıq,
Ellər olur heyran mən oynayanda.
Doğrudan bu elə mənəm yaraşıq,
Kəsilir yüz qurban mən oynayanda.

Məclislərdə ahu kimi gəzirəm,
Sona kimi çalxalanıb üzürəm,
Dövrə vurub tərlan kimi süzürəm,
Heyrət edir insan mən oynayanda.

Qollarımı əlli cürə bururam,
Rəqslərdə çoxlu hiylə qururam.
Tovlanıram, dırnaq üstə dururam,
Cəzb edib neçə can mən oynayanda.

**Əhməd** bir müddətlik burda solsa da,
Könül başın qara duman alsa da,
Məni görən axund, molla olsa da,
Olacaq biiman mən oynayanda.

* * *

Dayanma, yorulma, yenə çal, aşıq,[1]
Ellər olur heyran mən oynayanda.
Doğrudan bu elə mənəm yaraşıq,
Oluram bir qılman mən oynayanda.

Rəqslərdə çoxlu hiylə qururam,
Qollarımı əlli cürə bururam.
Cilvələnib tovuz kimi dururam,
Alıram neçə can mən oynayanda.

Məclislərdə kəklik kimi gəzirəm,
Aşiqlərin ürəyini üzürəm,
«Turacı»da səmalarda süzürəm,
Tökülür nahaq qan mən oynayanda.

---

[1] 2-ci variant

Fəqir **Əfqani**yəm, vətənim Şirvan,
Paylaram qəlbimdən aləmə ehsan.
İstər kafər olsun, istər müsəlman,
Olacaq biiman mən oynayanda.

***1950.***

## MƏNİ

Bir məşum saatda döndü dövranım,
Eylədi ürəyi sədparə məni.
Qurudu əllərim, tutuldu dilim,
O düçar elədi əğyarə məni.

Kündələr vuruldu mənim qoluma,
Zəncirlər tutuldu uzun yoluma,
Qarovul düzüldü sağü-soluma,
Cavankən etdilər günü qarə məni.

Bir dərin quyuda yaşayıram tək,
Həyatın mənası bu imiş gerçək,
Sındırdı könlümü insafsız fələk,
Qismət eləmədi dildarə məni.

Belə əziyyəti söylə, kim görüb?
Fikir, qüssə mən yazığı öldürüb.
Bir anlıq haqqımı özümə verib,
Sonra da hörsünlər divarə məni.

**Əhməd**əm, çıxıbdır ərşə ah-vayım,
Fürsət tapıb bu zindandan uçayım,
Bircə gün dünyada azad yaşayım,
Sonra qoy çəksinlər lap darə məni.

***26.06.1950***

## BU GECƏ

Çox fikr edib ağlamışam mən bu gün,
Ürəyim olubdu yarə bu gecə.
Tamami işlərim düşübdür düyün,
Son qoyacam ahü-zarə bu gecə.

Deyirəm mən burda azad dustağam,
Hələ ölməmişəm, ey düşmən, sağam,
Yüz ordu olsa da, qurtaracağam,
Yansam da atəşə-narə bu gecə.

Kədərliyəm, tar-qavalı çalmaram,
Bu günləri bir də yada salmaram.
Uçaram quş kimi, burda qalmaram,
Çəksələr də məni darə bu gecə.

Bu zülmü görməyib Hind ilə Əcəm,
Əlimdən gələni sənə edəcəm,
Qalmayıb burada yəqin gedəcəm,
Yer üzü geysə də qarə bu gecə.

Sübhə kimi ayaq üstə duracam,
Hər addımı min mənayə yozacam.
**Əhməd**əm, fikr edib, hiylə quracam,
Bu dərdə edəcəm çarə bu gecə.

## DÜNYADA

Gələndə dünyaya mənə dedilər,
Gərəkdir tələsib gəzəm dünyada.
Beşcə gün ömrün var, çalış çox iş gör,
Söz verdim bolluca gəzəm dünyada.

Qurtarıb zindandan atılcaq yerə,
O saat tutuldu cəmi bənd-bərə,
Anam tez sarıdı məni kəndirə,
Qoymadı oynayıb süzəm dünyada.

İllər keçdi oldum igid qəhrəman,
Qürbət eldə sevdim bir gözəl canan,
Zülfün zəncir etdi, sinəsin zindan,
Qoymadı bircə gül üzəm dünyada.

Çox keçmədi elə yayıldı adım,
Hər yanda səsləndi qəmli bayatım,
Tutub ətəyimdən körpə övladım,
Qoymadı bir kəlam düzəm dünyada.

Bir az keçdi, döndü zəhrə xoş sözüm,
Ağardı saçlarım, görmədi gözüm,
Qulağım kar oldu, tutuldu dizim,
Qoymadı bircə gün gəzəm dünyada.

Az sonra əqildən lap oldum zail,
**Əhməd**əm, hər şeyə mən oldum qail,
Vurdu çəngəlini ruhə Əzrail,
Qoymadı bircə gün gəzəm dünyada.

***17.07.1950***

## DÜŞDÜ

Ey məni yandıran hicrin oduna,
Bir söz dedin, ondan el şəkə düşdü.
Əvvəl ümid verdin, sonra çəkildin,
Bundan gül adıma bir ləkə düşdü.

Həsrətindən sənin mən oldum dəli,
Sübhü-şam yalvarıb çəkdim ya Əli,
Sənin gəlişindən lap üzdüm əli,
Amma ürəyimə səksəkə düşdü.

Gecə-gündüz tökdüm qanlı göz yaşı,
**Əhməd**əm, itirdim qohum-qardaşı,
Ya sən hiyləgərsən, ya da mən naşı,
İş anda, amana, məsləkə düşdü.

***26.07.1950***

***Orada yazılan başqa 14 şeir isə mən xəstəykən yandırılmışdır.***

***Dəlixanada qalarkən yazılmış bir neçə şeir.***

Gözəl günəş dörd dolandı bu dünyanı batmağa,
Yer tapmadı mənim kimi rahat olub yatmağa,
Əl atdım ki, ürəyimi qoparıban atmağa,
Dedim: könül, sən vəfasız, gün vəfasız, bəs hanı,
Könüllərin, diyarların əbədilik sultanı.

Bulud endi aşağıya, dünya oldu qaranlıq,
Bunu görcək komasına qaçıb girdi insanlıq.
Çox ağladım, göz yaşımı silib durdum bir anlıq,
Dedim: dünya, sən vəfasız, dost vəfasız, bəs hanı
Könüllərin, diyarların əbədilik sultanı.

Bir az keçdi rəqqasə Ay çıxdı göyün üzünə,
O öz solğun şəfəqini saldı çölün düzünə.
Kim istəyir qoy inansın mən **Əhməd**in sözünə,
Dedim: ömür, sən vəfasız, Ay vəfasız, bəs hanı
Könüllərin, diyarların əbədilik sultanı.

***07.09.1950***

## CƏNAB ƏLİ ŞƏNİNƏ

Bu dünyadə bərabər yox Əliyyü dürreyi xasə,
Çəkə bir kəs Əli ismin yəqindir batmayır yasə,

Əli ol kəsdi ki, bilsin bütün Aləm fəxarətlə,
Sevərdi əhli-islamı, yazılmaz bir məhəbbətlə,

Əli ol kəsdi ki, yoxdu onuntək bir igid aslan,
Səxavətli, ədalətli, şərafətli, uca, mərdan.

Onu təsvirdən acizdir bütün dünyadə insanlar,
Duyursa qəlbidə, hər kəs bu təsvirsiz onu anlar,

Boğulsan dəryada hərgah əl üzmə öz nicatından.
Əli qoymaz dəxi darda səni, almaz həyatından.

Düşərsən hansı zindanə, Əli heç də kənar gəzməz.
Sənintək əhli-islamın əzabü əcrinə dözməz.

Mən **Əhməd** söylərəm hər vaxt Əli bir qibləgahdır,
İmamət özlüyündə bir, yəqin ki, yerdə Allahdır.

***08.09.1950***

## DOĞRUSU

Aparıbdır əğlimi bir yeni Leyla, doğrusu,
Qaş kaman, zülfü siyah, gözləri şəhla doğrusu.

Ləbləri qonça kimi, qəmzəsi dünyayə dəyər,
Bildim əfsanə imiş Misri-Züleyxa doğrusu,

Qoxusu canlar alır, çöhrəsi min rəngə çalır,
Gəlməyibdir belə bir bülbülü şeyda doğrusu.

Gözləri bir incidir, yoxdur gözəllikdə tayı,
Belə bir nazlı gözəl görməyib dünya doğrusu.

**Əhməd Əfqani** deyər mən sənin eşqində varam,
Söndürə bilməyəcək eşqimi dərya doğrusu.

***20.09.1950***

## YIXAR

Mənəm ol şəxs ki, qəmzəm neçə insanı yıxar,
Tellərim canlar alıb, bir sözüm dünyanı yıxar.

Baxsa kim gül üzümə, Məcnun olub çöldə qalar,
Baxışım əql aparır, gözlərim dövranı yıxar.

Kipriyim hazır olubdur neçə qan eyləməyə,
Qaşlarım baxma kamandır, səfi-meydanı yıxar.

Yanağım lalədir, çoxdan ona mehmandı mixək,
Ləblərim olsa da qonça, yenə aslanı yıxar.

Boyuma sərv deyənlər vəli[1] çox səhv eləyir,
Hansı bir sərv əyilsə, daği-mərdanı yıxar.

**Əhməd Əfqani** deyər şəms qürurilə bu gün,
Görsə bir şəxs məni dinilə imanı yıxar.

***15.09.1950***

[1] Vəli – lakin, ancaq, amma.

## A DOSTUM

Neçə ildən bəridir mən sənə heyranəm, a dostum,
Demirəm sirr sözümü mərdümi-mərdanəm, a dostum.

Yanağım şölə salır, kipriyim gəl-gəl eləyir,
Qaş qara, ləblərim bal, zülfü pərişanəm, a dostum.

Gözlərim canlar alır, amma sənin vardır əlacın,
Boy uca, gərdan qarış, mən belə bir canəm, a dostum.

Gəzəsən dünyaları, yoxdu gözəllikdə tayım,
Mən gözəllik elinə daimi sultanəm, a dostum.

Öylə zənn eyləməyin ki, xəsisəm rədd elərəm mən,
Sən kimi bir cavana sahibi-ehsanəm, a dostum.

Necə mən səbr eləyim, özgə ilə həmdəm olubsan,
Ovçusan, ləpirimə düş, bir dəli ceyranəm, a dostum.

Görürəm kim ürəyin çox üzülüb tab eləmirsən,
Gəl mənə sən qonaq ol, dərdinə dərmanəm, a dostum.

**Əhməd Əfqani** tökər göz yaşını hər saat, hər gün,
Gələsən gəlməyəsən, mən sənə qurbanəm, a dostum.

***11.10.1950***

* * *

Sənin dərdindən daha yoxdur qərarım neyləyim,
Atmışam uğrunda mən namusu-arım neyləyim.

Rahət olmam bir gecə sənsiz, yuxu getməz gözə,
Xətrinə dəyməyirəm, gəlmirsən yarım, neyləyim.

Allaha and olsun ki, **Əhməd** dönməz əhdindən,
Necə ki, sən olmusan ilkin şikarım, neyləyim.

***Mart 1948***

* * *

Al, sənə qəlbimi mən daimi mehman verirəm,
Qəlbi ki, verdim, inan, birdəfəlik can verirəm.

Demə ki, mən sizə gəldim, mən qurbanə nə verdin,
Sənə mən sevgili dost, canımı qurban verirəm.

***Aprel 1946***

## MƏN

Səni dərd-qəm əlindən sala bilmirəm yada mən,
Fikridən görmürəm gün bu işıqlı dünyada mən.

Sənə mən naz elədim, yetişmədin sən vüsala,
Məni saldın bu hala, özüm düşdüm fəryada mən.

Etibarı yox imiş dostlarımın dünya kimi,
Etibar etməm həkimi qohuma, nə yada mən.

Eşqi beş günlük imiş hər aşiqin mən tək cana,
Zövq verməz insana, bənd olmaram hər adə mən.

Gəl görə novruzgülü tək tez solaydı surətim,
Nə olardı halətim heç vermirəm ifadə mən.

Bir quru candan savay yox **Əhməd**in bir gümanı,
Açdım eşqin qapısın, bənzəmərəm cəlladə mən.

***1948***

* * *

Əzizim, yaxşıdır ölmək bu zillətdə dolanmaqdan,
Axıtmaq göz yaşın xoşdur, bu gülməkdə dolanmaqdan.

Baxarkən indi hər yanə, sinəm başı dönür qanə,
Səbəbsiz gəlməm əfqanə, bu həsrətdə dolanmaqdan.

Nədəndir vəslə əl yetməz, fəqanım qurtarıb bitməz,
Nədəndir canım ar etməz bu töhmətdə dolanmaqdan.

Yetiş, indi çıxar canım, çatar Allaha əfqanım,
Tez ol, xilas eylə canım, bu xiffətdə dolanmaqdan.

Əl üzdüm xanimanımdan, boyanmış dövrə qanımdan,
Bezar oldum bu canımdan, bu qürbətdə dolanmaqdan.

Tutub yüz ağrı başımdan, yaranmış nəhr yaşımdan,
Tez ölmək keçdi xaşımdan[1] bu zülmətdə dolanmaqdan.

Xəstə canım edər əfqan, tökər şur ilə yaşü-qan,
Olubdur məskənim zindan bu möhnətdə dolanmaqdan.

Gülə bilməz üzüm sənsiz, ola bilməz könül sənsiz,
Öl **Əhməd**, qalma vətənsiz bu qürbətdə dolanmaqdan.

***5 may 1950 – hospital.***

## GÖZLƏR GÖZLƏRİM

Çıxmağa hazırdı can, cananı gözlər gözlərim,
İntizardır sən kimi mehmanı gözlər gözlərim.

Tez yetiş, Əzraili qoyma məni incitməyə,
Tikilibdir səqfə bir tərlanı gözlər gözlərim.

---

[1] Xaş – arzu, meyil

Vermisən yüz yol ümid, bəsdi daha, eylə tamam,
Özgədən yoxdur əlac, Loğmanı gözlər gözlərim.

Bilmirəm hansı sözüm etdi səni məndən uzaq,
Tez yetiş, sən gətirən dərmanı gözlər gözlərim.

Gəl özün tut kəfənə sevdiyin **Əhmədağa**nı,
Söz bilib, qəlb anlayan insanı gözlər gözlərim.

***İyun 1950***

* * *

Çıxmağa hazırdı can, cananı gözlər gözlərim,[1]
İntizardır, sən kimi Loğmanı gözlər gözlərim.

Tez yetiş, Əzraili qoyma məni incitməyə,
Tikilibdir səqfə, bir tərlanı gözlər gözlərim.

Eylədim çox ah-fəqan, bir kimsə imdad etmədi,
İndi də sən gətirən dərmanı gözlər gözlərim.

Göz yaşım bir çay kimi tutmuş tamami-aləmi,
Yox ümid əsla, ölüm fərmanı gözlər gözlərim.

Taqəti-canim gedib, dəvayə yoxdur ehtiyac,
Mən fəqir **Əfqani**yəm, Musanı gözlər gözlərim.

## AĞLAYIRAM

Gecələr sübhə kimi zari-zar ağlayıram.
Təki-tənhalıq mənə eyləyir kar, ağlayıram.

Baxıram dörd divarı, bir də cəmalim görürəm.
Deyirəm, şükr edirəm sədi-həzar ağlayıram.

[1] 2-ci variant

Deyirəm: bari[1]-ilahi nə günah sahibiyəm,
Açmıram qüssədən heç baş, biqərar ağlayıram.

Tökürəm zülfü üzə səs yayılır aləmə lap,
Yığılır dusti-yağı, etməyib ar ağlayıram.

Mən ki, **Əhmədağa**yam, bir gününə dözməz idim,
Deyirəm harda qalıb sevgili yar, ağlayıram.

***1949***

## GƏLİB

Canım sənə qurban, ay təbib əmi,
İnan, mənim dərdim xudadan gəlib.
Düşünübən xəstə zənn etmə məni,
Dərdim dərdü-dilü bəladən gəlib.

Axtarırsan bədənimin harasın,
Yaş aparıb gözlərimin qarasın,
Bu bir dərddir, tapmaq olmaz çarasın,
Çox düşünmə bu dərd havadan gəlib.

Gərəkdir ki, sənətini atasan,
Fikr eyləyib dərdü-qəmə batasan.
Mimi-heyə – mimi-dala çatasan,
Biləsən ki, bu dərd haradan gəlib.

Əgər ki, olasan hakimi Loğman,
Köməklik eləməz verdiyin dərman.
O gəlsə, **Əhmədə** tez verəcək can,
Mənim dərdim cövrü-cəfadan gəlib.

***3 may 1950 – hospital***

[1] Bari – yaradan, yaradıcı.

## ÖZÜMƏ

Etmişəm xeyli vaxtdır dünyanı zindan özümə,
Tapıban qüssə-qəmi etmişəm mehman özümə.

Sevmişəm mən birisin baxmayıb adəm sözünə,
Bu səbəbdən etmişəm hamını düşman özümə.

El deyir, camaat deyir, hamı deyir gəl əl çək,
Çəkməyib əl, elədim namusu qurban özümə.

Sevdiyim öylə adamdır ki, fəqir nalandır,
Bu səbəbdən elədim mən onu soltan özümə.

Döyürlər gündə azı yüz dəfə kafir tək məni,
Qurtarantək edirəm mən onu Loğman özümə.

Mən elə bir ağacam, kölgə salır şax budağım,
Etmişəm daimilik mən onu bağban özümə.

Nə deyir qoy desin el, vurğunuyam mən yarımın,
**Əhməd**əm, eyləmişəm, mən onu xaqan özümə.

***1949***

## SƏNİN

Zülflərin qarğı kimi,
Kipriklərin qarə sənin,
Qaşların canlar alır,
Oxşar zülfüqarə sənin.

Səbəb nədir xəzan olum,
Cavan ikən burda ölüm.

Rəhmə gəl, qoyma solum,
Əlindədir çarə sənin.

Cavan ömrüm solub gedir,
Coşğunluq cismim tərk edir,
**Əhmədə**m, söylə nədir,
Baxşayışın[1] yarə sənin?

***Oktyabr 1947***

## MƏNİM

Etmə tərif özünü çakər[2] kimi sən, ey rəqib,
Kəkilim, birçəklərim, zülfüm pərişandır mənim.

Sərvi boy, ahu-nəzər, sərxoş yerişlər məndədir,
Xəstəyə şəfa verən ləbim bədəxşandır mənim.

Qaş qara, kiprik qara, əla dodaqlar məndədir,
Ahutək gözlərimə dünyalar heyrandır mənim.

***1947***

## SEVMƏYİRƏM

Gah sevdiyim atar məni,
Gah da gözü tutar məni,
Gah qul edib satar məni,
Çünki bilir sevməyirəm.

Gah sevdiyim alar məni,
Tər qoynuna salar məni,
Gah mar olub çalar məni,
Çünki bilir sevməyirəm.

---

[1] Baxşayışın (bəxşişin) – hədiyyən.
[2] Cakər – qul, nökər, kölə.

Gah sevgilim bəzər məni,
Acgözlüklə süzər məni,
Gah ağacla əzər məni,
Çünki bilir sevməyirəm.

Gah mənimlə çıxar dağa,
Verərik dodaq-dodağa,
Gah sev deyər **Əhmədağa**,
Çünki bilir sevməyirəm.

***7 may 1950, hospital.***

## MƏNDƏ

Mən bir bağam, ətrim tutub hər yanı,
Alma məndə, heyva məndə, nar məndə.
Təkcə bu şeylərlə bitməyir şənim,
Axtarsan taparsan yüz cür bar məndə.

Qaşlarım hilaldır, gözlərim qara,
Həsrətimdən çoxlar gəlibdir zara,
Xəstələr dərdinə eylərəm çara,
Kaman məndə, qaval məndə, tar məndə.

Dodağım qonçadır, yanağım lala,
Görən heyran olur üzdəki xala,
Sahibəm şahlara layıq cəlala,
Kaman məndə, qaval məndə, tar məndə.

Adım **Əfqani**dir, etmərəm əfqan,[1]
Şurilən oxuram hər saat, hər an,

[1] 2-ci variant

Aşiq olur mənə hər dürlü insan,
Əqil məndə, surət məndə, var məndə.

**Əhməd** deyər şanu-şövkət mənimdir,
Gözəllik elində hörmət mənimdir.
Əqli, hüsni, namus, izzət mənimdir,
Bunlar azdı, hər nə desən var məndə.

***1949***

## AY SARVAN ƏMİ

Gözüm sənə qurban, ay sarvan əmi,
Get səlamət qayıt, gəl apar məni,
Özüm sənə qurban, ay sarvan əmi,
Get, səlamət qayıt, gəl apar məni.

Gedər olsan Ərəbistan elinə,
Yıxıl şahın ayağına, əlinə,
İltimas et, qurban olum dilinə,
Get, səlamət qayıt, gəl apar məni.

Ağlamaqdan gedib gözüm qarası,
Günbəgündən artır könül yarası,
O şahdadır mən yazığın çarası,
O versin icazə, gəl apar məni.

Söyləginən o şahların şahına,
And verirəm Məkkə qibləgahına,
Rəhm etsin **Əhməd**in dadü-ahına,
Göndərsin bir kömək, gəl apar məni.

***İyun 1950***

***Bu şikayət də itmişdi, yenidən yazmalı oldum. Əlbəttə əvvəlki kimi olmadı.***

## BU GÜN

Çalmayın tar-qavalı, halım pərişandı bu gün,
Yar verib vədə mənə, gəlməyib, tufandı bu gün.

Söyləmişdi gələcəm düz iki gündən sonra,
Gəlməyib tazə cavan, göz yaşım rəvandı bu gün.

Sizi Tanrı, kamanı asta çalın, inləməsin,
Məni lap yüz min dəfə ağlatmaq asandı bu gün.

Qalıram xanədə tək, ağlayıram şurilə mən,
Mənə həmsöhbət olan əşyalar insandı bu gün.

**Əhməd Əfqani** deyir gözləyirəm xeyli keçib,
Gəlmədi nazlı nigar, işim ah-fəqandı bu gün.

***1948***

* * *

Mən öldüm oxşamaqdan,
Sözə söz qurşamaqdan,
Bir yol ölmək yaxşıdır,
Belənçik yaşamaqdan.

Arxalığın haramı,
Yemək olmaz haramı,
Sən məni dərdə saldın,
Özün eylə çaramı.

## ELƏDİ

Yenə də çərx məni aləmdə lap xar elədi,
Axıdıb göz yaşımı dərdə giriftar elədi.

Yox ikən bircə qəmim, verdi sinəm yarələdi,
Məni bu xoş cəhandan belə bazar elədi.

Çəkdirib sinəmə dağ, həzz aldı naləmdən
Yandırıb narə məni, işim ahü-zar elədi.

Sındırıb balü-pərim, tərsinə dövran elədi,
Sevgili düst ilə yari mənə əğyar elədi.

Sən bu **Əhməd** yazığı odlara yandırma, fələk,
Eşidərsən sən özün, ol da intihar elədi.

***15 sentyabr 1948***

## MƏNDƏ

Həsrətindən ölürəm, yox daha taqət məndə,
Qalmadı tabü-təvan, səbru-fəraqət məndə.

Gər sevəm mən birisin, canımı qurban edərəm,
El mənə tənə edir, böylədir adət məndə.

El bilir, hamı bilir şahlara layiq gözələm,
Sevmişəm haqdı səni, yox eşqə hacət məndə.

***1948***

## MƏHƏMMƏDƏ MƏKTUB

*Məhəmməd Fətalıyevə*

Əzəl başdan salam olsun sizlərə,
Kənd aclıqdır, ellər düşüb düzlərə,
Nə dərd varsa üz veribdir bizlərə,
Mənim bu günümdə gəl, ay Məhəmməd,
Dərdü-qəm əlindən al, ay Məhəmməd.

Əlişir qardaşım yoxdur yanımda,
Gözüm yoxdur nə bir qızda, xanımda,
Taqət gedib, qüvvət yoxdur canımda,
Mənim bu günümdə gəl, ay Məhəmməd,
Dərdü-qəm əlindən al, ay Məhəmməd.

Yaralar üstündən alıram yara,
Dərdim çəkir məni hər gündə dara,
Yalvarıram bir olan pərvərdigara,
Özü tez yetirsin səni, Məhəmməd,
Sən xilas edəsən məni, Məhəmməd.

Gündə burda əlli dəhşət görürəm,
Mən **Əhməd**əm, gələcəyi bilirəm.
Hər dəqiqə, hər saniyə ölürəm,
Mənim bu günümdə gəl, ay Məhəmməd,
Dərdü-qəm əlindən al, ay Məhəmməd.

***Fevral 1948***

## GƏLDİ

Küçə ilə gedəndə mən,
Hamı deyir paşa gəldi.
Di durmayın, ay camaat,
Onu basın daşa, gəldi.

Görürsən ki, hər tərəfdən,
Yerdən, göydən daşlar gəlir,
Zənən-uşaq, qoca-cavan,
Əldə oxlov, maşa gəldi.

Rəhm eyləyib bir-ikisi
Ağac və daş götürməsə,
Görürsən ki, ayaqyalın
Etməyə tamaşa gəldi.

Söyləyirəm rəhm eləyin,
**Əhməd**in günahı nədir?
Belə ömür keçirməkdən
Vallah ömrüm başa gəldi.

***1 noyabr 1947, Bakı***

## HƏSRƏT

Şırıl-şırıl axan zaman dəli Qoşqarçay
Göy üzündə süzən zaman rəqqasə tək Ay,
Səhər-axşam yüz min dəfə çəkib ahü-vay,
Dedim: bir də obamızı görəcəyəmmi?
Bağçamızdan qızılgüllər dərəcəyəmmi?

Ərimədi Xaçbulağın heç zaman qarı,
Günbəgündən artıq oldu könül qubarı,
Yatağımın kənarında çaldıqca tarı
Dedim bir də dostlarımı görəcəyəmmi?
Onlar ilə əli ələ verəcəyəmmi?

Bağçamızdan qızılgüllər dərəcəyəmmi?
Tamam rusdur bu yerlərin hakim sultanı,

Elə bil ki, satın alıb Azərbaycanı.
Öldürərkən dərd, qüssələr **Əhməd** tək canı
Dedim bir də obamızı görəcəyəmmi?
Bağçamızdan qızılgüllər dərəcəyəmmi?

***Yanvar 1949 – Daşkəsən***

* * *

Şırıl-şırıl axan zaman dəli Qoşqarçay,[1]
Göy üzündə rəqqasə tək süzən zaman ay,
Yolub saçın, qəlbən çəkdim min ahü-haray,
Dedim: bir də dostlarımı görəcəyəmmi?
Onlar ilə əli-ələ verəcəyəmmi?

Ərimədi Xaçbulağın heç zaman qarı,
Deməк qarmış bu yerlərin dövləti-varı,
Yatağımın kənarında çaldıqca tarı,
Dedim: bir də sevgilimi görəcəyəmmi?
Bağçamızdan qızıl güllər dərəcəyəmmi?

……………………………………………..
Öldürürkən qəm-qüssələr miskin **Əfqanı**,
Dedim: bir də sevgilimi görəcəyəmmi?
Onun ilə bir danışıb güləcəyəmmi?

## ƏHMƏDİ

Ey səba, söylə elə avarə gördüm Əhmədi,
Dərd əlindən gəlmiş idi zarə, gördüm Əhmədi.

Yalvarıb dərdin soruşdum, tökdü leysan tək yaşın,
Dərdləşdi, geymiş idi qarə, gördüm Əhmədi.

---

[1] 2-ci variant

Söylədi yüz min seyid əl çaldı  həqqim tərəf,
Yox əlacı dərdimin, biçarə gördüm Əhmədi.

Söylədi milyon manat etməz mənə zərrə kömək,
Ağlayırdı, yanmış idi, parə gördüm Əhmədi.

Söylədi min ordudan olmaz mənə əsla xeyir,
Tutqun idi sinəsi, həm yarə gördüm Əhmədi.

Doğrudur, vardı əlacı bir həqiri-şəxsidə,
Əyməyir əsla boyun əğyarə gördüm Əhmədi.

Yatmayır, fikr eləyir, qüssə üzür ol yazığı,
Kimsə yoxdur eyləyə bir çarə, gördüm **Əhmədi**.

***Dekabr  1947***

## YOLLAR

O görükən İncəbelin yoludu,
Ora yağan qar-yağışdı, doludu,
Vaxt var idi gedib-gələn boludu,
Niyə siz oldunuz xərabə, yollar?

Baladağ üstünü alıbdı duman,
Köməklik etməyə gəlməyir güman,
Dəvə karvanların çoxdu bir zaman,
Niyə siz qaldınız xərabə, yollar?

**Əhməd**in göz yaşı olubdu sirab,
Sizə yolçu olub qarışqa, qürab[1],
Sizi hansı bir şah edibdi xərab,
Niyə siz qalmısız xərabə, yollar?

***Mart  1948***

[1] Qürab – qarğa.

## AYRILIQ NAMİNƏ

Əziz Bakı, sənin mənə çəkdirdiyin zilləti,
Qara günü, məşəqqəti, əziyyəti, xiffəti,

İnan Bakı, ömrüm varkən unutmaram bir anlıq,
Gər ölsəm də üzərimə çöksə mənim qaranlıq.

Unutmaram daşdan ağır, rəngdən qara günləri,
Gənc sinəmə vaxtsız dəyən əlacsız düyünləri.

Pis nəzərlər məcbur edir məni burdan qaçmağa,
Uzaqlaşıb bu viladən yeni həyat açmağa.

Mən onlardan qaçmalıyam, əziz Bakı, səndən yox,
Gər vurulsa hər bir zaman ürəyimə qara ox.

Unutmaram səni bir an, mənə ana olmusan,
Çıxartmaram səni yaddan, mənə ana olmusan.

Mən onlardan qaçmalıyam, əziz, sevimli şəhər,
Bəlkə təmiz namusumu xilas edəm birtəhər.

Əziz Bakı, and içirəm könlümə, vicdanıma,
Mümkün edib **Əhməd** tez-tez gələcəkdir yanına.

***19 noyabr 1947***

## BAHAR

Sən gələndə ölkəmizə,
Məhsul gətirirsən bizə,
Sən işıqsan gözümüzə,
Gəl, ay bahar, gəl, ay bahar,
Nə səfalı günlərin var.

Yaxşı günün sorağısan,
Yurdumuzun çırağısan,
Azadlığın bayrağısan,
Gəl, ay bahar, gəl, ay bahar,
Nə gözəl lalələrin var.

Küləklərin əsir sərin,
Xaqanısan fəsillərin,
Açılıb qonça güllərin,
Gəl, ay bahar, gəl, ay bahar,
Nə gözəl gələcəyin var.

Sən gələndə açır çiçək,
Gül bağçalar ləçək-ləçək,
Cana gəlib qurd, quş, böcək,
Deyir: bahar, gəl, ay bahar,
Nə ətirli günlərin var.

Çəkilir hörmətlə adın,
Bilinir ləzzətin, dadın,
Bir ağızdan kişi, qadın,
Deyir: bahar, gəl ay bahar,
Nə çiçəkli diyarın var.

Sən gələndə açılır gül,
Şeyda qılır nazlı bülbül,
**Əhməd** alıb sarı sünbül,
Deyir: bahar, gəl, ay bahar,
Nə gözəl nemətlərin var.

***Mart 1948***

## AĞLAYARSAN

Bir gün olar Tağlı kəndi sökülər,
Avarları arxa bəndə tökülər.
Onda sənin cavan qəddin bükülər,
Utanmayıb zari-zar ağlayarsan.

Tavalılar özlərini öyərlər,
Azı səni gündə yüz yol döyərlər.
"Ac Tağılı" deyib səni söyərlər,
Qəriblik eyləyər xar ağlayarsan.

Evimizin suvağını tökərsən,
Mən kəsdiyim kərpicləri sökərsən.
Yadlar üçün dağda əkin əkərsən,
Vurar bir zəhərli mar ağlayarsan.

Ürəyini dərdə, qəmə salarsan,
Aclıq çəkib saralıban-solarsan,
Evin olmaz xərabədə qalarsan,
Tökülər başına qar, ağlayarsan.

**Əhməd** də götürməz sədəfli sazı,
Döyəcəklər səni yüz dəfə azı,
Üstünə örtəndə köhnə palazı
Ellərdən etməyib ar, ağlayarsan.

***3 iyun 1950***

## GƏLMƏRƏM

Dedim: ay qız, rəhm elə, sən gəl bizə.
Dedi: yoxsa gedəcəyik biz düzə.
Dedim: ay qız, dərdim çıxıbdır yüzə.

Dedi: əvvəl atmayaydın, gəlmərəm,
Kənizlərə qatmayaydın, gəlmərəm.

Dedim: ay qız, mənim evim yanıbdır.
Dedi: hayıf, kərpicləri qalıbdır.
Dedim: kədər ürəyimi alıbdır.
Dedi: əvvəl atmayaydın, gəlmərəm,
Söz verib aldatmayaydın, gəlmərəm.

Dedim: ay qız, bəxtim mənim yatıbdır.
Dedi: hiyləbaz, qız səni atıbdır.
Dedim: inan, mənim sonum çatıbdır.
Dedi: əvvəl atmayaydın, gəlmərəm,
Aldadıb oynatmayaydın, gəlmərəm.

Dedim: ay qız, gül camalım solubdur.
Dedi: şükür, əcəb yaxşı olubdur.
Dedim: göz yaşlarım ümman olubdur.
Dedi: əvvəl atmayaydın, gəlmərəm,
Bir quruşa satmayaydın, gəlmərəm.

Dedim: ay qız, vərəm üzübdür məni.
Dedi: şükür, nə vaxt öldürər səni?
Dedim: əqlim gedib, olmuşam dəli,
Dedi: əvvəl atmayaydın, gəlmərəm,
Özgələrə satmayaydın, gəlmərəm.

Dedim: ay qız, çərxim mənim çönübdür.
Dedi: billəm, çırağınız sönübdür.
Dedim: ay qız, qohumlarım ölübdür.
Dedi: əvvəl atmayaydın, gəlmərəm,
Dalıma yük çatmayaydın, gəlmərəm.

Dedim: ay qız, yoxdur bircə köməyim.
Dedi: sənə mən neynəyim, nə deyim?
Dedim: vardır səni sevən ürəyim.
Dedi: **Əhməd**, şad ol, onda gələrəm,
Öz könlümü onda sənə verərəm.

***1948, Tağılı***

## MƏKTUB

Məni dərdə salan gözəl,
Görüm üzün qara olsun.
Ürəyimi çalan gözəl,
Görüm üzün qara olsun.

Səni görüm getsən hara,
Dərdinə olmasın çara,
Ürəyimə vurdun yara,
Görüm üzün qara olsun.

Ləkə vurulsun adına,
Yetməyəsən muradına,
Kimsə çatmasın dadına,
Görüm üzün qara olsun.

Sındırmısan peymanımı,
Üzmüsən şeyda canımı,
Batırdın adı-sanımı,
Görüm üzün qara olsun.

Dinclik nədir bilməyəsən,
Ömrün boyu gülməyəsən,
Ac olasan, ölməyəsən,
Görüm üzün qara olsun.

Evdə qalıb zay olasan,
Qarılara tay olasan,
Əzrayıla pay olasan,
Görüm üzün qara olsun.

Ömrün boyu gülməyəsən,
Şadlıq nədir bilməyəsən,
Ac olasan, ölməyəsən,
Görüm üzün qara olsun.

Yaman deyilsin adına,
Kimsə yetməsin dadına,
Lənət gəlsin ustadına,
Görüm üzün qara olsun.

Kimsə baxmasın sözünə,
Onda vurasan dizinə,
Görən tüpürsün üzünə,
Görüm üzün qara olsun.

Mən **Əhmədə** dedin dəli,
Bivəfadan üzdüm əli,
Qənim olsun sənə Əli,
Görüm üzün qara olsun.

***2 dekabr 1950, Bakı***

*** * ***

Söylə, yavrum, bu necə işdi ki, gəlmiş başına?
Söylə, bir hansı yağı qatdı zəhər pak aşına?

Söylə, yavrum, axı sən tutizəbansan, söylə,
De, səni hansı yağı saldı məlalə böylə?

Söylə, yavrum, de, quzum, hansı bağın bülbülüsən?
De, gülüm, söylə, canım, hansı xəzanın gülüsən?

Səni mən şuxi-şükufə arası çox gəzdim,
Bulmayıb ordan, inan, firqətinə çox dözdüm.

Gecələr yatmayıban fikr elədim sübhə qədər,
Məni göz yaşı boğub, tutdu boğazimi qəhər.

Aradım mən səni göylərdə, günəşlərdə, gülüm,
Bulmayıb orda səni istədim həqdən bir ölüm.

Özümü dəryada qərq etməyə amadə idim,
Cismimi mövt[1] bilib sanki o dünyadə idim.

Qayaya, sıldırıma bəzi gün etdikdə nəzər,
İstəyirdim dibinə can evim etsin də güzər[2].

Çırpınıb quş kimi könlüm qəfəsi yırtardı,
Ürəyim parə olub hər tərəfə dartardı.

Söylə, yavrum, de, quzum, harda yetişdin zavala?
De, gülüm, hansı yağı saldı səni böylə hala?

Sən ki dünyalara layiq əbədi xilqətsən,
Sən ki bir canlı deyil, tairi[3] ülviyyətsən.

Sən ki hər şöləsi bir şəms olan xilqətsən.
Sənə ülvi demərəm, sən əbədi fitrətsən.

---

[1] Mövt- ölü, ölmüş.
[2] Güzər- seyr, gəzişmə.
[3] Tair (tayır) – mələk, quş.

Sən ki bir nur ilə yüz min qəmlərə tay oldun,
Söylə, yavrum, nə üçün vaxtsız ikən zay oldun?

Nə bəla yetdi sənə, vaxtsız ikən zay oldun?
De, quzum, tair ikən səndəmi bir mövt oldun?

Gəliyor şimdi xəyalın duruyor qarşımda,
Baxıram mən, görürəm həm səni hər arşımda,

Düşərək payinə mən yalvarıram şimdi sənə
De, quzum, söylə, gülüm, rəhm elə, bir söylə mənə,

Məni üzməksə xəyalın, de, utanma aşkar,
Söylə, yavrum, biləcək yoxsa bu sirri əğyar.

Diləyirsənsə gedim mən də səninlə qəbirə,
Leyk yavrum, hansı yer, söylə, gedim hansı yerə?

Leyk əfsus, susuyorsan, axı sən xülyasan,
Dərdli **Əhməd**lər üçün bir əbədi dünyasan.

***17.12.1950, Tağılı***

* * *

Saqiya, bir badə doldur şuxi canın naminə,
Çoxların Məcnun edən qönçə fidanın naminə.

Leylidən ali, Züleyxadən yəqin ki, incədir,
Nuş edək ol badəni afət zamanın naminə.

Kim desə Şirin belə, Gülşa belə bir canidir,
Çox yəqin ki, söyləyir böhtan cəhanin naminə.

Göydə ulduzlar onu şəmsi bilib təzim edir,
Zöhrəvü mərrix kimi dürri dəhanin naminə.

Sən deme dünyadə bir çox adlı hurilər gəzir,
Gəzsələr də dövr edirlər məhliqanın naminə.

Saqiya, **Əfqani**ni incitmə, çox doldur, tez ol,
Qoy içək tair misal ali dühanın naminə.

***20.12.1950, Tağılı***

* * *

Kim desə səhv eləyir, eşq sözü əfsanə imiş,
Aşiqin yandığı boş, susadığı qanə imiş.

Kim desə yandıracaq hicridə aşiq özünü,
Səhvidir, odda yanan nazlıca pərvanə imiş.

Qucacaq tər belini, söyləyəcək sübhə qədər,
Sevgilim, bilməz idim vəsli ki, dərmanə imiş.

Öpəcək gül üzünü, qoymayacaq yatmağa heç,
Deyəcək eşq bağının qönçəsi cananə imiş.

Alıban istəyini, tərk edəcək tezcə səni,
Deyəcəksən bu necə əhdilə peymanə imiş.

Sevən öz arzusuna yetcəyin get-get eləyir,
Sevilən cövrə dözüb axiri mərdanə imiş.

***1951*.**

* * *

Nə yalvar, nə də ki, ağla dünyada,
Çünkü heç birinin faydası yoxdur.
Heyifdir gənc ömrün gedəcək bada,
Sən tək dərdi olan cahanda çoxdur.

* * *

Sən ey Məcnuni-bədbəxt tək,
Olan diltəngi pərvanə,
Yanıb hicrin şüasında,
Verən min rəngi pərvanə.

O gün ki naz edər yarın,
Görərsən ləzzətin narın,
Sənə tən eylər əğyarın,
Tutarsan cəngi pərvanə.

## VİRANƏ KÖNLÜMÜN BABI DEYİLSƏN

Ey vurğun tək baxan günəş üzümə,
Viranə könlümün babı deyilsən.
Kipriyi vurmadan baxma gözümə,
Viranə könlümün babı deyilsən.

Qara qaşlarıma aldanma mənim
Bil ki, zülfüqardır, olacaq qənim.
Səni aldatmasın incə bədənim,
Viranə könlümün babi deyilsən.

Nahaq yerə baxma al yanağıma,
Qismət deyil busən gül dodağıma.
Baxıb həsrət çəkmə ağ buxağıma,
Viranə könlümün babi deyilsən.

## İMDAD ET

Tez gəl, ey sevdalı dost, fəsli bahardır, imdad et.
Sənəti şüğlim[1] mənim bir ahü-zardır, imdad et.

Gərdişi-dövran mənim dərdim edibdir tuli-tul[2],
Gözlərim axtarmada, könlüm qubardır, imdad et.

El bilir, aləm bilir, kim bir cəfakeş bülbüləm,
Neyləyim kim gülşənim bu dörd divardır, imdad et.

Atəşi-hicrin yazıq **Əfqani**ni öldürdü, gəl,
Tez yetiş kim məskənim atəşlə nardır, imdad et.

## OLMAZ

Sərsəri dərs oxusa bir neçə il məktəbdə,
Gər onun söylədiyi hərzəvü hədyan olmaz.
Sailə tünd baxa bir kəs bu fəna dünyadə,
Versə min il sədəqə sahibi-ehsan olmaz.

Bir kişi dövlətinə eyləsə ümmid oxumaz,
Olsa da dövləti dərya, özü insan olmaz.
Kim ki, kasıb kişiyə turşudub üz tən eliyə,
Körpüsü kövrək olar, təxti-Süleyman olmaz.

---

[1] Şüğl – məşğuliyyət, iş.
[2] Tul- uzun, uzunluq. Tuli-tul- uzundan-uzun.

## EYLƏDİ

Daima zülm eyləyən, axirdə qürfan[1] eylədi,
Sapdırıb yoldan səni, kəndinə mehman eylədi.

Doymamış ruxsarinə baxmaqdan, ey gül, növcavan,
Qaldırıb balü-pərim gör necə dövran eylədi.

Çıxmadı yaddan həmin ani görüş, ülvi həvəs,
Əksinə mən məzlumi cisminə qalxan eylədi.

Gəh xəyalin qarşıma nuri peyəmbər[2] tək gəlir,
Söylə bir hansı peyəmbər böylə divan eylədi?

Gözlədim ümmid ilə hər gün sənintək aşiqi,
Bax ki, öz qəlbin sənə axirdə qurban eylədi.

Dərdli **Əfqan**i səni heç vaxt unutmaz ömrüdə,
Söylə, bu aliliyi hansı bir insan eylədi?

## YOXDU HEÇ

Tez yetiş, ey sərvü-razim, bir qərarim yoxdu heç,
Olma Məcnuni sifət bir etibarim yoxdu heç.

Aşiq olmaq mən kimi bir dilbərə nahəqqidir,
Baxma kim şövqim gəlir, əmma şərarim yoxdu heç.

Söz verib, peyman edərsəm də axirdə zay olur,
Çünki hicrət çəkməyə qəlbimdə narim yoxdu heç.

---

[1] Qürfan – mərhəmət, bağışlama.
[2] Peyəmbər- peyğəmbər

Bəzi adil kimsələr Məcnunə tay eylər məni,
Ol azaddır, mən kəsin bir ixtiyarim yoxdu heç.

Aşiqim **Əfqani**ni öpdükcə ülvisən deyir,
Leyki əfsus qəbridən özgə diyarim yoxdu heç.

***14.07.1951***

## BƏNZƏTDİM

Səni, ey nuri çeşmanim, məhi-Kənanə bənzətdim,
Xəyali-hüsni-ruyini pəri-peykanə bənzətdim,

Nahəq bənd oldum ömrümdə sənintək fani bir adə,
Məni narə salan şəmmiş, dili-suzanə bənzətdim.

Bu gün olmuş yəqinim ki, elə sən sari-bədgusən.
Nədəndir bilmirəm səhvən səni tərlanə bənzətdim.

Nə lazım eyləmək mənlə belə tərki-ədəb rəftar.
Axı sən canlı meyyidsən, mən səni canə bənzətdim.

Belə məlum ki, insanlıq sənin cismaninə zidmiş,
Nədəndir bilməm aldandım səni insanə bənzətdim.

Bilirdim nəsli-Adəmsən, sənə layiq deyil cənnət,
Özüm ki, bir mələk şəxsəm, səni qılmana bənzətdim.

Sənin tək bir çobanı mən nökər də etməzəm evdə,
Məni eşqim edib məcbur, səni ürfanə bənzətdim.

Bu **Əfqan**i fəqan eylər, tapılmaz dərdinə çarə,
Fəqət mən neyləyim yarəb, onu Loğmanə bənzətdim.

* * *

Həyat dediyimiz axan bir sudur,
Ömür dediyimiz durğun bir bulaq.
Yalnız bir məhəbbət pakdır, uludur,
Əzilir, yıpranır səs-küy salaraq.

Gözəllik sözünün yoxdur əsası,
Bu gün var, sabahı tərk edər səni,
Düşmənlik etməyin nədir mənası,
Çalış bir dost ara, nəinki qənim.

Elm öyrənməkçin çalışma tamam,
Libasla sayılır insan dünyada.
Geyinib-kecinib verməsən təam,
Səni salmayacaq bir kimsə yada.

Əql kəlməsini gətirmə yada,
Ona qiymət verən cahanda yoxdur.
İnsan hörmət edir dövlətə-ada,
Dövlətli dəlinin hörməti çoxdur.

Darıxma, qəm yemə, şad ol hər zaman,
Sabah bu günündən pis olacaqdır,
Ömür bir bağçadır, bürümüş duman,
Açmamış qönçəsi tez solacaqdır.

Bir məşuq ara ki, olmasın tayı,
Sənə öz canını eyləsin fəda,
Bir insan duymasın səndən savayı,
Ömrünü keçirtsin sanki yuxuda.

Bir məşuq ara ki, dadmasın hicrin,
Qəlbində olmasın eşqin arası,

Çalış o da olsun sahibi-ürfan,
Şirin danışasız busə arası.

Bir məşuq ara ki, qucaraq səni,
Öpsün gül dodağın hələ sübhidən,
Dadmamış, duymamış qəmü-qüssəni
Sənin yatağını eyləsin vətən.

Bir məşuq ara ki, tutsun belindən,
Yetirsin busəni şəkər dodağa,
Yerlərə qoymasın səni əlindən,
Canını eyləsin sənə sadağa.

Bir məşuq ara ki, alıb **Əhmədi**,
Sübhü-şam vurğun tək baxsın üzünə.
Hər zaman qoynuna salsın Əhmədi,
Yoğurub onu da qatsın özünə.

***22.07.1951***

## GÜLMƏZ

Çərx gərdişinə bax, Yusifi-Kənan gülməz,
Ağlayır simü-zəmin huriyi-qılman gülməz.

Dövr kəcrəftar olub, tapmayırıq azca çörək,
Daima şadlıq edən təxti-Süleyman gülməz.

Qeys olan, Leyli olan çoxdu dəxi aləmdə,
Leyk yox edən vəfa, indi bir insan gülməz.

Can verib, canlar alan nazlı gözəllər çoxdur,
O qədər can alınır hakimi-Loğman gülməz.

Aldı axir cəhanı xar ilə sarın vəhmi,
Gül solub, bülbül ölüb, baği-gülüstan gülməz.

Gün keçib, ömr bitir, həşrə yetişdik deyəsən,
**Əhməd Əfqani** dəxi eyləyər əfqan gülməz.

***07.08.1951***

* * *

Çərx gərdişinə bax Yusifi-Kənan gülməz,[1]
Ağlayır simü-zəmin, indi bir insan gülməz.

Gör necə dövrüdi ki, nanü-nəmək təng olmuş,
Daima şadlıq edən təxti-Süleyman gülməz.

Analar qarə geyib, körpə uşaqlar sızlar,
Nə pərivü mələkü huriyü qılman gülməz.

Bu nə əyyamidi ki, yoxdur hüquq, azadlıq,
Nə xəbisü, nə cüğulü, nə də şeytan gülməz.

Yox olub ayinü-din, məzhəbi-tərsa çoxalıb,
Əhd edər ali Məhəmməd, dəxi bir an gülməz.

Bu qəvi dairədə zülmü məşəqqət bol olub,
Təsvirə aciz olub İncilü Quran gülməz.

Bir günah işləmədən çoxları zindanə düşür,
Ömr karvani gedər qüssəli, sarvan gülməz.

Bir ovuc nakəsə bax, zülm eləyir alilərə,
Düşərək xaki-qəmə hakimi-dövran gülməz.

---

[1] 2-ci variant

İnciyər …………… simü zəmin aləm ara
Dərdli **Əfqan**i kimi eyləyər əfqan gülməz.

* * *

Saxlamaqla ata kürkün daralmaz,
Əqli olan daxmasını dar almaz,
Mərd igidlər çörək verər, daralmaz,
Əqlin varsa bil qədrini yarının.

Bir kəlməylə mən tək gülü almasan,
Rüxsaridə ənbər-əfşan almasan.
İmdad elə özgəsini almasan,
Əqlin varsa bil qədrini yarının.

Bir qulaq ver fəryadıma, dadıma,
İgid olsan, yetişərsən dadıma.
Ləbim deyir nə deyirsən dadıma,
Əqlin varsa bil qədrini yarının.

***İyul 1951***

* * *

Sən, ey ulu qüdrət, məni yaradan,
Bilmirəm ustasan, yoxsa ki, nadan.
Məni gətirərkən bu dünyayə sən,
Söylə bu günümü düşünmüşmüsən.
Sən mənim cismimə verirkən nəfəs,
Nə üçün yerimi eylədin qəfəs.
Sən mənim gözümə verirkən işıq,
Onu zindanamı verdin yaraşıq.
İndi ki dünyada yoxmuş etibar,
Onda yaşamağın nə mənası var?

***Aprel 1951***

* * *

Sən ey dünyalarca istəyən məni,
Köçürəm dünyadan sevərək səni.
Məni nakam qoydu dövri-sitəmkar,
Məni zəlil görüb sevindi əğyar.
Gətirib başıma yüz dürlü kələk,
Məni gülünc etdi dünyayə fələk.
Axıb gözüm yaşı döndü ümmana,
Ümidim gəlmədi bircə insana.
Bu qoca dünyada olmadı bir kəs,
Verə mən bədbəxtin səsinə bir səs.
Çox az yaşadımsa, gəzdim çox uzaq,
Bircə yer görmədim olmasın kazak.
Hər yerdə min fitnə, min cürə yalan,
Görmədim fəqiri bir yada salan.
Baxışlar aldadır, qaşlar çatılır,
Namus para üçün ucuz satılır.
Ata öz oğluna etmir etibar,
Dostlar düşmən olub, qohumlar əğyar.
Nə saf məhəbbət var, nə doğru peyman,
Nə elmə həvəs var, nə dinə inam.
Görüb bu haləti mən bəxti qara,
Tək bircə ölümdə tapmışam çara.
Ölüm çox şirindir belə həyatdan,
Qəbir çox yaxşıdır bu toy-büsatdan.
Sən ey gənc ömrümü aldadıb çalan!
Ağlayıb dalımca tökmə yaşi-qan,
Əgər mən getsəm də fani dünyadan,
Yerimdə nə qədər desən var nadan.
Yenə də birini alarsan ələ,
Salarsan mən kimi olmaz müşkülə.

Barı bundan belə gün verмə hədər,
Onu ürəkdən sev, duymasın kədər.

***23.06.1951***

## BİLMƏDİN

Oldum aşiq mən sənə Şirini Gülşa, bilmədin,
Qeys tək düşdüm çölə, bir şuxi Leyla, bilmədin.

Mən ki, mahi-Kənanam, dünya olub aşiq mənə,
Padişahəm Misridə, amma Züleyxa, bilmədin.

Hər nə gördüm dəhridə, ancaq bəlavü-dərdü-qəm,
Çox dolaşdım, göz yaşımdan qeyri dərya, bilmədin.

* * *

Dilərəm ali xudadən olasan yar mənə,
Gecəmi, gündüzümü eyləyəsən tar mənə.

Sevərək sərvi boyun, oxşayaram həsrətlə,
Sən dəxi naz edəsən, tən edə əğyar mənə.

Vurasan, qışqırasan, sonra da təhqir edəsən,
Qovasan fövr[1] ilə, bəlkə ola ar mənə.

Səni görcək, ürəyim başi də yüz rəng çalır,
Zərrə təsir eləməz cəngü, kaman, tar mənə.

Səndən ötrü, gözəlim, qönçə gülüm, tərk etdim,
Görürəm böylə halı, qismət imiş xar mənə.

---

[1] Fövr – tez, tələsik, cəld.

Nədir, aya, səbəbi cümləni sevdin, məni yox,
Bir özün fikr eləsən, çox eləyir kar mənə.

Xeyli vaxtdır ölürəm, amma dəva etmirsən,
Kim nə istərsə desin, həqqi dəxi var, mənə.

**Əhmədə**m, hər kimi sevdim, elə əfqan elədim,
Neyləyim kim yox imiş yari-vəfadar mənə.

***10.08.1951***

* * *

Bu solğun çöhrəmi görcək deyirsən sünidir rəngim,
Solubdur gülşənim sənsiz, doyulmaz əski ahəngim.
Mən ol şəhbazi-hüsnəm ki, mənə mail olub aləm,
Məni aldatma eşqinlə, inan qorxunc olur cəngim.

***1951***

* * *

Onun ismini çəkmək mənə işgəncədir artıq,
Mənim canım onunçun bir gözəl əyləncədir artıq,
Məni çox aldadıbdır ol, yalan vədi qurtarmaz heç,
Sönübdür atəşim ondan, könül bir gəncədir artıq.

* * *

Az ömrü əziyyətdə keçirmək nəyə lazım?
Min cövrü-müsibətdə keçirmək nəyə lazım?
Gər gülmək olursa bu gülistanidə mümkün,
Hər sübhi məşəqqətdə keçirmək nəyə lazım?

***1951***

* * *

Nə günə saldı görün yar verən badə məni,
Kədərü-dərdü-qəmə eylədi amadə məni.

Dedi sevdim səni mən, mən də inandım sözünə,
Gəzdi əğyar ilə ol, salmadı bir yadə məni.

O yalan kəlmə dəxi odlara yandırdı canım,
Etdi məcnuni-qəmin tayi bu dünyadə məni.

Etmişəm tərki-vətən, qüssə tutub dörd yanımı,
Fərz edin təkcə qalan bir çöpə dəryadə məni.

Bu fəqir **Əhmədi** sev, qoyma yana atəşinə,
Rəhm fəryadimə qıl, salma bu fəryadə məni.

***14.10.1951***

## OLMUŞAM

Gəlmişəm bazarə mən, Yusifi-Kənan olmuşam,
Xəlq çıxıb pişvazıma, bir növi sultan olmuşam.

Baş əyir ali əba, hər yanda şadlıqdır tamam,
Xoş keçir şəhrin günü, çün ona mehman olmuşam.

Padşah qan-yaş tökür, sultanilər qarşımdadır,
Cümləsi yalvarmada, qiymətli dərman olmuşam.

Bir səxavət əhliyəm, hər kəs alar öz mətləbin,
Paylaram könlümdəkin, sahibi-ehsan olmuşam.

Mən ki bir dərya idim, vardı kənarım hər tərəf,
Göz yaşım artır müdam, bir hədsiz ümman olmuşam.

**Əhməd Əfqani** deyir qəlbimdə var daim kədər,
Ey mənə tən eyləyən, eşqində qurban olmuşam.

Dün səhər dostum mənə qəlbin verdi, rədd eylədim,
Sevmişəm biganəni, əmma peşiman olmuşam.

***Oktyabr 1951***

* * *

Atəşi-eşqi bu gün dərdü-dili zar elədim,
Göz yumub dustilərə, söhbəti-əğyar elədim.

Mey alıb, busə verib, bir gecə peyman yazdıq,
Aşiqin qəlbini mən dərdə giriftar elədim.

***1951***

* * *

Yetirib sən kimi bir dilbəri dövran İncəgül,
Gəzəsən dünyada yox sən kimi canan, İncəgül.

Kim deyir hüsnidə Şirinlə yarışmaq yaramaz,
Padişah hüsnlü sənsən, qulidi Kənan, İncəgül.

Hansı bir aşiqə Loğman elədi zərrə əlac,
İndi səndən arayır dərdinə dərman, İncəgül

Baxıban gözlərinə söyləməm xaliq yaradıb,
Eyləyib təzim sənə, gətirib iman İncəgül.

Seyr edib diqqət ilə  Kəbə misal surətinə
Gör otuz üzvünü sən heç olu Quran İncəgül.

Nə qədər ali olam, sadə ürək aşiqiyəm,
Bu səbəbdən oluram mən sənə mehman İncəgül.

Gər ki sevsən birisin, bir ürəyin vermə ona.
İstəsə xərci-qədəm, kəs məni qurban İncəgül.

Etmişəm ləblərimin sahibi-sərdari səni,
O qədər əm olari taki axa qan İncəgül.

Dolamaqçın belimə qolları izn istəmə gəl,
O qədər sıx bədənim, bəlkə çıxa can İncəgül.

Üç gecə, üç gündüzü xəlvət otaqlarda qalaq,
And ola qüdrətimə, istəməsən nan İncəgül.

Bil ki, hər aşiqə beş günlük olur eşqi-tərim
Belədir xasiyyətim, olma peşiman İncəgül.

Sevsə **Əhməd** birisin, axiri əfqan eləyir,
Sən düşün, aqibətin eyləmə əfqan İncəgül.

***18.10.1951***

## OĞUL

Getmə, ey sərvi-rəvan, nuriyi-çeşmanım, oğul!
Getmə, əflakə yetər naleyi-əfqanım, oğul!

Mən fəda gözlərinə, tökmə yaşın şurilə sən,
Yetirər hüsnə xələl, Yusifi-Kənanım, oğul.

Hansı bir şəxsidir övladını naqis diləyə,
Cümlə aləm ki bilir, yoxdu bu dərmanım, oğul.

Söylə bir, hansı gülün eşqi səni lal elədi,
Ta düşüm payinə mən, qalmadı imkanım, oğul.

Hansı dilbərdi səni aşiq hesab eyləmədi,
Kimsə adəm deyil ol, faxiri-sultanım, oğul.

Bu məharət, bu şücaət, bu məlahət ilə sən,
Layiq idin olasan Sureyi-Quranım, oğul.

Tutma bir sinəni, imdad elə, ah çəkmə, aman,
Bil ki, od tutdu sinəm, qalmadı bir canım, oğul.

O vərəm kəlməsini bir də gətirmə dilinə,
Şükri qıl xaliqinə, ey dini-imanım oğul.

Fikr insanilə düşməndi əzəldən bunu bil,
Olma dost fikrilə sən, həkimi-Loğmanım, oğul.

Şadlıq et dünyada imkan var isə hər nə qədər,
Çal, oxu, oynaginan, böylədi fərmanım, oğul.

Çox tələsmə qəbirə, çox yatacaqsan orada,
Bircə gün ömr eləsən kor olur düşmanım, oğul.

Adım **Əhməd** köməyin olsun, getmə, dayan,
Sən də getsən, dəxi lap boş qalı dörd yanım, oğul.

***20.10.1951***

* * *

Getmə, ey ruhi-rəvan, Yusifi-Kənanim, oğul![1]
Getmə, əflakə yetər naləvü-əfqanim, oğul!

O vərəm kəlməsini bir də gətirmə dilinə,
And ola xaliqə kim, yoxdu bu dərmanim, oğul!

Hansı dilbərdi səni aşiq hesab eyləmədi,
Ta düşüm payinə mən, qalmadı imkanim, oğul!

Fikr insan ilə düşməndir əzəldən, bunu bil,
Çal, oxu, oynaginən, böylədi fərmanim, oğul!

---

[1] 2-ci variant

Mən fəda gözlərinə, tikmə gözün səqfə tərəf,
Sən də getsən dəxi lap boş qalı dörd yanim, oğul!

Dolanım başinə mən, yıxma atam xanəsini,
Sərv tək göylərə qalx, kor ola düşmanim, oğul!

Bu məharət, bu şücaət, bu səxavət ilə sən,
Layiq idin olasan sureyi-Quranim, oğul!

Canimə düşdü alov, göz yaşı söndürməz onu,
Rəhmə gəl, səbr elə bir guşeyi-rizvanim, oğul!

**Miskin Əfqani** hər an sidqi-ürəkdən diləyir:
Təxir et, canim ola caninə qurbanim, oğul!

* * *

Ölüm xoşdur, əziz dostum, belə dünyayə baxdıqda,
Çoxalmış cövrü-zülmətlər, tökülmüş yollara ətlər,
Alır insanı dəhşətlər, belə səhbayə baxdıqda.
Cavan bel bənzəyir yayə, axan yaşlar dönüb çayə,
Gələrmi dərdlərim sayə, vəli şeydayə baxdıqda.
Edilməz hörmət ünnasə, tərəhhüm yoxdu bir xasə,
Batır cümlə-cahan yasə, gələn fəryadə baxdıqda.

***1950***

## VAQİFƏ NƏZİRƏ

Gəzirdim eyş üçün dəhri, fəqət hər yerdə qan gördüm,
Bol olmuş qüssəvü-nalə, çıxıb ərşə fəqan gördüm.

Soyuq gördüm dəmi-eşqi, çəkən yoxdur qəmi-eşqi,
Bilən yoxdur qəmi-eşqi, könül mülkün talan gördüm.

Tutub cəllad şəmşiri, olubdur nəşin həmşiri,
Həmi gənci, həmi piri, çəkirkən ah, aman gördüm.

Tükənmiş ellərin nani, unutmuş əhdü-peymani,
Üzülmüş çoxların canı, atıbdır din-iman gördüm.

Susub bülbül, solub aləm, qızıl qanə dolub aləm,
Xudayə, məhv olub aləm, elin halın yaman gördüm.

Ölübdür ali Xəyyamlar, qalıbdır Cəmisiz camlar,
Gedibdir köhnə əyyamlar, gəlibdir pis zaman, gördüm.

Tutubdur əşq dünyani, alıbdır cismidən cani,
Nicatə məzlum **Əfqan**i, tapılmaz bir güman gördüm.

***Dekabr 1951***

* * *

Gəzirdim eyş üçün dəhri, fəqət hər yerdə qan gördüm,[1]
Bol olmuş qüssəvü nalə, çıxıb ərşə fəqan gördüm.

Düşübdür ayrı qardaşlar, tökülmüş üzlərə yaşlar,
İtirmiş əğlini başlar, olubdur bir saman gördüm.

Ölüb bülbül, solub bağlar, çəkilmiş sinəyə dağlar,
Təbiət yas tutub ağlar, hala yox bir yanan gördüm.

İtirmiş şəklini üzlər, xəyanət eyləyir gözlər,
Xilafi-əhd olub sözlər, könül mülkün talan gördüm.

Düşübdür təxtidən şahlar, olubdur ali-bədxahlar,
Çatırmış ərşə bu ahlar, cəhani mən viran gördüm.

[1] 2-ci variant

Ölüb çoxlar, qalan azdır, qalan matəmləri sazdır,
Biri yox, cümlə qanmazdır, tapılmaz bir qanan, gördüm.

Sönüb məclisdəki şamlar, qalıbdır Cəmisiz camlar,
Gedibdir yaxşı əyyamlar, gəlibdir pis zaman gördüm.

Axıbdır ellərin qani, tutub hər səmti, hər yani,
Nicatə məzlum **Əfqan**i, tapılmaz bir güman gördüm.

## ELƏMƏZ

Bilmirəm qəsdi nədir, dust məni yar eləməz,
O qədər cövr eləyir kim, onu əğyar eləməz.

Görübən hiss eləyir şəmi kimi yanmağımı,
Sanki daşmış ürəyi, zərrə ona kar eləməz.

Başqa bir dilbər ilə hər gecə qarşımdan ötər,
Düşmərəm yadinə mən, görsə məni ar eləməz.

Bilirəm ömr keçir, surəti-halim dəyişir,
Hansı məxluqidir axirdə fələk xar eləməz.

Kim desə mən sevirəm, zərrə inanmam sözünə,
Hansı aşiqdi məni dərdə giriftar eləməz.

Öldürər zülm ilə ol, söz deməyə vermir aman,
Belə birəhmiliyi Şümri-xətakar eləməz.

Mən ki, əvvəl şad idim, dost mənə **Əfqan**i dedi,
Tulladı bəhri-qəmə, indi də qəmxar eləməz.

***11.11.1951***

* * *

Gəlmişəm insafa, çıxmışam çölə,
Keçməginən badi-fənadən, oğlan.
Qoçaqlıq et, öp üzümü, quc belim,
Bir şey çıxmaz nəzri-duadən, oğlan.

Səhər tezdən gəl gir mənim bağıma,
Dolanginən həm soluma, sağıma,
Kənar gəzib yanmaginən dağıma,
Düşməginən şövqi-ziyadən, oğlan.

Çox həsrətlə baxma gül yanağıma,
Şəhdü-şəkər axan al dodağıma,
Bir dəfə əl apar tər buxağıma,
Uzaqlaş qüssəvü-nəvadən, oğlan.

Hörmət etməginən adü-sanıma,
Cəllad kimi həvəs eylə qanıma,
Gecə-gündüz gəl gir mənim yanıma,
Düşməginən şövqi-ziyadən, oğlan.

Lalə deyib sən öpginən üzümü,
Bulaq deyib tərif eylə gözümü,
Şəkkər deyib ixrac etmə sözümü,
Çox danışma cövri-cəfadən, oğlan.

Şöhrətim tutsa da cümlə dünyani,
Heç də incitmərəm sən tək insani,
Bu qədər eləmə ahü-fəqani,
Bir şey çıxmaz nəzrü-düadən, oğlan.

**Əfqan**i söyləyir çalma udunu,
Şadlıq eylə görməsinlər dudunu[1],
Al məni qoynuna, söndür odunu,
Əl çəkginən böylə həyadən, oğlan.

***06.02.1952***

* * *

Allah döndərəydi mən də olaydım,
Geydiyin ipəyin, şalın, ay Sənəm.
Tel qıvırcıq, bədən tir-tir titrəyir,
Yumşaq olur qəddi-dalın, ay Sənəm.

Min işvə var, min qəmzə var gözündə,
Min lətafət, şirinlik var sözündə,
Milçək uçsa yeri qalar üzündə,
Düz gətirib bəxti-falın, ay Sənəm.

Mən vurğunam sənin incə belinə,
Xoş kəlamsan, qənd səpilib dilinə.
İcazə ver gəlim sənin elinə,
Əmim dodağından balın, ay Sənəm.

**Əfqani**yəm, uzaq ellər gəzərəm,
Həsrət çəkib cavan canım üzərəm,
Hər dərdinə, firqətinə dözərəm,
Gər yetişə bir vüsalın, ay Sənəm.

***18.12.1951***

[1] Dud – kədər, qəm, ah-nalə.

* * *

Ahu gözlüm qaş-göz edib birinə,
Yenə məni qalmaqalə salıbdır.
Eşq atəşi, yar həsrəti, qəlb dağı,
Görün məni necə halə salıbdır.

Nə zamandır aldanıram sözünə,
İnanıram əyrisinə, düzünə,
Göz cəlladdır, baxa bilməm üzünə,
Bəxtim məni bir zəvalə salıbdır.

Gah günlərlə dindirirəm, dinməyir,
Gah naz edir, işvə verir, gülməyir,
Gah söz verir, yalan edir, gəlməyir,
Bunlar məni yüz xəyalə salıbdır.

**Əfqani**yəm, düşdüm dərin ümmana,
Fələk məni tuş elədi nadana.
Mən nə deyim söz bilməyən insana,
Sirri-sözüm hər mahalə salıbdır.

***15.02.1952***

* * *

Demə ki, göz yaşının aç səbəbin,
Eşidib bil ki, vüsaldır səbəbi.
Sevirəm, açmamışam eşqimi mən,
İztirabın belə haldır səbəbi.

Kimsədən istəmirəm mən köməyi,
Çox şükür ki, sevirəm pak əməyi.
Unutmur gündə «sevirsən?» deməyi,
Ağlamağın bu sualdır səbəbi.

**Əhmədə** gündə deyirlər a nadan,
O deyil ömrü boyu sözün tutan,
Vurarıq, öldürərik, bəsdir, utan,
Belə halın, qilüqaldır səbəbi.

***1948***

* * *

Çıxmışam çovğundan, borandan, çəndən,
Aşiqlər ilhamı alırlar məndən,
Doymaram dünyalar durduqca səndən,
Aparsa da dərdin məzarə məni.

***1948***

* * *

Deyirsən qucsaydım incə belini,
Sorsaydım qəndab tək şirin dilini,
Öpsəydim qonçə tək gül dodağını,
Doyunca əmsəydim ağ buxağını.

Qara fikirləri başdan atsaydım,
Səninlə bir gecə bahəm yatsaydım,
Bütün hisslərimi edərdim rahət,
Mən də peyğəmbərə edərdim beyət.

Deyirəm, əzizim, heç bu olarmı?
**Əhmədağa** sənlə birgə qalarmı?
Məgər bilməyirsən bu məsəli sən,
Üstdən su tökülən quyu dolarmı?

***1948***

* * *

Mən dünyada dövlət nədir bilmədim,
Çox ağladım, göz yaşımı silmədim,
Cavanlıqda öz qədrimi bilmədim,
Yetən bidərdlərə dərman eylədim.

Təhqir edənlərə can qurban etdim,
Əyri yol tutmayıb, doğruya getdim.
İmdad istəyənin dadına yetdim,
Canım diləyənə qurban eylədim.

İndi qəm-qüssələr aşıb başımdan,
Axar çay yaranıb gözüm yaşından.
Ən istəkli dostdan,  həm qardaşımdan,
Mən səni özümə sultan eylədim.

***1947***

* * *

Mən – Ey gözəlim, yetişməsəm vəslinə,
Bil ki, dünya qopar, yüz min qan olar,
Kim bir dəfə baxsa sənin üzünə,
Qüvvətlənər, igid, pəhlivan olar.

O – Bəsdir, sözlərinin arasını kəs,
Paxıl olan dövlət-vara yetişməz,
Sənin kimi bir müxənnət, bir nakəs,
Min yalvarsa, bir vüsala  yetişməz.

Mən – Qurban olum sənin incə belinə,
Nə bəzəkdir sən vurmusan telinə,
Çox yəqin ki, qənd səpilib dilinə,
Gəl bir öpüm, səni öpən xan olar.

O – Hərcayi sözləri bir yana burax,
Mən deyən sözlərə yaxşı ver qulaq.
Mənə tay deyilsən, əbləh qurumsaq,
Zəhmət çəkmə, əlin bala yetişməz.

Mən – Sənəm, sənə kimliyimi bildirrəm,
Dost-düşmanı hər gün sənə güldürrəm,

Gər razı olmasan, səni öldürrəm,
Səni qucan bir əbədi can olar.

* * *

O – Oğlan, bu sözlərin cümləsi saxta,
Hələ çox qalıbdır sən deyən vaxta,
Məni yetirsən də tac ilə taxta,
İndi qışdır, nərgiz, lalə yetişməz.

Mən – Gətirərəm yola hər cür tör ilə,
Bir atəşsən, gəl yoldan ol qor ilə.
……………………………………..
……………………………………..

***23.08.1948***

## ÜRƏYİM OLUBDUR YARƏ, GÜLBAHAR

Hicrin məni dərdü qəmə salıbdır,
Əqlimi, huşumu əldən alıbdır,
Bir vəfasız ürəyimi çalıbdır,
Bülbüləm, rast oldum xarə, Gülbahar.

Çıxıbdır əflakə ahü-fəqanım,
Gedibdir cismidən taqəti-canım,
Bir də şad olmağa yoxdur gümanım,
Çıxart məni növbaharə, Gülbahar.

Oxlanmış sinəmin töküldü qani,
Gedibdir cismimin tabü-təvani,
Məzlum **Əfqani**nin sənsən gümani,
Canım qurban səntək yarə, Gülbahar.

***24.05.1952. Cəngən***

* * *

Bəla bəhrində çırpınmaq mənə axirdə ar olmuş,
Şurim naləvü əfqan, işim ahilə zar olmuş.

Fələk salmış məni dildən, gedibdir şöhrətim əldən,
Deyildir xəlvəti eldən, cahanə aşikar olmuş.

Baxırkən səmti-səhbayə, dönür göz yaşlarım çayə,
Çəkilməz dərdlərim sayə, məlul qəlbim aşkar olmuş.

Əl üzdüm xanimanımdan, uzaq düşdüm məkanimdən,
Bezar oldum bu canımdan, qəmi-hicrin şərar[1] olmuş.

Kimi tən[2] eyləyir gendən, gedibdir taqətim təndən,
Hamı üz döndərib məndən, qohum-qardaş kənar olmuş.

Cahanda etibar yoxdur, şirin sözlər qəni oxdur,
Ey **Əfqan**i! Qəmin çoxdur, könül düşmənlə yar olmuş.

***May 1952. Cəngən***

* * *

Gözəlim, başinə yüz huriyi-qılman dolanır,
Tutmayıb səbrü-qərar, hər saat, hər an dolanır.

Ah çəkib, aşiqinin qəlbini qan eyləmə çox,
Çəkmə qəm, dövrənə yüz hakimi-Loğman dolanır.

Cilvəli qumru kimi seyri-çəməngah eləmə,
Göz dəyər surətinə, dünyani Kənan dolanır.

---

[1] Şərar, şərər – fəlakət, müsibət.
[2] Tən, tənə - qaxınc, zərbə.

Neçə aşiqləri ki, qarə gözün bənd eləyib,
Çıxmayır dişrə[1] dəxi, dəhridə[2] pünhan dolanır.

Dərdli **Əfqani** yanır eşq oduna sübhü məsa,
Görərək hicr odunu eyləyib əfqan dolanır.

***Sentyabr 1952. Cəngən***

## ƏFSANƏYƏM

Getmədə səbrü-qərar, zənn eylə ki, divanəyəm,
Çəkmədə dərdü-bəla, Məcnun kimi əfsanəyəm.

Can gedir, surət solur, məqsəd ölür, yox ixtiyar,
Həqqidir cismim durur, ruhimlə mən viranəyəm.

Sübhü-şam[3] atəşlərə qurban gedir miskin könül,
Yanmada cismi-tənim, el zənn edir pərvanəyəm.

Artırır hər ləhzədə min fellə dövran zülmünü,
Gəncliyim getmiş hədər, bir nisbəti-piranəyəm.

Səbr qıl **Əfqan** bu gün, öyrən zamanın fikrini,
Bəlkə mən huşyar deyil, çoxlar kimi məstanəyəm.

## YOX
### Əzizəyə məktub

Xəbər alsan Udulunun halını,
Arpası yox, samanı yox, otu yox.
Çörəyi qıt olub, ət ələ düşməz,
Qatığı yox, qaymağı yox, südü yox.

[1] Dişrə- dışarı, çöl, bayır.
[2] Dəhr- dünya, aləm, cahan.
[3] Sübhü-şam – səhər-axşam

Mal-qara yox, umud qalıb keçiyə,
Bazar görsə alınmaz heç neçiyə,
Həsrətdilər bozartmaya, beçəyə,
Eşşəyi yox, dəvəsi yox, atı yox.

Susuz qalıb quruyubdur bağları,
Yer qocalıb, çürüyübdür tağları,
Evdə yoxdur bir bişirim yağları,
Qotur düşüb, bir salamat iti yox.

Yayda istisi çox, qışda soyuğu,
Dam-daşları siçanların oyuğu.
Tez-tez azar düşüb qırır toyuğu,
Pisi çoxdur, bir yaxşıdan qatı yox.

Yolma yolub əyilibdi belləri,
İşləməkdən çolaq olub əlləri,
Evlərində dizə çıxıb külləri,
Heç birinin sövmü[1], nə səlatı[2] yox.

Əkin vaxtı bunları çox öyürlər,
Xırman üstə acıqlanıb söyürlər,
Bölgü vaxtı bəs deyincə döyürlər,
Asılmağa sicim, örkən, çatı yox.

Briqadir olubdu bunlara ağa,
Sədr qovur gah arana, gah dağa,
İspolkom çox şeyi edib qadağa;
Geyinmək yox, dincəlmək yox, fatı yox.

---

[1] Sövm – oruc, oruc tutma
[2] Səlat – namaz, dua, dəfn günü dəfn günü vəfat edənin evinin damından uca səslə oxunan münacat.

Təzə paltar, ayaqqabı bilməzlər,
Səhər-axşam ağlayarlar, gülməzlər,
Üzülərlər, incələrlər, ölməzlər,
Çoxusunun müsəlmandan qatı yox.

***14.10.1965***

## GƏL BƏRİ

Gecələr yuxusuz, gündüzlər yorğun
Üzülübdür cavan canım, gəl bəri.
Dərdü-qəm əlindən dəli olmuşam,
Tapılmayır bir dərmanım, gəl bəri.

Gedibdir əlimdən tabü-taqətim,
Pozulubdur əvvəlki istirahətim,
Həm bəxtim yatıbdır, həm səadətim,
Qalmayıbdır bir gümanım, gəl bəri.

Zülm ilə aldılar mülkü-malımı,
Dostlarım itirdi etibarımı,
Ayırdılar məndən vəfadarımı,
Göz-gözədir dost-düşmanım, gəl bəri.

***22.08.1966***

## NƏDİR

Sən gedəli Məcnun kimi olmuşam,
Bir bilmədim sənət nədir, kar nədir?
Utanmayıb matəm tutdum həmişə,
Heç bilmədim tənə nədir, ar nədir?

Həsrətindən sızıldadım, ağladım,
Dərya kimi köpükləndim, çağladım.

Qara geydim, daim qara bağladım,
Heç bilmədim kaman nədir, tar nədir?

Gözüm yaşı axdı-axdı çay oldu,
Səbrim getdi, cavanlığım zay oldu.
Ömrüm keçdi, gəzdim sənin dalınca,
Heç bilmədim boran nədir, qar nədir?

## AMAN GÜNÜDÜR

Bircə dayan, uzmə mənim canımı,
Getmə, gözəl, getmə, aman günüdür.
Zülm eləyib tökmə nahaq qanımı,
Getmə gözəl, getmə, aman günüdür.

Heç demədin niyə oda yanırsan,
Yoxsa məni bir pərvanə sanırsan?
Deməsəm də, sən dərdimi qanırsan,
Getmə, gözəl, getmə, aman günüdür.

Niyə bizə belə gec-gec gəlirsən?
Gələndə də əhvalıma gülürsən,
Deməsəm də, sən dərdimi bilirsən,
Getmə, gözəl, getmə, aman günüdür.

Yar yolunda duman olar, qar olar
Eşqin odu alovlanar, nar[1] olar.
Hansı vaxtı **Əfqan** sənə yar olar,
Getmə, gözəl, getmə, aman günüdür.

---

[1] Nar – od, atəş, cəhənnəm, dərd, qəm, kədər.

## AMAN DİLBƏR

Vurulmuşam sən tək cana
Aman dilbər, aman dilbər.
Rəhm et, məni salma qana,
Aman dilbər, aman dilbər.

Hər kim sevsə sən tək canı,
Əldən gedər din-imanı,
Hüsnüdə ötdün Kənanı,
Aman dilbər, aman dilbər.

Baxışların candır mənə,
Qaşların düşmandır mənə.
Ləblərin dərmandır mənə,
Aman dilbər, aman dilbər.

Xumar-xumar gözlərin var,
Şirin-şirin sözlərin var.
**Əfqan** kimi yüzlərin var,
Aman dilbər, aman dilbər.

## EYLƏMİŞƏM

Ömrüm boyu gözləyərək yolunu,
Bil ki, gəncliyimi puç eyləmişəm.
«Gələr» deyib aldatmışam özümü,
Adımı, sanımı heç eyləmişəm.

Adın çəkiləndə öyünmüşəm mən,
Uzaqdan görəndə söyünmüşəm mən,
Xəlvətdə ağlayıb döyünmüşəm mən.
Bir dərdimi iki, üç eyləmişəm.

Yandırırsan məni moltanı kimi,
Alırsan canımı nəsrani kimi.
Bir gün eşidərsən **Əfqani** kimi
Bu fani dünyadan köç eyləmişəm.

## SƏN OLMASAYDIN

Ey məni odlara yandırıb-yaxan!
Ömrümdə gülməzdim, sən olmasaydın.
Neynirdim dövləti, şöhrəti, şanı?
Dünyayə gəlməzdim, sən olmasaydın.

Daim qara geyib, qara bağlardım,
Dəli Ceyhun kimi coşub çağlardım,
Gecələr sübhədək bil ki, ağlardım,
Göz yaşım silməzdim, sən olmasaydın.

Bilməm gözəllərdə nədir bu adət,
Vermirlər aşiqə zərrə səadət.
Sən mənə öyrətdin nədir məhəbbət,
Mən bilə bilməzdim, sən olmasaydın.

## GÖZƏL

Deyirlər sevgilinçin
Bu qədər də ağlama.
Axıdaraq göz yaşın,
Ürəyini dağlama.

Deyirlər: de yerini
Gedək onu gətirək,
İki aşiq-məşuqu
Bir-birinə yetirək.

Bilmirlər ki, o gözəl
Hər zaman yanımdadır.
Fikrimdə, ürəyimdə,
Ətimdə, qanımdadır.

Bilmirlər ki, o gözəl
Yandırır hər yetəni.
Ancaq yenə nədənsə
İsindirməyir məni.

***30.10.1966***

## VARMIDIR

**Dərdli Əfqan**, nə intizar çəkirsən?
Səninçin xəyala dalan varmıdır?
Fikr eləyib əlif qəddin bükürsən,
İncisən könlünü alan varmıdır?

İnsanlardan min bir yara alırsan,
Hər bir sözü ürəyinə salırsan,
Özgələrin qayğısına qalırsan,
Sənin də qeydinə qalan varmıdır?

Neynəyim, ülvidir pak məhəbbətin,
İndi ki, dadmırsan vəslin şərbətin.
Dostlardır daima sözün-söhbətin,
Səni də yadına salan varmıdır?

## OLSUN

Yarsız, demə bir gündüzüm, ya ki, gecəm olsun,
Onsuz yaşamam dünyada, haşa, qəsəm olsun.

Qoymam dəyə bir qeyri şeyə yari-vəfadar
İnsan nədir, heyvan nədir, istər ki, cəm olsun.

Yox, yox, nə gərək özgə nəzər diklənə yarə,
Ulduz nədir, gün-ay nədir, istər ki, şəm olsun.

Verrəm yarıma dünyanı peşkəş, mənim olsa,
Yer-göy özü azdır, nə ki, Rumü Əcəm olsun.

Razı deyiləm, yar ilə əğyar danışsın,
Əğyar kənardır, nə ki, istər dədəm olsun.

## QURAN OXU

Quran oxu, Quran ilə tap sidqü-sədaqət,
Quran oxu, Quran ilə ta bağla rəfaqət.
Quran oxu, tap məhfili Qurana ləyaqət,
Quran oxu, Quran eləyə ta səni təsdiq,
Quran oxu, Qurana elə mərdumi[1]-təşviq[2].

Quran oxu, əhkamın əzəl eylə icabət,
Quran oxu, bir namə səni eyləyə rahət,
Quran oxu, ta eyləmə islamə xəyanət,
Quran gözəl əsrarini vazeh xəbər eylər,
Qurandı hami dəfi bəlovu xətər eylər.

Quran oxu, hər kəlməsi ecazidi Quran,
Kulliyyi-qəvaninə şərəfrazidi Quran,
Hər məzhəbi ədyaninə tutrazidi Quran,
Quran oxu, ta məkrü-riyadən həzər eylə,
Quran oxu, Quran ilə bahəm səfər eylə.

Quran oxu, Qurandadı ərkani-ibadət,
Quran oxu, Qurandadı tofiqu-inayət,

---

[1] Mərdum – insan, adam, bəşər.
2 Təşviq – həvəsə salma, həvəsləndirmə, şövqə gətirmə.

Quran oxu, Qurandadı imanu-dəyanət,
Quran oxu, bahu-pəru-pərvazidi Quran,
Həqq bülbülünə gülşəni purnazidi Quran.

Quran oxu, Qurandı sənə rahu-səadət,
Quran oxu, Qurana elə milləti dəvət,
Quran oxusan, eyləməzsən cürmü cinayət,
Quran oxu, öz rəyin ilə eyləmə təfsir,
Möhkəm mutəşabilərinə olmaya təbir.

Quran oxu, Quranidə yox səhv ilə nisyan,
La reybi vəla yabəsilə əjduru elan.
Quran oxu, Qurandı ürək dərdinə dərman,
Quran oxu, Quranda əzəl ismi duadır,
Quran oxu, Quran hami əzkari-şəfadır.

Quran oxu, mənasına ol sidqilə qail,
Quran oxu, bax əmrinə, fikr eylə, ol aqil,
Qanuninə qanuni digər qoyma müqabil,
Qurani o bir əddə kimi etmə həmayil,
Gəl natiqi-Qurana özün eyləmə qatil.

Girdabidə, tufanidə həmrazidi Quran,
Dərdü-möhnətü qəmlərə dəmsazidi Quran.
Məhşərdə səlamətə həm avazidi Quran,
Qurandı bizə rəhbəri valayi həqiqət,
Qurandı təvəllayi təbərrayi şəriət.

Quran oxu, Qurandan elə əxz fəzayil,
Quran oxu, ta çox eləmə kisbü-rəzayil.
Əmalüvə Quran ilə ver şəkli şəmayil,
Xaliqilə eşq axtarana razidi Quran,
Ta rozeyi-rizvanə dəravazidi Quran.

Qurandı sənin nameyi-əmalivə nazir,
Quran oxu, hami zahiru xəlvətgəhə hazir.
Qurandadı elan eləyən batini zahir,
Quran oxu, Quranı hesab eyləmə asan,
Alma nəzərə nameyi-ruzaneyi-keyhan.

Qurana xəyanət eləməz məsh edən əllər,
Quran oxu, xilaf hökm eləməz vədəli dillər,
Quran gülüni soldura bilməz hami yellər
Quran oxuyan hər tərəfə yel kimi əsməz,
Quran oxuyan riştəvü-vicdanini kəsməz.

Quran oxumaq dərsini al əhli-kəsadən,
Quran oxu, tut dəsti məsakin füqəradən.
Quran səni ta hifz edə afatu bəladən,
Quran idi ecazilə şəggul-qəmər etdi,
Din gülşənini həşrə kimi pursəmər etdi.

Quran oxuyub eyləmə ehkamin həvalə,
Quran oxuyub yazma ona ayrı məqalə,
Quran oxuyub zərbü-məsəl etmə suvalə,
Quran oxuyan dirhəmu-dinarə inanmaz,
Quran oxuyan hər güni bir rəngə boyanmaz.

Quran oxuyub Şumri kimi olma sitəmkar,
Quran oxuyub qoyma Hüseyn başinə xəncər,
Qurana ədavət eləmə, eyləmə əzbər,
Quran oxuyub Xuli kimi eyləmə mehman,
Bir baş ki, oxur nizə başında  özü Quran.

Quran oxuyub zülməti ənvarilə qatma,
Xəlqin içinə təfriqənin daşini atma,
Quran oxuyub kibr sifət mərdümi satma,

Qurani səfər vəqti başun üstünə tutma,
Ayatini, əhkamini fikründən unutma.

Fikr eyləmə Quranidə bir hökmi digər var,
Müşgül olana vazeh olur zəngi xətər var,
Qəbr aləmi var, aləmi bərzəxdə səfər var,
Qurani həqiqət bilənə rozeyi-rizvan,
Qurana müxalif olanın məskəni niran.

Quran oxu, Quranidən al mətləbün axir,
Quran oxu, tapasan səfa batinü-zahir,
Quran oxu, Quran kimi ol Teyyübü Tahir,
Quran oxuyub eyləmə bu milləti təhrif,
Ol hamiyi-Quran, səni Quran edə tərif.

Quran oxu, Qurandan elə dərsini kamil,
Olsun iki dünyadə sənün məqsədün hasil,
Çün məktəbi-Quranidədir hüsnü-Xəzail,
Əxlaqidə, rəftaridə, göftaridə fazil,
Quran oxuyanlar kimi getmə rəhi batil.

Quran oxu, yum gözlərün ayati zinayə,
Quran oxu, ver pulları tənzilü-ribayə,
Al nəfini ta xərg elə təsdidi-binayə,
Quran oxu, get məclisi-məşrubi-qunayə,
Məhşərdə bu Quranidən al talibi-çarə.

Bəh-bəh, nə gözəl fikrə müsəlmani-zamansan,
Xoş ləhnilə[1] göftaridə ərbabi-bəyansan,
Kirdaridə, rəftaridə imanə məkansan,
Sən bilginən, məhşərdə bu Quran özü bilsin,
Quran gətirən hafizi-Quran özü bilsin.

[1] Ləhn – gözəl, ahəngdar səs,

## HƏZRƏT ƏLİNİN NƏSİHƏTLƏRİNDƏN

Hər kimin eybini aşikar görsən,
Onu görməməkçün gözünü yum sən.
Yaxşı iş görməyə çalış həmişə,
Qoy dilin susmağı eyləsin peşə.
Yüngül adamlardan uzaq ol, uzaq,
Onlarla nə dost ol, nə də ki, qonaq.
Göstərmə paltarla, varla özünü,
Alma qulağına bazar sözünü.
Yüksək bir iş üçün çalış hər zaman,
Çalışma zövq üçün dünyada, aman.
Çalışma ötməyə onu, bunu sən,
Sən ki, başqasından artıq deyilsən.
Mey içib ağlını gəl vermə bada,
Özünü, ailəni tapşırma yada.
Dostluqda dost ilə bir ol, səmimi,
Bir qalaq içində cüt ləpə kimi.
Dosta öyüdlər ver, öyüd al ondan,
Ona irad tutma ancaq heç zaman.
Hər zaman pay ayır yetimə, aca,
Hər zaman arxa dur dula, möhtaca.
Bir yalan kəlməni gətirmə dilə,
Çalış ki, hamıya yaxşılıq elə.
Qohumdan-qardaşdan çox düşmə uzaq,
Özünü onlardan incitmə nahaq.
Qohumu-qardaşı alçaltma bir an,
Özün alçalarsan bununla, inan.
Pullusan, qohuma öymə özünü,
Səxavət etsən də, anla sözünü.
Həmişə xoş danış, olma pərişan,
Xalqa köməklik et, olduqca imkan.

Xəstə yoxlamaqdan darılma əsla,
Biri borc istəsə, yox demə pula.
Əgər bir dost tutsan, gəl vermə əldən,
Çalış başladığın əhdi qırma sən.
Qərib adamlara hörmətlər elə,
Qabaqda onları salamla belə.
Çalış şükür elə həqqə hər zaman,
Ta həqqi nahaqqı bilən olasan.
Bir vədə verəndə yubanma, zinhar,
Əgər borc almısan, tez geri qaytar.
Doğru söz deyənə artıq söyləmə,
Borcu istəyəndə zor-güc eyləmə.
Özündən güclüylə alver etmə sən,
Yoxsa dövlətini bada verərsən.
Özündən kiçiklə sən ol qardaştək,
Özünü qabıq say, dostu – iç, özək.
Aslanlar məskəni olan bir mənzil
Namaz qılınmasa, viranədir, bil.
Taətlə[1], xeyirlə ev olar abad,
Xeyir olmayan ev olacaq bərbad.
Evi məscid elə, yaşa bəndətək,
Çağır camaəti ver orda çörək.
Qonşun bilməsən ki, kim olacaqdır,
Ev tikmək, pul tökmək, bil ki, nahaqdır.
Qonşu haqqı-sayın daim əziz tut,
Pis bir iş görülsə, ağartma, unut.
Yanma mal eşqilə, yandırar səni,
Özünə dost etmə qəmi, qüssəni.
Düz danış, düzlüklə ömrü vur başa,
Bu fani dünyada kişitək yaşa.

[1] Taət – Allahın əmr və göstərişlərini yerinə yertirmək, ibadət, itaət.

Özgənin malına eləmə tamah,
Bil ki, gedərisən bu gün, ya sabah.
Elə sözlər danış, şirin, bal kimi,
Böyüklər yanında otur lal kimi.
Dünyada hamıya elə hörməti,
Onda tapacaqsan əsil şöhrəti.
Namazsız, duasız keçsə bir günün,
Çətin ki, açıla sənin düyünün.
İmkanın var ikən yol çək, körpü sal,
Kasıba kömək et, doğru yolda qal.
Fitrəni, zəkatı, xümsü saxlama,
Bir şey əldən getsə, ona ağlama.
Atanın, ananın saxla hörmətin,
Daim artıq olar kəsbin, qismətin.
Uyunma qumara, uyunma meyə,
Ağlı olan kəslər uymaz bu şeyə.
Kimsənin qətlinə yazma fərmanı,
Allah bağışlamaz tökülən qanı.
Böhtan danışmağı bir yolluq unut,
Həmişə düz danış, doğru yolu tut.
Daima əziz tut ulu Quranı,
Qoru şəriəti, dini-imanı.
Burax əyriliyi, yemə haramı,
Diqqətlə, dərindən öyrən İslamı.
Müsəlman hamısı qardaşdır sənə,
Başqa söz boş şeydir, quru əfsanə.
Təriqət sözünü, məzhəb sözünü
Kim desə, ağzın cır, çıxart gözünü.
Cənnət-cəhənnəmə inanmayan kəs
Dünyada rahatlıq, yaxşı gün görməz.

## ƏLİ BİL Kİ, VƏLİDİR

İnsanların əlası,
Möminlərin mövlası,
Düldül, Qəmbərağası,
Əli, Əli, Əlidir,
Əli bil ki, vəlidir.

Odur şiri-qəzənfər,
Odur islamə sərvər,
Odur şahanə rəhbər,
Əli, Əli, Əlidir,
Əli bil ki, vəlidir.

Kim məzhəbi qətl etdi,
Kim Xeybəri fəth etdi,
Kim şöhrəti rədd etdi,
Əli, Əli, Əlidir,
Əli bil ki, vəlidir.

Kimdir qatili-Əntər,
Kimdir şahi-ərənvər,
Kimdir saqiyi[1]-kövsər[2],
Əli, Əli, Əlidir,
Əli bil ki, vəlidir.

Kəbeyi-ülyadı o,
Elmidə dəryadı o,
Hər iki dünyadı o,
Əli, Əli, Əlidir,
Əli bil ki, vəlidir.

---

[1] Saqi- su paylayan, suçu.
[2] Kövsər – Cənnətdə bulaq adı.

Alan Rumi, Kəyani,
Hindi, Misri, İrani,
Heyran edən cahani,
Əli, Əli, Əlidir,
Əli bil ki, vəlidir.

Həqqin mətin qalası,
Nur bürcünün balası,
Zikrillahın əlası,
Əli, Əli, Əlidir,
Əli bil ki, vəlidir.

Xəstələrin dərmanı,
Müşküllərin fərmanı,
Həqqin bizə ehsanı,
Əli, Əli, Əlidir,
Əli bil ki, vəlidir.

Kafirləri itirən,
Bizi dinə gətirən,
Öz meyidin götürən,
Əli, Əli, Əlidir,
Əli bil ki, vəlidir.

Ey rəhməti-ilahi,
Sənsən yerü göy mahi,
Möminlərin pənahi,
Əli, Əli, Əlidir,
Əli bil ki, vəlidir.

Ey hüsni-bibədayət,
Ey lütfi-binəhayət,

Vallah ki, bibəqayət,
Əli, Əli, Əlidir,
Əli bil ki, vəlidir.

Ey nuri-səmavati,
Ey məzhəri-ayati,
Ey cani-cahan zati,
Əli, Əli, Əlidir,
Əli bil ki, vəlidir.

Ey dərdimizə dərman,
Biz gövdəyik, eşqin can.
Ey əjdəri-ərrəhman
Əli, Əli, Əlidir,
Əli bil ki, vəlidir.

Ey cümlə-cahan cani,
Müslimlərin imani,
Simü gövhərlər kani[1],
Əli, Əli, Əlidir,
Əli bil ki, vəlidir.

* * *

Oyan, gözün aç, dur, yalvar gözəl Allaha,
Yolundan heç ayrılma, yalvar gözəl Allaha.

Hər gün namazını qıl, ramazanda oruc tut,
Ver zəkatı, fitrəni, yalvar gözəl Allaha.

Hamıya yaxşılıq et, əl tut, köməklik elə,
Öz nəfsinə hakim ol, yalvar gözəl Allaha.

---

[1] Kan – mənbə, mədən.

Ata-ana hörmətin hər bir şeydən uca tut,
Onlara miskin qul ol, yalvar gözəl Allaha.

Yalan kəlməni demə, böhtanı bir yol unut,
Doğruluq yolunu tut, yalvar gözəl Allaha.

Naşər[1] işlərdən çəkin, ibadət yoluna gəl,
Savab əməllər elə, yalvar gözəl Allaha.

Paxıllıqdan uzaq ol, mərdiməzarlıq etmə,
Şirin danış hamıyla, yalvar gözəl Allaha.

Ömrünü boş keçirmə, nəfsinə qüvvət vermə,
Oyan, qəflət eləmə, yalvar gözəl Allaha.

Halal çörəklə dolan, şübhələrdən uzaq dur,
Yum gözünü harama, yalvar gözəl Allaha.

Sağlığı qənimət bil, hər saatı nemət bil,
Əmrinə itaət et, yalvar gözəl Allaha.

Bir gün gözlərin görməz, qulaqların eşitməz,
Bu fürsət ələ keçməz, yalvar gözəl Allaha.

Günahın çox olsa da, Allahdan ümid üzmə,
Əfvi, kərəmi çoxdur, yalvar gözəl Allaha.

Səhər Allah rəhməti yağır hər məmləkətə,
O vaxt paklanır qəlbin, yalvar gözəl Allaha.

Allahın adın yad et, ruhun və qəlbin şad et,
Bülbül kimi fəryad et, yalvar gözəl Allaha.

---

[1] Naşər – Naşar d. - Qəribə, təəccüblü, yalançı, pis

## SƏNİ

Qürur etmə, asi bəndə,
Əcəl bir gün alar səni.
Bil, əcəldən qaçmaq olmaz,
Harda olsan, tapar səni.

Gəl utan qadir Allahdan,
Çıxmaginən doğru rahdan.
Əl çəkginən bu günahdan,
Vallah rüsvay elər səni.

Eşitginən doğru sözü,
Qəza bağlamasın gözü.
Tərgitmə oruc-namazı,
Həqq nəzərdən salar səni.

Tərkəsalat olmaz bəndə,
Üzü qaradı, şərməndə.
Sirat körpüsün keçəndə
Cəhənnəmə salar səni.

Haqqın əmrini tərgidən,
Şeytanın dalınca gedən,
Daim dünya malın güdən,
Həris bir gün udar səni.

Bu dünya çox bivəfadır,
Ona uymaq bil, xətadır.
Vəfalı dost bir xudadır,
İnanmasan, atar səni.

Tabe olginən Qurana,
Uyma o məlun şeytana.
Gedəndə həqqi-mizana,
Zəbanilər çalar səni.

Yatma dünya qucağında,
Seyr etmə onun bağında.
İncə sirat qulağında,
Qara-qorxu alar səni.

İncitmə el-camaatı,
Saxlama xümsü-zəkatı.
Öyrənginən vacibatı,
Qəza tez aparar səni.

Unutma həqq peyğəmbəri,
Bu sevdadan qayıt geri.
Şirindir dünya alveri,
Heç neçəyə satar səni.

Uyunma dövlətə, pula,
Rəhm elə yetimə, dula.
Vaxt var ikən qayıt yola,
Yoxsa şeytan alar səni.

Məlun şeytan qurar duzaq,
Haqq yoldan olarsan uzaq.
Şaqqalanan o qol-budaq,
Yedəyinə alar səni.

Sarıyarlar səni ağa,
Apararlar dar otağa.

Şeytan deyər: dur ayağa,
Gör nə hala salar səni.

İki mələk gəlib durar,
Nitqin batar biixtiyar.
Cavabın verməsən vurar,
Odlu əmud ilə səni.

Şeytan olar yaxın dostun,
Od ilə doldurar üstün,
İlan-əqrəb alar üstün,
Zəhər ilən çalar səni.

Ta qiyamətə çatınca,
İsrafil surun çalınca,
Həşrü-səhrayə varınca,
Üryan-büryan elər səni.

Ölümü salmadın yada,
Günahın həddən ziyada.
Yol uzun, özün piyada,
Kim əhvalın sorar sənin.

Yolda çox çəkərsən cəfa,
Rəhm eləməz orda Xuda.
Dərdinə tapmazsan dəva,
Sızıldayar yaran sənin.

Bir gün hazır olar meydan,
Qurdurarlar haqq-mizan.
Rəhm eləməz qadir sübhan,
Nəzərindən atar səni.

Çəkərlər səni divana,
Peyğəmbər rəhm etməz sana.
Sağ ikən uymadın ona,
Çox ağırdır yükün sənin.

Günahkarın halı yaman,
Onlar üçün qopar tufan.
Damğalayar məlun şeytan,
Dəstəsinə qoşar səni.

Müti olmadın Allaha,
Qayıtmadın doğru raha.
Aparasrlar seyrəngaha,
Cəhənnəm şəhrinə səni.

Cəhənnəmin şəhərləri,
Od-alovu, zəhərləri.
İlan, çayan, əqrəbləri
Çox zamandı gözlər səni.

Xoş gəldin eləyər sənə,
Cam dolusu zəhər ilə.
Zəqqum ağacından meyvə
Olacaq naharın sənin.

Atarlar nari-səhimə,
Dünyadakı əməl ilə.
İlan-əqrəb didə-didə
Qiyməyə döndərər səni.

Nə qədər eləsən fəryad,
Tapa bilməzsən bir imdad.

Çığırarsan, yandım, ay dad,
Çox odlara yaxar səni.

Deyərlər: ay üzü qara,
İslam dinindən avara.
Yan indi burda biçara,
Qamçı ilə döyər səni.

## ALLAHI SEVİRSƏNSƏ

Ondur firudinin şərti,
İmanınkı isə on altı.
Qafil olma səhər vaxtı,
Qalx, Allahı sevirsənsə.

Danışırsan, doğru danış,
İnsanlarla yaxşı barış.
Dəstəmaz, namaza alış,
Qıl, Allahı sevirsənsə.

Tənbəl olma, et hərəkət,
Evinə gəlsin bərəkət.
Varlı isən xümsü-zəkat
Ver, Allahı sevirsənsə.

Düşünmə, bunlar yorucu,
Olma vurucu, qırıcı,
Hər ildə bir ay orucu
Tut, Allahı sevirsənsə.

Malından səxavət eylə,
Şəhadət sözünü söylə.

Zəmzəm deyilən sudan eylə
İç, Allahı sevirsənsə.

Amandı, demə yalanı,
Başa gətirmə bəlanı.
Nəcəf, Məşhəd, Kərbəlanı
Gör, Allahı sevirsənsə.

Çək bir qədər əziyyəti,
Öyrən dini-şəriəti,
Burax zülmü, ədaləti
Gəl, Allahı sevirsənsə.

Böhtan deyib, ara vurma,
El ilə üz-üzə durma,
Bağladığın əhdi qırma,
Dur, Allahı sevirsənsə.

Şöhrət üçün getmə Haca,
Yox demə bircə möhtaca,
Əl tut aca-yalavaca
Tez, Allahı sevirsənsə.

İncitmə eli, milləti,
Yaxşı dolandır külfəti,
Yadına sal axirəti
Sən, Allahı sevirsənsə.

Yalanı düzə bağlama,
Mal üçün sinən dağlama,
Əldən gedənə ağlama,
Gəl, Allahı sevirsənsə.

Heç vaxt tutma namərd işi,
Dönər dünyanın gərdişi,
Ətəyindən tök bu daşı
Tez, Allahı sevirsənsə.

Müamilə alma pula,
Baxma yiyəsizə, dula,
Düşməginən əyri yola,
Dur, Allahı sevirsənsə.

Məscidləri abad elə,
Zülm evini bərbad elə,
Kasıblara imdad elə
Tez, Allahı sevirsənsə.

At qumarı, şərab içmə,
Dövlətçün canından keçmə,
Milləti doğrayıb biçmə,
Dur, Allahı sevirsənsə.

Düşün vətəni, milləti,
Göstər onlara xidməti,
…………………………
…………………………

* * *

Kim gördü sədaqətləri dillərdən alanı,
Kimdir bizə tədris eləyən kizbü yalanı,
Kim yazdı bizə: cahil hesab et əqilanı,
Ey xuni-dili göz yaşı su misli axan, gəl!
Ey əhli-sitəm qəlbini ədlilə sıxan gəl.

Kim verdi bizə mey ilə tiryakü-qumari,
Kim gördü rəva bizlərə ol tutti azari,
Öyrətdi müsəlmanə o birəhmi bazari,
Ey qanə dönən gülləri gülşən eləyən, gəl!
Pəjmürdələri qönçəvü-susən eləyən, gəl!

Kim söylədi tərk eylə dəxi sovmü səlati,
Təhqir elə hər yerdə bütün el-cəmaati,
Öyrən nə ki, var vəd əməli, dürlü-sitari,
Ey qullarını hakimi-dövran eləyən, gəl!
Ey hər şeyini ümmətə qurban eləyən, gəl!

## KİŞİ

Ayaq qoyub bir məclisə girəndə
Təklifsiz, izinsiz danışma, kişi.
Mollanın, axundun, alimnümanın[1]
Sözü-söhbətinə qarışma, kişi.

Yanındakılarla söhbət eləmə,
Lağlağı danışma, qiybət eləmə,
Kəmhövsələ olma, höcət eləmə,
Onunla-bununla yoluşma, kişi.

Bismillah olmamış ehsanı yemə,
Xörəyə nə yaxşı, nə də pis demə,
Nə gülümsər olma, nə batma qəmə,
Özün göstərməyə çalışma, kişi.

Məclisdə az otur, döşək çürütmə,
Cəmaətə qarşı fikir yürütmə,

---

[1] Alim nüma – yol göstərən alim.

Necə kişiləri cəhlə[1] sürütmə,
Davaya-dalaşa alışma, kişi.

Məclisə girəndə yerini tanı,
Gözlə ağsaqqalı, qərib-mehmanı,
Özünə güldürmə dostu,düşmanı,
Partlayıb, od tutub, alışma, kişi.

Tutaq ki, gəzmisən cümlə dünyanı,
Bilirsən İncili, Tövrat, Quranı,
Dövlətin ötübdü Çəmü-Kəyanı
Yenə də kimsəylə duruşma, kişi.

Tutaq ki, artıqdır varın-dövlətin,
Hamıya bəllidir gücün-qüvvətin,
Dünyanı tutsa da adın-şöhrətin,
Öz elin-obanla vuruşma, kişi.

Özgəni pisləyib, özünü öymə,
Kimsənin dalınca danışma, söymə,
Bir məzlum bəndəni incitmə, döymə,
Belə nakəs işə alışma, kişi.

Paxıllıq eləmə, demə yalanı,
Bil ki, uzaq deyil haqqın divanı,
Evə dadandırma hər cür tulanı,
Çığırıb, bağırıb,qızışma, kişi.

Layiq olmadığın pilləyə çıxma,
Tez-tez köks ötürüb qəlbini sıxma,

---

[1] Cəhl – bilməməzlim, nadanlıq, tərslik.

Mərdə külüng çalma, aman, ev yıxma,
Onunla-bununla duruşma, kişi.

## YALAN DÜNYA

Çoxlar bezib, qaçmaq istər sənin üzündən,
Yalan dünya, yalan dünya, yalançı dünya.
Zəhər yağır, nifrət yağır sənin üzündən,
Yalan dünya, yalan dünya, yalançı dünya.

İnsanları sən azdırıb ağlın almısan,
Yaman günə, uçuruma özün salmısan,
İndi niyə karıxmısan, çaşıb qalmısan,
Yalan dünya, yalan dünya, yalançı dünya.

Sən salmısan insanları əyri yollara,
Döndərmisən kölələrə, miskin qullara,
Sən hər şeyi döndərmisən indi dollara,
Yalan dünya, yalan dünya, yalançı dünya.

Nə millətin dərdin duyub hala yanan var,
Nə bir kəsi adam bilib saya salan var,
Nə rəhm edən, nə can deyib qeydə qalan var,
Yalan dünya, yalan dünya, yalançı dünya.

Namus gedib, qeyrət gedib, ar da qalmayıb,
Bülbül gedib, tərlan gedib, sar da qalmayıb,
Şöhrət gedib, dövlət gedib, var da qalmayıb,
Yalan dünya, yalan dünya, yalançı dünya.

Qurama çox, uydurma çox, yalan çox,
Oğurluq çox, əyrilik çox, talan çox,

Dağıdan çox, aparan çox, çalan çox,
Yalan dünya, yalan dünya, yalançı dünya.

Nə eşqi var, nə dostluğu, nə məhəbbəti,
Nə saflığı, nə düzlüyü, nə sədaqəti,
Nə paklığı, nə mərdliyi, nə ülviyyəti,
Yalan dünya, yalan dünya, yalançı dünya.

Nə əhdi var, nə peymanı, nə etibarı,
Nə düz sözü, nə düz vədi, nə düz ilqarı,
Nə düz yolu, nə düz fikri, nə düz axarı,
Yalan dünya, yalan dünya, yalançı dünya.

## YAXŞILIQ ELƏ

Oğul, yaxşılıqdan yaxşı şey yoxdur,
Çalış, hər insana yaxşılıq elə.
Yəhudi, xaçpərəst, atəşpərəstə,
Qəbrə, müsəlmana yaxşılıq elə.

Düşünmə bu pisdir, fitnə-fellidir,
Başqa millətdəndir, özgə dillidir,
Demə bu yerlimdir, bu yadellidir,
Cümleyi-cahana yaxşılıq elə.

Ara qarışdırıb, ara vurana,
Könül sındırana, ürək qırana,
Namərdlik eləyib, üzə durana,
Cəhd elə, mərdana yaxşılıq elə.

Mərdiməzar olub evlər yıxana,
Vəfasızlıq edib namərd çıxana,

Canına od vurub gendən baxana
Sirr vermə bəyana, yaxşılıq elə.

Demə: bu təmizdir, sözü doğrudur,
Bu biri əyridir, ya ki, oğrudur,
Hamısı Adəmlə Həvva oğludur,
Allah yaradana yaxşılıq elə.

Yolun çaşmışların dayağı ol sən,
Həddin aşmışların dayağı ol sən,
Coşub-daşmışların dayağı ol sən,
Aqilə, nadana yaxşılıq elə.

Yolun azanlara doğru yol göstər,
Quyu qazanlara doğru yol göstər,
Peyman pozanlara doğru yol göstər,
Zükura, nisvana[1] yaxşılıq elə.

Beş kəlmə söz bilən aliməm desə,
Çalışsa məclisdə sözünü kəsə,
Səni diri-diri doğrasa, yesə,
Atılma meydana, yaxşılıq elə.

Desələr adına min cür yalanı,
Calayıb qoşsalar quru böhtanı,
Üzünə söysələr ata-ananı,
Qalma yana-yana, yaxşılıq elə.

Qəfildən vursalar başü-qolundan,
Zərbə endirsələr sağü-solundan,

---

[1] Nisvan – qadınlar.

Haqqı tut, əyilmə əsla yolundan,
Yaxşıya, yamana yaxşılıq elə.

Hər gün didişdirib yolsalar səni,
Dərin quyulara salsalar səni,
Xallı gürzə kimi çalsalar səni,
O şahmar ilana yaxşılıq elə.

Olsun ki, beş nəfər qədrini bilməz,
Ağlasan, gözünün yaşını silməz,
Ehtiyacın olsa, köməyə gəlməz,
Bağışla Qurana, yaxşılıq elə.

Düşünmə bu gəda, bu biri şahdır,
Bu rəqib, bu biri arxa-pənahdır,
Sənə ruzi verən qadir Allahdır,
Bəndeyi-sübhana yaxşılıq elə.

Cahilin sözünü nəzərə alma,
Naxələf sözünü ürəyə salma,
Darıxma, incimə, yolundan qalma,
Hər cürə qürrana[1] yaxşılıq elə.

Hatəm peyğəmbərdən götür nümunə,
Əlinin sözləri dərs olsun sənə,
Pisə mərhəmət et sən dönə-dönə,
Baxma ada-sana, yaxşılıq elə.

Götür məzəmməti, tənə-töhməti,
Qəbul et asimi[2], dərdi, zilləti,

---

[1] Qürran- bağıran, nərə çəkən.
[2] Asim – isмət, namus.

**Kərbəlayi**, gəl uzatma söhbəti,
Hər cürə insana yaxşılıq elə.

## HALAL OL

Sənə nəsihətim belədir mənim,
Aqil ol, sabir ol, kamal ol, oğul.
Peyğəmbər buyuran yoldan əyilmə,
Təqvalı[1], sahibi iman ol, oğul.

Məbadə qumara qoyma varını,
İtirmə bir yanda etibarını,
Çəkmə nəşə, şərab intizarını,
Həmişə gümrah ol, şümal ol, oğul,
Halal ol, halal ol, halal ol, oğul.

Sələmi nə vermə, nə də ki, alma,
Şəriət içinə təfriqə salma,
Uzunçu, öcəşmiş, çürükçü olma,
Dini məclislərdə sən lal ol, oğul.
Halal ol, halal ol, halal ol, oğul.

Düşün sabahını elin, millətin,
Onun qeyrətidir sənin qeyrətin,
Kənarda artsa da adın, sərvətin,
Vətən torpağında nihal ol, oğul,
Halal ol, halal ol, halal ol, oğul.

Böyüyə, kiçiyə hörmətin olsun,
Çalış, el içində şöhrətin olsun,

[1] Təqva- Allahdan qorxub pis işdən çəkinmə, dindarlıq, möminlik.

Halallıqla qazan, dövlətin olsun,
Paklıqla afitab, hilal ol, oğul.
Halal ol, halal ol, halal ol, oğul.

Əbubəkrü-Ömər, Osmanu-Heydər,
Sədü-Əbdürrəhman, Həbib, Əbuzər,
Əmmarü-Üveysü-Cabiri Sisər,
Sən də bunlar kimi halal ol, oğul,
Halal ol, halal ol, halal ol, oğul.

Demirəm ticarət etmək haramdır,
Demirəm xaricə getmək haramdır,
Demirəm birisin ötmək haramdır,
Amma haramxora zaval ol, oğul,
Halal ol, halal ol, halal ol, oğul.

İnsanda düz kəlmə, düz ilqar gərək,
Əhdə vəfa gərək, etibar gərək,
Namus, qeyrət gərək, həya, ar gərək,
Düzlükdə aləmə misal ol, oğul,
Halal ol, halal ol, halal ol, oğul.

Fikrin düz, zikrin düz, sözün düz olsun,
Qəlbin düz, əqlin düz, gözün düz olsun,
Yolun düz, dilin düz, üzün düz olsun,
Salman ol, Fizzə ol, Bilal ol, oğul,
Halal ol, halal ol, halal oğul.

* * *

Cümlə əzalardan günah tökülür,
Namazçın dəstəmaz aldığın zaman.
İki mələk gəlib yanında durur,
Sabah namazını qıldığın zaman.

Göydən yerə enir bütün mələklər,
Mələklərə müştaq olur fələklər,
Qəbul olur onda bütün diləklər,
Zöhr namazını qıldığın zaman.

Nə ucadır rəbbimizin kəlamı,
Əcəb biz də ona bir qul olamı.
Haqq təala özü alır salamı,
Əsr namazını qıldığın zaman.

Cənnət olur möminlərin ……………
Qadir Allah yaxın edir ………….
Hazır edib gətirərlər ………….
Axşam namazını qıldığın zaman.

Bir gün torpaq ilə üzün örtülür,
Mizanı qururlar, günah dartılır,
Saleh olan əzablardan qurtulur,
Gecə namazını qıldığın zaman.

Səbr eləsən, əlin hər vaxt gətirər,
Göydən sənə bol-bol ruzi ötürər,
Allah səni muradına yetirər,
Ramazanda oruc olduğun zaman.

Meyid namazına gecikmə bir an,
Salamsız bir kəsin keçmə yanından.
İmdadına yetər o şahi-mərdan,
Köməksiz, çörəksiz qaldığın zaman.

* * *

Ey xuda, xəlq etdiyin cümleyi-cahanə şükür.
Ədlilən dövr eləyən rahimi-rəhmanə şükür.

Adəmi xəlq elədin varlığıvi isbatə,
Sirri-nasutə şükür, qadiri-sübhanə şükür.

Xizrə bir qətrə suyi içdirib etdin zində,
Nuhə göndərdiyün ol vəhməli tufanə şükür.

Cəmi icazüvə biz baş əyirük taətlə,
Nari-İbrahimüvə, təxti-Süleymanə şükür.

Ölüyə ruhi verən Həzrəti-İsa nə uca!
Qul ikən sultan olan Yusifi-Kənanə şükür.

Kimdir inkar eləyən möcüzati-Musanı?
Özü Minayə çıxan İsmail qurbanə şükür.

Bircə peyğəmbəri seçdün aparıb Meraca,
Dini-islama şükür, məzhəbi-imanə şükür.

Ali peyğəmbərə varis olub İslamı yayan,
Necə Xeybər qoparan ol şəhi-mərdanə şükür.

Geri xəlq etmiş dolansın deyərək ümmətini,
Meşənə, çaylarına, dadü-biyəvanə şükür.

İstilik bəxş eləyirsən tamam bu dünyayə,
Günəşə, ulduzə, ayə, o asimanə şükür.

Can verirsən, su verirsən yaşayan cisimlərə,
Qara, yağışa şükür, çiskinə, dumanə şükür.

Doqquz ay bizləri saxlar ana bətnində,
Bətni-mərdinə şükür, kanilən məkanə şükür.

Xəstələndikcə bizim dərdimizin məlhəmisən,
Verdiyi çarələrə, min curə dərmanə şükür.

Sən verən ruzidən artıq diləyən səhv eləyir,
Həm böyük nemətivə, həm kiçik ehsanə şükür.

Vəhyilərlə yetirirsən bizə şəri-məsəli,
Zəbura, İncilə, Tövratilə Qurana şükür.

Ata ilə ananın hörmətini saxlayırıq,
Bizə varis olacaq qız ilə oğlanə şükür.

Etmisən ruzi bizə meyvələri, otları sən,
Balığa, quşlara, həmcürbəcür heyvanə şükür.

Biz firui-dini ixlas ilə icra edirik,
Düz yola dəvət edən məscidə, əzanə şükür.

Ağır işlərdə səni yar tutub imdad dilərik,
Döndərirsən çətini, müşkülü asanə, şükür.

Qəbr evində qalarıq min bir əziyyətlər ilə,
Deyərik illər ilə sahibi-divanə şükür.

Nə zaman ki, çalacaq surini İsrafil özü,
Edərək cümlə bəşər aşkara, pünhanə şükür.

Pənctən ali-əba bizə şəfaət diləyər,
Abi-kövşər suyuna, cənnəti-rizvanə şükür.

Ruzi-məhşərdə hamı razi qalar ədlündən,
Düz çəkən hər əməli Sahibi-zamanə şükür.

* * *

Mən onun qəlbində bir şimşək olub,
İldırımlar kimi çaxa bilmədim.
Alışdım, tutuşdum, qovrulub yandım,
Onu bir yandırıb-yaxa bilmədim.

Mən onun qəlbini öz qəlbim kimi
Eşqin atəşinə sala bilmədim.
Aldım boş sözünü, quru vədini,
Amma ürəyini ala bilmədim.

O mənə çox dedi tənəli sözü,
Zərrə incimədim, soyuq olmadım.
Həmişə onunla oturub-durdum,
Amma ürəyinə yavuq olmadım.

Deyirəm: nə ola onun eşqini
Qəlbimdən çıxarıb ata biləydim.
Onu düşünmədən, onu görmədən
Bir gecə asudə yata biləydim.

Deyirəm: onunla mənim aramda
Çoxlu qaratikan əkən gərəkdir.
Yanıram, ölürəm, dönə bilmirəm,
Bizə bir qurd yağı çəkən gərəkdir.

Mənə aləm deyir: gəl unut onu,
Doğrusu, mən ondan keçə bilmirəm.
Məhəbbət şirindir, ayrılıq acı,
Düzü, bu zəhəri içə bilmirəm.

## GÖZƏLİM

Sən məni yandırıb hicrin oduna,
Elədin Məcnuna tay, gözəlim.
Sənin həsrətindən geymişəm qara,
Oldu əlif qəddim yay, gözəlim.

Mən sənin yolunda edirəm xiffət,
Duyuram daima əzabü-zillət,
İnsaf et, çəkdirmə mənə əziyyət,
Gəl eləmə məni zay, gözəlim.

Hər yerdə sənə mən edirəm maraq,
Açılan səhərdən alıram soraq,
Rəhmə gəl, bir qədər zülmünü burax,
Deyim dərdlərimi say, gözəlim.

Bir xahiş edirəm sən tək şahımdan,
Gəl xoşlanma mənim dadü ahımdan,
Qulunam, bağışla, keç günahımdan,
Olur gözüm yaşı çay, gözəlim.

Sailəm, istərəm səndən bir ehsan,
Bülbüləm, çəkirəm ah ilə əfqan,
Qalmayıb əlimdə keçmiş adi-san.
Ver qəlbini mənə pay, gözəlim.

Bülbül güldən ötrü verir canını,
Qızılgül üstünə tökür qanını,
Rəhm elə, incitmə sən **Əfqani**ni,
Deyiləmmi sənə tay, gözəlim?

* * *

Bir səni tutubdur doğrusu gözüm,
Sənə həsr olunur hər kəlməm, sözüm,
Nədəndir səbəbi, bilmirəm özüm,
Vuruldum sən kimi nadanə, gözəl.

Adım **Əfqani**dir, özüm növrəstə,
Bülbül ürəyimi qoyma qəfəsdə,
Eşitdim dünəndən yatırsan xəstə,
Sağal, dur, kəs məni qurbanə, gözəl.

***1953***

* * *

Görəndə mərmər tək bir yumşaq sinə,
Aldanma, yazıqsan, biçarə könül.
Bənd olub hər sabah bir tazəsinə,
Aldanma, yazıqsan, biçarə könül.

Bəzən gec, bəzən də tez aldanırsan,
Hicranlar odunda fövri[1] yanırsan,
Yoxsa bu eşqləri doğru sanırsan,
Aldanma, yazıqsan, biçarə könül.

Bəzən bənd olursan misli Eldara,
Gah al geyinirsən, gah da ki, qara.
Sonra dərd əlindən gəlirsən zara,
Aldanma, yazıqsan, biçarə könül.

Bəzən od vurursan bu şirin cana,
Qulaq asmayırsan heç bir insana.

[1] Fövri – dərhal, o saat, tezliklə.

Söhbətin yayılır Azərbaycana,
Aldanma, yazıqsan, biçarə könül.

***1949***

* * *

Sən şərab içəndə, busə alanda,
O hicran guşədə qan ağlayardı.

* * *

İndi də yatırsan bu qəbristanda,
Səni anan yoxdur fani cahanda.
Yalnız o, yazıqdır səni düşünən,
Gününü keçirir ahü-fəqanda.

* * *

O günlər kim keçir sənsiz mənim ömrümdə var olmaz,
Mənə səndən savay, ey növcəvan, bir kimsə yar olmaz,

Vəfayi-etibarın dostların gördüm vəli neynim,
Məhəbbət bir bəladır ki, ta bəndü həsar olmaz.

Qalırsan hicridə az vaxt, əzizim, nərgizi-əzəm,
Gedər tabü-təvan əldən, nə dildə bir qərar olmaz.

Nəzər qıl məzlum **Əfqan**i sənə daim fəda olsun,
Sən ol şahi-cahan, aləm qapında bir gəda olsun.

* * *

Baxıram surətinə hər an ölür bir hissən,
Yanıram, qövr edirəm, mülki-Süleymanım, oğul.
Hakimi-Çin sənə öz rəngini bəxş etmiş, aman,
İndi bildim sözünü, Yusifi-Kənanım, oğul.

Ey ilahi, necə **Əfqani**yə zülm etdin sən,
Gedir əldən ümidim, həkimi-Loğmanım, oğul.

***1952***

## YARALI KÖNÜL

*Bu şerlərin hamısı, 1941-46-cı illərdə olmuş Cənubi Azərbaycan inqilabına aid yazmaqda olduğum «Zindan» romanına şair Əfqaninin dilindən daxil olacaq.*

*Roman İran irticasına qarşı Cənubi Azərbaycan xalqının və eləcə də şair Əfqaninin nifrətini göstərir.*

Dolanım başına mən, sərvi-xuramansan sən,
Nə əcəb mahi-liqa, Yusifi-Kənansan sən.

Üzmə gəl canimi, imdad elə tez vəsli yetir,
Xəstəyəm, çarəsizəm, dərdimə dərmansan sən.

Kimə bir kəlmə dedim, yoxdur əlacın dedilər,
Rəhm qıl, çarə elə, hakimi-Loğmansan sən.

Lal görə surətini, dil açıb əhsən deyəcək,
Çünki bir növ, mələyim, sureyi-Quransan sən.

İstərəm ömr boyu daim öpüm ləblərini,
Söylə bir mədəni-bal, ya şəkəristansan sən.

Hansı sərraf səni qiymət edər aləmdə,
Necə bir dürri-Ədən, ləli-Bədəxşansan sən.

**Miskin Əfqani** sənə canını qurban eylər,
Bilmirəm misli-mələk, huriyü-qılmansan sən.

* * *

Neyçün ey həqq, olmadı bir kami-dil qiymət bizə,
Olmaz heç Məcnunsifət qəm çəkmədə nisbət bizə.

Gərdişi-dövranə bax, hakim olub yadlar tamam,
Biz fərar etməkdəyik, ar olmasın hicrət bizə.

Bir zaman faxir geyib ədl ilə dövran sürmüşük,
İndi də sail bizik, aləm edir töhmət bizə.

Hakimi-şərrin bu gün «ədlin» görüb ah eylərik,
Günbəgün artıq olur dərdü-kədər, möhnət bizə.

Sübhü-şam qan ağlayan biçarə **Əfqani**lərik,
Üz verir həm səmtidən bəxtim kimi zülmət bizə.

* * *

Sərgüzəştim qəmlidir, bir məhbusi-biçarəyəm,
Rahi-azadlıqda mən çoxdan bəri avarəyəm.

İndiki əyyamidə yox qiymətim, qədrim, fəqət,
Yoxlasa sərrafilər, söylər necə mehparəyəm.

Solmada gül surətim, dövran məni etmiş zəlil,
Taleyi kəm, yurdu yox, bimarü-qəlbi yarəyəm.

Bəxtimin kəcroluğun gör ki, hələ bir gənc ikən,
İntizari-surəti-Leylamisal dildarəyəm.

Bilmirəm üzrüm nədir, daim zimistandır günüm,
Xeyli vəxtdir həsrəti-fəsli-güli-gülzarəyəm.

Ölmüş hər bir istəyim, fikrimdə yox arzu, ümid,
Sübhü-şam ah-vay edən **Əfqani**, bəxti qarəyəm.

* * *

Bilmirəm, ey növcavan, hurimi ya qılmanmısan?
Zöhrəmi, mərrixmi, ya ki, əcəb insanmısan?

Gah alırsan canımı, sel tək tökürsən qanımı,
Kəsdirirkən yanımı, aşiqmi ya mehmanmısan?

Anladın hər bir himi, mülk eylədin xakü simi,
Pay dilərkən qəlbimi bir qulmu, ya sultanmısan?

Keçdi ömrüm zarilən, yar-yoldaş oldum mar ilən,
Böylə tünd rəftar ilən nadanmı, ya ürfanmısan?

Gah gəzirsən hər tərəf, çox axtarırsan şan-şərəf,
Canım eylərkən tələf, cəlladmı, ya qüfranmısan?

Çalmadın hər bir simi, axtarmadın nəqşi-mimi,
Duymayırkən eşqimi, bir tifli, ya piranmısan?

Gah dəniz tək çağlayan, hər dərdə məlhəm bağlayan,
Ey müdam qan ağlayan, keçmişdəki **Əfqan**mısan?

* * *

Gözəlim, vəslin üçün hər gecə ah eyləmişəm,
Sinəmi oxlarına yaxşı sipəh eyləmişəm.

Nə səbəbdəndi ki, sən indi gəzirsən aralı,
Bəlkə bir səhvim olub, bəlkə günah eyləmişəm.

Rəhmə gəl, qovma qapından məni, kəmtər qulunam,
Səndə məskən tapıban səndə pənah eyləmişəm.

Səni sevməklə gülüm, səhvim olub aləm-ara,
Bəmbəyaz bəxtimi bihudə siyah eyləmişəm.

Dərdli **Əfqani**yə səndən mələyim, yar olmaz,
Boylə qətnamə yazıb, boylə kütah eyləmişəm.

***

Mənə aləmdə dedi ki, Kəbeyi-Ülyasən sən,
Sabiti saqit edən surəti-………… sən.

Neçə aşiqləri Məcnun elədin aləmdə,
Ölməyib Leyli məgər, bəlkə də Leylasən sən.

Yəqub öz Yusifi üçün otuz il yaş tökdü,
Sən hara, Yusif hara, yüz dəfə əlasən sən.

Bu ziyalərlə ki, zülmətlərə rövnəq verdin,
Kim bilir, şəmsü-qəmər, mərrixü-zöhrasən sən.

Şurə gəl, nəğmən ilən aləmi məftun eylə,
Susma ey nuri-cahan, bülbüli-şeydasən sən.

Kim görə surətini ölməz olur aləmdə,
Ölüyə ruh verən Həzrəti-İsasən sən.

Görürəm həqqiləsən, zərrə qədər yox eybin,
Bilmədim ömr boyu bəs niyə rüsvasən sən.

Görsə **Əfqani** səni, valeh olur nemətinə,
Söyləyir: ey mələyim, bir yeni dünyasən sən.

* * *

Çəkmişəm yüz min bəla dövranidən rəncidəyəm,
Dustidən, biganədən, düşmanidən rəncidəyəm.

Gənc ikən ömrüm keçir bir qul kimi həllacidə,
Dəmbədəm qəm artıran zindanidən rəncidəyəm.

Gör necə əyyamidir, hər kəs məni tərk eyləmiş,
Xahi qul, xahi dəni sultanidən rəncidəyəm.

Ey mənə tən eyləyən, bəxtim tamam döndərmiş üz,
Elmidən, mal-mülkidən, ürfanidən rəncidəyəm.

Gözlərim qan ağladı, süzan dilim axir dedi,
Hər zaman ah eyləyən **Əfqani**dən rəncidəyəm.

* * *

Növbahar əyyamidir, qəlbim dolubdur qan ilə,
Sübhü şam qan ağlayıb qəsd eylərəm bir can ilə.

Bilmədim neyçin mənə oldun qəni sən ey fələk,
Böylə rəftar eyləyər düşman fəqət düşman ilə.

Yoxdu bir yer dəhridə kim olmasın məhbəs mənə,
Əğlə gəl, dönməz yolundan heç igid zindan ilə.

Tək azadlıq eşqidir daim mənə qüvvət verən,
Olmaram təslim sənə qəlbimdəki üsyan ilə.

İstərəm qəbrim ola xaki-vətən altında ah,
Mən belə əhd etmişəm ol qadiri-sübhan ilə.

Verməyir bir ixtiyar, qəsb eyləyir can mülkünü,
Bu səbəbdən dost deyil, oldum qəni dövran ilə.

Göz dikib dünyamıza dəhşətlə nifrət eylərəm,
Hansı zülmi vardı insan etməsin insan ilə.

Neyləyim kəcro fələk **Əfqani** etmiş namimi,
Çatdı gənc ömrüm başa min qüssəvü əfqan ilə.

* * *

Ey mələkmənzər nigar, bir sənlədir canım mənim,
Rəhmə gəl, insaf elə, çox axmasın qanım mənim.

Görcəyin hər üzvünü, zənn eylərəm bir surədir,
İncilü-Tövratmisən, Zəburü-Quranım mənim.

Sərv qəddin hər zaman bir sayədir dünyalərə,
Gər olam kəmtər qulun, artar adım-sanım mənim.

Yüz belə dünya gələ, olmaz yanağın qiyməti,
Gözlərindir abi-nab, ol ləblərin nanım mənim.

Qaşların misri qılınc, kipriklərin can neştəri,
Yoxsa kim qan tökməyə kəsdirmisən yanım mənim.

Boylə bir şümşad bədən yox göydəki huridə də
Qucmağa amadəyəm, gəl vermə fərmanım mənim.

Xilqəti-İslam üçün ali-əba şəfqətdədir,
Bir gecə lütf eyləsən şəfqətli Loğmanım mənim.

Möhnəti-zindan məni hicrin qədər incitməyir,
Təng etmiş aləmi min qüssə **Əfqanı**m mənim.

* * *

Yatmayıb sübhə qədər eylərəm əfqan gecələr,
Ağlaram şur ilə mən hər saat, hər an gecələr.

Kimsə imdad eləməz, dərdimə yoxdur çarə,
Yalvarıb həqqə müdam, istərəm dərman gecələr.

Günüzüm bir növ ilə ah çəkib yaş tökürəm,
Qəlbimin dərdü qəmi eyləyir tüğyan gecələr.

Görürəm, ey mələyim, fikrü xəyalımda səni,
Yetməyir leyk əlim axiri bir yan gecələr.

**Miskin Əfqani** deyər həsrəti-məşuqə sönür,
Öldürür indi məni zilləti-zindan gecələr.

* * *

Yanıb atəşlərə qəlbim mənim axir kabab olmuş,
Uçubdur xaneyi-canım, könül mülküm xərab olmuş.

Ağarmış gənc ikən başım, atıbdır qovmü-qardaşım,
Axıbdır ruyimə yaşım, cəmi aləm sirab olmuş.

Çıxıb sultanlığım əldən, tutub yüz ağrı baş-beldən,
Deyildir xəlvəti eldən, mənə fitrə səvab olmuş.

Gedibdir şöhrəti-şanım, çıxıbdır ərşə **Əfqanı**m,
Üzülmüş zülmilə canım, qəziyyəm bir kitab olmuş.

* * *

Naz ilən dön bax bəri, bir ləhzə şad olsun könül,
Vəslinə ümmid edib qəmdən azad olsun könül.

Gah verib çox vədlər cismi-tənim etdin xərab,
İndi də insafə gəl, bir dəm abad olsun könül.

* * *

Yanıram atəşinə şəmidə pərvanə kimi,
Düşmüşəm çöllərə mən sərsəri divanə kimi.

O qədər naz elədin ölkəni tutdu kədərim,
Dolaşır şimdi adım aləmi-əfsanə kimi.

Səni görcək, gözəlim, çırpınır hər an ürəyim,
Unudur simü zəri, huriyü qılmanə kimi.

Əğli başdan aparır sən kimi ziba, mələyim,
Gah olub şirə misal, gah əsirəm nanə kimi.

Səni məndən edənə bari-xüdadən dilərəm,
Qənim olsun cəmi din Sahibi-Quranə kimi.

Dərdli **Əfqani** bu gün səndən azadlıq diləyir,
Bar ilahi! Mədəd et məşhəri-divanə kimi.

* * *

Gözün qurbaniyəm, ey dost, mənə rəhm et, aman, getmə!
Fərağindən gözüm kordur, belim olmuş kaman, getmə!

Di baxma yaşlı gözlərlə mənə ey növcəvan bədbəxt,
Ki eşqin hicri dərdindən olubdur sinə qan, getmə!

Səni məndən ayırmaqda nədir Əzrailin qəsdi?
Axır bir mehriban dosta tapılmaz heç güman, getmə!

Əgər kim mütləqi-vacib olubdur getməyin, ey dost,
Məni tapşırmamış qəbrə bə həqqi ol Quran, getmə!

Keçir ömrüm, solur gənclik, baharım taridir sənsiz,
Tərəhhüm eylə, mehman ol mənə az bir zaman, getmə!

Diyari-qürbət içrə mən, vəli çox eylərəm əfqan,
Sənin bir ruzinə qurban cəmi Rumü-İran, getmə!

Yazıq **Əfqani** dilsuzdur sənin böylə əzabından,
Səni Tanrı, səni mövla, səni dinü-iman, getmə!

* * *

Düşcəyin sən yadimə, ey mahi-Kənan, ağladım,
Ağlamazdı böylə bir şur ilə Sənan, ağladım.

Görcəyin sınmış bu gün sən verdiyin ayinəni,
Soldu rəngi-surətim, qəlb oldu viran, ağladım.

Çün deyərlər güzgü sınmağ yaxşı bir tale deyil,
Aqibət halim bilib tökdüm yaşü-qan, ağladım.

Söylədim: qəlbim sənin, ruhim sənindir, ey rəfiq,
Tapmaram dünyadə mən bir səntək insan, ağladım.

Gah öpüb gül ləblərin, şəhdü şəkərsən söylədim,
Düşcək ol dəm yadıma hər saət, hər an, ağladım.

Saldı bipərva fələk hicrət yolun bizlər tərəf
Etdi gənc ömrüm tələf bir boylə fərman, ağladım.

İstəsən gəl and içim, heç vaxt unutmam namini,
Gəl xilas et aşiqin, getmiş dəxi can, ağladım.

Sən sevib **Əfqani**ni şad etdin öz könlün, fəqət,
Andım hər saət səni, çox etdim əfqan, ağladım.

* * *

Mahi-rüxsarım solur, hər ləhzə əfğan eylərəm,
Fəsli-gülzar içrə mən pak qəlbimi qan eylərəm.

Baxma kim bir məhbusam, yoxdur hüququm heç şeyə,
İstəsə gərçi vətən, gənc ömrüm ehsan eylərəm.

Sanma kim cismim zəif, qüvvəm tükənmişdir təmam,
Gər çəkəm şir nərəsi, yüz ordu viran eylərəm.

İstər alim, ya çoban, hər kim olur azadi-xah,
Mən ona fikrim, canım, hər anda qurban eylərəm.

Tək mən olsam incinən əsla könül çən bağlamaz,
Boylə bir dərdə özüm bir növlə dərman eylərəm.

Qırmasan xaşınla sən zülmü məşəqqət zəncirin,
Səbrə yoxdur ehtiyac, tezliklə üsyan eylərəm.

Gər düşə payim mənim bir də diyari-Qafqaza,
Mən sənin evladını təxtinə düşman eylərəm.

Rahi-azadlıqda mən karvan çəkən **Əfqani**yəm,
Gün gələr mən sənlə bax, bir özgə divan eylərəm.

* * *

Baxıram aləmə mən, hər yeri viran görürəm,
Fikri azadlar üçün yüz cürə zindan görürəm.

Ac olub, çılpaq olub, yoxsul olub insanlar,
Zülm edir millətinə hakimi-dövran görürəm.

Kül olub başimizə, yoxdur hüquq, azadlıq,
Verilir gündə neçə lağlağı fərman, görürəm.

İnqilab fikri düşüb beyninə artıq elimin,
İncinib təhqir olan qəlbidə üsyan görürəm.

Xeyli yox rəhbəri, avarə qalıb çöllərdə,
Tapmayıb rahi-nicat, eyləyir əfqan, görürəm.

Sanmayın son günüdür, yengi tutub dövri-bərin,
Bu siyasət yayılır hər tərəf, hər yan, görürəm.

Böylə getməz çox uzun, göydə buludlar qaralır,
Gələcək hərblər üçün ölkəni meydan görürəm.

İldırımlar da çaxır, qanlı savaşlar yetişir,
Ya bizi, yaxud onu, bu günə qurban görürəm.

Üzmə ümmidini, tez ölmə fəqir **Əfqani**,
Doğru azadlıq üçün verməlisən can, görürəm.

* * *

Mən ki, düşdüm məhbəsə hər əhli-zindan ağlasın,
Çalmasın sazəndələr, hər saət, hər an ağlasın.

Açmasın bir gül-çiçək, göydən günəş ensin yerə,
Bir kəs azadəm desə solsun gülüstan, ağlasın.

Çıxsın ərşə nalələr, bülbüllər etsin ahu zar,
Yasə batsın şahilər, alimü sultan, ağlasın.

Qara geysin kainat, çaylar dayansın axmasın,
Bulmayıb rahi-nicat, qəbrində Loğman ağlasın.

Tairi-ülviyyətəm, baş əymərəm xaqan ola,
Yerlə-yeksan olmuşam, yol verməyin can ağlasın.

Qızlar öz məşuqinə naz etməsin, keçmiş bahar,
Asimanda hurilər, yerlərdə insan ağlasın.

Bir alov almış məni, göz yaşlarım etmir kömək,
Aləmi xoşbəxt edən təxti-Süleyman ağlasın.

Düşmüşəm bir quyiyə, yalvarram ey həqqim sənə,
Keçmişin salsın yada mülkündə Kənan ağlasın.

Bir təmiz qəlb əhliyəm, dünyadə yox tayım mənim,
Ah çəkib əhvalimə kafər, müsəlman, ağlasın.

Canımı nəzr etmişəm, azad günün ehsanidir,
Yaxşı bax İsmailə, Minadə qurban ağlasın.

Son günüm çatmış mənim, dəvayə yoxdur ehtiyac,
Sevgilim öz saçların etsin pərişan, ağlasın.

Mən Məhəmməd naminə, ey həqq, azadlıq istərəm,
Eyləsin təsvir məni hər ləhzə Quran ağlasın.

Can fəqir **Əfqani**nin, fərman sənindir ey fələk,
Bir tələs, mən ağladım, bir az da dövran ağlasın.

* * *

Yer üzün seyr eləyib bülbülü-şeydalərə bax,
Aləmi xar eləyən fitnəvü sevdalərə bax.

Qarə günlər nə qədər çox ola yoldan dönmə,
Uyaraq aldadılan rindəvü tərsalərə bax.

Baş qoyub dostun üçün canı fəda etmə, gülüm,
Əğlə gəl, diqqət ilə bir para rüsvalərə bax.

Fikr edib ağlayaraq həqqi nahaq dəng etmə,
Qane ol taleyinə, rənci-Məlixalərə bax.

Anaraq keçmişini etmə füzun, **Əfqani**,
Nə deyim, səbr elə bir sonra da dəvalərə bax.

* * *

Sənin hicrindən daha yoxdur qərarım, neyləyim?
Atmışam uğrunda mən namusu arım, neyləyim?

Rahət olmam bir gecə, sənsiz yuxu getməz gözə,
Xətrinə dəyməyirəm, gəlmirsə yarım, neyləyim?

Allaha and ola **Əfqani** dönməz əhdindən,
Necə ki, sən olmusan ilkin şikarım, neyləyim?

* * *

Neçə Loğmanilərə dərman üçün üz tutdum,
Sənə yox zərrə əlac, bəxti qərasan, dedilər.

Yalvarıb sübhü məsa söylədim, axir ölürəm,
Bizdə yox heç də günah, qəlbi yarasan, dedilər.

Kim ola taleyi kəm, neynər ona məlhəmi-can,
Gəzibən aləm ara, fövri sərasan dedilər.

Yazılıb taleyinə zilləti-zindan çəkmək,
Tapıban ol vərəqi, bəlkə cırasan, dedilər.

Bilirik biz də fəqət, təbirə yoxdur tədbir,
Pozuban ol yazını, yengi qurasan, dedilər.

Bağlayıb əl-ayağın kəc fələyin zəncirini,
Tutuban bir növ ilə güclə qırasan, dedilər.

Tökmə göz yaşını, ey miskin ölən **Əfqani**,
Sənə hümmətdə olar şahi-Xorasan, dedilər.

* * *

Qəlbimin nalələri get-gedə üsyanə dönür,
Çünki hər yan görürəm axiri-zindanə dönür.

Qaragün kəndlilərin cümləsi təşvişə düşüb,
Səbr kasasi daşıb pərəkeş aslanə dönür.

Dün bizim işlərimiz vecsiz idi, keçdi, fəqət,
İndi alt-üst eləyən qorxulu tufanə dönür.

Fikrimiz rövşən olub aləmə səs saldıqca,
Düşmənin təxti çönür, məqsədi hədyanə dönür.

Qalibiyyət pərisi bizlərə gəldikcə qonaq,
Nizəmiz, şeşpərimiz hakimi-dövranə dönür.

Etmə min ahü-fəqan xəstə düşən **Əfqani**!
Dolanıb yollarımız Azərbaycanə dönür.

* * *

Dilərdim gözəlim, kim olasan yar mənə,
Gecəmi, gündüzümü eyləyəsən tar mənə.

Vurasan, incidəsən, sonra da minnət edəsən,
Cümlə el tən eləyə, hiç olamaz ar mənə.

O qədər naz edəsən bəlkə yanam hicr oduna,
Leyk qorxmam mələyim, təsir edə nar mənə.

Sən bu kəcro fələyin gərdişi-fitvasına bax,
Cismidə bülbül idim, qismət olub sar mənə.

Ey qəvi dairənin cəlladı, dönməm yoldan,
Nə qədər zülm edəsən bir eləməz kar mənə.

Üzmə ümmidini rəncidə ölən **Əfqani**,
Demə imdad eləmir Tairi-qəhhar mənə.

***1946***

* * *

Ürəyim yana-yana
Sual elədim: ana!
Neçin gəldim cahana?
Dostlar daha gəzir gen,
Niyə doğdun məni sən?

On dördüncü bahardır,
Sənətim ahü-zardır.
Hakim, zəhərli mardır.
Ana, getmiş cismü tən,
Niyə doğdun məni sən?

Günü-gündən zay oldum,
Nökərlərə tay oldum,
Hakimlərə pay oldum,

Keçirmirəm ömrü şən,
Niyə doğdun məni sən?

Zindanda üzdüm cani,
Axıtdım yaşü-qani,
Ölür məhbus **Əfqani**,
Gözüm alır duman, çən,
Niyə doğdun məni sən?

***1953***

* * *

Bir bülbüləm, ayrı düşdüm gülümdən,
Çəkirəm əlindən aman, ayrılıq.
Uzun xəstəlikdən, qəfil ölümdən,
Sən olmusan indi yaman, ayrılıq.

Fələk zillət ilə üzür canımı,
Tökür səhralara axan qanımı,
Alıb hər hüququm, hər imkanımı,
Gün verməyir mənə zaman, ayrılıq.

**Əfqani**yəm, başlamışam solmağa,
Qədəm qoyub yetkin yaşa dolmağa,
Burdan çıxıb bir də azad olmağa
Qalmayıbdı zərrə güman, ayrılıq.

***1948***

* * *

O görünən İncəbelin yoludur,
Ora yağan qar-yağışdır, doludur,
Vaxt var idi orda karvan bol idi,
Niyə siz qaldınız xərabə yollar?

Körpünüz, bəndiniz tamam sökülüb,
Aranıza qaya-daşlar tökülüb,
Hər yeriniz arpa, buğda əkilib,
Niyə siz qaldınız xərabə yollar?

Eniş-yoxuşunuz olubdur xərab,
Əbədi yolçunuz qarışqa, qürab,
**Əfqan**ın göz yaşın eylədiz sirab,
Niyə siz qaldınız xərabə yollar?

***1947***

* * *

Bu yaz da yetişdi, gülmədi üzüm,
Yenə qara gəldi bayramım mənim.
Çox dedim özümə, səbr et, yazma heç,
Coşdu, dayanmadı ilhamım mənim.

Tökübən göz yaşım hər səhər, axşam,
On dörd il etmədim səni, a bayram.
Hər il qara geydi o bədbaxt anam,
Yenə kəsilmədi qurbanım mənim.

Ürəyimi dərdü-vərəm bürüdü,
Üzərimə qüssə, kədər yürüdü,
Bu bayram da ömrüm burda çürüdü,
Çıxmadım, sevindi düşmanım mənim.

Mən evdə olmadım, bişmədi aşım,
Nə bacım gülmədi, nə də qardaşım,
Bu gün də göz yaşı tökdü yoldaşım,
Kimsəyə çatmadı ehsanım mənim.

Bu gecə yatmadım, açıldı sabah,
Sinəm qövr elədi, çəkdim dadü-ah.
Sidqilə dilərəm səndən, ay Allah,
Ya yetir, ya da üz gümanım mənim.

Nə qədər zülümlər çəkərmiş insan,
Onu incidərmiş hakimi-dövran,
Mən vətən xaini çağrılsam hər an,
Verilsin ölümə fərmanım mənim.

Bil ki, mən səninlə düşmanam, düşman,
Ey qoca qaniçən, birdəfəlik qan,
Ya burax, ya öldür məni tez zaman,
Qoy kimsə bilməsin **Əfqan**ım mənim.

***1954***

* * *

Çəkdirirsən bizlərə,
Zaman, zindan qapısı!
Nədən açıq olmadın,
Bir an, zindan qapısı?

Axıtdın yaşımızı,
Ağartdın başımızı,
Etdin pak aşımızı,
Yaman, zindan qapısı.

Zəhərlərin camısan,
Bəlalərin daşısan,
Çıxmağa qoymamısan,
Güman, zindan qapısı.

**Əfqani** səbr etməyir,
Hakim ölüb-itməyir,
Mənlə yola getməyir,
Zaman, zindan qapısı.

***1953***

* * *

Bu zindanda hər dəqiqə ölürəm,
Bar[1] ilahi, səndən ölüm istərəm.
Aqibətim açıq-aydın görürəm,
Bar ilahi, səndən ölüm istərəm.

Çərxi-fələk oyun açdı başıma,
Vaxtsız ikən zəhər qatdı aşıma,
Hər saniyə bu söz düşür xaşıma,
Bar ilahi, səndən ölüm istərəm.

Bəxtim məni uçuruma sürüyür,
Dörd yanımı atlı qazaq bürüyür,
Cavan canım bu zillətdə çürüyür,
Bar ilahi, səndən ölüm istərəm.

Bacı, qardaş heç gəlməyir yanıma,
Qarı duşman susayıbdır qanıma,
Bir kimsənin rəhmi gəlmir canıma,
Bar ilahi, səndən ölüm istərəm.

Sinəm yanır, hər dəm oda qalanır,
Könül mülküm viran olub talanır.
Bir anam da məndən uzaq dolanır,
Bar ilahi, səndən ölüm istərəm.

---

[1] Bar, bari – yaradan, yaradıcı

**Əfqani**nin bəxti qarə yazılıb,
Dörd yanıma atlı qazaq düzülüb,
Hər addımda mənə qəbir qazılıb,
Bar ilahi, səndən ölüm istərəm.

***1947***

* * *

Darıxma, səbr elə bir qədər, oğlum,
Yaxın zamanlarda qayıdarıq biz.
Üzməsin ürəyin qəm, kədər, oğlum,
Tutqun dumanlarda qayıdarıq biz.

Mübariz əsgər ol, giriş davaya,
Od yağdır torpağa, suya, havaya,
Düşman orduların qoyma obaya,
Həmən o anlarda qayıdarıq biz.

Ağlama, sızlama, gəlmə əfqana,
Yoxsa ki, dözməzsən belə hicrana,
Bu yadlar tapdağı Azərbaycana,
Solğun xəzanlarda qayıdarıq biz.

Düşünmə ölsəm də bu zindanda mən,
Atasız qalmazsan, əlbəttə ki, sən.
**Əfqani**, almasın qəlbini heç çən,
Yaxın zamanlarda qayıdarıq biz.

***1954***

* * *

Gör nə iş törətdi bu çərxi-fələk,
Saldı gənc yaşımda zindanə məni.
Xudanın işidir eylədi qismət,
Sən kimi dilbilməz nadanə məni.

Mənim üçün çox ağlarsan, gülməzsən,
Axar göz yaşların, amma silməzsən,
Dost olsaq da kimliyimi bilməzsən,
Xəyal eyləyərsən əfsanə məni.

Düşünmə nəçiyəm, düşünmə kiməm,
Qəlblərdə çalınan ən incə siməm,
Yaralar məlhəmi böyük həkiməm,
Bərabər tut təbib Loğmanə məni.

Neçə aşiqləri dərdə salmışam,
İstədiyim hər mətləbi almışam,
Düşünmə ki, xəlqdən kənar qalmışam,
Ürəyim çağırır üsyanə məni.

Nə İsa, nə Musa, nə Süleymanəm,
Nə kafər, nə tərsa, nə müsəlmanəm,
Bir özgə aləməm, bir özgə canəm,
Bənzətmə heç cürə insanə məni.

Nə şeytan, nə pəri, nə də fələyəm,
Nə fitnə, nə hiylə, nə də kələyəm,
İlahi, qövmində ən pak mələyəm,
Zəmanə edibdir divanə məni.

Sübhü-şam çəkirəm nalə **Əfqani**,
Zillətdə qalmaqdan üzmüşəm cani,
Bir gün də görərsən qatil düşmani,
Aparır asmağa meydanə məni.

***1955***

* * *

Bilirəm, hər axşam gözləyib məni,
İntizarla yollarıma baxırsan.
Üzür hicran odu hər zaman səni
Cavan canın yandırırsan, yaxırsan.

Biixtiyar qulaq asıb sözümə,
Nə səbəbdən dik baxırsan üzümə,
Ala gözün dikləyəndə gözümə,
Neçin süzülürsən, neçin axırsan?

Yanıb atəşlərə üzmə o cani,
Tezliklə yetişər vüsal zamani,
Bu gecə yuxuda görmüş **Əfqani**,
Anam verən nişanəni taxırsan.

***1954***

* * *

Bilirəm ki, hökmüdarsan,
Cürət məndən, fərman səndən,
İlqarından dönməz yarsan,
Atəş məndən,ümman səndən.

Könlümü etmə nişəstə,
Nə istəsəm, de: göz üstə,
Əyər bir az olam xəstə,
Arzu məndən, loğman səndən.

Tez-tez sıxaram əlini,
Qucaram incə belini,
İstəsəm sormaq dilini,
Həvəs məndən, bir can səndən.

Nədən belə sıxılırsan,
Hicr oduna yaxılırsan,
Ehtirasdan yıxılırsan,
Qılınc məndən, qurban səndən.

Çox incədir sənin adın,
Bilmirəm ləzzətin, dadın,
Naşi olubdur ustadın,
Təlim məndən, tufan səndən.

Eşidib şirin sözünü,
Qiblə eylərəm gözünü,
Tez-tez öpərəm üzünü,
Qüvvət məndən, divan səndən.

Bədənin ləlü-mərmərdir,
Dodağın tazədir, tərdir,
Bu gündən sənə nökərdir,
Könül məndən, imkan səndən.

Dağlar kimi vüqarlısan,
Yamanı gündə karlısan,
Sevgidə etibarlısan,
Qonaq məndən, məkan səndən.

Qaşların bənzər kamana,
Yerişin oxşar ceyrana,
Durub baxma yana-yana,
İstək məndən, dərman səndən.

Vətənim mülki-Şirvandır,
Hələlik yerim zindandır,

Adım biçarə **Əfqan**dır,
Tökülməyə al qan səndən.

***1956***

* * *

Kəsmə iltifatın, üzmə canları,
Rəhm elə aşiqi-nalanə, ay qız.
Ürək qorxu bilməz, könül şad olmaz,
Məhəbbət gələndə tüğyanə, ay qız.

Könül arzulayır sən tək maralı,
Almısan əlimdən səbrü-qəralı,
Etmisən qəlbimi daim yaralı,
Sailəm, gəlmişəm ehsanə, ay qız.

Gözlərin atəşdir, oda yan, deyir,
Qaşların cəlladdır, allıq can, deyir.
Neçə aşiqlərin ah-aman deyir,
And verir sureyi-Quranə, ay qız.

Dodağın qonçadır, yanağın lala,
Görən heyran olur üzdəki xala,
Çoxları istəyir yetsin vüsala,
Qismət olmur hər bir insanə, ay qız.

Mən sənin yolunda dardan asıllam,
Yüz ordu basaram, gah da basıllam,
**Əfqani**yəm, bil ki, qurban kəsilləm,
Sən bizə gələndə mehmanə, ay qız.

* * *

Söz vermişdim, bir də fikir çəkməyəm,
Səni gördüm, dərdim birə-min oldu.
Əhd etmişdim, sevgi gülü əkməyəm,
Peymanımı pozan şeytan, cin oldu.

Deyirdim ki, mənə bacı olarsan,
Ömrün boyu etibarlı qalarsan,
Bundan sonra necə yada salarsan,
Arada nə hasar, nə də tin oldu.

Deyirdin ki, xoşlanmaram gözəldən,
Yad bağından gül dərmərəm əzəldən,
Nə anlayım sən yazdığın qəzəldən,
Bu nə məzhəb oldu, necə din oldu?

**Əfqani**ni qəm oduna atmısan,
Az qalıb ki, mətləbinə çatmısan,
Bu gecə gördüm ki, mənlə yatmısan,
Deyəsən bu yuxum döndü çin oldu.

* * *

Sonsuz kədərimin, tükənməz ah-naləmin səbəbini soruşma! Qəlbimdə hansı bir duyğununsa çırpıntı və iniltiləri aramsız olaraq səslənir, nə gecə, nə gündüz məni rahat qoymur.

Mən, yaxınlaşmaqda olan böyük bir qasırğanın gurultularını eşidir, onun viranedici, öldürücü gücünü indidən görürəm.

Bu qasırğanın gecmi və ya tezmi olacağı mənə bəlli deyil, lakin mən əminəm ki, o, mütləq olacaq.

Fəqət mən bu qasırğadan səlamət qurtaracaq adamlara indidən paxıllıq edirəm. Çünki hər bir tufan və qasırğadan sonra günəşli günlər başlandığı kimi, bu qasırğa da ötüb ke-

çəndən, milyonları məhv edəndən sonra, yenə də günəşli günlər olacaq və gözəl bir dövran başlayacaqdır.

***1953***

Qəribədir! Həm də qəribə olduğu qədər də təəccüblüdür!

Siz mənə öz həyatım haqqında bir şey yazmağı məsləhət görür və belə hesab edirsiniz ki, mövzusundan asılı olmayaraq yazacağım əsər maraqla oxunacaq və böyük müvəffəqiyyət qazanacaq.

Mənim əzizim! Mənim həyatımda nə vardır ki, onu yazam da? Və əgər yazmış olsam da, əzab-əziyyətlər, yoxsulluq və zindan içərisində keçən bir həyatı bilmək oxuculara nə verə bilər?

Otuz illik həyatımda mən nələr görməmiş, nələr keçirməmişəm? Aclığın dəhşətlərini, müharibənin soyuq üzünü, kəndin əzabını, şəhərin mədəniyyət pərdəsi altındakı əxlaqsızlığını, riyakar dostları, soyuq sement kameraları, hədsiz işgəncələri, ədalətsiz hakimləri, Rusiyanın qarlı çöllərində keçən günləri, nakam və ümidsiz məhəbbətin acı həsrətini, nəhayət, kimsəsiz guşənişin olmuş bir canlı meyidi tanımaq, bilmək və öyrənmək kimə lazımdır?

Mənim həyatımla maraqlananlar onu dumanlı bir payız gününə oxşada bilərlər. Səhər soyuq, hər yer duman, günorta ildırım çaxır, axşam soyuq, hər yer bulud, göy üzü qara bir zülmətə bürünüb.

Sizə yalnız onu deyə bilərəm ki, əgər belə bir şeyi yazmağa başlasam da, heç olmazsa 4-5 ildən sonra, fikrimi bir yerə toplayandan sonra başlaya bilərəm. Ona da kim ölə, kim qala.

***1959***

# YARIMÇIQ QALMIŞ GÜNDƏLİK
## (Firon 1944-1949-cu illərdə)

**30.08.1944.**

Rus dili müəllimləri kursunu bitirən kimi bizə rayonlara təyinat verdilər. Mən 16 yaşına təzəcə keçdiyim, yeniyetmə olduğum üçün uzağa göndərmədilər. Bakının yaxınlığındakı Qazıməmməd rayonunun Cəngən kənd orta məktəbinə rus dili müəllimi təyin etdilər. Qazıməmməd dəmiryolu stansiyasında qatardan düşəndə cəmi 250-300 ev görüb təəccüb etdim. Deməli, rayon mərkəzi bu imiş… İnzibati binalar yerləşən küçə bazarın arxa tərəfində, vağzalın qabağında idi. Hamısı da çiy kərpicdən tikilmiş, üstü palçıqla suvanmış kiçik daxmalar… Maarif şöbəsinin müdiri İsfəndiyar müəllim məni Cəngənə gedən bir milis nəfərinə tapşırdı. İki gün həmin milis nəfəri Lazımın evində qaldım. 3-cü gün Lazım bir at tapıb mindi, məni də tərkinə götürdü; yola düşdük.

Rayon mərkəzindən Cəngən kəndinə qədər olan 45 km yolu axşama qədər güclə qət etdik. Arada üç yerdə atdan düşüb ovdanlardan (Xilə ovdanı, Ağ ovdan və Çəyirli ovdanı) su içdik, atı suvarıb dincəldik.

Axşam kolxozun idarə binasına gəldik. Kolxoz sədri məni idarənin süpürgəçisi Fatma arvada tapşırdı:

– Ay Fatma, – dedi, – elə bil bu da uşaqlarının biridir. Şəhər uşağıdır, məktəbdə müəllim olacaq. Evində saxla, razılaşarıq.

Arvad bir söz demədi, məni yanına salıb yaxınlıqdakı evinə gətirdi. Ev çiy kərpicdən olmaqla iki gözdən ibarətdir. Fatma arvadın əri müharibədən qayıtmamışdır. İki oğlu var. Böyüyü mənlə yaşıd olar, kiçiyi 12 yaşındadır.

Ev çox kasıbdır, belə ki, hətta taxça və camaxudanların pərdəsi də yoxdur. Yerə palaz əvəzinə şal-şəlpə salınıb,

yorğan-döşəyin üz-astarı cırılıb çıxıb, mitillərin də yunu çıxır. Qab-qacaq adına iki mis piyala, bir tabaq, bir sini, iki mis boşqab, üç masqura, bir çaynik, köhnə səhəng və iki mis qazandan başqa bir şey yoxdur.

Doğrudur, bizim Bakıdakı evimiz də kasıbdır, amma orada az-küş mebel olduğundan otaqlar bir az yaxşı görünür. Burada isə…

Fatma arvad çayı haftahada qaynatdı, quru çay yerinə bir neçə heyva yarpağı atdı, çayı qırağı piclənmiş masquraya töküb, qənd əvəzinə üç-dörd alça turşusu qoydu. Yemək isə əl daşında arpadan çəkilmiş yarma aşı idi. Min şükür. Çünki kənddə çörək talonla verilmir. Mənə isə guya ayda 9 kq un verəcəklər. Onu da Allah bilir nə vaxt…

Fatma arvadın nəinki qoyunu, malı, hətta toyuq-cücəsi də yoxdur. Səbəbini soruşanda dedi:

– Mal-heyvanı satıb taxıla verdik. Toyuq-cücəni isə nəylə saxlayım? Dən-dişə var? Dava başlanandan bəri bizim bu kolxoz çox geri gedib. Yəni heç əvvəli də fərli deyildi. Hər əmək gününə 250-260 qram taxıl bölürük. Onunla necə dolanmaq olar? Yenə şükür Allaha ki, illər yağıntılı keçir, göy-göyərti bol olur. Əvvəllər göyərtinin tək-tükünü yeyərdik. İndi isə, ay bala, Allahın bəlkümü nədir, onu da yığıb pörtüb sıxıb duzlayıb yeyirik. Demə, otun çoxusu yeməli imiş…

**31.08.1944.**

Bu ötən gecəni çox pis yatdım. Yad yer, yorğan-döşəyin yunu ağzıma girirdi. Sabah açılan kimi yuxudan durub həyətə düşdüm. Kəndi seyr etməyə başladım. Aman, Allah! Nə miskin görkəmli kənddir… Çiy kərpicdən tikilmiş, üstü palçıqla suvanmış, balkonsuz, əksəriyyəti bir gözdən ibarət, yastı-yapan, pəncərə əvəzinə bir-iki kiçik ovucu olan evlər… Təxminən hər evin qarşısında çiy kərpicdən hörülmüş, 70-80 sm

hündürlüyündə iri bir səki var. Yay vaxtı havalar çox isti olanda kəndlilər bu səkilərin üstündə yeyib-içir və yatırlar. Kənddə, bir dənə də olursa-olsun, ağac və ya kol yoxdur. Camaat çox kasıb yaşayır…

Məktəbin saatı bir az irəli qaçırmış, belə ki, saatda 15-16 dəqiqə, çox yox…

Məktəbin əslən bakılı olan direktoru Novruz Babayev 60-65 yaşlarında bir kişidir. Lakin nə məktəbdə, nə də kənddə heç kim onun adını demir, «Babayev» çağırır. Öz deməyinə görə inqilabın ilk illərində savad kursu bitirib və müharibə başlayan kimi müəllimliyə gəlib. Elə birinci gün onun savadı mənə bəlli oldu. Dərs bölgüsü zamanı 46-nın üstünə 76 gəlib 1112 çıxarır, çünki sağdan sola deyil, soldan sağa toplayırdı. Ümumiyyətlə, bu adam çox lağlağıdır, əsil bazar adamıdır.

Rus dili müəlliməsi Zina müəllimə Smolenskdən gəlmiş rusdur, lakin həm savadsızdır, həm də Azərbaycan dilini bilmir. Bundan sonra bədən tərbiyəsi, rəsm və s. deyəcək.

Ana dili müəlliməsi Şeyda müəllimə əslən Bakıdan olub, savadlı, lakin çox qoca və zəif qadındır. Güclə danışır, pis görür və pis eşidir.

Riyaziyyat müəllimi Məmmədzayıd əslən Qazıməmməddəndir, müharibədən kontuziyalı qayıdıb, söz demək mümkün deyil, o saat əsəbiləşib özündən çıxır, ürəyi gedib yerə yıxılır. Ondan sonra gəl tamaşaya…

Sinif müəllimi Yetər Qazax rayonundan gəlmiş cavan, yetim bir qızdır, Müəllimlər İnstitutunu bitirib.

Ağaşirin müəllimin heç bir ixtisası yoxdur. Öz deməyinə görə 9-cu sinfi bitirib. Lakin hansı fənni təklif etsən, məmnuniyyətlə deməyə hazırdır.

Babayev dərs bölgüsü apardı, mənə rus dili dərsindən başqa bir qədər tarix, kimya, coğrafiya dərsləri də verdi. Təxminən 55-56 saat dərs oldu. Məktəbdə dərslər iki növbədə

keçiləcək. Deməli, mən gündə 9-10 saat dərs deməliyəm. Nə etməli, müəllim çatışmır.

Günortaya yaxın evə qayıtdım, proqram tutmağa başladım: sabah mən ömrümdə ilk dəfə sinfə girəcək, həyat yolunun ilk pilləkəninə qədəm basacaq, özümə çörək pulu qazanacağam.

**01.09.1944.**

Sabah açılan kimi tələsik olanından yeyib məktəbə gəldim. Həyətdə irili-xırdalı yüzə yaxın oğlan və qız var idi. Onları görən kimi elə bildim məni ildırım vurdu: hamısı cır-cındır paltarda, çoxusunun gözü traxoma; bəzisinin başı keçəl; hamısı o qədər arıqdır ki, ayaq üstə güclə yeriyirlər.

Dəftərsiz, qələmsiz, kitabsız, ac-yalavac uşaqlara nə öyrədə bilərəm?

Bu gün bütün dərslərim şagirdlərlə tanışlığa, vəziyyətə-şəraitə alışmağa və s. həsr olundu.

Axşamüstü darıxdığım üçün kəndin qırağındakı qəbristana getdim. Qəbristan da kəndin özü kimi kasıb, uçuq-sökükdür, bir dənə də başdaşı və ya sinə daşı yoxdur. Hər tərəf bom-boz görünür, nəinki ağac, hətta hündür bir kol belə yoxdur.

Evə qayıtdım. Fatma arvad məni görcək dedi:

– Oğul, səhər yadımdan çıxıb, sənə deməmişəm. Kənddə bit-sirkə çoxdur. Ehtiyatlı ol, məktəbdə uşaqlardan aralı dur. Hər halda sənin üstündə bit görünməsin. Camaatı da qınama, ay bala! Baş yumağa, paltar yumağa, çimməyə sabun yox, gilabını da dağdan-daşdan hamı çıxardıb gətirə bilmir. Özü də hamı alaqaranlıqdan ta şər qarışınca işdə olur, çimməyə macal qalmır. Bir də ki, dəyişək olsa, pis-yaxşı paltarı yuyub təmizlərsən. O da ki, tapılmır.

**28.09.1944.**

Artıq iyirmi doqquz gündür ki, kənddəyəm. Kəndi, demək olar ki, başdan-başa gəzmiş, bir çox evlərə girmiş, şagirdlərin valideynlərilə tanış olmuşam. Evlərin 99 %-i çiy kərpicdən tikilmiş, bir qisminin üstü yastı, qalanı balığbelidir, palçıqla suvanmışdır. Evlər o qədər kasıbdır ki, təsvir etməyə belə çətinlik çəkirəm: divar boyu rəfdə üç-dörd mis piyala, bir-iki mis boşqab, yük yerində (camaxudan) bir-iki dəst mitili də cırıq-cırıq olmuş yorğan-döşək, yerdə süzülmüş, cırıq şəlpələr, ocaq qırağında bir-iki mis qazan, sac, qara haftaha. Ola bilsin ki, bəzi evlərdə əşyaların sayı azca artıq ola bilər, amma bir elə də yox. Yorğan-döşəyin üz-astarını bu üç ildə söküb pal-paltar tikib geyiblər.

Xörəklər: yarma aşı, yarma sıyığı, qara-yavan əriştə, əriştə aşı, qovut aşı, xəşil, xingal, təpitmə, şorba, göy sıxması, göy qutabı, horra, ayran dovğası, su dovğası və s. ibarətdir.

Su dovğası lap çarəsizlik xörəyidir. Bir qazan suyu ocaqda qaynadır, gözünə bir-iki qaşıq un vurur, sonra bolluca göyərti tökürlər. Bişir və olur su dovğası.

Taxıl az olduğu üçün dəyirmana nadir hallarda gedir, un və yarmanı adətən evdə, əl daşında çəkirlər.

Kənddə ağac-bağ olmadığı üçün meyvə də olmur, yay aylarında Navahı kəndliləri satmağa gətirəndə az-çox alıb yeyirlər. Uşaqların çoxusu əksər meyvə və tərəvəzin nəinki üzünü görməyib, heç adını da bilmir.

Adamlar bütün məhrumiyyətlərə baxmayaraq böyüklərə ehtiram edir, qonaqpərəstlik göstərir, qəribləri səmimiyyətlə qarşılayır, hətta Ukraynadan qaçıb gəlmiş zavallılara da imkan daxilində əl tuturlar; kənddə qədim adət-ənənələr gözlənilir, çox gizli şəkildə olsa da, dini mərasimlər icra olunur.

Məktəbdə isə vəziyyət çox ağırdır. Müəllimlər və ailələri kəndlilərdən çox acınacaqlı həyat sürürlər. Onlara verilən ayda 9 kq un belə vaxtlı-vaxtında gətirilmir.

Dərslər aşağı siniflərdə alababat keçsə də, yuxarı siniflərdə səmərəsiz olur. Çünki yeniyetmələrin əksəriyyəti kolxoz işinə gedir; təsadüfdən-təsadüfə məktəbə gələndə isə arxa partada oturan kimi yorğunluqdan yuxuya gedir. Belələrini dindirməyə də utanıram.

Günlərim çox üzücü keçir: radio yox, mətbuat yox (poçtalyon Ərəs kişi poçtu həftədə bir dəfə dalında və ya ulağın üstündə Hacıqabuldan gətirir), kino yox, həmsöhbət yox. Müəllimlər deyir ki, payız və qış aylarında kəndlilər bekarlaşanda həmsöhbət çox olacaq. Görək də…

Ağagül adlı bir nəfər kəndli müharibədən qayıdıb. Sən demə üç dəfə yaralanıbmış, sonuncu dəfə topuğunu bomba qəlpəsi aparıb, bir qədər axsayır. Təxminən 30 yaşındadır, az-çox savadı var, uca boylu, enli kürəkli, gözəl-göyçək bir gəncdir; çox mehriban, söhbətcil, qayğıkeş adamdır. Ailə vəziyyəti çox ağırdır: qoca ata-anası, arvadı və dörd  uşağı var. Başqalarından eşitmişəm ki, arvad və üç uşaq vəfat etmiş qardaşınındır, müharibədən bir az əvvəl ata-anası zorla qardaşı arvadını ona alıblar və bir uşaq da bundan olub. Ağagül ailəsi barədə danışmağı xoşlamır, lakin ata-anasına görə söz-söhbətə imkan vermir. Gəldiyi gündən üç-dörd gün sonra kolxozun öküzlərini otarmağa başlayıb.

Ağagüllə tezliklə dostlaşdıq. Axşamlar öküzləri farağatlayandan sonra, demək olar ki, hər gün bizə gəlir. Onunla söhbət etmək maraqlıdır. Gördüyü yerlərdən, döyüşlərdən elə danışır ki, adamı valeh edir, istəyirsən elə qulaq asasan.

**05.11.1944.**

Axşamlar bizə Ağagüldən başqa azı beş-altı nəfər qoca və yeniyetmə gəlir. Söhbət uzanır, olub-keçənlərdən danışırlar, müxtəlif milli oyunlar oynayırıq. Bunlardan «Xan və oğru», «Dəyirmançı», «Baba xoruzu, fit ver», «Südlü sümük», «Beli kimə verdin», «Xanım, bir oğru tutmuşam», «Ac qurd və çoban» və b. xüsusilə maraqlıdır. Adam bir müddət müharibəni, aclıq və məhrumiyyətləri unudur.

Bəzən tapmaca deyirik. Doğrudur, bunların bir qismi zahiri deyiminə görə ədəbsiz görünür, amma mənası (tapımı) çox ədəblidir.

İsa kişi hər 2-3 gündən bir bizə nağıl danışır. Nağıllar isə elə maraqlı olur ki, heç doymursan.

Gələn qonaqlara verməyə çay-çörəyimiz olmur. Amma görürsən birisi beş-altı turşu (qənd yerinə), bir başqası bir çimdik istiot və ya bir dişləm qənd (çay yerinə) gətirəndə qara haftaha ocağa qoyulur. Arabir bir-iki ovuc qovurğa gətirən də olur.

**01.11.1944.**

Məktəb mən olduğum evin qabağında, təxminən əlli metrlikdə yerləşir. Məktəb deyəndə bir az yekə çıxır: vaxtilə hansısa bir varlının əlindən alınmış, artıq uçulub-dağılmaqda olan üç gözdən ibarət çiy kərpicdən tikilmiş, üstü suvaqlı, yöndəmsiz bir bina, yanında vaxtilə tövlə və mal damı olmuş iki kiçik otaq və iki dənə də qarakeçə alaçıq. Bəli, bəli, əsl qarakeçə alaçıq.

Müəllimlər otağı adlandırılan yerin cəmi altı kv. m sahəsi vardır. İçəridə bir şüşəsiz şkaf, bir miz, beş dənə hay-hayı gedib, vay-vayı qalmış stul, divarda bir qursalı saat (aradan bir il keçəndən sonra bacım mənə bir trofey qol saatı

alıb bağışlayanda məlum oldu ki, məktəbin saatı bir az irəli qaçırmış, belə ki, saatda on beş-on altı dəqiqə, çox yox…).

Sinif otaqları darısqal, pəncərələrin şüşələri qırılıb, yerinə faner və ya taxta vurulub; odur ki, içəri alaqaranlıqdır. Partalar sınıq-salxaq və azdır; hər partada üç-üç, bəzən dörd-dörd oturmalı olurlar. Yazı taxtaları o qədər köhnədir ki, üstünə yazılan yazını oxumaq çətin olur. Təbaşir yerinə uşaqların dağdan yığıb gətirdiyi əhəngə oxşar bir daşla yazırıq.

Kitab lap az, dəftər heç yoxdur; mürəkkəb və qələm çatışmır; əyani vəsait adına dörd ədəd köhnə xəritə, on-on beş dənə adını heç kimin bilmədiyi dəmir əşyalar, bir də bir ədəd boz partdağ qarpıza oxşar bir şey. Deyilənə görə on-on iki il bundan əqdəm bu qlobus imiş, yazılar sürtülüb, kağız cırıq-cırıq olub, qlobus özü partdağ-partdağ olub, çox əcaib bir şəklə düşüb.

Şagirdlərin savadından danışmağa dəyməz: bu üç ildə aclıq, ağır fiziki iş, qorxu, ata-qardaş-əmi-dayı həsrəti, müəllim çatışmamazlığı və s. bildiklərini də unutdurub.

Bu kiçik kənddə dörd ev tamam böyüksüzdür: ata cəbhədə, ana vəfat edib. Hər evdə də üç-dörd uşaq başsız qalıb. Dağ yerlərindən buraya gələn kimsəsiz uşaqları da hesaba alsaq, kənddə cəmi on doqquz yetim uşaq var. Onların hamısını el-oba dolandırır, dilənçilik etməsinə yol vermir.

Sovetlikdə beş kiçik kolxoz var. Bəzi kolxozlarda 100-150, bu kolxozda isə cəmi iyirmi bir təsərrüfat birləşib. Kənd Sovetinin binası bu kənddən altı kilometr aralıda, nisbətən böyük olan bir kənddə yerləşir.

Kolxozun işi çox ağırdır, xüsusilə qoyun fermasının kənddən doqquz-on kilometr aralıda, dağın o biri üzündə olan qışlaqda yerləşməsi kolxozçuları çox əziyyətə salır: döl vaxtı çobanlara köməyə getmək, arpa, ot və s. daşımaq, damların altını təmizləmək…

Havalar artıq soyuyub. Çaya su gəlib, payız əkinləri suvarılmalıdır. Bunun üçün çayda bənd basmaq lazım imiş. Mən bunun nə demək olduğunu bilmək üçün kolxozçuların ardınca bənd basılan yerə getdim. Çayda azı 1 m 20 sm – 1 m 30 sm su var idi. Qadınların bir neçəsi əl-ələ tutub çayın bu tayından o tayına kimi düzülüb, bir növ çayın qabağını kəsdilər. Qalan qadınlar irəlicədən çayın qırağına yığılmış tikan şələlərini gətirib bu qadınların döşündə sıra ilə düzdülər (qadınlar dirək əvəzinə durublarmış, çünki bu yerlərdə nə bağ-meşə var, nə də dəmir-dümür). Sonra üç-dörd adam ağır daşları qaldırıb qız-gəlinin belinə qoydu və onlar sinəyə qədər suyun içinə girib daşları tikanların üstünə düzdülər. Ondan sonra bəndi torpaqlamağa başladılar. Qoca kişilər kisələrə torpağı yığır, qadınlar dallarında bəndə daşıyırdı. Burada dincəlmək mümkün deyildi: çünki azacıq ləngiyən kimi su bəndi uçururdu. Qadınlar yorulmuşdu, güclə ayaq üstə dururdular. Zarafat deyil, əmcəyə qədər suyun içində durub dalında da ağır daş və torpaq daşıyasan.

Briqadir arabir onları ruhlandırır: «Hə, başuvuza dönüm, Əli köməyiniz olsun, cəld olun. Hökümət gəlincə qurtaraq», – deyirdi.

Mən kəndə gələn gündən bəri bu «Hökümət» sözünü tez-tez eşidirdim. Bir gün Ağagüldən soruşanda dedi:

– Kənd Sovetinin sədrinə, İspolkoma çox adam «Hökümət» deyir. Əsl adı Səlimdir. Çox sərt, tələbkar, həm də kobud adamdır. Çalış ki, onunla üz-üzə gəlməyəsən.

Amma bu gün «Hökümət»i gördüm. Göy erkək atın üstündə gəldi. Balacaboy, dolğun bədənli, qarabəniz, təxminən qırx-qırx beş yaşlı bir adamdır. İşin necə getdiyini görsə də, xoş söz demədi:

– Gecə yarısına kimi də olsa, bəndi bağlamamış evə getmək olmaz.

Yaşlı qadınlardan (dirək əvəzinə duranlardan) biri dedi:

– Ay Səlim qardaş, başına dönüm, vallah su bizi üzüb əldən salır. Gərək o biri kolxozlardan da adam gətirəydiz, ellik-haray tez başa gələrdi.

Səlim onun sözünü kəsdi:

– Uzun danışma, uzunqulağın qızı! Deyirsən narkom arvadıdır. «Su bizi üzüb əldən salır.» Sözünə bax! Əldən salmacaq, nə olacaqdın? Ölən-qalan yerin oradır. Tez olun, köpək qızları, gör necə yeriyirlər, elə bil bulaqdan su gətirir, nə naznan yeriyir ey…

Briqadir sözü böyütməmək üçün ona yaltaqlanmağa başladı:

– Ay Səlim qağa, sənə qurban olum, nə qanuvı qaraldırsan, əlbəttə ki, nə vaxtacan lazım olsa, suyun içində duracaq. İndi intəhası bir az soyuqdur, əl-ayağı keyləşir, bir az da döşlərinə atılan tikan əl-ayaqlarına batır. Sən arxayın get, canımız çıxacaq, bəndi bağlayacağıq.

Səlim daha bir söz demədi, atını minib uzaqlaşdı.

Bənd qaranlıq düşəndən xeyli sonra bağlandı. Suda duran arvadları çaydan güclə çıxartdılar. Səkkiz arvadın beşi yeriyə bilmirdi. Əl-ayağı şişmişdi. Onları cavan qız-gəlin dalına alıb kəndə gətirdi.

**14.01.1945.**

Ağagül gecə vaxtı bərk həyəcanlı gəldi. Hirsindən tir-tir əsirdi, rəngi ağarmışdı. Mən onu heç belə görməmişdim; güman etdim ki, yəqin kolxozun öküzlərinə bir şey olub. Mehribanlıqla soruşdum:

– Nə olub, qaqaş? Niyə belə əsirsən?

Ağagül özünü ələ ala bilmirdi, dili topuq çalırdı; bir xeyli dayanandan sonra astadan dedi:

– Daha nə olacaq? Faşistlər bizim adamların başına çox oyun açırdı, amma burada Səlim elə oyunlar açır ki, faşistlərinki onun yanında toy-bayramdır.

Mən bir şey başa düşmədim. Çünki bu gün kənddə elə bir hadisə baş verməmişdi:

– Axı, qaqaş, açıq de, mən də başa düşüm.

Ağagül ağlamağa başladı və göz yaşları içərisində dedi:

– Bu gün axşam üstü Səlim atlı göndərib molla Mirəsgəri yanına çağırtdırıb. Özünün də üç nəfər dostu yanında olub, yaxşı yeyib-içirlərmiş. Mirəsgəri oturdub süfrənin qırağında, deyib: «ye». Yazıq qoca qorxusundan üç-dörd tikə götürüb, əlini çəkib. Onda Səlim stəkanı araqla doldurub alıb əlinə və Mirəsgərə deyib:

– Hələ bir de görüm: bu araq halaldır, ya haram?

Yazıq kişi qalıb belə: desin haramdır, rüsvay ediləcək, döyülüb-söyüləcək; desin halaldı, necə desin? Sabah Səlim hər yerdə deyəcək ki, molla Mirəsgər arağı halal buyurur. Çarəsi kəsilir, başını qurtarmaq üçün deyir:

– Bala, sizə halaldır.

Səlim də elə bunu gözləyirmiş. O saat stəkanı tutur seyidin qabağına və deyir:

– İndi ki, bizə halaldır, elə sənə də halal olar. Al, bunu iç!

Yazıq qoca çox yalvarır, and verir, ağlayır, amma içib dəm olmuş Səlim və dostları əl çəkmir, axırda Səlim «rəhmə gəlib» deyir:

– Yaxşı, içmirsən-içmə, özümüz içərik. Amma biziyçün bir burcutma oynamalısan. Sən öl, əl çəkmərəm.

Seyid çox yalvarır, çox ağlayır, Səlim daha da qızışır:

– Dur ayağa, köpəy oğlu, burcutmanı qaydasıynan oynamasan, səni elə burdan birbaşa qoduqluğa basdıracağam.

Sonra da özü mis ləyəni çevirib çalır və biçarə qocanı oynamağa məcbur edir. Özü bəs deyincə oynadandan sonra isə buyurur:

– Hə, indi də «Eşşək beli xırç» oynayacağıq; əvvəl də sən yatacaqsan.

Qocanı məcburən əyilməyə vadar edir, dördü də növbə ilə onun üstündən atdanır, tullanıb belinə minir və i.a. Axırda özləri yorulub əldən düşür və mollanı buraxırlar. Kişi utandığından evinə getməyib, dərdini deməyə tövləyə, mənim yanıma gəlib. Onu bir az ovundurub, mal axurunda yatırtmışam. Sakitləşər, səhər evinə gedər. Özüm isə dözə bilmirəm. Hara gedim, bu dərdi kimə deyim? Hansı idarəyə getsəm, o saat Səlimə xəbər verəcəklər, o da şahidsiz-sübutsuz bir bəhanə ilə tutdurub dama basdıracaq. Səlimin hər yerdə adamı var. Bu beş kəndin hərəsi ildə on-on beş ton taxıl verir. O da, ora-bura pay verməklə rayon qulluqçularının dilini-ağzını bağlayıb. Zarafat deyil, taxılın kilosu 120-130 manata olanda hərəsinə 100 kq, bəzisinə 250-300 kq verəndə ağız da bağlanar, göz də. Müharibə başlananda, baş qarışıqlıqda bir xeyli mal-qara, qoyun-keçi, at-dəvə ələ keçirib. Bu üç-dörd ildə artırıb, indi üç-dörd yüz baş qoyunu, qırx-əlli baş inək-camışı, iyirmi-otuz baş at-dəvəsi var.

Mən dözməyib soruşdum:

– Bəs özü daima iş üstündə olanda onun bu qədər mal-dövlətinə kim baxır?

Ağagül gülümsünüb əlini yellədi:

– Ay-hay… deməli sən hələ bilmirsən ki, Səlimin qapısında on-on beş nəfər kimsəsiz ac-yalavac nökərçilik edir? Onların əksəriyyəti dağ ellərindən gəlmiş qocalar və uşaqlardır, qarınafətir işləyirlər. Öz camaatımızdan da işlətdiyi olur. Elə ki, yaz olur, qoyun qırxılır, hər kənddən on-on beş arvad aparır: yunu yuyur, darayır, əyirirlər. Payız olcaq evinin alt

mərtəbəsində üç-dörd hana basdırılır, arvadlar növbə ilə gedib onun xalça-palazlarını toxuyurlar.

Müharibə başlananda Səlimin də evi bu camaatınkı kimi idi. Lakin iki il bundan əvvəl özünə ikimərtəbəli bir ev tikdirib ki, iki göz istəyir tamaşa eləsin: hər iki mərtəbəsində səkkiz otağı, üç tərəfə geniş aynabəndi, üstü də dəmirdən. O ev tikiləndə mən davadan təzə qayıtmışdım. Səlim o evi camaata tikdirdi – bir qarın çörəyə…

Mən lap çaşıb qalmışdım, dedim:

– Qaqaş, bəs görəsən Səlimin bu əməllərindən Bakının və Moskvanın xəbəri yoxdurmu?

Ağagül tez sözümü kəsdi:

– Sən Allah, elə söz danışma! Heç dilinə də gətirmə, ağlına da! Bu, biz girən kol deyil. Onun əli böyüklərin ətəyindədir.

**12.03.1945.**

Mərhəba, bizim el qeyrəti çəkən ana və bacılarımıza! Bunların nə geniş ürəyi varmış! Əgər bu qadınlar olmasaydı, kəndin əksər yetim-yütümü, əlsiz-ayaqsız, kimsəsiz qocaları acından qırılacaqdı. Mənə və eləcə də heç kimə məlum olmayan səbəblər üzündən uzun illər bu kənddə qız uşağı az doğulur, doğulanlar da körpə ikən ölürmüş. Odur ki, oğlanlara başqa obalardan, xüsusilə Qəfərli, Paşalı və Kolanı obalarından gəlin gətirirmişlər. Müharibə illərində və elə indi də əslən başqa obalardan olan bu qadınlar yetim uşaqlara əsil ana, kimsəsiz qocalara əsil övlad oldular. Bu qadınlardan birisi atası evindən ona pay göndərilmiş bir kasa unu öz balalarına yedirtmir, bir qazan ayrana gözlük edib dovğa bişirir, kəndin bütün yetim və kimsəsizlərinin qarnını doydurur. Başqası çöldən yığdığı göy-göyərtini pörtüb sıxır, duzlayır, bu bədbəxtlərin hərəsinə bir yumruq boyda verir. Bir qeyrisi yeganə

inəyinin südünə jmıxı əzib qoşur, kimsəsizləri horraya bənzər bir xörəyə qonaq edir. Bunların aman-zaman bircə paltarını gecə ikən yuyub-qurudan, yamayan, hərdənbir başlarını yuyan, özlərini çimdirən də həmin bu qadınlardır.

Kənddə sədrin qoca atına qulluq edən Çimnaz qarının çarəsi kəsilib acından ölməməkçün atın peyinini eşib, içindəki bütöv və yarımçıq arpaları yuyub qurudandan sonra əl daşında un çəkdiyini, peyin iyi verən «çörəyi» yeyəndən sonra xəstələndiyini eşidən bu qadınlar əl-ayağa düşdülər, gecə-gündüz qarıya hayan oldular, onu da yetim-yesir siyahısına daxil etdilər.

Mən bu qadınların yüksək insani mədəniyyəti, açıq ürəkliliyi, mərdliyi qarşısında baş əyirəm. Onlar nəinki kimsəsizləri aclıqdan, xəstəlikdən, ölümdən qorudular, nəinki namusla dolandılar, hətta başqalarını da əyri yola düşməyə qoymadılar.

Kənddə olan yetimlərdən Cəlil adlı birisi atdan yıxılıb başı əzilmiş, qaş tərəfdən dəri qopub üzünə düşmüşdü. Bütün kənd ora toplaşdı. Hamı kimi mən də elə bildim ki, uşağın gözü çıxıb. Həmin bu qadınlar üzə sallanmış dərini qaldırıb yerinə qoydular, yaranı qara qoyunun quyruğu ilə sarıdılar, bir neçə gün növbə ilə yanında qalıb onu sağaltdılar.

Bu qadınların əksəriyyəti savadsızdır, tək-tükü savad kursunda oxuyub, hərf tanıyır. Lakin onlardakı bu qayğıkeşlik, fədakarlıq, sədaqət hələ-hələ savadlıda ola bilməz.

Bu qadınlar kimsəsiz ölənləri dəfn edir, öz əzizi kimi yasını saxlayır, baş açıb ağı deyir, məclisini soyuq keçməyə qoymurlar. Onlar soyuq ocaqlara gərmə-təzək, ac qarınlara nəsə yeməli bir şey verir, dərdlini ovundurur, xəstəyə əllərindən gələn köməyi əsirgəmirlər. Bax, bizim ana və bacılarımız belə qadınlar, belə insanlardır. Belə qızları olan millət heç vaxt darda qalmaz.

**20.04.1945.**

Bu gün bütün kənd yenə matəm içindədir. Sabun olmadığı üçün gilabı işlətməyə məcbur olan qadınlardan üç nəfəri qayanın altında qalıb ölüb. Hadisə belə olub: gilabı çıxarılan yer nəhəng dağın dibindədir. Adamlar oranı ova-ova dağın içinə lağım atır və gilabını çıxarırdılar. Son illər gilabıya olan ehtiyac artdığı üçün bu qazıntı sürətlənir, lağım getdikcə dağın daha dərin qatlarına tərəf gedirdi. Sübh tezdən qadınlar gilabılığa gedir və üç nəfəri lağıma girir, orada kərki və külüng ilə gilabını qoparırlar. Bu zaman dağın bir hissəsi çökür və qadınlar lağımda qalır. Onların ikisi əsgər ailəsi olan qadın idi: birinin bir, digərinin iki uşağı qaldı. Üçüncüsü isə on yeddi-on səkkiz yaşlı bir qız idi.

Kəndin bütün əhalisi hadisə yerinə axışdı, lakin azman dağı bel – lapatka ilə təmizləmək, kənara çəkmək, meyidləri çıxarmaq mümkün olmadı. Əlacsız qalıb elə oradaca iki çadır qurdular: arvadlar ağız açıb ağladı, kişilər ah-zar elədi.

**10.05.1945.**

Müharibənin qurtardığını bu gün eşitdik. Hamı sevinir, bir-birinə gözaydınlığı verir, gülür, şənlənir. Çoxları kimi mən də elə bilirdim ki, elə müharibə qurtaran kimi həm yemək-içmək bol olacaq, həm də bütün əsgər gedənlər qayıdıb gələcək. Amma bunların heç birisi olmadı… Axşam üstü Fatma arvad yenə süfrəyə hərə üçün əl daşında üyüdülmüş arpa unundan bişirilmiş əl boyda nazik çörək, qaz yumurtası boyda göyərti sıxması və bir çimdik duz qoydu… Yenə də üz-astarsız, mitili də cırıq-cırıq olan yorğan-döşək salındı… Yenə də sabah dağa, göyərti yığmağa kimin gedəcəyi müəyyənləşdirildi.

**16.05.1945.**

Səhər tezdən Səlim, onun katibi Kərəməli, tədarükçü Şuru kişi və bir nəfər də aşağı kəndlərdən olan ağsaqqal qoca idarənin qabağına gəldilər. Səlim kişi briqadiri çağırtdırıb hazır siyahını ona verdi və dedi:

– Tez get, bu adamlara de ki, hərəsi beş kq yun gətirib versin, dövlət hazırlığıdır.

Az sonra on altı nəfər qadın və bir nəfər kişi briqadirin döşündə idarənin qabağına gəldi. Səlim kişi onları görən kimi çığırdı:

– Boş niyə gəlirsiz? Boyunuza baxacağam? Yunu gətirin!

Adamlar ağız-ağıza verib bildirdilər ki, nə qoyunları var, nə də yunları. Səlim yerindən dik atıldı, sapoqun quncuna keçirdiyi tatarını əlinə alıb qızılquş kimi onların üstünə şığıdı. Kim gəldi, harasına gəldi vurdu:

– Alçaq köpək uşağı, hökümətin yununu verməyəcəksiz? Tez olun, gedin, yorğan-döşəyinizi sökün, içini çıxardıb gətirin.

Hamı getdi, tezliklə on beş qadın və bir kişi çiynində yorğan, döşək və ya yastıq götürüb gəldi. Söküb tərəziyə qoydular. Şuru kişi çəkib təhvil götürdü. Lakin Gülcahan arvad gəlib çıxmadı. Səlim briqadiri onun dalınca göndərdi. Briqadir qayıdıb bildirdi ki, Gülcahan arvad gəlmir və yun da vermir. Səlim özündən çıxdı. Ağzına nə gəldi, dedi, sonra isə hirslə Gülcahan arvadın qapısına getdi. Arvad örpəyini başından götürüb onun ayağına atdı:

– Ay Səlim qardaş, – dedi, – rəhm elə, cəmi bircə dəst yorğan-döşəyimiz qalıb, hamısını satmışam. Dörd adam bir mitildə yatırıq.

Səlim onun örpəyini yerə atmağına və yalvarmağına məhəl qoymayıb içəri keçdi, tezliklə təzə qırmızı üz-astarlı bir dəst yorğan-döşəyi həyətə atdı, hirsindən boğula-boğula dedi:

– İt qızı it, bəs bunlar nədir?

Gülcahan arvad tez özünü yorğan-döşəyin üstünə atdı, göz yaşı axıdaraq dedi:

– Ay Səlim qardaş, bunlar balamın bəylik yorğan-döşəyidir. Özün bilirsən ki, davaya gedəndə nişanlı idi. Gələn kimi gəlini gətirəcəyəm.

Səlim elə bil deyilənləri eşitmirdi; yorğan-döşəyi arvadın əlindən almağa çalışırdı. Axırda gördü ki, arvad buraxmır, tatarını işə saldı. Tatarı beş-altı dəfə qalxıb-enəndən sonra Gülcahan arvad yorğan-döşəyi buraxdı, elə bir qiyyə çəkdi ki, səsi hələ də qulaqlarımdan getmir.

Kərəməli, Şuru və yanlarında gələn qoca yorğan-döşəyi sökməyə başlayanda arvadın ürəyi getdi, huşsuz halda yerə yıxıldı.

O, özünə gələndə artıq bəylik döşəyinin üz-astarı sökülüb yerə atılmış, içinin yunu çəkilib götürülmüş, çuvala doldurulub dəvəyə yüklənmişdi. Arvad o yan, bu yana baxıb gördü ki, yorğana dəyilməyib. Sevincək, dəli kimi yorğanı bağrına basdı, öpə-öpə dedi:

Aşıq ellilər haray,
Şana tellilər haray,
Bəndimi sel apardı,
Əli bellilər haray.

**27.09.1945.**

Müharibə dörd aydan artıqdır ki, qurtarıb. Lakin bu kənddən hələ də nə gələn var, nə də məktub göndərən. Poçtalyon Ərəs də məktub gətirmədiyi üçün gözə görünmür, tək-tük qəzeti və rayondan gələn təlimatları xəlvəti gətirib sahədə briqadirə verir.

Mən artıq kəndə tam bələd olmuşam, bilirəm ki, buradan müharibəyə cəmi 34 nəfər adam gedib. Özü də onları iki

dəstədə – birinci dəstəni 1941-ci ilin iyul, ikincisini isə dekabr ayında aparıblar. Birincici dəstədə doqquz, ikincidə iyirmi beş nəfər olub. Gedənlərin içində 60-65 yaşlı qoca da, on beş-on altı yaşlı yeniyetmə də olub: pasport yox, yaş kağızı yox, yaşı bilinən var idimi? Elə indinin özündə də Kərəməli, istəsə qocanı cavan, cavanı qoca eləyə bilir.

Ağagül bu axşam ertə gəlmişdi. Söhbət müharibədən, hazırkı vəziyyətdən, kolxozdan getdi. Mən soruşdum:

– Qaqaş, sən müharibəyə hansı dəstə ilə getmişdin?

Ağagülün üzü tutuldu, dərindən bir ah çəkib dedi:

– İkinci dəstə ilə getmişdim. Bizi 1941-ci ilin dekabr ayının üçündə Ağcaqabulda qatara mindirib yola saldılar. Gecəni yol getdik. Səhəri günü Tiflisin yaxınlığındakı Avçala stansiyasında düşürtdülər. Burada o qədər adam var idi və elə qarma-qarışıqlıq idi ki, bir-birimizi itirməmək üçün əl-ələ tutmalı olduq. Komandirlər əksərən rus olduğu üçün yerli dilləri bilmir, azərbaycanlı, erməni, gürcü, ləzgi, avar, osetin, qumıq, kürd və b. yerli əhali isə rus dilini başa düşmürdü. Çox qəribə bir vəziyyət əmələ gəlmişdi. Adamları tələm-tələsik rotalara, vzvodlara bölüb anbarlara tərəf apardılar ki, hərbi paltar geyindirsinlər. Lakin burada məlum oldu ki, paltar azdır, heç on adama bir dəst düşmür. Polk komandirləri çarəsiz qalıb kiminə köynək, kiminə şalvar, kiminə şinel, kiminə isə papaq verdirdilər. Az-küş hərbçiyə oxşayanlar öndə və qıraqda, öz paltarında qalanlar isə ortada getməli oldu. Belə bir vəziyyətdə bizi kənara çəkib axşama kimi təpik döydürdülər. Axşama məlum oldu ki, qızdırılmayan kazarmalarda yatmaq nədir, heç oturmağa belə yer yoxdur. Gücə-pislik iki gün belə keçdi, öz evimizdən gətirdiyimizi yeyib dolandıq. Üçüncü gün bizi yenidən vaqonlara doldurub yola saldılar. Hamımız eyni qatarda gedirdik. Bir gün sonra bizi Batumidə düşürtdülər; dənizin qırağına gətirdilər. Məlum oldu ki, bizi cəbhəyə göndərirlər.

Onda gördüm ki, yüksək rütbəli zabitlər nəsə çox oyan-bu yana qaçır, çığırır, təhrindən kimlərisə söyürlər. Sən demə, cəbhəyə yola salınmaq üçün gəmilərə mindirilən əsgərlərə verməyə silah yox imiş. Çox götür-qoydan sonra hər rotaya üç-dörd tüfəng verib, bizi gəmilərə yüklədilər. Məlum oldu ki, bizi Krıma aparırlar. İki gün yol gedəndən sonra sabahüzü Kerçə yaxınlaşdıq. Sahilə üç-dörd yüz metr qalmış faşist təyyarələri biz minən gəmiləri bombalamağa başladı. Bu, elə gözlənilməz oldu ki, bizimkilər heç bir silahdan-filandan istifadə edə bilmədilər. Gəmilərin hamısı yanmağa, batmağa başladı. Allah heç bəndəsinə göstərməsin, bir qıy-qışqırıq, qaça-qaç, basa-bas, vanəfsa oldu ki, deməyə dəyməz. Əsgərlərin böyük əksəriyyəti üzmək bilmir, bilənlər də ağır qış paltarında buz bağlamış suda cəmi beş-altı dəfə əl-qol ata bilirdi. Mən suya düşən kimi bir kiçik taxta parçasına yapışdım, məndən başqa bir gürcü də taxtanın o biri ucundan tutdu. Faşist təyyarələri alçaqdan uçur, suya tökülən sovet əsgərlərini pulemyot atəşinə tuturdu. Dəniz atılan güllələrin altında bulaq kimi qaynayırdı. Təxminən bir saatdan sonra gürcü ilə mən sahilə çıxdıq, bizdən başqa qırx-əlli nəfər də çıxmışdı. Onların da əksəriyyəti yaxşı üzməyi bacaran, möhkəm bədənli oğlanlar idi. Gözlərimin qabağında dörd gəmi, bu gəmilərdə olan on mindən artıq əsgər Qara dənizdə batdı; mənim əziz həmyerlilərimdən heç kim xilas ola bilmədi.

Mən özümü saxlaya bilməyib soruşdum:

– Bəs niyə onların ailələrinə xəbər verməmisən? Axı yazıqlar hələ də onları gözləyir.

Ağagül gözünün yaşını silib dedi:

– Nə deyəydim? Şad xəbər verirdim? Qoy hələ ümidlə yaşasınlar. Bəlkə təsadüfən birisi başqa bir tərəfə düşüb, sağ qalıb… Deyə bilmərəm, Əfqan, dilim gəlməz…

**15.03.1946.**

Kənddə yaman aclıqdır. Heç jmıx da tapmaq olmur. Nə yaxşı ki, bəlküm, şomu, quşəppəyi və başqa yeməli otlar tez qalxıb. Adamlar bunları yığıb pörtür, çıxıb duzlayır və çörək əvəzinə yeyirlər. Tək-tək adamlar evdə qalan palaz, çuval, heybə və ya mal gönünü götürüb Zəyəmə gedir, orada həmin şeyləri kartofa və qarğıdalıya dəyişib gətirir. Ev sahibəsi Fatma arvad neçə gündür ki, məni də Zəyəmə göndərməyə çalışır. Nəhayət, bu gün məktəbin direktorundan icazə aldım.

Fatma arvad bir ladılı çuval, bir qayıq heybə, bir marfac və üç zol öküz gönünü evin ortasına qoydu:

– Bala, – dedi, – sən də mənim oğlanlarımın birisən. Bu şeyləri götür, Mustafanı da özünlə apar. Gedin Zəyəmə, orada bu şeyləri kartofdan, qarğıdalıdan, darıdan, daşdan yumşaq nəyə olsa, bir şeyə dəyişib gətirin. Həm yaza çıxaq, acından qırılmayaq, həm də qabaqdan əziz gün gəlir. Uşaqların gözü onun-bunun qapısında qalmasın. Obaşdan kənddən Zəyəmə gedən olacaq. Siz də onlara qoşulub gedin.

**17.03.1946.**

Qatar Zəyəmə sabahüzü çatdı. Stansiyaya vaqonlardan yüzlərlə dalı şələli, əli zənbilli, torbalı adamlar töküldü. Hava çox soyuq idi. Hamı vağzalın gözləmə zalına tərəf irəlilədi. Lakin içəriyə girmək heç kimə nəsib olmadı. Çünki gözləmə zalı o qədər dolu idi ki, adamların əksəriyyəti ayaq üstündə durmuşdu. Təzə gələnlər çarəsiz qalıb vağzalın müxtəlif tərəflərində daldalandılar və beləcə sabahı diri açdılar. Mən şeyləri çuvala yığıb dalıma almış və Mustafaya tapşırmışdım ki, məndən aralı durmasın.

Səhər açıldı, adamlar dəmir yolunun alt tərəfindəki böyük, açıqlıq sahəyə axışdılar. Tezliklə dağ kəndlərindən yüzlərlə yüklü araba, at, eşşək, habelə piyada adam buraya axışdı.

Ucu-bucağı görünməyən nəhəng bir bazar əmələ gəldi. Satanlar yerlilər, alanlar isə Azərbaycanın müxtəlif rayonlarından gəlmiş kişi və qadınlar idi. Satılan şeylər kartof, qarğıdalı, az miqdarda arpa, boranı və sairdən ibarət idi. Alıcılar yun palaz, çuval, heybə, xurcun, marfac, az geyilmiş paltar, qızıl-gümüş və çarıqlıq mal gönü təklif edirdilər. Pul demək olar ki, işlənmirdi. Satanlar və alanlar malları təxmini qiymətləndirib dəyişirdilər. Yemək şeylərinin qiyməti son dərəcə yüksək, təklif olunan malların dəyəri çox ucuz müəyyənləşdirilirdi. Belə ki, yun palaz iki pud, çuval və heybə bir pud, bir zol gön on girvənkə kartofla dəyişdirilirdi. Qızıl və gümüş zinət şeylərinin də qiyməti çox aşağı hesablanırdı. Mən qoca bir qarının qırmızı qaşlı üzüyü üç batman kartofa, qırxdüymə sırğanı isə bir pud arpaya dəyişdiyini gördüm.

Gətirdiyim şeyləri kartof, qarğıdalı və arpaya dəyişib iki kisəyə yığdım, Mustafanı həmkəndlilərimizin yanında kisələrin üstündə oturdub özüm bu qeyri-adi bazarı gəzməyə başladım.

Bura – göz yaşı, ah-nalə, müsibətlər, faciələrlə dolu bir aləm idi. Minlərlə ac-yalavac sıraların arası ilə gəzir, özünün dəyərli və ya dəyərsiz şeyini nəsə ərzağa dəyişməyə çalışır, and içir, ağlayır, yalvarırdı. Bunların arasında dilənçilər də var idi, ağsaqqal, ağbirçək, cavan və yeniyetmə də…

Pay verən çox az idi. Tək-tək rəhmdil olanlar bir kartof, yaxud bir ovuc qarğıdalı verməklə yüzlərlə dilənçini razı sala bilmirdi.

Hamı tələsirdi. Çünki təxminən günortadan bir az sonra bu həftə bazarı yığışacaq və kəndlilər kəndlərinə qayıdacaqlar. Bu insan dənizinin içərisində oğrular, cibgirlər, qaraçılar, dərvişlər, harınlar, kimsəsizlər, möminlər və əxlaqsızlar bir-birinə qarışmışdı. Həyat çox qəribə imiş. Mən bu gün bu bazarda gördüm ki, alçaq, əyri, rəzil adamların milləti olmur. Onlar millətin ağır günə düşməyindən, ehtiyac içində boğulmağından öz

mənafeyi üçün istifadə edirlər. Cibgirlər cibə girir, oğrular əşya və ərzağı çırpışdırır, falçılar yalan danışır, qansızlar kimsəsizləri təpikləyir, yumruqlayır, qapazlayır və söyür, müxtəlif əxlaqsızlar isə gözəşirin qız-gəlini ələ almağa çalışır…

Bu insanlar arasında cırım-cındır libaslı, təxminən otuz yaşlarında bir qadın, on-on iki yaşlı cındır paltarlı bir qız uşağının əlindən tutub dilənirdi. Hamıya da belə deyirdi:

– Vallah, dilənçi deyiləm. Hitleri zəlil olsun. Külfətim davadan qayıtmayıb. Olan-olmazı dava vaxtı satıb qurtarmışıq. İndi acından ölürük.

Ucaboylu, dolğun əndamlı, qırmızı sifətli, əlli-əlli beş yaşlı bir kişi gəlini yanladı:

– Mənim pulum da, çörəyim də var, verə bilərəm. Amma bu şərtlə ki, qızı mənə ver.

Gəlin deyəsən bir şey başa düşmədi, karıxdı, sonra isə soruşdu:

– Sənin övladın yoxdur? Axı mən onu sənə versəm, obaya nə təhər qayıdaram? Atası gəlib çıxanda nə deyərəm?

Kişi arsız-arsız hırıldadı:

– Ay axmaq, mənə o qız bir gecəlik lazımdır. Sonra götür apar, vur başına.

Gəlin kişinin məqsədini başa düşəndən sonra bir az astadan dedi:

– Allahı başının üstündə gör. Axı o, körpədir. Əgər arvadın yoxsa, bir parça çörək üçün mən özüm sənə arvad olaram. Ancaq Allah şahiddir ki, mən indiyə kimi ərimdən başqa bir kişi üzü görməmişəm.

Kişi onun sözünü kəsdi:

– Sənin kimidən burada çoxdur. Hay desəm, yüzü tökülüb gələr. Mənə bu sütül qız uşağı lazımdır.

Gəlin odla su arasında qalmışdı: bir tərəfdən körpə balasının namusunu qorumaq istəyir, digər tərəfdən isə onu aclığın

pəncəsindən qoruya bilən bu harın kişini əldən buraxmağa qorxurdu. Kişi deyəsən gəlinin yumşaldığını başa düşüb onunla pıçıldaşmağa başladı.

Sən demə, bu mənzərəni çoxları seyr edirmiş. Kişinin gəlini və qızını yanına salıb uzaqlaşdığını görcək döşündə bir çuval kartof olan orta yaşlı bir qadın yerindən qalxdı, uca səslə bağırdı:

– Ay el, ay oba, ay camaat, niyə ölmüsüz? Qeyrəti itə atıblar, it yeməyib. Yəni bizim itcən də qeyrətimiz yoxdur? Niyə razı olursuz ki, gözümüz görə-görə bir biqeyrət millətin namusuna toxunsun.

Arvad bunu deyib harın kişinin və onun dalınca gedən gəlin və qızın arxasınca cumdu. Çatan kimi gəlinin qolundan tutub özünə tərəf çəkdi. Üzünə bir şillə vurdu:

– Köpək qızı, yatmısansa, ayıl. Adam namusunu canına çəpər eləməz. Uşağı hara aparırsan?

Sonra isə harın kişinin üzünə tüpürdü. Kişi səs-küy çoxaldığını görüb aradan çıxdı.

Cavan gəlinin qorxudanmı, həyadanmı, aclıqdanmı, bilmirəm, ürəyi getdi. Kişilər köməkləşib onu bu qadının çuvalının yanına gətirdilər. Qadın torbasından bir parça çörək çıxardıb qıza verdi. Qız çörəyi yemədi, ovcuna tutub həsrətlə o üzbu üzünə baxdı. Ağlamağa başladı. Arvad onu qucaqlayıb bağrına basdı:

– Ye, başına dönüm, indi anana da verəcəyəm. Bu kartofu da satası olmadım. Çuval qarışıq sizə bağışlayıram.

**15.04.1946.**

Bu gün səhərdən briqadir Kərim kişi hamıya xəbər verdi ki, axşam iclas olacaq. Heç kim bunun nə iclas olduğunu bilmirdi. Axşam mal gələn vaxtı idarənin qabağındakı zəngi çaldılar. Hamı tez idarənin qabağına yığışdı. Kəndin bütün

kişi və qadınları, yeniyetmələri bura toplaşdılar. Kolxoz sədri İlyas əmi dedi:

– Ay camaat, indicə İspalkom gələcək. Nəsə işi var.

İspalkom adı eşidən kimi həmişə olduğu kimi indi də adamlar vahiməyə düşdü. Çünki onun hər bir gəlişi mütləq danlamaq, söyülmək, döyülmək, var-yoxdan çıxmaqla nəticələnirdi. Heç aradan on-on beş dəqiqə keçmədi ki, kəndin aşağı başından üç atlı kişi kəndə daxil oldu. Gələnlər İspalkom, onun katibi və vergi yığan idi.

Onları görən kimi hamı yerindən durdu.

Kişilər yaxınlaşıb əllərini döşlərinə qoyub salam verdilər. Qadınlar isə başlarını aşağı əyməklə “xoş gəldin” etdilər. İspalkom idarənin qabağına qoyulmuş mizin arxasına keçdi və keçən kimi də vahiməli bir səslə bağırdı:

– Ədə, köpək uşağı, belə qudurmusuz ki, məni ayağınıza gətirirsiniz? Niyə hökümətin zayomunu verməyə can çəkirsiniz? Siz öləsiniz, iki gözünüz bir deşikdən çıxa, bu gün zayomu sizdən alacağam. Özü də eşşəkdən palan alan kimi. Tez olun, gedib zayom pulunu götürüb gəlin.

Camaat içərisindən yalnız bir nəfər aralanıb evinə tərəf getdi. Qalanlar yerindən tərpənmədi. İspalkom uzunboğaz çəkməsinin quncuna keçirtdiyi qırmancı çıxarıb var gücü ilə mizin üstünə çırpdı:

– Ədə, it uşağı, nə mal kimi dayanıb üzümə baxırsız? Niyə gedib pulları gətirmirsiniz?

Həştad-doxsan yaşlı, ağ saqqallı İmamverdi baba iki əlini döşünə qoyub yazıq-yazıq mızıldandı:

– Ay Səlim, bala, başuva dönüm, özün bilirsən ki, quru qurtarıb, yaş da hələ yetişməyib. Keçən il hər əmək gününə 250 q taxıl almışıq. Vallah, olan-olmazı satıb uşaqları birtəhər yaza çıxarmışıq. Bir az gözlə, arpa dəyən kimi altı aylıq bölgüyə nə düşsə, hamısını satıb zayomu verərik.

İspalkom dəli kimi yerindən sıçradı. İmamverdi kişinin üstünə cumdu. Qırmancla onu döyməyə başladı. O, kişinin harası gəldi vurur, arabir də təpikləyirdi.

İmamverdi kişi özünü müdafiə etməyi ağlına belə gətirmirdi. Çünki bilirdi ki, onda ispalkom daha çox hirslənəcək və onu döyüb öldürəcək. Qəribə burasıdır ki, heç kim cəsarət edib İspalkomun əlinə yapışmır və ya kişini kənara çəkmirdi. İspalkom kişini bir xeyli döydükdən sonra təngənəfəs halda dedi:

– Oğraş köpəyoğlu, get bu saat min manatı götür gəl, yoxsa dərivi soyacam.

İmamverdi kişi üz-gözü qan içində olmasına baxmayaraq cürət edib əlini qaldırıb üzünü silə bilmirdi. Yalnız kəsik-kəsik deyirdi:

– Vallah, yoxdur, Həzrət Abbas haqqı, yoxdur.

İspalkom qırmancı bu dəfə onun dik gözünə dikəltdi:

– Sən öləsən, o, min manatı bu gün gətirib verməsən, bu tatarını sənin gözlərinə soxacağam. Pulun yoxdur, get arvadının tumanını sat.

– Arvadın tumanı azı əlli yerdən yamaqlıdır. Ona pul verən olar?..

Onda İspalkom İmamverdi kişinin qarnına bir təpik ilişdirdi. Kişi yerə yıxıldı. İspalkom onun üstünə çıxıb bir xeyli təpiklədikdən sonra dedi:

– İndi ki, pulun yoxdur, apar arvaduvı sat. Ancaq hökümətin pulunu gətir.

Bu vaxt camaat içindən Türfə arvad irəli yeridi. O, yetmiş yaşlarında, əri ölmüş, övladı olmamış bir qadın idi. Hamı ona böyük hörmət edirdi. Türfə qarı İspalkoma yaxınlaşıb aram səslə dedi:

– Ədəbli danış, oğul. Axı burda böyük-kiçik var.

İspalkom Türfə arvada tərs-tərs baxıb çığırdı:

– İtil gözümdən, imansızın qızı, imansız. Mənə nəsihət verənə bax.

Türfə qarı deyəsən İspalkomdan qorxub çəkilmədi və əvvəlki kimi sakit səslə dedi:

– Sənə dedim ki, ədəbli danış.

İspalkom cavab əvəzinə qırmancı Türfə qarının başına vurdu. Camaat içərisində ah çəkənlər, hıçqırıb ağlayanlar var idi. Lakin qarı əvvəlki məğrur görkəmi ilə İspalkomun dik gözünün içinə baxıb dedi:

– Mənə əl qaldırırsan? Mən anovun tayıyam.

İspalkom qırmancı bu dəfə arvadın üzünə çırpdı:

– Kəs, kaftar köpək qızı.

O, qırmancı arvadın başına vurduqca-vurur və hər vurduqca qarı «ay Allah, hardasan?» deyirdi. Qan arvadın ağ saçlarını və üzünü qırmızı rəngə boyadı. İspalkom isə vurmağında davam edirdi. Nəhayət, Türfə qarı uca səslə çığıra-çığıra dedi:

– Görun çatdasın, Şabəyim! Sən oğul doğmamısanmış. Bu Firondur! Firon! Firon!

İspalkom əlindəki qırmancı yerə tullayıb arvadın üstünə cumdu. Onun saçlarından tutub sürüməyə başladı.

Yalnız bu zaman onun katibi və vergi yığanı irəli çıxdılar:

– Səlim qağa, sən Allah, özüvü hirsləndirmə.

– Hər itə-qurda görə niyə əl-ayağuvu ağrıdırsan?

İspalkom arvadı buraxdı. Mizin arxasına keçib qəzəbindən boğula-boğula dedi:

– Sizə üç gün vaxt verirəm. Üç gündən sonra zayomu verməyən adamın öyün uçurdub, arvaddı-uşaqlı sürgün eləyəcəyəm.

Onlar atlarına minib getdilər. Camaat yalnız indi cürətlənib Türfə qarının yanına yeridi. Qoca arvadlardan birisi onun qanına bulaşmış, parça-parça olmuş köhnə örpəyini başına

örtdü. Bir başqası kətəninin ucu ilə üz-gözünün qanını sildi. Arvad döyülməyindən çox el içində təhqir edilməyindən ötrü ağlayır, özünü yerə çırpırdı:

– Heç Firon da bu zülmü eləməyib.

O gündən etibarən mən İspalkomu ürəyimdə Firon adlandırmağa başladım. Tezliklə məlum oldu ki, elə çox adam özlüyündə ona Firon deyir.

Firon isə Fironluğunda idi.

**19.04.1946.**

Bu gün ertədən bərk narahatlıq keçirirdim. Çünki Fironun verdiyi vaxt tamam idi. Yazıq kəndlilər üç günün ərzində imkan olan bütün şeyləri satmış, borc tapa bilənlər az-para tapmış, lakin yenə də vahimə içində titrəyirdilər. Çünki, zayom min manatla min beş yüz manat arasında idi.

Günortaya yaxın Firon yeddi-səkkiz atlı ilə gəlib idarənin qabağına düşdü. Məktəbin pəncərəsi idarənin qapısına tərəf olduğu üçün mən sinif otağından çıxmadan hər şeyi tam aydınlığı ilə görürdüm. Kolxoz sədri özü yüyürüb zəngi çaldı və bərkdən:

– İdarəyə gəlin, hayy! – deyə bir neçə dəfə bağırdı.

Sonra isə Fironun yanına gedib nəsə bir-iki kəlmə söz dedi. Firon hirsli-hirsli dedi:

– Uzun-gödək eləmə, kəndin naxırın bura yığdır.

Sədr, Hüseynalı kişinin oğlu Rəcəbi kəndin yaxınlığında ağnayan mal-qaranı idarənin qabağına gətirmək üçün göndərdi. Sonra isə özü, hesabdar və briqadir qapı-qapı gəzib hamıdan zayom pulunu verməyi tələb edirdilər. Az-para pul toplayanlardan da Firon «Bütöv olmasa, götürmürəm» – deyə qəbul etmirdi.

Bir qədərdən sonra kəndin naxırı idarənin qabağına gətirildi. Camaat naxırı görcək idarənin qabağına axışdı. Firon cə-

misi yeddi baş inək və danadan ibarət olan naxırın yiyələrini soruşub öyrənəndən sonra adlarını vergi yazana yazdırdı və dedi:

– Bunların mallarını zayoma hesab elə. Sabah Bakıya göndərib kəsdirib, satdırıb pulunu götürərsən.

Sonra özü ilə gələnlərdən iki nəfərinə naxırı öz kəndlərinə aparmağı əmr etdi.

Bir kimsənin cürəti olmadı ki, səsini çıxartsın. Firon hamının gözünün odunu almışdı. Naxır getdi və bu kiçik kənddə bir nəfərin də mal-heyvanı qalmadı. Sonra Firon camaatın üstünə çığırdı:

– Dağılışın xarabanıza, bu saat qapı-qapı gəzib zayomu yığacağıq.

Camaat dinməz-söyləməz hərə öz evinə çəkildi, beş-on dəqiqədən sonra Firon öz adamları ilə qapılara düşdü. İlk yaxınlaşdığı kərpic daxma Bahar qarının evi idi. Onun əri ölmüş, böyük oğlu əsgərlikdən qayıtmamış, beş balaca uşaqla ac-yalavac dolanırdı. Gələnləri görcək şalını başından götürüb Fironun ayaqları altına atdı və özü də üzü üstə yerə düşdü:

– Amandı, ay başuva dönüm, rəhm elə, heç nəyim yoxdur.

Firon onu eşitmirmiş kimi yanından saymazyana keçib qapıya yaxınlaşdı və yanındakılara əmr etdi:

– Keçin içəri, ələ gələn nə varsa, çölə tökün.

Fironun adamları cəld özlərini içəri atdılar. Az sonra evin olan-olmazını çölə tökdülər. Bahar qarının bütün olan-olmazı iki dəst mitil yorğan-döşəkdən, bir köhnə ladılı çuvaldan, bir neçə mis boşqab, piyalə, qazan və haftahadan ibarət idi. Firon adamlarına tərəf dönüb:

– Hamısını aparıb idarənin qabağına yığın, – dedi, – hamısını qurtarandan sonra araba ilə aşağı aparارsız.

Bahar arvad bu sözü eşitcək ilan vurmuş kimi yerindən qalxdı. Fironun ayaqlarına döşəndi:

– Balalarıma rəhmin gəlsin. Mən körpələri yorğan-döşəksiz necə saxlayım? Dovğanı, horranı nədə bişirərəm?

Firon ona məhəl qoymadı. O biri həyətə tərəf dikəldi. Bahar qarı onun pencəyinin ətəyinə yapışdı:

– Balalarımın başın kəsmə, axı sənin də balan var.

Firon sərt bir hərəkətlə dönüb ətəyini arvadın əlindən çıxartdı. Sonra ona bir-iki təpik vurub:

– Kəs səsini, bayquş, – dedi, – öz yetimlərini mənim balalarıma tay qoyur.

Bahar arvad daha cəsarət edib irəli gələ bilmədi. Əl atıb üz-gözünü cırdı və meyid üstündə oxşayırmış kimi ağı deməyə başladı:

Məni görən ağlasın,
Dərdim bilən ağlasın.
Əvvəl görən xub görüb
İndi görən ağlasın.

Firon və adamları malı olmayanların evlərindən palaz-paltarı, yorğan-döşəyi, mis qab-qacağı çıxarıb zayom yerinə götürürdülər.

Dar axşamçağı aşağı kənddən beş öküz arabası gəldi. Kəndin yorğan-döşəyi, palaz-paltarı, qab-qacağı onlara yüklənib aparıldı. Firon və adamları da getdi.

Mən utandığımdan kəndin içinə çıxa bilmədim. Özümü günahkar hesab edirdim. Çünki böyük bir haqsızlığın şahidi olmuş və ona qarşı heç bir tədbir görməmişdim. Lakin mən Firona, onu müdafiə edənlərə qarşı çıxa bilərdimmi?

**20.05.1946.**

Məktəbdə uşaqların dərsə davamiyyəti çox zəifləyib. Ona görə də bu gün yenə də uşaq dalınca kəndi gəzməyə çıxdıq. V-VII siniflərin bir neçə şagirdlərinin kotana getmiş olduqlarını öyrəndik. Uşaqlardan birini özümə bələdçi götürüb

şum sürülən Alhəsən arxacına getdim. Kotanlara yaxınlaşanda gözlərim önündə qəribə bir mənzərə açıldı. On iki kotan arxac boyunca irəliləyirdi. Arxac enişli-yoxuşlu idi. Yer ağır olduğu üçün iki cüt öküzün qabağına bir cüt at qoşulub. Çubuqçu uşaq olduğu üçün öküzlərin sağ tərəfində, yəni şumun içi ilə başqa bir uşaq da gedir ki, ona böyürçü deyilir. Onun vəzifəsi dibdə gedən öküzləri şotdan çıxmağa qoymamaqdır. Üçüncü uşaq qabağa qoşulmuş iki atın cilovundan tutaraq onların döşü ilə gedir. Kotan yoxuşa dirənəndə uşaqların üçü də səs-səsə verib «hə, Allah, Allah, ya Allah» və başqa nidalar edir, qırmanc və çubuğu işə salır. Böyürçünün vəziyyəti nə qədər ağırmış. Bu uşaqların əksəriyyəti ayaqyalındır. Böyürçü şumun içi ilə, daş-kəsəyin üstündə yıxıla-dura yeriməli olur. Daş-kəsəyin ayaqlarını əzməyi o yana, kol-kosun dizinə qədər ayaqlarını cırmağı o yana, şumun altından çıxan ilan-çayan və siçanlardan da qorunmalı olur. Atların başını çəkən uşaq yoxuşda bir qədər rahat olsa da, enişdə atların onu tapdamasından qorunmalı olur. Lakin çox vaxt atlar üzüaşağı yüngül gəldiyi üçün uşağın dabanlarını tapdayır, qolunu və kürəyini qapır. Beləliklə, bütün cütçülər sübh qaranlığından gecə qaranlığına qədər çöldə bu şəraitdə işləyirlər. Mən orada ikən ağsaqqallardan birisi kotanları saxlatdırıb dedi:

– Ay uşaqlar, heyvanlar yorulub, onları açın, bir az boyunları dincəlsin, özləri də otlasın.

Uşaqlar cəld kotanları saxladılar. Atlar və öküzlər açıldı. Kotanın dəstəsini tutan qadınlar bir tərəfdə oturub yerə süfrə saldılar. Hamı süfrə başına toplandı. Demək olar ki, heç kimin çörəyi yox idi. Qovut, qovurğa, pörtülmüş göyərti sıxması, jmıx qoşulmuş darı cadı.

Təzəcə yeməyə başlamışdılar ki, birdən dağın başından atlı Firon göründü. O, kotanların açılmış, işçilərin oturmuş olduğunu görüb atını birbaşa onların üstünə sürdü. Salamsız-kə-

lamsız ağsaqqal Nuru kişini qırmancın altına aldı. Heç kim qorxusundan nə dinməyə, nə Fironun atının cilovuna yapışmağa, nə də bir yana çəkilməyə cəsarət etmirdi. Firon isə Nuru kişini atdöşü edərək arxac boyu şumun içinə qovur və döyürdü:

– Köpək oğlu, adını ağsaqqal qoymusan, hökümətin işini yarımçıq qoyursan? Ay sənin imanını…

Nuru kişi atın döşü ilə qaça-qaça yalvarırdı:

– Ay hökümət, vallah-billah, Quran haqqı, heyvanlar yorulmuşdu, elə indicə açıb dincə buraxdıq.

Firon bir az da bərkdən söyə-söyə kişini hərləyib kotançıların yanına gətirdi. Kişi adamların arasına girəndə mən elə güman etdim ki, Firon daha ona toxunmaz. Lakin belə olmadı. Firon hamını qırmancdan keçirməyə başladı. Yaz vaxtı olduğu üçün cütçülərin əynində bir köynəkdən başqa paltar yox idi. Ona görə də Fironun qırmancı kürəklərdən zol çıxarırdı. «Ay dədə», «ay nənə», «ay Allah» və s. sədaları arxacı başına götürdü. Firon nəhayət yorulub dayandı:

– Qurban olasız bu ürgəyə, əgər uzaq yol gəlib yorulmamış olsaydı, sizi atdöşü eləyib, dildən salacaqdım. Di tez olun, kotanları qoşun, ay çıxana qədər kotanı saxlamayın.

Mən bir kənarda dayanıb durmuşdum. Kənddən bələdçi kimi gətirdiyim uşaq qorxusundan tir-tir əsirdi. Cütçülər Fironun əmrini eşidən kimi tez heyvanlara tərəf yüyürdülər. Təzəcə otlamağa başlamış heyvanları kotanların üstünə tərəf qaytardılar. Onlar qorxularından heyvanları qamçılaya da bilmirdilər. Yorğun heyvanlar isə əsla boyunduruğa yaxın gəlmək istəmirdi. Bir xeyli əziyyətdən sonra heyvanlar qoşuldu. Kotanlar təzədən işləməyə başladı. Lakin yorğun heyvanlar yerimək istəmir, döyülməyinə baxmayaraq tez-tez dayanır, bəziləri isə yerə yatırdı. Firon getmiş olduğu üçün uşaqlar heyvanları döyməkdən çəkinmirdilər. Lakin yorğun heyvanlar işləməkdənsə, döyülməyi qəbul edirdilər. Yerə yatan heyvanları

durğuzmaq üçün palçıq düzəldib yatmış heyvanın burnuna doldurdular. Nəfəsi darıxmış heyvan hövlnak ayağa qalxdı. Lakin azacıq sonra yenidən yerə uzandı. Uşaqlar yenidən onun burnuna palçıq doldurdular. Bu vəziyyət iki-üç dəfə təkrar olunduqdan sonra Nuru kişi dedi:

– Ay bala, Allah başımıza daş salar, bəsdir. Heyvanlara əziyyət verməyin, o da candır, daşdan deyil ki, yorulub da…

Cavan gəlinlərdən biri dilləndi:

– Bəs bizim canımız yoxdur? Biz yorulmamışıq?

Nuru kişi gözünün yaşını silə-silə dedi:

– Qızım, bizim üzümüz pisdir. Hər müsibətə dözə bilərik. Axı bu heyvanın dili-ağzı yoxdur. Saxlayın heyvanları, hökümət bura bir də axşam gəlsə gələr, gəlməsə heç. Gedin kolxozun naxırını bura gətirin.

Uşaqlardan bir-ikisi bir qədər aralıda otlayan naxıra tərəf yeridilər. Mən elə düşündüm ki, yəqin naxırda dinc öküzlər var. Onları gətirib qoşacaq, yorulanları açıb buraxacaqlar. Amma naxırda bir dənə də öküz yox imiş. Naxır kotanlara yaxınlaşan kimi Nuru kişi dedi:

– A bala, günah da olsa, daha çarəmiz yoxdur. Bu inəkləri tutub qoşun.

Mən heyrətdən donub qaldım. Çünki inəklərin demək olar ki, hamısı sağmal heyvanlar idi. Uşaqlar dəstə-dəstə olub inəkləri dövrəyə aldılar və kotanlara qoşub yeri şumlamağa başladılar.

Axşamüstü naxırçı Güləbətin arvad Nuru kişiyə yaxınlaşıb dedi:

– Ay Nuru əmi, başına dönüm, bu inəkləri açdır, bir az otlasınlar, aparım sağına. Axşam süd az olsa, gərək ölümü qoyam, dirimə ağlayam.

Nuru kişi başı ilə razılıq işarəsi verdi və bir qədərdən sonra inəkləri açıb at və öküzləri qoşdular.

Qaranlıq qarışanda heyvanlar açıldı, lakin heç bir kəs kəndə qayıtmadı. Məlum oldu ki, Fironun əmrinə görə ay çıxan kimi yenidən kotanları qoşub işləmək lazımdır.

**28.05.1946.**

Bu günkü hadisələr elə başlandı ki, mən heç düz-əməlli təsvir edə də bilməyəcəyəm. Ömründə maşın ayağı dəyməyən bu kəndə birdən-birə üç maşın daxil oldu. Onlar gəlib idarənin qabağında durdular. İkisi polutorka, biri isə üstüörtülü qara rəngli dustaq maşını idi. Maşınlardan yüksək rütbəli bir nəfər keqebe işçisi, üç-dörd nəfər kiçik rütbəli hərbçi, rayonun əsas rəhbər işçiləri düşdülər. Azacıq sonra Firon və bir neçə başqa adam da gəldi. Elə bil bütün sovetliyə xəbər olubmuş. Yeddi para kəndin hamısından atlı, ulaqlı, dəvəli, habelə piyada adamlar tökülüşüb gəldi. Bir nəfər milisioner məktəbin qapısına gəlib bildirdi ki, məktəbi bağlayıb uşaqlarla birlikdə idarənin qabağındakı yığıncağa gəlməyim əmr olunmuşdur.

Mən cəld uşaqlarla bərabər idarənin qabağına gəldim. Artıq burada bir neçə yüz nəfər adam toplanmışdı. KQB işçisi olan şəxs qırmızı örtüklü mizin arxasına keçib dedi:

– Yoldaş kolxozçular, müharibə ölkəmizə böyük ziyanlar vurmuşdur. İndi gərək hamı əvvəlkindən beş qat artıq qüvvə ilə işləsin ki, faşistlərin bizə vurduğu yaraları sağaltmaq olsun. Lakin aldığımız məlumata görə sizin bu Andreyev kolxozunda təxribatçılar mövcuddur. Onlar həm özləri kolxoz işinə getmir, həm də başqalarının işləməsinə, dövlət vergilərinin verilməsinə mane olur, bir sözlə, hökumətin əleyhinə gedirlər. Stalin yoldaşın əmrinə əsasən beləlıəri respublikamızdan sürgün edilməlidir. Bu gün buraya toplaşmaqda məqsədimiz odur ki, Andreyev kolxozunun üzvü Əliyev İmamverdi Hacıbala oğlunun və Məmmədova Türfə Fərzalı qızının məsələsini müzakirə edək. Andreyev kolxozunun hesabdarı burdadırmı?

Balaca boylu, dolu bədənli Ələsgər irəli çıxdı:

– Bəli, buradayam.

– Bu adamların hərəsinin ötən il neçə əməkgünü olub?

– İmamverdi kişinin 110, Türfə arvadın 92.

– Deməli, minimum əməkgününü doldurmayıblar. Özləri də təxribatçılıqla məşğuldurlar. Odur ki, qanun üzrə qərar çıxarıb onları sürgünə göndərmək lazımdır.

Camaat içindən tək-tək asta, etiraz səsləri, narazılıq, af-uf eşidilməyə başladı.

Firon özünü irəli verdi:

– Sizi bura məşvərətə yox, iclasa çağırıblar. Lal-dinməz oturun.

KQB-dən gəlmiş rəis sözünə davam etdi:

– Kolxozçu yoldaşlar, siz dövlətə ziyan vuranları, təxribatçıları gərək bu vaxta kimi çoxdan özünüz ifşa edəydiniz. İndi isə biz sizə kömək edərik. Səsə qoyuram, kim Əliyev İmamverdi və Məmmədova Türfənin sürgünə göndərilməsinin tərəfdarıdırsa, əlini qaldırsın.

Sonra üzünü Ələsgərə tutub dedi:

– Hesabdar, saymağa başla.

Çox az adam əl qaldırdı. Firon irəli keçib dedi:

– Siz nə oyun çıxarırsınız? Bilmirsiz ki, düşmənləri müdafiə eləmək üstündə hamınızı sürgünə göndərərlər?

Deyəsən hədənin təsiri oldu. Adamların çoxusu əl qaldırdı.

Bakıdan gələnin işarəsi ilə milis nəfərləri İmamverdi kişini və Türfə xalanı tutub qara maşina sürüməyə başladılar. Onlar müqavimət göstərməyin mənasız olduğunu başa düşdüklərindənmi, hədsiz qorxduqlarındanmı, nədənsə bir kəlmə də dinib danışmadılar. Hər ikisini qara maşina salıb qapını bağladılar.

Dedim ki, Türfə xalanın kimsəsi yox idi. Amma İmamverdi kişinin ailəsi, qohum-əqrəbası bir vanəfsa qopartdılar ki, təsvir etməkdə acizəm. Maşınlar yola düşdü. Qadınlar başlarını açıb şaxsey deyir, kişilər sinə vururdular.

Mən bu hadisə zamanı dinib-danışmadım, elə bil ki, ağzımı bağlamışdılar. Deyəsən bərk qorxmuşdum. Axı necə də qorxmayaydım? Firon hər şeyə qadir idi. Onun kəsdiyi başa sorğu-sual yox idi. O, qüvvətli idi, hakim idi, əsl Firon idi. Zayom pulu yığılan vaxt olan kiçicik etiraza o, bir ağsaqqal və bir ağbirçəyin eldən-obadan sürgün olması ilə cavab vermişdi. Ona qarşı çıxmaq olardımı?

Sabah mən kəndlilərlə görüşəndə mütləq bu barədə söhbət olacaq, mənə sual verəcək, rəyimi bilmək istəyəcəklər. Mən onlara nə deyəcəyəm? Axı mən nə edə bilərəm? Bütün ölkədə fironlar hökmranlıq edirsə, kimə şikayət etmək olar? Allahamı? Onun da ki, səbri 40 ildir. Məgər kolxozun sədri İlyas kişi və hesabdar Ələsgər bilmirlər ki, İmamverdi kişi ilə Türfə xala qoca olmaqlarına baxmayaraq hər gün kolxoz işinə gedir, günə bir gün, ya gün yarım əmək günü alırdılar? Nə üçün demədilər ki, onların əmək günü çoxdur, niyə Fironun sözünü dedilər?

Suallar çox, cavabsız… Mən cavan, qərib… Dilimdən isə sözlər süzülür:

Tapdanırıq hər zaman
Ayaqlarda nalıq biz.
Yoxdur hüquq dillənək
Elə bil ki, lalıq biz.
Yağı ölməmiş durur
Gündə bir hiylə qurur
Yetən bizdən qan sorur
Sanki beçə balıq biz.
Qızılgültək solmuşuq

Yaman günə qalmışıq
Haqsız cəza almışıq
Açılmamış falıq biz.
Hər tərəfə atırlar
Canilərə qatırlar
Gah alıb, gah satırlar
Təpik atmaz malıq biz.
Ağlayırıq, gülmürük
Üzülürük, ölmürük
Mübarizə bilmirik
Quru qilü-qalıq biz.

**18.10.1946.**

Bu gün kəndə biyar gəlmişdi. Mən bunun nə demək olduğunu bilmirdim. Soruşdum, dedilər ki, Kür çayı yazda daşıb kəndləri və tarlaları basır. Bunun qabağını almaq üçün adamlar torpaqdan Kür boyunca qoruyucu bənd çəkirlər. Bu bəndin çəkilişi rayonlar, sovetliklər, kolxozlar və kəndlilər arasında bölüşdürülür. Hər bir kolxozçu o bəndə on-iyirmi kub metr torpaq tökməlidir. Bu iş hamı üçün məcburidir və haqqı ödənilmir. Ona görə də buna biyar deyilir.

Biyara gedənləri aparmaq üçün üç araba hazırlandı. Hərə özü üçün yatacaq, döşənəcək və yemək şeyi götürüb arabaya yüklədi. Səhəri istirahət günü olacağına görə mən də həvəslənib arabaya mindim.

Gedənlərin hamısı kişi xeylağı idi. On beş-on altı yaşından tutmuş səksən-doxsan yaşına kimi.

Arabalar kənddən Qarasu stansiyasına qədər olan iyirmi beş kilometrlik yolu beş-altı saata qət etdilər. Qarasuda öküzləri açıb bir qədər dinclik verdikdən sonra təzədən yola düşdük. Təqribən bir kilometr gedəndən sonra ucu-bucağı görünməyən hündür qamışlığa girdik. Yalnız bura bələd olan adam-

lar yol tapıb irəli, Kür sahilinə gedə bilərdi. Qamışlıq son dərəcə gözəl bir təbiət möcüzəsidir. Burdakı nəhəng çalalarda və suaxarlarda müxtəlif cür balıqlar, qamışlığın sıx yerlərində yüz minlərlə ördək, qaşqaldaq, qaz, cüllüt və başqa quşlar, minlərlə tülkü, çaqqal, porsuq, çöl donuzu, vaşaq və b. heyvan yaşayır. Ətraf kəndlərin əhalisi buralardan balıq tutmaq və quş ovlamaqla dolanır.

Qamışlığın əsas sahəsi daima su içində olsa da, müəyyən sahələri yayda quruyur. Onda bu sahələrdən qamış biçilib təsərrüfat ehtiyacı üçün aparılır.

Təxminən iki saat qamışlığın arası ilə yol gedəndən sonra Kür sahilindəki Axtaçı kəndinə yaxınlaşdıq.

Gördüyüm mənzərə məni çaşdırdı. Sanki «Qədim dünya tarixi»ndən oxuduğum hadisələri əyani surətdə göstərirdilər: adamların bəzisi arxasına palan taxmış, bəziləri boyunlarına meşok parçalarından tikdikləri xamut keçirmişdilər. Adamların bir qismi yeri qazır, bir qismi torpağı daşıyıb Kürün sahilindəki bəndin üstünə tökürdü. Bəziləri torpağı çuvala yığdırıb dalında daşıyır, bəziləri isə torpağı xərəyə yığır, sonra boynundakı xamutun ipini xərəyin əlcəyinə keçirir, arabaya qoşulmuş kimi ikiyanlı gedirdilər.

Birdən dalında torpaq daşıyan üç nəfər cavan qadın da gördüm. Yaxınlaşıb haralı olduqlarını və nə üçün kişilərin yox, onların biyara gəldiyini soruşdum.

Qadınlar elə bil sözə bənd imiş. Üçü də bir xeyli ağlayandan sonra birisi dedi:

– Qardaş, biz Şamaxı rayonunun Kalva kəndindənik. Mənim atam qocadır, onun yerinə gəlmişəm. Bu gəlinin əri müharibədən ağır yaralı gəlib, bu da ərinə qıymayıb, özü gəlib. Bu bədbəxtin qızının isə əri ölüb, aman-zaman bir oğlu var, on dörd-on beş yaşında. Bu da uşağın yerinə gəlib.

Mən sadəlövhcəsinə soruşdum:

– Ay bacı, bəs bu ağırlıqda torpağı necə daşıyırsız?

Qadınlar başlarını buladı. Aralanıb gedərkən oğlunun yerinə gəlmiş qadın bir bayatı çəkdi:

Tüfəngin püsgünə
Çaxmağına, püsgünə
Özü öldü qurtardı
Məni qoydu pis günə.

Mən qarışqa kimi qaynaşan bu adamların arası ilə gəzərkən bir neçə də başqa qadın gördüm. Onların kəndində isə biyar kişiyə yox, evə verilirmiş. Ona görə də evində kişi xeylağı olmayan qadınlar özləri biyara gəlməyə məcbur olublarmış.

Axşam düşdü, hamı çuval-çapıtını yerə qoyub şal-şəlpədən düzəltdiyi alaçıqlara tələsdi. Qışın günü Kür sahilləri çox soyuq olurmuş. Hava qaralan kimi əməlli-başlı titrəməyə başladım. Kəndlilər çaynikdə, qara havtahada çay qaynadıb içir, az-çox bədənlərini qızdırmağa çalışırdılar.

Sabahı güclə açdım. Üstümüzə şaxta qoymuşdu. Adamların çoxusu alaqaranlıqdan durub işə girmişdi. Bu ağır iş ən azı 15-20 gün çəkirdi. Sonra isə bu dəstə evə qayıdır və onu başqası əvəz edirdi.

**17.12.1946.**

Sabah Ali Sovetə seçkilər günüdür. Sovetlikdəki bütün kəndlərin yaşlı əhalisi buraya gələsidir. Çünki seçki məntəqəsi buradadır.

Bu gün səhərdən güclü qar yağıb, şaxta adamı kəsir. Günorta vaxtı məktəbin balkonundan baxanda məni təəccüb bürüdü: bütün kəndlərin yaşlı əhalisi əlində bağlama, çiynində heybə, kimisi ulaqla, kimisi piyada, qoca və xəstələr kolxozun arabalarında buraya axışıb gəlirdi. Hər dəstənin yanında at üstündə kolxoz sədri, hesabdar və briqadirlər gedir, adamları tələsdirirdi.

Mən seçkinin sabah başlanacağını bildiyim halda yenə də direktordan soruşdum:

– Məgər seçki bu gündür?

– Xeyir, – deyə o, cavab verdi, – seçki sabahdır. Amma indidən hazırlıq görülür ki, hamı burada cəm olsun, sabah seçki uzanmasın.

– Məgər seçki axşam saat 12-yə kimi davam etmirmi?

Direktor səsini yavaşıdıb dedi:

– O, biz bilən iş deyil.

Günorta naharına gələndə gördüm ki, evdə qonaq əlindən tərpənmək mümkün deyil. Nəinki uzanıb-dincəlməyə, heç oturmağa belə yer yoxdur.

Fatma arvad məni görən kimi əl-ayağa düşüb birtəhər yer elədi, süfrə açdı. O saat süfrəyə hərə bir şey qoydu: pendir, yağ, müxtəlif üsulla bişirilmiş çörəklər – yuxa, fətir, bozdamac, sacarası, kömbə, külçə, təndir çörəyi, kalafətir, qovurğa, qovut, soyutma yumurta və s. Hamı deyəsən qonaq qalacağı yerdə nəsə bir az ləyaqətli görünməyə çalışmış, ailəsinin bir həftəlik, on günlük ruzisini cəm edib gətirmişdi. Bu nemətlər indi üçün qeyri-adi şey idi, bunları toplamaq üçün qadınlar ailəyə nə qədər korluq vermişdi, onu bir Allah bilir, bir də özləri.

Axşamüstü briqadir gəlib xəbərdarlıq etdi ki, heç kim yatmasın, gecə yarısı gəlib çağıranda tez durub idarəyə, səs verməyə gəlsin.

Mən yenə çaşıb qaldım: axı səsvermə səhər saat 7-də başlanmalıdır, briqadir niyə belə dedi?

Evdə söhbət yalnız bir mövzudan gedirdi: bu dəhşətli aclıq, ağır iş, dözülməz təhqirlər şəraitində necə yaşamalı? Qəribə burasıdır ki, qorxusundan heç kim Fironun adını çəkmir, onun el-obanın başına açdığı müsibətlərdən bir kəlmə belə demirdi.

Beləcə gecə saat on iki tamam oldu.

Briqadir idarə önündəki zəngi çaldı. Uca səslə:

– İdarəyə gəlin, ho-o-o-y, – deyə çağırmağa başladı. O, ara vermədən zəngi çalır və çağırırdı. Beş-altı dəqiqədən sonra kolxozun hesabdarı, qonşu kəndlərin briqadirləri, Təftiş komissiyası sədrləri və başqa işçilər qapılara düşüb camaatı çağırmağa, tələsdirməyə başladılar.

Onsuz da irəlicədən xəbərdarlıq edildiyi üçün heç kəs yatmamışdı. Odur ki, hamı tələsik qalxıb seçki məntəqəsi yerləşən kolxoz binasına tərəf yeridi. Mən də evdəkilərə qoşuldum.

İdarənin qabağında qəribə bir mənzərə açılmışdı: yüzlərlə qadın və kişi gecənin yarısı qarın içində həyətdə ayaq üstündə durmuşdu. İdarənin içində səsvermə qutusu qoyulduğu üçün, bülleten verən, qeyd aparan seçki məntəqəsinin üzvləri məhəccərsiz balkonda miz qoyub oturmuşdular. Balkon ensiz olduğundan cəmi 15-20 adam güclə yerləşirdi. Lakin çöl çox soyuq olduğu üçün hamı balkona çıxmağa, tezliklə bülleteni alıb qutuya atmağa və özünü isti ocağa çatdırmağa çalışırdı. Orada elə bir basabas əmələ gəlirdi ki, nə bülleten vermək, nə də alınmış bülleteni qutuya atmaq üçün otağa keçmək mümkün olmurdu.

Hərdən Firon otaqdan çıxıb əlindəki qırmancla döşünə çıxanı döyür, hamını söyə-söyə adamlara döş vurub onları balkondan çıxardırdı. Bu zaman adamlar basabas salır, onlarla qadın və kişi məhəccərsiz balkondan qarın içinə yıxılırdı. Əzilənə, ufuldayana, deyinənə qulaq asan yox idi. Çünki balkondan çıxarılanların yerinə həyətdəkilər qalxırdı. Təxminən gecə saat 4-də ara sakitləşdi, buradakıların hamısı döyülə-söyülə balkona çıxıb bülleten aldı və «səs verdi».

Lakin heç kim həyətdən çıxıb getməyə cəsarət etmirdi. Soyuq iliklərə işləyir, sabahüzünün küləyi adamı kəsirdi. Hamı gözləyirdi ki, kimsə «gedin» desin.

Nəhayət Seçki Komissiyasının katibi Kərəməlinin səsi eşidildi:

– Səlim qağa, iki nəfər qalıb: Tağılıdan Məşhədi Xeyri və Aşağı Bozumdan Mirzəbala kişi.

Firon qəzəblə bağırdı:

– Necə yəni, qalıb? Hansı cəhənnəmdə qalıblar? Ədə, briqadir qoduqlar, sizə deməmişdim ki, heç kim qalmasın, öl-sə də, gəlib burada ölsün?

Aşağı Paşalının briqadiri Talıbxan irəli çıxıb yazıq-yazıq dilləndi:

– Səlim qağa, vallah, Həzrət Abbas haqqı, Mirzəbala kişi can verir, mən onu necə gətirim?

Firon daha da qəzəbləndi:

– Kəs səsini, qoduğun biri qoduq, tez ol, get Mirzəbalanı ya bura gətir, ya da qutu apar, səsini qutuya atsın.

Tağılının briqadiri Əsəd kişi ikiqat əyilib:

– Səlim qağa, – dedi, – imanım haqqı, Meşhədi Xeyri arvad evdə yoxdur. Ağcaqabula yumurta aparıb.

Firon bir az yavaşdan:

– Sənin imanuvu … – dedi. Sonra isə, – tez ol, qutunu götür, get kəndə, nə yolla olursa-olsun, səsi al, gətir.

Bir saat da qarın içində, şaxtanın altında qaldıq. Nəhayət briqadirlər qayıdıb gəldi, qutular Seçki komissiyasına təhvil verildi. Azacıq sonra Kərəməli balkonda göründü:

– Seçki qurtardı, dağılışın!

Artıq sabahüzü idi, adamlar kiçik dəstələrlə evlərinə get-məyə başladılar. Mən yerimə uzandım. Bütün gecəni yuxusuz olsam da, yata bilmirdim: bu necə olan iş idi? Seçki nə üçün gecə, tələm-tələsik keçirilirdi? Nə üçün deputatların kim oldu-ğu belə deyilmədi?

Xeyli fikirləşəndən sonra ağlıma gəldi ki, bütün bunlar rayon rəhbərləri qarşısında birincilik raportu verməkdən ötrü

edilir. Həqiqətən də axşamüstü kəndin yeganə batareyalı radiosu səsvermənin gedişi haqqında məlumat verərkən qeyd etdi ki, respublikada səsvermə yüksək şüurluluq və fəallıq şəraitində keçib və səsvermə bizim sovetlikdə hamıdan əvvəl başa çatıb.

Amma heç kim bilmədi ki, səsvermə nə vaxt və necə keçib…

**28.12.1946.**

Güllü bacının əri Eynullanın Vorkutadan, həbs düşərgəsindən göndərdiyi məktub rus dilində olduğu üçün gətirib mənə oxutdurdular. Məktubda deyilirdi ki, Eynulla savadsız olduğundan və başqa dillərdə yazılmış məktublar düşərgə senzurası tərəfindən ləğv edildiyindən məktubu onun briqada yoldaşı Saratovlu həkim İlya Qromov yazıb. Məktub qısa, lakin çox təsirli yazılmışdı. Orada deyilirdi ki, əmi qızı, tez bir zamanda yanıma, görüşə gəlməsən, məni sağ görməyəcəksən. Özü də gələndə mümkün qədər qovut, ərištə, qovrulmuş ət, pendir və s. yeməli şeylər gətir.

Mən məktubu oxuduqca təkcə Güllü bacı deyil, evdəkilərin hamısı ağlayırdı. Güllü bacının taleyindən xəbərim var idi. Müharibə başlanmamışdan bir həftə əvvəl toyları olmuş, onu yetim əmisi oğlu Eynullaya ərə vermişdilər. İndi Eynulla çarəsizlikdən Güllüyə «gəl» deyirdi. Çünki əmisi Səməd kişi çox qoca, əmisi oğlanları isə yeniyetmə uşaqlar idi.

Güllü bacı getməyi qərara aldı. Məsləhət belə oldu ki, gedib kənd sovetindən pasport əvəzinə arayış alsın.

Güllü bacı atası ilə kənd sovetinə getdi və tezliklə qayıdıb xahiş elədi ki, arayışı mən rus dilində yazım, çünki katib rusca bilmir.

Arayış tərtib edib verdim. Axşamüstü Güllü bacıgilə getdim ki, görüm nə vaxt və kiminlə getmək fikrindədir? Axı öm-

rü boyu kənddə yaşamış, yol-iriz tanımayan, rus dili bilməyən cavan gəlin, qışın oğlan çağında Vorkutaya necə gedə bilər?

İçəri girəndə gördüm ki, evdəkilərin qanı qaradır. Heç gündüzdəki əhval-ruhiyyə yoxdur. Elə bil, nəsə, bir hadisə baş verib.

Mənə yer göstərdilər; oturan kimi soruşdum:

– Nə olub? Niyə belə qanınız qaradır?

Səməd kişi dedi:

– Ay bala, Allah özü bizə kömək eləsin. Daha heç bilmirəm nə deyim… Səlim Güllünün arayışı üçün bir qızıl beşlik istəyir. Başqa pula, mala razı olmur. Qalmışam belə. Güllünün mərcan boyunbağısında bircə dənə beşlik var. Rəhmətlik dədəm qardaşımın gəlini üçün almışdı. O da rəhmətə gedəndə Eynullaya qaldı, o da Güllüyə verdi. İndi Güllü deyir ki, qoy beşliyi verək, arayışı alaq, gedim əmim oğlunun yanına. Heç bilmirəm neynim, başıma haranın külünü töküm…

Bu vaxt küncdə, anasının böyründə oturan Güllü dedi:

– Dədə, məni bağışla, üzüçoxluq eləyirəm. Kişinin öz malını özünə xərc eləmək istəmirsən? Ver getsin beşliyi. Mənə qızıl gərək deyil.

O, bunu deyib mərcan boyunbağını aralığa qoydu, qayçı ilə ipini kəsib, beşliyi atasına verdi.

Gecə Ağagül bizə gələndə mən Səlimin arayış üçün qızıl beşlik istədiyini ona danışdım. Güman edirdim ki, təəccüblənəcək, hirslənəcək. Amma belə olmadı. Ağagül dərin bir ah çəkib dedi:

– Eh, ay Əfqan, bizim kəndlərdə bunu hamı bilir ki, Səlim yalnız qızıl, bir də yaxşı xalça-palaz alır. Kimin işi düşürsə, gərək gedib şəhərdən qızıl ala, gətirib ona verə. İşi düşən də çox – kiminin bircə uşağını Bakıya sənət məktəbinə göndərmir, kiminin oğlunu bir həftə-on gün əsgərlikdən saxlayır, kimini növbəti biyardan saxlayır, kimisinin qızına ərə getmə-

yə yaş kağızı düzəldir (axı bizdə metrika yoxdur)… Xülasə, Allah eləməsin ki, ona işin düşsün.

**21.01.1947.**

Axşamdan xeyli keçmişdi. Şagirdlərin dəftərini yoxlayıb qurtara bilmədim. Çünki neft qurtardığına görə lampa korun-korun yanırdı. Birdən qapıda öskürək səsi eşitdim. Sonra kişi səsi gəldi:

– Ay uçtel, yatmamısan?

Mən tez qapını açdım. Gələn kəndin ağsaqqallarından Məşədi Qurbanəli idi. Kişini içəri dəvət etdim. Altına köhnə dəri parçası atdım. Ocağın qırağında oturduq.

Lampa güclə işıldayırdı. Odur ki, Qurbanəli kişinin üzünü əməlli görmürdüm. Amma hiss edirdim ki, dərdi tüğyan edir. Kiminləsə danışmaq, dərdləşmək istəyir. Bir qədər kəndin, məktəbin, özümüzün dolanacağından danışdıq. Birdən Məşədi Qurbanəli kişi dedi:

– Oğul, mən qocalmışam, yaşım çoxdur, mən biləni bəlkə yüz də olar. Bu dünyanın yaxşı üzünü görmədim. On bir övladım olub. Onların yeddisi uşaq ikən ölüb. Üç qızım, bir oğlum böyüyüb başa çatdı. Qızları vaxtında ərə verdim. Amma Allah mənə onlardan xeyir vermədi. Biri uşaq üstündə öldü, o birinin nə dərdi oldusa, özünü çaya atıb öldürdü. Üçüncü qızımın övladı olmadı. Dörd dəfə boşanıb başqasına getdi ki, bəlkə qucağı qundağ görə. Allah bir parça murdar əti, itə, pişiyə verdiyi övladı mənim balamdan əsirgədi. Amma oğlum Xudaverdini lap on altı yaşında ikən evləndirmişdim. Övladı da oldu. Üç uşağı indi də durur. Onlara sığınmışam. Oğlum toyundan bir az sonra vərəm xəstəliyinə mübtəla oldu. Olan-olmazı həkim yolunda sərf elədik. Dava başlananda oğlumun otuz yaşı olardı. Amma o qədər cansız idi ki, deyərdin on beş-on altı yaşında uşaqdır.

Dava başlanandan üç-dörd gün sonra həmin bu İspolkom Səlim bizə gəldi. Onda Səlimi təzəcə bu vəzifəyə qoymuşdular. Bizə dedi ki, bəs gərək oğlunu Bakıya aparıb orda hərbi həkim komissiyasından yoxlatdıraq. Əlinə birdəfəlik qara bilet alaq. Nə sizin başınız ağrısın, nə mənim.

Çox sevindik, dua-səna elədik və sabahı günü Səlim oğlumu götürüb Bakıya getdi. Üç-dörd gündən sonra qayıtdılar. Oğlum çox yorğun və üzgün görünürdü. Bir qədər dincələndən sonra mənə dedi:

– Dədə, Səlim məni öz adı ilə komissiyaya saldı. Qara bileti də onun adına yazdılar. Qorxuram bunun əngəli çıxa. Sonra mənim özümü davaya aparalar.

Mən onu sakitləşdirdim, qucaqlayıb üzündən öpdüm və dedim:

– Ay bala, təki sən salamat olub davaya gedəydin. Nigaran olma, səni kim əsgər aparar?

Amma, sən demə, mənim qara günlərim qurtarmayıbmış. Aradan on-on beş gün keçmiş oğluma çağırış vərəqəsi gəldi və onu başqaları ilə arabaya mindirib hərbi komissarlığa apardılar. İki gündən sonra araba kəndə boş qayıtdı. Arabaçı mənə dedi ki, sənin oğlunu da yararlı hesab edib cəbhəyə yola saldılar.

Mən başılovlu İspalkomun yanına getdim. Lakin o, heç məni eşitmək də istəmədi.

İndi, oğul, bu qəziyyəni sənə ona görə deyirəm ki, gec-tez şəhərə qayıdacaqsan. Haqq-ədalət qapısı nə vaxt açılsa, mənim də bu dərdimi deyərsən. Onu da biləsən ki, bala, Səlim hamının başına oyun açır. 42-ci ilin axırlarında Bozumlu Xudaverdi kişinin bir gözü kor, o biri gözü çəp bircə oğlu var idi, evliydi. Səlim kiminsə yerinə bunu davaya göndərmək istədi. Oğlan qorxusundan qaçıb dama girər. Səlim düşər bunun üstünə, o ki, var döyər. Yazıq oğlan damdan çıxıb qaçmaq istəyəndə ayağı sürüşüb düşər arxa. Səlim yenə əl çəkməz – qur-

şağacan buz kimi suyun içində yazığı tatarı ilə çırpar. Qorxudan heç kim irəli gəlməz. Şikəst oğlan elə oradaca tələf olar. Xudaverdi kişi bir az atıldı-düşdü, amma Səlimə neynəyə bilərdi? Eh, ay oğul, Səlimin bu vilayətdə elədiyini heç Firon da, Nəmrud da, Şəddad da eləməyib.

**15.02.1947.**

O qədər qar yağıb ki, heç qapıdan bayıra çıxmağın mümkünü yoxdur. Böyüklü-kiçikli hamı kolxozun mallarına yem verməklə məşğuldur. Çay elə donub ki, buzun üstünə çıxıb balta və lomla deşik açıb oradan su götürürlər. Qız-gəlinlər çiyinlərində güyüm, əllərində vedrə ara vermədən su daşıyıb fermanın yerləşdiyi həyətə gətirir və orada kolxozun mallarına verirlər. Hər bir heyvan iki-üç vedrə sudan doymur. Yazıq qadınlar soyuqdan titrəyə-titrəyə bütün günü su daşıyırlar. Heç kəs şikayətlənmir, əksinə qorxurlar ki, birdən Firon gələr, malın susuz qaldığını bilər.

Günortadan sonra dağın o üzündə Küdrü düzündəki qışlaqda yerləşən qoyun fermasından çoban Həmid kişi kəndə gəlib xəbər gətirdi ki, Küdrü qarla örtülüb, heyvanların yemi qurtarıb. Əgər tezliklə yem çatdırılmasa, qoyun-quzu qırılacaq.

Qoyunçuluq fermasına araba yolu çox dolanbac və uzaq idi. Həm də belə qarlı-çovğunlu havada öküzlər ot yüklü arabanı heç iki günə də aparıb qışlağa çıxara bilməzdi. Sədr İlyas kişi və ağsaqqallar təzəcə tədbir tökməyə başlamışdılar ki, Firon elə bil göydən kəndin ortasına endi. Kişilərdən birisi tez yeriyib onun atının yüyənindən yapışdı.

Firon salamsız-kəlamsız kişilərə dedi:

– Burda nə veyillənirsiz?

İlyas kişi kəkələyə-kəkələyə dedi:

– Başına dönüm, ay hökumət, vallah, obaşdandan ellikharay mallara yem və su vermişik. İndi də Həmid xəbər gəti-

rib ki, qoyun fermasında ot yoxdur. Fikirləşirik ki, otu nə təhər ora çatdıraq.

Firon bir an belə fikirləşmədən dedi:

– Kolxozun qoyunlarını acından qırmayacaqsınız ki? Hər arvad bir şələ ot aparsa, bir-iki gün girələnmək olar. Onacan da Küdrüdən qar götürülə bilər.

İlyas kişi qorxa-qorxa mızıldandı:

– Arvadlar bu havada o qədər yolu dalında şələ ilə gedə bilərmi?

Firon qırmancı yuxarı qaldırıb havada şaqqıldatdı:

– Nə dedin? Deməli, kolxozun malı qırılsın? Sənin deməyindən belə çıxır ki, arvadlar kolxozun malından artıqdır?

İlyas kişi qorxudan geri çəkildi:

– Mən elə demədim ki, deyirəm bəlkə sabaha kimi gözləyək. Gün batmağa çox qalmayıb. Zənən-uşaq qaranlığa düşər.

Firon onun sözünü yarımçıq kəsdi:

– Uzun eləmə, tez olun, işə başlayın. Arvadlar gedib evdən ip gətirsin.

Heç kim etiraz edə bilmədi. Beş-on dəqiqədən sonra kolxozun ot tayasının yanı döyüş meydanını xatırladırdı: kişilər otu tayadan çəkir, kimi qucaqlayıb ipin üstünə qoyur, kimisi də şələni bağlayırdı. Kişilər qorxularından şələni dizləyə-dizləyə böyük bağlayır, qadınlar isə Fironun qorxusundan dinə bilmirdilər.

Tezliklə şələlər hazır oldu. Qırxa yaxın qadın ağır şələləri dalına alıb qışlağa tərəf getməyə başladı.

Həmid kişi Firona yaxınlaşıb astadan dedi:

– A sənə qurban olum, bu ağırda şələlərlə bu arvad-uşaq o dağları necə qalxacaq, dərələri necə keçəcək, qışlağa nə vaxt çatacaq? Qoy getməsinlər, Allah kərimdir, bəlkə sabaha hava yumşalar.

Firon təzəcə ayağını atın üzəngisinə qoymuşdu. Həmid kişinin belə danışığı onu çox əsəbiləşdirdi. Yəhərə oturan kimi atı birbaş Həmid kişinin üstünə sürdü. Çatan kimi qırmancla döyməyə başladı:

– Adə, köpək oğlu, mənə yol görkəzirsən?

Həmid kişi döyülməyin qorxusundan arvadların dalınca qaçmağa başladı. Lakin Firon ondan əl çəkmədi. Özü də onun atı elə öyrəşmişdi ki, adamın üstünə çıxırdı. Firon Həmid kişini at döşü edir, qırmancla vurur, vurduqca da ən nalayiq söyüşlərlə söyürdü. Kişi qalın qarın içi ilə atın döşündə çox qaça bilmədi. At onu haxlayıb yerə yıxdı və qabaq ayaqları ilə tapdamağa başladı. Firon atı azca aralı çəkib yerə endi, ağzı üstə qarın içinə yıxılmış Həmid kişini təpikləməyə, qırmanclamağa başladı.

Kişinin ağzından-burnundan axan qan qarı qıpqırmızı qızartdı. Heç kim cəsarət edib Həmid kişini Fironun əlindən almadı.

Arxası ağır şələli qadınlar Həmid kişinin bu cür döyülməsini görüb astadan ağlamağa başladılar. Arvadlardan hansısa biri uca səslə ağız açdı:

Mən aşıq Ərzuruma
Yol gedər Ərzuruma.
İnsan üzü pis imiş
Dözərmiş hər zuluma.

**28.04.1947.**

Bu gün hər yerdə bayramdır, Respublikada Sovet hakimiyyəti qurulması günü qeyd edilir. Lakin bizim kənd qan-yaş içindədir. Öküzə baxan Müseyib kişi öküzləri damdan çıxardanda birinin qıçı sınıb. Sınıqçı Bayram kişi baxıb deyib ki, bu sağalmaz, gərək kəsilə. Başqaları bilməsə də, artıq mən də bilirəm ki, kolxoz öküzünün ölməsi, kəsilməsi nə demək-

dir. Bu o deməkdir ki, gərək öküzün (atın) ölümünə səbəbkar olan şəxs onu bir-iki günə mütləq başqası ilə əvəz etsin. Heç bir ləngiməyə icazə verilmir, çünki bizim hesabdar demişkən, «kolxozun üzvü ölə bilər, amma malı yox». Öküz isə iş heyvanıdır, onsuz kotan, araba dayanır.

Hamı ona görə qan-yaş içindədir ki, Müseyib kişinin dördayaqlıdan bir pişiyi var, həm də bu gün bayram olduğu üçün Firon kəndə gələcək. Onun isə hər gəlişi kəndə qan, yaş, dərd, qəm gətirir.

Qıçı sınmış öküzü idarənin qabağında saxlamışdılar. Kimi deyirdi «kəsin», kimi deyirdi «səbrləşin, görək nə olar». Elə bu vaxt at belində gələn Firon göründü. Hamı onun qabağına yeridi, atını tutdular, ağızucu salam verib idarəyə keçmək istəyəndə öküzü görüb ayaq saxladı:

– Buna nə olub? – deyə soruşdu.

Müseyib kişi əsə-əsə astadan mızıldandı:

– Başuva dönüm, balalarım sənə qurban, ay hökümət, damdan çıxanda öküzün biri buynuzladı, bu da yıxıldı, qıçı sındı. Bayram da deyir, qıçının ipliyi qırılıb, gərək kəsilə.

Firon qəzəblə Müseyib kişinin üstünə yeridi, üzünə tüpürüb dedi:

– Binamus, oğraş, gör bir nə yazıq-yazıq danışır! Kolxozun bir öküzünün qıçının sınmağından yüz sənin kiminin ölməyi yaxşıdır. Qurban olasan bu əziz sovet bayramına, yoxsa səni al qanuva xarman elərdim. Öküzü nə eləyirsən elə, amma üç günə kimi kolxoza bir qoşquluq cöngə al gətir. Sən öləsən, bircə gün ləngitsən…

Sonra Firon elə həyasız söyüşlər söydü ki, adamın deməyə də dili gəlmir.

Axşamtərəfi öküz kəsildi, ətini xarmana buğdaynan üçlü hesabı ilə (yəni 1 kq ətə xarman vaxtı üç kq buğda vermək) kəndlilər bölüşdürdülər. Heç kimin bir manatı da yox idi ki,

kişiyə nəğd versin. Təkcə Məmmədzayıd müəllimlə mən hərəmiz 1 kq ət alıb pul verdik.

Yazıq kişi pulu alıb dönə-dönə təşəkkür elədi:

– Ömrünüz uzun olsun, ay bala! Hər halda cöngə axtaranın gərək pulu da ola, heç olmasa yol pulu…

Axşamdan xeyli keçmiş Müseyib kişi bizə gəldi. Cöngə almaq üçün pulu olmadığını və kənddə heç kimdə də pul olmadığını söyləyib ağladı. Təsadüfən biz maaşı irəliki gün almışdıq. Lakin bütün müəllimlərin pulu verilsə belə, cöngə almağa bəs eləməzdi.

Uzun söhbətdən sonra Müseyib kişi ilə kəndi qapı-qapı gəzdim. Müəllimlər sağ olsun, kişilər də, qadınlar da imkan dairəsində əl tutdular. Lakin bu, çox az idi. Səhər də qapılara düşdük: pul yox idi, kimi bir az taxıl, kimi toyuq-cücə, kimi paltar verdi. Müseyib kişi hər qapıda ağlayır, hər adamla danışanda göz yaşı tökürdü. Günortadan sonra toplanan pullar gənc kolxozçu Musaya verildi, taxıl bir ulağa yükləndi. Hamı rahat nəfəs aldı ki, Musa taxılı bazarda satıb, elə oradaca lazım olan cöngəni alıb gətirəcək.

Doğru deyiblər ki, vardan vermək asandır, əsl insanlıq odur ki, yoxdan verəsən. Bizim camaat da özü ehtiyac içində olduğu halda başqasına əl tutur, onu darda qoymur.

**02.01.1948.**

Bu gün kolxozun hesabat-seçki yığıncağı keçirildi. Raykomun ikinci katibi Rzayev kolxoz sədrliyinə Fironu təklif etdi və bildirdi ki, raykomun fikri belədir. Şübhəsiz ki, heç kim dinib-danışmağa cürət etmədi. Firon öz çıxışını hədə-qorxu ilə başladı:

– Mən buracan sizə dinməmişəm, demişəm sədr bilər, siz də bildiyinizi eləmisiniz, kolxoz dağılıb. İndi rayon təşkilatları məndən xahiş ediblər, mən də razılıq vermişəm. Gərək

bu il elə işləyəsiniz ki, kolxoz bütün sovet ölkəsində birinci yerə çıxsın. Gecə-gündüz olmayacaq, uşaq-qoca olmayacaq, xəstə-filan bilməyəcəyəm, hüzürə üç gün vaxt verəcəyəm, yazda-yayda toy eləmək istəyənin atasına od vuraram. Xülasə, yoldaş Stalin bizdən iş tələb edir, gərək işləyək. Bu il hektara 50 sentner taxıl götürməliyik.

Kimsə əlini dizinə vurub soruşdu:

– Nə qədər?

Firon səsini bir az da ucaltdı:

– Karsan? Dedim ki, 50 sentner.

Sonra ferma müdiri çıxış etdi. Söz verdi ki, hər 100 qoyundan 100 quzu olacaq. Firon onun sözünü kəsib dedi:

– Axmaq oğlu, axmaq, yüz qoyundan yüz quzunu nənəm də alar. Biz bu il hər 100 qoyundan 160 quzu alacaq, hər inəkdən 4700 litr süd sağacaq, hər qoyundan 4 kq 500 q yun qırxacağıq. Buna bizim hər cür imkanımız var və mən Rayon Partiya Komitəsinə söz verirəm ki, vədimə əməl edəcəyəm.

Rzayevin üzü güldü. O, ayağa durub dedi:

– Səlim kişi, sən vədinə əməl elə, biz də sənə vəd veririk ki, ilin yekununda qəhrəman adı hazır.

Hamı əl çaldı, iclas qurtardı. Hə, deməli, Səlim Sosialist Əməyi Qəhrəmanı adı almaq istəyir və ona görə də kolxoz sədri olur. Yaxşı, axı bu yoxsul, zəif kolxozda o vədləri necə yerinə yetirmək olar? Əkin sahələrinin 90 %-i dəmyə, inəklər yerli cins, qoyunlar həmçinin… Allah, özün camaata rəhm elə.

**03.01.1948.**

Deyəsən, Allah camaata rəhm eləmək istəmir. Çünki qışın bu vaxtı Firon 20 kotan qoşdurub «səp-çevir» üsulu ilə taxıl əkdirməyə başladı. Bu üsul belədir: əvvəlcə toxumçular toxumu şumlanmamış boş yerə səpir, sonra isə kotanla həmin yer şumlanır. Bu, çox əlverişsiz, yaramaz əkin üsuludur ki,

heç bir ağıllı təsərrüfat rəhbəri bunu etmir. Görəsən, Fironu bu işə vadar edən nədir?

**31.01.1948.**

Bu gün səhər briqadir İbadulla məktəbə gəlib əlindəki siyahını mizin üstünə qoydu:

– Hamınız qol çəkin, – dedi, – Səlim qağa tapşırıb.

Mən siyahını əlimə alıb baxdım. Bu, kolxoz fermasında sağılmış südün ziyalılara «satılmasına» aid aylıq cədvəl idi. Belə çıxırdı ki, şəxsən mənə hər gün iki litr süd satılıb. Siyahıda sovetlikdə yaşayıb-işləyən bütün müəllimlərə, feldşer, mədəni-maarif işçisi, ticarət işçisi və başqalarına gündə 150-160 litr, ayda 4500-4800 litr süd satılması qeyd edilirdi. Kolxoz sədri, hesabdar, ferma müdiri və satış komissiyasının imzaları, kolxozun möhürü yerində idi. Mər artıq çox şeyləri başa düşürdümsə də, yenə də ehtiyat üçün soruşdum:

– İbadulla qardaş, sonra bunun pullarını bizdən istəməyəcəklər?

İbadulla kişi bir az qızardı, tutulan kimi oldu:

– Yox, ay bala, heç o boyda da allahsızlıq olar? Siz eləcə qol çəkin, vəssalam, Səlim qağa indi gözləyir.

«Səlim qağa» sözü öz təsirini göstərdi. Hamımız tez qol çəkib bir aylıq «süd aldıq».

İbadulla kişi gedəndən sonra, nəsə, sinfə girməyə həvəsimiz olmadı. İnsafən direktor da bir söz demədi. Söhbət qızışdı: kolxozdan, Səlimin sədrlik üslubundan danışdıq. Babayev həmişəki kimi Fironu təriflədi:

– Əşi, sədr belə işləyər, iş də gedər! Bir ayda 300 ha əlavə yer əkdirib, gör bu il nə qədər taxıl olacaq. Heç yığıb-yığışdıra bilməyəcəyik.

Ağaşirin müəllim onun sözünü kəsdi:

– Sən Allah, ay Babayev, bir qoy görək nə olur, sonra təriflə, gözün dəyər.

Babayev kinayəni başa düşmədi:

– Kişi iş görür də… Daha başqaları kimi eləmir. Səlim qağa dövlət planı üçün malından, canından keçər. Siz görməmisiz, bilmirsiz. Müharibə başlanandan beş-altı ay sonra o, tank düzəltdirmək üçün dövlətə 50 min manat pul verdi. Belə adam işləyəcək, ad da alacaq. Görərsiz!

Məmmədzayıd müəllim hirslə ayağa durub zəngi vurdu:

– Bəsdir, – dedi, – biz bilən iş deyil. Keçin sinfə, dərsinizi deyib, Allahınıza şükür eləyin.

Axşamdan xeyli keçmiş Məmmədzayıd müəllim mənim yanıma gəldi. Hiss etdim ki, ürəyi doludur, dərdini deməyə adam axtarır. Söhbət, şübhəsiz ki, «süd satışı»ndan düşdü. O, astadan dedi:

– Əfqan, sən hələ cavansan, çox şeyi bilmirsən. Bu Səlim çox işdahatlar çıxarır və bunu çox adam da bilir. Amma camaatın gözünü elə qorxudub ki, heç kim cınqırını da çıxarda bilmir. Burda həmişə Səlimin xərcliyi üçün 10-15 ha buğda əkilirdi və onun şumu, tumu, biçini, xarmanı haqsız olurdu. Amma indi 300 ha əkilir. Bu, ayrı məqsəd üçündür. Sən eşitdin də, o, iclasda söz verdi ki, hər hektardan 50 sentner taxıl götürəcəyəm. Hə, bax, indi bu 300 hektarın adı heç bir yerdə olmayacaq, məhsul gələcək həqiqi əkilmiş 500 hektarın üstünə və olacaq rekord məhsul. Bu – bir. İkinci, süd məsələsi. Gördün ki, ayda 4500-4800 litr süd guya bizə satılır, bir o qədər də guya əsgər ailələrinə paylanır. Sonra guya filan qədər süd sağılıb buzovlara verilir və s. Bunlar da gəlir inəklərin südünün üstünə, bir az da rəqəmlərə əl gəzdirilir, vəssalam. Bu da olur rekord süd sağımı. İnşallah, ölmərik, qoyun-quzu, yun məsələsini də görərik. Sənə isə məsləhətim budur ki, dinmə. Cavansan, kimsəsizsən, dolaşdırarlar.

**02.06.1948.**

İlahi, bu qədər də alçalmaq, təhqir edilmək olarmı? Bu boyda sovetlikdə bir nəfər adam tapılmır ki, bu haqsızlığa, zülmə qarşı çıxsın. Hamı qorxudan tir-tir əsir. Mənə də «yetim qızsan, büzül yat» deyir.

Bu gün səhər bütün məktəb-müəllim və uşaqlar hamısı birlikdə kolxozun tarlasına çıxmışdı. Hərəmiz on beş-on altı uşağa rəhbərlik edirdik. Mənə dördüncü sinif düşmüşdü. Hamılıqla biçilmiş sahələrdən yerə tökülmüş sünbülləri dənləyirdik. İnsafən, uşaqlar həvəslə işləyirdi. Günortaya yaxın hava elə isti oldu ki, daha küləşli zəmidə fırlanmaq müşkül oldu. Buna baxmayaraq biz uşaqları zəmidən çıxartmırdıq. Lakin iş əvvəlki kimi getmirdi. Birdən Firon gəlib çıxdı. O, uşaqların ağır-ağır işlədiyini görüb nalayiq söyüşlər söyə-söyə atdan yerə endi, əlindəki qırmancla uşaqlara hücum etdi, çatanın kürəyinə, başına vurmağa başladı. Uşaqlar çığıra-çığıra müəllimlərin üstünə yüyürdülər. Elə güman etdilər ki, ya Firon dayanar, ya da biz onları müdafiə edərik. Lakin nə Firon dayandı, nə də biz uşaqları müdafiə etdik. Beləcə gözümüzün önündə – dörd  kişi və üç qadın müəllimin yanında Firon uşaqları döyür, yaman-yovuz deyirdi.

Yetər müəllimə bir tərəfdə durub ağlayır, Zina müəllimə onu ovundururdu; Məmmədzayıdın kontuziyası başlandığı üçün ürəyi getmiş, Ağaşirin və Babayev onu yerə uzadıb üzünə su çırpırdı. Mən isə donub qalmışdım.

Nəhayət Firon ata mindi və Babayevə müraciətlə dedi:

– Bu gün öynə-filan olmayacaq, axşama kimi bu zəmidə bir dənə də sünbül qalmamalıdır. Axşam tərəfi özüm gəlib yoxlayacağam.

O, gedəndən sonra Yetər müəllimə hıçqıra-hıçqıra dedi:

– Heç belə də şey olar? Sən gəl müəllimlərin gözünün qabağında şagirdləri döy, heç kimi saya salma?

Babayev onun sözünü kəsdi:

– Sən Allah, Yetər müəllimə, yavaş danış, bizi şərə salma. Elə indi hər yerdə belədir. Adamdan iş tələb eləyirlər.

**09.10.1948.**

Bu gün kəndin yeganə tibb işçisi olan feldşer (camaat ona «doktor» deyirdi) Vasili İvanoviç vəfat etdi. Müharibə dövründə işğal edilmiş sovet torpaqlarından qaçıb gəlmiş bu qocanın evi yanmış, ailəsi büsbütün həlak olduğu üçün sonralar buradan getməmiş, iki kiçik otaqçadan ibarət kərpic daxmanın bir gözünü tibb məntəqəsi etmiş, o birində yaşamışdı. Vasili İvanoviç burada olduğu müddətdə Azərbaycan dilini babat öyrənsə də, rus dilində danışmağa çalışır, sanki ana dilini unudacağından qorxurdu. O, tək yaşayır, hər işini özü görürdü. Yalnız çörəyini qonşu İbad kişinin ailəsi bişirib verirdi. İçki içməz, papiros çəkməz, nalayiq danışmaz, keçmişi xatırlamaz, gələcəyi fikirləşməzdi. O, heç nəyə qarışmaz, səsini ucaltmaz, əsəbiləşməzdi. Mənimlə, yalnız rus dilində danışmaq xatirinə yaxınlıq edir, arabir söhbətləşirdi, çünki yaş fərqi özünü göstərirdi.

Onun xəstələnməsi və vəfat etməsi çox gözlənilməz oldu. Dünən axşamüstü İbad kişinin kiçik oğlu məktəbə gəlib doktorun xəstələndiyini və məni tez görmək istədiyini bildirdi. Axırıncı dərslərimi yoldaşlarıma tapşırıb Vasili İvanoviçin yanına getdim. O, əldəqayırma taxtın üstündə, təmiz yorğan-döşəkdə uzanmışdı. Zahirən bir elə dəyişikliyi yox idi. Məni görcək rəngi açıldı, dikəlib oturmaq istədi, lakin otura bilmədi. Mən ağzımı açmamış dedi:

– Nə yaxşı ki, tez gəldin, mən tezliklə öləcəyəm, sənə vəsiyyət etmək istəyirəm.

Mən ona ürək-dirək vermək istəyəndə sözümü kəsdi:

– Mən uşaq deyiləm ki, özümü aldadam. Görürəm ki, axır saatlarımı yaşayıram. Diqqətlə qulaq as: məni mütləq xristiansayağı, geyimli basdırarsınız. Əgər camaat razı olsa, sizin qəbristanlığın lap kənarında dəfn edin ki, qəbrim itməsin. Qohum-əqrəbam yoxdur, amma kəndimizdə sağ qalanlar məni tanıyır, ünvan stolun üstündədir. O kəndin Kənd Sovetinə yazarsan ki, Vasili İvanoviç Boqolyubov filan vaxtı, filan yerdə vəfat etdi. Heç bir əmlakım, pulum yoxdur ki, tapşıram.

Amma səni bura çağırmaqda əsas bir məqsədim də var. Altı ildir ki, bu kənddə yaşayır, bu kəndin çörəyini yeyirəm. Bu altı ildə çox şeylər görmüşəm, yaxşısı da olub, pisi də. Hamısını udmuşam. 1942-ci ilin fevralında ac-yalavac, çılpaq vəziyyətdə yük qatarının üstündə gəlib Azərbaycana, sizin Hacıqabula düşdüm. Bazar qırağında büzüşüb durduğum vaxt sizin ispolkom Səlim məni gördü, birtəhər bir-birimizə kimliyimizi başa saldıq. O, mənim feldşer olmağımı bilib Səhiyyə şöbəsinə apardı, əmr yazdırıb bura gətirdi və bu gördüyün yerdə yerləşdirdi.

İnsafən, ilk vaxtlar mənə çox kömək etdi, tez-tez gəlib məni yoxladı, çörək, yağ-pendir və s. göndərdi. Mən sizin dildə nə öyrənmişəmsə, ilk üç-dörd ayda öyrəndim. Səlim arabir oturub mənimlə söhbətləşir, müxtəlif dərmanların təsirini öyrənirdi. Bir dəfə o, məndən soruşdu ki, insanı qısa müddətə dərin yuxuya aparmaq üçün dərman varmı? Belə ki, adam azı bir saat özündə olmasın, heç nə hiss etməsin, sonra isə ayılsın? Mən belə dərman bilirdim. Səlim bunu eşidən kimi məni Bakıya göndərdi ki, apteklərə, qospitallara dəyib həmin dərmandan alıb gətirim. Doğrusu, onun bu dərmanı neynəyəcəyini soruşmağa üzum gəlmədi – axı o, məni aclıqdan xilas etmişdi. Nə isə, üç-dörd gündən sonra böyük çətinliklə də olsa, bir qədər bihuşedici dərman alıb gətirdim. Həmin dərmanı iyləmək, suda içmək, xörəkdə qəbul etmək hər hansı bir adamı azı bir saat huşsuz edirdi. Səlim dərmanı məndən alıb və amiranə bir tərzdə dedi:

– Bax, qoca, bu sirri səndən başqa heç kim bilməməlidir. Əks halda səni tikə-tikə doğrayaram.

Mən həm təəccübdən, həm də qorxudan dinib-danışa bilmədim. Beləliklə, mən Səlimin qeyri-insani əxlaqsızlığı üçün şərait yaratmış oldum...

Səlim və onun keşikçiləri yiyəsiz qadınlara sataşır, onlar hamilə olanda isə mən dərman vasitəsilə süni abort edirdim. Mən Səlimin döyüb-öldürdüyü, şikəst etdiyi neçə-neçə adama qulluq etmiş, yalan aktlar yazmışam, hamısı da qorxudan…

Oğlum, bunları sənə deməkdə məqsədim odur ki, altı ildə bu dərd mənim qarnımı deşib, ürəyimi yeyib. İstəyirəm ki, Səlimin iç üzünü də tanıyasız, biləsiniz ki, o, necə vəhşi, yaramaz adamdır.

Vasili İvanoviçin dedikləri məni lap dəhşətə gətirdi. İnsan bu qədər də rəzil olarmı? Belə bir adamın illər uzunu rəhbər işçi, respublikada tanınan-sayılan adam olmağa haqqı varmı? Görəsən, belə adamların iç üzünü açıb göstərməyə nə zamansa imkan olacaqmı?

**21.02.1949.**

Son günlər bütün kənd eyni bir sözü deyirdi: «Kolxoz sədri Səlim qazandığı yüksək nailiyyətlərə görə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb və bu barədə qəzetlərdə fərman dərc edilib.» Mən qəzetdə Səlimin nailiyyətlərinə həsr edilmiş böyük bir məqaləni oxuduqca təəccübləndim. Çünki hər hektardan 50 sentner buğdanın, hər yüz qoyundan 164 quzunun, hər qoyundan 4 kq 700 qram yunun, hər inəkdən 4712 kq südün necə hasil olduğunu bilirdim. Ona görə təəccübləndim ki, doğrudanmı heç kim bunun necə hasil olduğunu bilmir? Doğrudanmı buna rayonda, Bakıda və Moskvada inanırlar? Məgər mütəxəssislər belə işlərə baş qoşmurmu?

Kənddə isə Səlimə xoş gəlsin deyə vəzifəli adamlar bayram paltarı geymiş, evində qonaqlıq etmişdi. Deyirlər Səlimi təbrik etmək üçün rayonun bütün rəhbər işçiləri kəndə gəlibmiş. Qonaqlıq üçün 12 qoç, nə qədər toyuq-cücə kəsilmiş, qazan-qazan plov bişirilmişdi.

Bu gün axşam idarədə böyük iclas keçirildi. Bütün kəndlərin rəhbər işçiləri bizim kolxoz idarəsinə toplaşdılar. Rayondan gələnlər də vardı. Əvvəlcə Səlimi təbrik etdilər. Sonra o, ayağa durub söz verdi ki, bu il daha yaxşı işləyəcək, ötən ilki rekordları təzələyəcək, hektardan 52 sentner taxıl, yüz qoyundan 166 baş quzu, hər qoyundan 4,8 kq yun, hər inəkdən 4750 litr süd hasil edəcək.

Hamı uzun müddət əl çaldı, heç kim cəsarət edib deyə bilmədi ki, axı bu rəqəmlər çox yuxarıdır, bizim şəraitdə ağlasığmazdır. Kim deyə bilərdi?!… Axı təxminən hamı bilirdi ki, Səlim bu il plandan artıq 400 ha yerdə taxıl səpdirib, kənddə yerləşən pendir zavodunun ustası ilə dil tapıb və süd söhbətini başqa şəkildə həll edir və s.

**16.05.1949.**

Bu gecə sabaha kimi traktor səsləri eşidilib. Başqa yerlərdə olsa da, burada hələ traktor yoxdur. Bəs görəsən bu nə olan işdir? Özü də azı 10-15 traktor işləyirdi.

Səhər kənddə hamı bu barədə danışırdı. Bir azdan məlum oldu ki, traktorlar kolxozun baş açmış taxıl zəmilərini şumlayıblar. Əvvəl çox adam buna inanmadı: «Elə də şey olar?» «Çörək adamın gözünü tutar!», «Onu şumlayanı tutub yerindəcə güllələyərlər!» və s. dedi. Lakin axşamtərəfi neçə adam gedib öz gözü ilə gördüyünü danışanda, mən də şübhəmi dağıtmaq üçün şumlanmış yerlərə gedib baxdım və quruyub qaldım: azı 200-250 ha baş açmış taxıl zəmisi başdan-başa şumlanmışdı. Məni ağlamaq tutdu. El-oba hələ doyunca

çörək yemədiyi bir zamanda bunu hansı cinayətkarlar etmiş olar? Görəsən buna Firon nə deyəcək? Yəqin ki, dünyanı dağıdacaq!!!

Axşam kəndin bütün yaşlı əhalisi idarənin qabağına toplaşmışdı. Hamı çox həyəcanlı idi. Bu görünməmiş cinayətin səbəbkarını bilmək istəyirdi. Hava lap qaralmışdı ki, Firon gəldi. Adətinin əksinə olaraq camaatla salamlaşdı, yığışmaqlarının səbəbini soruşdu. Məsələdən hali olunca çox soyuqqanlılıqla dedi:

– Çox şişirtməyin. Yəqin yolla yuxarı gedən traktorçular bir-iki baş o yan-bu yana gedib. Səhər özüm gedib baxaram, əhəmiyyətli bir şey olsa, lazımi ölçü götürərəm.

Camaat etiraz etmək istəyəndə səsini ucaltdı:

– Hə, cızığdan çıxmayın, çəkilib gedin.

Camaat dağılışıb getdi. Gecədən xeyli keçmiş Ağagül mənim yanıma gəldi. Salam-kəlamdan sonra dedi:

– Bilirsən nə var, müəllim, kimsə Moskvaya ərizə verib ki, bəs bizim kolxoz 400 hektar artıq sahə əkib, hesabatlarda göstərilən qədər mal-qoyun yoxdur. Mən dünən Ağcaqabulda idim, orada danışdılar ki, bəs Moskvadan məxsus bizim kolxoza yoxlama komissiyası gəlib. Amma raykom katibi komissiyanı aldadıb ki, çayda seldir, körpü yoxdur, iki-üç gündən sonra gedərik. Bu yandan da Səlimə kömək məqsədilə MTS-in bütün traktorlarını göndərib, bir gecədə azı 150 ha sahəni çevirtdirib. İndi gəl sübut elə ki, orada taxıl var idi. Şübhəsiz ki, mal-heyvanın əskiyini də bu gün-sabah düzəldəcəklər. Xülasə, çox çətin işdir, amma buna da Səlim deyərlər.

**17.05.1949.**

Bu gecə kənddə məndən başqa heç kim yatmayıbmış. Firon və onun yaxın adamları qapı-qapı gəzib kolxozçuların şəxsi mal-qarasının, qoyun-quzusunun qulağına birka vurub

müvəqqəti olaraq fermaya aparıblarmış. Neçə-neçə adamlar çağırılıb hədələnibmiş, neçələrinə gələcək komissiya qarşısında nə demək lazım olduğu öyrədilibmiş. Xülasə, əməlli-başlı hazırlıq işi aparılıbmış.

Nahar vaxtı iki villis maşınında komissiya gəldi. Komissiya üzvlərinin iki nəfəri rus kişi idi ki, Moskvadan gəlmişdi. Rayondan da torpaq şöbəsinin müdiri, rayonun baş aqronomu və zootexniki komissiya heyətinə daxil idi. Camaatı idarənin qaba-ğına yığdılar. Əvvəlcə raykomun katibi danışdı, camaatı danladı ki, niyə qəhrəmandan (yəni Səlim kişidən) ərizə vermisiz? Sonra da hədələdi ki, məlumatlar doğru çıxmasa, hamınız demoqoq kimi cəzalanacaqsınız.

Sonra Moskvadan gələnlərdən biri çıxış etdi. O, rus dilində danışdığı üçün, demək olar ki, heç kim bir söz başa düşmədi. Sözündən belə çıxdı ki, onlar hər şeyi diqqətlə yoxlayacaq, adamları dinləyəcəklər. (Burada mənim yadıma C.Məmmədquluzadənin «Danabaş kəndinin əhvalatları» əsəri düşdü.)

Xülasə, günorta vaxtı xeyli adam çevrilmiş zəmiyə gəldi. Buranın baş açmış buğda zəmisi olduğunu görmək üçün maşından düşüb şuma enmək və torpağı azca eşmək kifayətidi. Lakin komissiya üzvləri maşından düşmədilər. Moskvalı yoldaş soruşdu:

– Zaçem lyudi sobralis zdes? (Adamlar niyə bura yığışıblar?)

Raykom katibi cavab verdi:

– Oni pokazıvayut nam vspaxannıe uçastki pod buduşie posevı. (Onlar bizə gələcək əkin üçün şumlanmış sahələri göstərirlər.)

Moskvalı yoldaş dedi:

– Molodsı. A kak oni jivut? Net li jalob? (Afərin. Bəs onlar necə yaşayır? Şikayətləri yoxdur ki?)

Raykom katibi tez dilləndi:

– Jivut xoroşo. Jalob net. A eta jaloba so storonı. (Yaxşı yaşayırlar. Şikayətləri yoxdur. Bu şikayət isə kənardandır.)

Sonra isə özü əl çaldı. O dəqiqə hamı uzun müddət əl vurdu. Moskvalı yoldaşlar baş əydi, «spasibo» deyə-deyə camaata əl elədilər. Maşınlar fermalara tərəf yola düşdü.

Fermalarda hər şey öz qaydasında idi. Heyvanları bir-bir saydılar – yerli-yerində oldu. Düzdür, tələsikdə çaşıb camaatın malını cinslər üzrə ayırmamışdılar, belə ki, inəklər qrupunda cöngə, öküzlər dəstəsində düyə, buzovlar arasında camış balağları görünürdü. Lakin buna heç kim əhəmiyyət vermirdi. Raykom katibi Moskvadan gələnləri elə bir şirin söhbətə tutmuşdu ki, onlar heç mallar tərəfə baxmırdı, baxsa da, deyəsən, heç inəklə öküzü ayırd edə bilmirdi.

Axşamüstü komissiya idarəyə gəldi. Hesabatlar aralığa töküldü. Kolxoz hesabdarı sənədləri göstərir, izahat verir, rus yoldaşlar isə heç nə başa düşmədikləri üçün raykom katibi ilə zarafatlaşır, bayağı lətifələr danışırdılar.

Qaranlıq qarışanda camaatı idarənin qabağına topladılar. Komissiya üzvləri rus dilində, yerlilər öz dilimizdə danışırdılar. İrəlicədən hazırlanmış adamlara söz verildi.

Axırda raykom katibi çıxış etdi. Verilmiş ərizənin böhtan olduğunu bildirdi, camaata daha yaxşı işləməyi, qəhrəman Səlimə hörmət etməyi tapşırdı.

Gələnlər maşınlara minib getdi. Bu vaxta kimi dinib-danışmayan Firon idarənin balkonuna çıxıb ucadan camaata dedi:

– Neynək, mən belə deməmişdim. İndən belə sizinlə başqa cür danışaram.

**16.07.1949.**

Bu gün rayon komsomol komitəsinin konfransı keçirilirdi. Mən komsomol təşkilatının katibi olduğum üçün konfransda iştirak edirdim. Şöbə müdiri İbadov mənə dedi ki, çıxış

üçün sənə də söz veriləcək, özün də kəndin sosial təminatından, ehtiyaclarından danışarsan.

Tənəffüsdən sonra beşinci olaraq məni çıxışa dəvət etdilər. Heç bir qeyd-filan aparmadan kəndin vəziyyətindən danışdım. Qeyd etdim ki, kolxozumuz irəlidə getsə də, rekord göstəricilərə nail olsa da, kolxozçuların vəziyyəti son dərəcə ağırdır, çünki hər əmək gününə cəmi 1 kq taxıl bölünüb. Kənddə hamam, klub, kino qurğusu, kitabxana, xəstəxana yoxdur; məktəblər köhnə, uçuq evlərdə yerləşir, müəllim çatışmır, yeganə feldşer vəfat edib, yerinə adam gəlmir; yayda içməli su tapılmır; yol yox, körpü yox, payız düşən kimi rayonla əlaqə kəsilir; xülasə, çox acınacaqlı bir vəziyyətdir və ən tez vaxtda bu kəndə kömək göstərilməlidir.

Lakin, deyəsən, mənim çıxışım rəhbər işçilərin xoşuna gəlmədi. Çünki, adətən, çıxış qurtaran kimi onlar əl çalmağa başlayır və salondakılar da onlara qoşulur. Nə üçünsə mənə əl çalan olmadı. Axşam atla kəndə qayıdarkən yolda çox götür-qoy etdim: axı mən nə danışdım ki, xoşa gəlməsin: mən ki, olan vəziyyəti dedim, hələ Fironun camaatın başına gətirdiyi oyunlardan, xalqın daima qorxu, tənə-təhqir altında yaşamasından, ac-yalavac dolanmasından, təzə paltar üzünə həsrət qalmasından, titrətmə-qızdırma, keçəllik və traxomanın tüğyan etməsindən danışmadım. Axı mən çox şeyi, çox şeyi demədim, utandım, həya elədim…

Elə sabahüzü çatdım. Ağagül məni kəndin girəcəyində qarşıladı. Əhvalatı ona danışanda üzü tutuldu:

– Səhv eləmisən, Əfqan, – dedi, – gərək elə danışmayaydın. Qorxuram bunun sənə ziyanı dəyə…

Bu Ağagül də lap qəribə adamdır ha! Axı mən nə demişəm ki, ziyanı da ola? Məgər kənddə vəziyyət mən deyən kimi deyil? Mən deyəndən daha ağır, daha acınacaqlı deyil?

Neçə illərdir ki, əziyyətdəyik,
Nə səhhət, nə taqət, nə də can qalıb.
Dərdü-qəm əlindən müsibətdəyik,
Nə dövlət, nə şöhrət, nə də şan qalıb,
Nə həvəs, nə istək, nə də can qalıb.
Vurulub sinəyə dürlü yarələr,
Analar bağlayıb indi qarələr,
Dərdlər artıbsa da, yoxdur çarələr,
Nə məlhəm, nə dəva, nə dərman qalıb,
Nə əlac, nə şəfa, nə Loğman qalıb.
Çoxları vətəndən dərbədər olmuş,
Həqiqət yerinə hakim, şər olmuş.
Etibar, məhəbbət dönmüş zər olmuş,
Nə aqil, nə adil, nə insan qalıb,
Nə alim, nə müfti, nə ürfan qalıb.
Nə bağlar gül açır, nə də ki, güllər,
Çoxdandır oxumur şeyda bülbüllər,
Daim möhnət çəkir miskin könüllər,
Nə vuruşma qalıb, nə meydan qalıb,
Nə təşkilat qalıb, nə üsyan qalıb.
Çürüyür çoxları indi Sibirdə,
Keçir ömürləri cövrü cəbirdə,
Ölsək, rahat olaq bəlkə qəbirdə,
Nə azadlıq qalıb, nə fərman qalıb,
Nə dinclik, nə hakim, nə sultan qalıb.
Stalin çəkibdir sinəyə dağı,
Artırır günbəgün zülmü, fərağı,
Sönüb işıldayan ümid çırağı,
Nə Tövrat, nə İncil, nə Quran qalıb,
Nə kafər, nə də ki, müsəlman qalıb.
Tükəndi, qalmadı malü-mülkü-var,
Artıb ürəkdəki həsrət, intizar,

Gedibdir əvvəlki hüquq, ixtiyar,
Nə ad-san qalıb, nə Əfqan qalıb,
Nə duyan, düşünən bir insan qalıb.

**23.07.1949.**

Firon dediyini elədi. Bu gün səhər tezdən bir villis, bi yük və bir dustaq maşını gəldi. İdarənin qabağında 20-yə yaxın rəhbər işçi və milis nəfəri göründü. Raykom katibləri, prokuror, məhkəmə sədri, İcraiyyə Komitəsinin sədri, hərbi komissar və b. burada idilər. Ani olaraq ümumi iclas çağırıldı. Birinci katib iclası açıb bildirdi ki, bu kolxoz indi təkcə respublikada deyil, hətta bütün İttifaqda rekord göstəricilərə nail olur; kolxoz sədri çox namuslu, işgüzar, bacarıqlı adamdır, əmək nailiyyətlərinə görə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb, hamı ondan nümunə götürür. Lakin kənddə bir qrup adam onun işləməsinə mane olur, işi geri çəkir, mərkəzi təşkilatlara yalan məlumatlar verir, bununla da dövlət əleyhinə təxribat işi aparır, partiya və hökuməti nüfuzdan salır. M.C.Bağırov yoldaş şəxsən mənə tapşırmışdır ki, bu kənddə təmizləmə işi aparım, ziyankar ünsürləri aşkara çıxarım və cəzalarını verim. Artıq iki aydır ki, rayon prokurorluğu, milis idarəsi, hərbi komissarlıq, KQB-nin rayon şöbəsi və başqa təşkilatlar bu məsələ ilə əlaqədar böyük tədqiqat işi aparmış və cinayətkar qrupun bütün üzvlərini müəyyənləşdirmişlər.

İndi sizin öz gözünüz önündə hər birinin cinayəti deyiləcək və müvafiq orqanlar tərəfindən cəzaları veriləcək.

Camaatın üstünə elə bil kül ələndi, çoxları başını yuxarı qaldırmağa, səsi eşidilməsin deyə, öskürməyə belə cürət etmədi.

İlk əvvəl hərbi komissar çıxış etdi. Onun dediyindən belə məlum oldu ki, müharibədən qayıtmış Ağagül, Salah kişi

və Ramazan könüllü olaraq almanlara əsir düşmüş, onlar tərəfində işləmişlər.

Ağagül yerindən qalxıb etiraz edəndə ki, axı mən əsir düşməmişəm, KQB rəisinin işarəsilə milislər onu, Salah kişini və Ramazanı yaxalayıb dustaq maşınına basdılar. Arvad-uşaq hay-küy salanda prokuror irəli çıxdı, camaata acıqlandı.

KQB-nin rayon şöbəsinin rəisi kolxoz quruluşunu dağıdan, pozuculuq, təxribatçılıq fəaliyyəti göstərən dəstəni aşkar etdiyini bildirib, bu dəstə üzvlərini «xalq düşməni» adlandırdı. Sonra Həsənalı kişi, İsa kişi və Muradın həbs edilməsi barədə olan qərarı oxudu. Milislər onları da dustaq maşınına saldılar.

Milis idarəsinin rəisi anonimkaçı, demaqoq adı ilə Niyazı və Sadıq kişini həbsə aldırdı.

Axırda raykom katibi qeyd etdi ki, bu, hələ işin başlanğıcıdır. Orqanlar bu cinayəti ciddi öyrənib onun təşkilatçılarını və qalan təxribatçıları da həbs edəcək.

Arvadlar ona qulaq verməyib ucadan ağlaşır, ağız açıb oxşayır, sinə vurur, bəziləri üz-gözünü cırır, başını yolurdu. Kişilər isə dinmirdi, dinə bilmirdi, dinə bilməzdi. Çünki nələr baş verdiyini, nə üçün baş verdiyini başa düşürdü.

Qeyd: Kənd müəlliminin gündəlikləri burada yarımçıq qalmışdır. Çünki raykom katibinin dediyi «təxribatçılar» sırasında tezliklə o da həbs edilmişdi.

## YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİNİN ÖMRÜNÜN SON GÜNLƏRİ

1953-ci ildə sabiq Qorki vilayətinin Suxobezvodnaya kəndində siyasi məhbuslar içərisindəydim. Bizə ayda bir dəfə məktub yazmağa icazə verilirdi. Məhbusları on-on məktubat şöbəsinə gətirir, kağız, qələm verir, yazılmış məktubları oxuduqdan sonra, bağlayıb götürürdülər. Burada işləyən nəzarətçi Lyubov İlyuşina adlı 45-50 yaşlarında bir rus qadınıydı. O mənim çox cavan olduğumu görüb, yanımda durdu, kimliyimi, milliyyətimi, nə üçün bura düşdüyumü və sairəni soruşdu.

Şeir üstündə tutulduğumu eşidib, bir an fikrə getdi və sonra soruşdu:

– Sizdə Yusif Vəzirov adlı yazıçı olubmu?

Bütün yazıçıları yadıma saldım , “yox” dedim.

İlyuşina israr etdi:

– Bəs axı o deyirdi ki, çoxlu əsərlər yazıb... Rusca gözəl danışırdı, mədəni adam idi, fransızca da bilirdi. Doğrudan da, tanımırsız?

Çox fikirləşəndə, nəhayət, Yusif Vəzir Çəmənzəminli yadıma duşdu. Doğrusu, mən onun familini bilmirdim, əsərlərini də müharibədən əvvəl, bacım oxuyanda görmüşdüm: “Qızlar bulağı” və “Studentlər”.

Bunları deyəndə İlyuşina qiymətli bir şey tapmış adam kimi sevinərək dedi:

«1940-cı ilin əvvəllərində mən ərimlə bərabər bu düşərgəyə işləməyə gəlmişdim. Ərim zabit idi və daxili mühafizə batalyonunda çalışırdı. Mən elə o zamandan burada işləməyə başladım. Həmin il qışın ortasında bir dəstə dustaq gətirdilər. Onların hamısı qafqazlıydı. Mən həmişə təzə gətirilən məhbusların şəxsi işlərinə baxıb haralı, nəçi olduqlarıyla maraqlanırdım. Məhbuslardan birinin şəxsi işi diqqətimi cəlb etdi. –

Vəzirov Yusif – yazıçı, çoxlu əsərlər müəllifi, altı dil, o cümlədən, fransız dili bilir, Fransada,Türkiyədə yaşayıb, səfir olub. Bu məhbusla maraqlandığımı ərimə dedim. Ərim fransız dili öyrənirdi. Odur ki, beş-altı gündən sonra həmin Vəzirovu mənim işlədiyim otağa gətirtdi. Bu orta boylu, qarabəniz, yaraşıqlı bir kişiydi. Cırım-cındır içində, özü də hədsiz arıq idi. Ağır-ağır, təmkinlə danışırdı. Təxminən bir saatlıq söhbətdən sonra onu baraka qaytardılar. İki ay çəkən xahiş-minnətdən sonra ərim onu mənim işlədiyim şöbəyə xidmətçi təyin etdirə bildi. Vəzirov tezdən odun gətirib sobanı yandırır, otaqları yuyur, silib-təmizləyir, xırda-para buyruqları yerinə yetirirdi. Bu 40-45 dərəcə şaxtada meşə qırmağın müqabilində, əsil "şahanə" işiydi. Ərim vaxt tapıb mənim iş otağıma gəlir və xəlvətdə Vəzirovdan fransız dili öyrənirdi. Lakin bu uzun çəkmədi. Tezliklə müharibə başlandı, ərim də cəbhəyə yola duşdü. Müharibənin ilk günlərindən siyasi məhbusların vəziyyəti çox ağırlaşdı. Ərzaq və geyim tapılmadı. Düşərgə rəisi məcburiyyət qarşısında qalıb, bəzi zəif, qoca, mədəni məhbusları bir-iki soldatın müşayiəti ilə qonşu kolxozlara işə göndərməyə başladı. Bu adamlar arasında Yusif Vəzirov da var idi.

Düşərgədə aclıq idi, zonadan kənara çıxanlar isə birtəhər dolanırdı. Mən demək olar ki, hər gün Vəzirovu görür, bu yüksək mədəniyyətli şəxslə söhbət məqsədiylə ona həyətdə odun doğratdırır, yüngül işlər gördürürdüm. O, arabir öz yazılarını mənə göstərir, rusca olanlarını oxuyurdu. Mən onun yazılarını həyətdəki mal damında gizləyirdim və xeyli yazı toplanmışdı.

1942-cı ilin qışında Y.Vəzirov xəstələndi, aclıqla ağır iş öz təsirini göstərmişdi. Düşərgə xəstəxanasında uzun müddət qaldı, dörd-beş dəfə yoxladım. Hər dəfə xəlvətcə yazılarını mənə verirdi. O bir ildən artıq müddətdə gah babatlaşıb

baraka qayıdır, gah da xəstəxanada yatırdı. Nəhayət, onu qəsəbənin kənarındakı əlillər evinə köçürtdülər. Az sonra vəfat etdi. Səhv etmirəmsə, 1944-cü ilin yanvar ayının əvvəlləriydi. Həkim yoxlanışı və müvafiq akt tərtibindən sonra onu kənddən təqribən üç-dörd km aralıda Vetluqa çayının kiçik qolu olan Unja çayı sahilindəki dustaq qəbristanında dəfn etdilər".

Mən İlyuşinadan Yusif Vəzirin əlyazmalarının aqibətini və qəbrinin yerini soruşdum. O, dedi: "Əlyazmaları mal damındaydı. Uzun illər rütubətli yerdə qaldığı və büsbütün çürüdüyü üçün, iki-üş il bundan qabaq çıxardıb yandırdım. Qəbiristanı hər yay neçə dəfə su bassa da, qəbirlər görünür. Doğrusu, mən ora getmirəm: həm bataqlıq, yol yox, hərə də bir söz deyir".

Öz tərəfimdən bunu da qeyd edə bilərəm ki, 1956-cı ilin yayında Vətənə qayıdarkən, dustaq qəbiristanına baş çəkmək istədim. Bir neçə yoldaşla bir-iki km gedəndən sonra gördüm ki, o yerlər yenə su altındadır.

Həbs düşərgəsinin nömrəsi beləydi (1951-56-cı illərdə): п/я 242-363 /3/17 OLP.

***15.12.91***

# SİBİR DÜŞƏRGƏLƏRİNDƏN TOPLANMIŞ BAYATILAR[1]

Dayım Əhməd Cəfərzadənin (1929-2000) arxivini araşdırarkən çoxlu sayda folklor dəftərləri arasında onun "xalq düşməni" damğasi ilə Sibir düşərgələrində həbsdə olduğu zaman digər həbsxana yoldaşlarından (Azərbaycanın bir çox – Bakı, Saatlı, Cəbrayıl, Salyan, Bərdə, Qubadlı, Sabirabad, Şamaxı, Ağsu və s. bölgələrindən və eləcə də qonşu respublikalarından olan) topladığı bir dəftərə də rast gəldim. Dəftərdə toplanmış bəzi bayatılar Sibir həyatına aid olduğuna və kimlərin onunla bir yerdə həbsdə yatdığını göstərdiyinə görə diqqətimi xüsusi cəlb etdi.  Bu adamlrın çoxu ilə dayım son günlərinə kimi ailəvi dostluq edirdi. Mən də onların bəzisini görüb və ya adlarını eşitmişdim. Bu dəftəri necə varsa sizə çatdırmağı qərara aldım.

**Turan İbrahimov**

Материалы устного народного творчества
(собраны среди заключенных в лагере 137.52
Унжлага МВД)

1955-1956 гг.

Не дозволенных записей нет, носит чисто
любительский характер (на азерб. языке)

Главный цензор  /подпись/  /Малафеев И.Г./
Переводчик  /подпись/  /Авакян П.А./

[1] Yazı ilk dəfə 2006-cı ildə ingilis dilində ABŞda çap edilib: Ahmad Jafarzade, "Lements in the prison camps", "Azerbaijan İnternational" , 14.1 Spring 2006, p.32-33, USA.

Uzaq ölkə Sibirdi,
Orda olmaq cəbirdi,
Gedən çox, qayıdan yox,
Yoxsa ora qəbirdi.

Su üzündə yarpağam,
Vətənimdən uzağam.
Ömür keçir, gün keçir
Ömrüm boyu dustağam.

Sibirin yollarında
Qarı var kollarında.
Dustağı kim tanımaz,
Zəncir var qollarında.

Gedərəm ölkə səndən,
Qorxuram yol kəsəndən.
Əlini ver əlimə,
Ayrıldım bəlkə səndən.

Gəlsin qardaş ağlasın,
Qursun bardaş ağlasın.
Desin ümman dərdimi,
Töksün qan-yaş ağlasın.

Boşqaba aş tökürəm,
Tökdükcən aş tökürəm.
Xalqın yaşı quruyub,
Mən indi yaş tökürəm.

Dağlar mənə qar göndər,
Əsirgəmə var göndər.

Ya dərdimə şərik ol,
Ya dərmanın var göndər.

Mənim adım Həsəndir,
Mənzilim Daşkəsəndir.
Fələyə bel bağlama,
Fələk zəncir kəsəndir.

Dağlara lala gəldi,
Gül gəldi, lala gəldi.
Hitler biz yazıqlara
Allahdan bəla gəldi.

Düşman bizi haxladı,
Zirzəmidə saxladı.
Bəd gündə, bəd ayaqda,
Məni ruslar saxladı.

Əzizim Gəncə haray,
Qax haray, Gəncə haray.
Düşdüm düşman əlinə,
Verdi işgəncə, haray.

Əzizinəm şirəm gəl,
Pələngəm gəl, şirəm gəl.
Vətəndən uzaq yerdə
Düşmana əsirəm, gəl.

Əzizinəm ay deyil,
Ulduz deyil, ay deyil.
Nemesin yüz zabiti
Birimizə tay deyil.

Ceyranım gəzə bilməz,
Dolanıb süzə bilməz.
Bu dərdə mən dözürəm,
Heç kimsə dözə bilməz.

Sibir mənə yağıdı,
Dərdin tüğyan çağıdı.
Sibiri viran qalsın,
Sibir qəm oylağıdı.

***Dadaşov Ağamirzə Vəli oğlu, 1916,azərbaycanlı, Şamaxı rayonu, Padar obası, kəndli***

Ovum keçdi bərədən,
Ovçu qalxdı dərədən.
Mənə nişan veriniz,
Yarım gələr nərədən.

Şəftəlisən, kalsan sən,
Dilin yoxdu, lalsan sən.
Əmdikcə doymayıram,
Dodaqları balsan sən.

Zülm elədi şahımız,
Ərşə qalxdı ahımız.
Ömür boyu bilmədik
Nə oldu günahımız.

Gördü bir təklə bəni
Kürd bəni, təklə bəni.
Səndən özgə yar sevməm,
Ölüncə bəklə məni.

***Zurabadze Məhəmməd Loğman oğlu, 1921-ci il, türk, Acar MSSR-nin Axalsk rayonu, kəndli.***

Dağlarda sərinə bax,
Mehə bax, sərinə bax.
Arvad nər kimi işlər,
Avara ərinə bax.

Sürülər toz eleyir,
Od yanır, köz eleyir.
Ağamın kiçik qızı
Sərkara göz eleyir.

Yaylaqda sürüm qaldı,
Gəlmədi sürüm qaldı.
Yar sevdim, yad apardı,
Mənə boş cürüm qaldı.

Qoyunum mələr gələr,
Ağıllar dələr gələr.
Bəy qızı istəyənin
Başına nələr gələr.

Quzumun rəngi çaldı,
Yatdı kölgədə qaldı.
Yarımın dodaqları
Ətirli beçə baldı.

Quzuma göz dəyibdi,
Ocağa köz dəyibdi.
Yar məndən kənar gəzir,
Deyəsən söz dəyibdi.

Quzumun rəngi qara,
Ağam kəsdi nahara.

Özün ev-eşik qurdun,
Məni qoydun avara.

Tikdim qarakeçəni,
Tutub kəsdim beçəni.
Gündüz birtəhər keçdi,
Necə dözüm gecəni.

***Feyzullayev Kərim Alı oğlu, 1917, azərbaycanlı,***
***Şamaxı rayonu, Hacıqədirli kəndi, çoban.***

Sarı gilas rəngimdə,
Sapı var biləngimdə.
Allah məni öldürməz,
Arzum var ürəyimdə.

Qara qazan daşmazmı,
Şirvana yol aşmazmı.
Darıxma əmi oğlu,
Ayrılan qovuşmazmı?

Mən aşıq Ərzuruma,
Yol gedər Ərzuruma.
İnsan üzü pis olur,
Dözürmüş hər zuluma.

Ələndim ələk kimi,
Yelləndim pilək kimi.
Çöllərdə avarayam,
Sərgərdan külək kimi.

Mən aşıq Ərdahanı,
İzmiri, Ərdahanı.

Bilmirəm haqq, ədalət,
Bizim bu yerdə hanı.

Əzizim Vana göndər.
Urmiyə, Vana göndər.
Ay qız, əl yaylığuvı
Yara nişana göndər.

Fələyin qəhri mənə,
Gəlmədi rəhmi mənə.
Doldurub qəm piyaləsin
İçirtdi zəhri mənə.

Əzizim Qarsa nə var?
Samsuna, Qarsa nə var?
Daşnak bizi taladı,
Bilmirəm farsa nə var?

Yaralandım yanımdan,
Qurd-quş doymaz qanımdan.
Dərmanım yox, dərdim çox,
Bezar oldum canımdan.

Dağları gəzdim gəldim,
Gülünü üzdüm gəldim.
Yarı bivəfa gördüm,
Əlimi üzdüm gəldim.

Sənə güllər ağlasın,
Şirin dillər ağlasın.
Matəmi el saxlasın,
Şux bülbüllər ağlasın.

***Həsənov Əsəd Məmməd oğlu, 1905, azərbaycanlı, Ermənistan SSR, Amasiya rayonu, Oxçuoğlu kəndi, çoban.***

Başına qoydun cığa,
Taxılı vurdun tığa.
Zəhmət sevən qız-gəlin,
Erkən gedir pambığa.

***Davudov Davud Hüseyn oğlu, 1909, azərbaycanlı,***
***Sabirabad rayonu, Kürkəndi kəndi, kolxozçu***

Mən aşığam Dərbəndə,
Gedən yoxdur Dərbəndə.
Mətləb verən İlahi
Qoymaz məni şərməndə.

İylədin, atdın məni,
Bazarda satdın məni.
Nə günah eləmişdim,
Kənizə qatdın məni.

Anam ahi-vaydadı,
Ağlamağı qaydadı.
Qəssab piyi axtarır,
Gör keçi nə haydadı.

Palazda narıncı var,
Abı var, narıncı var.
Hardasan, ay insafsız
Dalınca zarıncı var.

Fələyi dindireydim,
Bilməzin bildireydim.
Mənə yazı yazanda,
Qələmin sındıreydim.

***Qədirov Nuhbala Emin oğlu, 1912, azərbaycanlı,***
***Dağıstan MSSR, Dərbənd şəhəri, fəhlə.***

Qoyun gələr, toz olar,
Ağac altda qoz olar.
Qoyuna kəm baxanın
İki gözü boz olar.

Quzumun rəngi ağdı,
Quyruğu dolu yağdı.
Çəkəcəyəm cəfanı
Nə qədər canım sağdı.

Qoyun gələr toz eylər,
Oğlan qıza göz eylər.
Oğlanda taxsır yoxdu
Hər nə elər, qız eylər.

***Abdulov Zeyni Qaraş oğlu, 1921, azərbaycanlı,***
***Bərdə rayonu, Ləmbəran kəndi, çoban.***

Ağac atdım qoyuna,
Getdim özgə toyuna.
Məni kimlər qarğadı
Düşdüm belə oyuna.

Ocaqda tiyan yaxşı,
Yanmağa biyan yaxşı.
Fərasətsiz övladdan
Min tümən ziyan yaxşı.

Aranda nərim qaldı,
Saxladım nərim qaldı.
Oğul-qız üz döndərdi
Yenə də ərim qaldı.

Əzizim balabanı,
Asta çal balabanı.
Hamının balası gəldi
Bəs mənim balam hanı?

***Vəliyev Ənvər Məmməd oğlu, 1919, azərbaycanlı, Qubadlı rayonu, Əfəndilər kəndi, kolxozçu.***

Əziziyəm Salyana,
Dara zülfün sal yana.
Necəsən bir ah çəkim
Kür quruya, sal yana.

Yaylaqda quzum qalıb,
Səhv düşüb quzum qalıb.
Yar özgəyə yar olub,
Dalıycan gözüm qalıb.

Bu yol Cavada gedər,
Aşıb Cavada gedər.
Uçub könlümün quşu
Gör nə havada gedər.

Yayluğuvi bəzərəm,
Hər dərdüvə dözərəm.
Səni burda tapmasam
Qəbir öyün gəzərəm.

Bağa girdim üzümə,
Tikan batdı dizimə.
Əyildim ki, çıxardam
Sən görükdün gözümə.

***Zeynalov Əliqulu Eynal oğlu, 1904, azərbaycanlı, Salyan şəhəri, mühasib.***

Xamırı özdəyən var,
Su vurub özdəyən var.
Qərib yerdə ölmərəm
Yolumu gözdəyən var.

Mən aşığam gül bağda,
Bülbül bağda, gül bağda.
Sənsiz bağa girmərəm,
Xəzəl olsa gül bağda.

***Talıbov Misir Yəhya oğlu, 1914, azərbaycanlı, Gürcüstan SSR, Marneuli rayonu, kolxozçu.***

Qərənfil haça bənddi,
Sana gör neçə bənddi.
Düşəsən mən düşən dərdə,
Görəsən necə dərddi.

Aman fələk, dad fələk,
Nöş olmadım şad fələk.
İçirtdiyin zəhərdən
Özün də bir dad, fələk.

Mən aşığam dəmə gəl,
Məclisə gəl, dəmə gəl.
Dərdi dərdliyə söylə,
Dərdbilməzə demə gəl.

Ortağda payım batdı,
At uşdu, tayım batdı,
Yarım bivəfa çıxdı,
Çox haqqı-sayım batdı.

***Allahyarov Cabbar Əli oğlu, 1884, azərbaycanlı, Qaryagin (indiki Füzuli) rayonu, Qaraxanbəyli kəndi, kolxozçu.***

Su üzündə milçəyəm,
Əl vurma köynəkçəyəm.
Aləmə çirkin olsam,
Öz yarıma göyçəyəm.

Bu gələn yar oleydi,
Məməsi nar oleydi.
İkimiz bir köynəkdə,
Yaxası dar oleydi.

Su gəlir pərli-pərli,
Qapısı qoşa nərli.
Gireydim yar qoynuna
Çıxeydim tərli-tərli.

Qapıda işdiyeydim,
Toyuğu kişdiyeydim.
Yarı xəlvətdə tutub
Bir öpüb, dişdiyeydim.

***Cəfərov Ağaqulu İbad oğlu, 1913, azərbaycanlı, Astraxanbazar qəsəbəsi, qulluqçu.***

Araz qırağı ləklər,
Çırmanıb ağ biləklər.
Mən ki, bu günə düşdüm,
Hasil olsun diləklər.

Araz üstə sonasan,
Göldən-gölə qonasan.
Məni yardan ayırdın,
Odlanasan, yanasan.

Arazın başı qardı,
Qırağı heyva, nardı.
Ağlı, huşu aparır,
Bu gələn nazlı yardı.

***Muradov Maşdı, 1912, azərbaycanlı,***
***Saatlı rayonu, Qurağlı kəndi, kolxozçu.***

Əzizim Qayakəndi,
Dərbəndi, Qayakəndi.
Mən yara qovuşmuşam,
Çağırun toya kəndi.

Süpürgə yumuşaqdı,
Yuxadı, yumuşaqdı.
Toy vaxtın soruşmeyun
Yarım hələ uşaqdı.

***Musayev Qəhrəman, qumuq, 1923, Dağıstan MSSR,***
***Qayakənd rayonu, Başlıkənd kəndi, kolxozçu.***

Aşıq haraya gəlsin,
Xalun qaraya gəlsin.
Gözəl qız axtaranlar,
Baxçasaraya gəlsin.

***Xusainov Sabit, Krım tatarı, 1908,***
***Krım vilayəti, Baxçasaray şəhəri, elmi işçi.***

Əlimdə Quranım var,
Çərəkəm, Quranım var.
Qərib yerdə ölmərəm
Boynunu buranım var.

***Ömərov Mövlə Dadaş oğlu, 1912, azərbaycanlı,***
***Ermənistan SSR, Amasiya rayonu, Balıqlı kəndi, mühasib.***

Dəvələr Cara gedər,
Yük tutar Cara gedər.
Yarı bivəfa çıxan
Üz tutub hara gedər?

***Cavadov Cavad Qurban oğlu, 1920, azərbaycanlı, Qax rayonu, aqronom.***

Qapıdan karvan gedər,
Yanıycan sarvan gedər.
Qara nərin üstündə
Sevdiyim oğlan gedər.

Əkərəm üzüm səni,
İstərəm üzüm səni.
Başım cəllad əlində,
Gözləyir gözüm səni.

Əzizim inci mənnən,
Dür mənnən, inci mənnən.
Mən dedim gəl dost olaq
Demədim inci mənnən.

Bakıdan gələn yoxdu,
Danışıb gülən yoxdu.
Dərdim tüğyan eleyir,
Göz yaşım silən yoxdu.

***Əliyev Səfər Qurban oğlu, 1910, azərbaycanlı, Bakı, Şüvəlan qəsəbəsi, fəhlə.***

Aşıq, işdəməgün nə?
Toyuq kişdəməgün nə?
Öpürsən xoşum gəlir,
Bəs bu dişdəməgün nə?

Əzizim sini-sini,
Doldur ver sini-sini.
Mənə öz yarım gərək,
Neynirəm özgəsini.

Şəkinin dağları var,
Meyvəli bağları var.
Əzrayıl dəymə buna,
Dalıycan ağları var.

Bu gələn İncəlimi?
Qazyanlı, İncəlimi?
Yar üçün ağlayanlar
Dayanıb dincəlimi?

***Sadıqov Ramiz, 1922, azərbaycanlı,***
***Nuxa (indiki Şəki) şəhəri, artist.***

Mən aşıq Aşqabada,
Yol gedər Aşqabada.
Aləm əcəlnən ölsə,
Biz getdik başqa bada.

Bir yaralı qoçam mən,
Haram var ki, qaçam mən,
Sinəm dəftər deyil ki,
Hər yetənə açam mən.

Qaraqumda mayam var,
Arvanam var, mayam var.
Yüz ilin arvadıyam,
Min gəlincən hayam var.

Süfrəmizə bal düşüb,
Dəymiş qalıb, kal düşüb,
Yarım küsüb gedibdi,
Ürəyimə xal düşüb.

Quzunu alan olmaz,
Ağıla salan olmaz.
Deyirlər yarım gəlir,
Bu boyda yalan olmaz.

***Məlikov Ziyad, 1880, azərbaycanlı,***
***Aşxabad şəhəri, müəllim.***

Qaramığı dərdilər,
Dalan üstə sərdilər.
O qızı mən deyirdim,
Dövlətliyə verdilər.

Qaradağdı elimiz,
Xəzəl oldu gülümüz.
Xana, bəyə iş gördük,
Əyri bitdi belimiz.

Yaylığın mili yansın,
Od tutsun mili yansın.
Səni mənnən eliyənin,
Ağzında dili yansın.

***İmanov Sərxoş Cavad oğlu, 1902, azərbaycanlı,***
***İranın Sərab şəhəri yaxınlığındakı Əsədli obası, kəndli.***

## *ƏFQANNAMƏ*

### I kitab[1]

**Kitabın içindəkilər:**

1. Din və etiqad haqqında
2. Sevgi haqqında
3. Ailə qurmaq haqqında
4. Dostluq haqqında.
5. Ata-anaya məhəbbət haqqında
6. Düzlük və əyrilik haqqında
7. İçki içmək haqqında
8. Papiros və nəşənin ziyanı haqqında
9. Zarafat haqqında
10. Oyunlar haqqında
11. Qadına yaxınlaşmaq üsulları haqqında
12. Qocalığın qarşısını almaq haqqında
13. Qonaq getmək və qonağı qəbul etmək haqqında
14. Hədiyyə haqqında
15. Var-dövlət toplamaq haqqında
16. Ev tikmək haqqında
17. Ağsaqqallıq etməyi bacarmaq üsulları haqqında
18. Övlad haqqında
19. İnanmaq və inanmamaq haqqında
20. Buraxılmış səhvi düzəltmək haqqında
21. Ədalət və insaf haqqında
22. Sadəlik haqqında

---

[1] Əlimizə yalnız bir kitab gəlib çatmışdır.

## Din və etiqad haqqında

Bir çox alimlərin dini zərərli hesab etmələrinə baxmayaraq dində faydalı cəhətlər çoxdur. Bunlardan ən əhəmiyyətlisi odur ki, dinə inanan adam özünü arxa-köməkli hesab edir, çətinliyə düşəndə Allaha, peyğəmbərlərə və sair müqəddəslərə müraciət edərək kömək alır, həyatının yaxşı keçəcəyinə ümid edir. Ümid – insan həyatında ən zəruri şeydir. Ümidsiz yaşamaq – diri ikən ölmək deməkdir. Dindar adam nəinki bu dünyada, hətta o dünyada da yaxşı dolanmaq məqsədilə daim xeyir əməllər edir.

Əksinə, dinsiz şəxslərin çətin gündə müraciət edə biləcəyi müqəddəs şey olmadığı üçün onlar ruhdan düşür, ümidsizliyə qapılır.

Etiqad (hər nəyə olursa, olsun) son dərəcə zəruri bir şeydir. Hər hansı bir şeyə sidq ilə etiqad bağlasan, ondan mətləb alarsan.

***Rəvayət.*** Şamaxı şəhərində bir nəfər şəxs bərk xəstələnir. Bütün həkimlərə müraciət edirsə də, bir çarəsi olmur. Bir gün həmin şəxs eşidir ki, həkim Mirzə Abbasqulu Səhhət xaricdən qayıdıb gəlib. Durub onun yanına gəlir. Mirzə Abbasqulu xəstəni müayinə edib görür ki, ciddi xəstəlikdir, əlacı olan deyil. Başdan eləmək üçün götürüb bir nüsxə yazır və kişiyə verir ki, aparıb dərmanxanadan alar və gündə üç dəfə içərsən.

Kişi sevincək gedib dərmanxanadan dərmanı alır, içir və on-on beş günə tamam sağalır.

Bir gün böyük məclislərin birində tənə ilə həkimlərə deyir:

– Siz də özünüzü həkim hesab edirsiniz, amma mənə bir əlac edə bilmədiniz. Mirzə Abbasqulu isə bircə dərman verib məni sağaltdı.

Həkimlər Mirzə Abbasqulunun yazdığı kağıza baxıb görürlər ki, Mirzə xəstəyə «Aqva destille» (təmizlənmiş su) veribmiş. Xəstə isə həkimə etiqad etdiyi üçün adi suyu içib sağalmışdır.

***Rəvayət.*** Urmiya şəhərində bir nəfər tacir yaşayırdı. Bunun övladı yox idi. Bir gün o, səfərə gedirdi. Yola düşəndə arvadına dedi:

– Bəsdir, daha dözə bilmirəm. Əgər mən gəlincə bir oğlan doğmasan, səni öldürəcəyəm.

Kişi gedəndən sonra arvad «Allaha pənah» deyib gözləməyə başladı. Ay keçdi, vaxt tamam oldu. Uzaqdan karvan göründü. Arvad gördü ki, əri gəlir. Qorxusundan əsə-əsə bir iri daşı yorğan-çaya büküb küncə qoydu. Kişinin qabağına çıxdı. Kişi arvadı görən kimi soruşdu:

– Arvad, oğlan doğdunmu?

Arvad, əsə-əsə başı ilə «hə» dedi. Tacir içəri girib tez yerdən bələyi qaldırdı və gördü ki, uşaq əlini ağzına soxub sorur.

Arvad Allaha etiqad bağladığı üçün Allah qara daşı döndərib onun üçün oğul etmişdi.

Ağıllı adam heç vaxt dindarların etiqadına toxunmamalıdır. Çünki etiqad – müqəddəs bir şeydir. Onu tənqid və ya təhqir etmək olmaz. Əksinə, həqiqətən etiqadı olan adama daim hörmət etmək lazımdır. Bu şərtlə ki, həmin şəxsin batini də zahiri kimi olmuş olsun. Atalar doğru deyir ki, «Yalançı abiddən doğruçu lotu yaxşıdır». Dindar şəxs başqa dinlərə və təriqətlərə hörmət etməlidir. Çünki bütün dinləri dünyaya göndərən Allahdır. Heç vaxt İslam dinini yəhudi, xristian, bütpərəst və s. dinlərindən üstün və ya aşağı hesab etmək olmaz. Kilsə, məbəd və ehram da məscid kimi Allahın evidir. Onlara bir nəzərlə baxmaq lazımdır.

***Rəvayət.*** Bir gün dörd  nəfər dindar şəxs yol ilə gedirdi. Gecəni çöldə qalası olurlar. Bunların birisi xaçpərəst, ikisi müsəlman, biri yəhudi idi. Gecə hərəsi bir səmtə çəkilib yatdı. Səhər bir şəhərə gəlib çıxdılar. Burada yaşayanlar yəhudi idi.

Günorta namazının vaxtı yetişdi. Yəhudi dedi:

– Gedək, bizim kilsəyə, orada ibadət edək.

Xaçpərəst və müsəlmanlar dedilər:

– Biz başqa dindən ola-ola yəhudi kilsəsinə gedib özümüzü murdarlaya bilmərik.

Yəhudi nə qədər dedisə də, buna qulaq asmadılar.

Gün gəlib axşam oldu. Gecə bərk yağış yağdıı, sonra külək qopdu. Bu kişilər soyuqdan əsə-əsə Allaha ibadət etdilər və bir-birinə qısılıb yatdılar.

Sabah açılanda ayılıb gördülər ki, dördü də bir yorğan-döşəkdə yatıb, özləri də yəhudi kilsəsinin içindədirlər.

Bunlar təəccüb etsələr də, dinmədilər, durub ibadətə başladılar. Dördü də üzünü Allaha tutub sual etdi ki, ey xudavəndi-kərim, bizi bu sirdən agah et!

O saat göy guruldadı, hər tərəf nura qərq oldu. Cənab Cəbrayıl nazil olub dedi:

– Ey mömin bəndələr! Allah-taalanın dərgahında dindar – dindardır, dinsiz – dinsizdir. İstəyir xaçpərəst ol, istəyir müsəlman, istəyir yəhudi ol, istəyir bütpərəst – təfavütü yoxdur. Bütün peyğəmbərləri də, bütün dinləri də Allah yaratmışdır. Əgər pis olsaydı, yaratmazdı.

Sizin keçən gün yəhudi kilsəsinə girməməyiniz dəlilikdir. Allah bunu sizə sübut etmək üçün bu gecə sizin hamınızı bir yerdə kilsəyə gətirdi.

Nəticə etibarilə belə demək olar ki, etiqad zəruri bir şeydir. O, inam, ümid, sevgi deməkdir. Etiqadlı adamların dostluğu da etibarlı olur, onlar hamıya inanır, saf olur, daim ümidlə yaşayırlar.

## Sevgi haqqında

Sevgi elə bir duyğudur ki, onun hər şeyə qadir olan qüvvəsini heç də hamı duya bilməz. Bu duyğu nə irsi deyil, nə səy etməklə, nə də tərbiyə nəticəsində qazanılmır.

Sevgi insan ömrünün qeyri-adi çırpınışları, beyinin ən yüksək dərəcədə fəallaşması deməkdir. İnsan, bu zaman başqa bir insanı özünə yaxınlaşdırmağa səy edir, onsuz dayana bilmir. Ancaq sevdiyinə yaxın olduqda sakit olur. Sevgi elə bir duyğudur ki, onun şirin və ya acı olduğunu başa düşmək olmur: əgər əvvəllərdə onun şirinliyini duyursansa, ağla, çünki tezliklə əzabını, acısını görəcəksən.

Sevgi duyğusu gənclərin də, yaşlı adamların da ürəyində baş verə bilər. Hətta yaşlı adamların sevgisi cavanlarınkına nisbətən daha etibarlı və daimi olur. Düzdür, onlar hər şeyə ehtiyatla yanaşır, ölçüb-biçdikdən sonra sevirlər. Lakin bu sevgini əbədi olaraq özləri ilə qəbrə aparırlar.

İnsanın yalnız bir dəfə sevə biləcəyini deyən şəxslər səhv edirlər. Yalnız sevgi duyğusundan məhrum olanlar belə fikir yürüdə bilərlər.

İnsan öz həyatında bir neçə dəfə sevə bilər və buna qadirdir. Axı məhəbbət, Bakı küləyi kimi bir şeydir, tez-tez öz səmtini və gücünü dəyişir. O, uzun müddət bir nöqtədə dayana bilmir. O, quş kimi azad olduğu üçün heç bir maneə və sərhəd tanımır.

Məhəbbət kardır.

Əgər insan sevirsə, o, ətrafdakıların onun və sevgilisinin haqqında nə danışdığını eşitmir.

Məhəbbət laldır.

Əgər insan sevirsə, o, sevgilisinin bütür əmr və təhqirlərinə qarşı söz deyə bilmir.

Məhəbbət kordur.

Əgər insan sevirsə, o, sevgilisinin heç bir nöqsanını görmür.

Məhəbbət dəlidir.

Əgər insan sevirsə, o, nə etdiyini bilmir, dəli kimi hərəkət edir.

Məhəbbət gələndə insana gənclik, zirəklik və sevinc gətirir, gedəndə isə sağalması mümkün olmayan dərin yaralar qoyub gedir.

Sevgi – bədənin qidasıdır, onsuz dolanmaq müşkül işdir. O şəxslər ki, sevməmiş yaşayır – onlar yaşamır, ancaq sevən insanlar üçün maneə törədirlər.

Sevginin növləri çoxdur. Ən əsasları isə bunlardır:

1. Cəzbedən məhəbbət (eşq), iki nəfərin bir-birini qərəzsiz olaraq sevməsi.
2. İlahi sevgi – insanın yalnız Allahı sevməsi.
3. Elmli adamı biliksizin sevməsi.
4. Dini və etiqadı olan şəxslərin sevgisi.
5. Dostluq sevgisi.
6. Yoldaşlıq və tanışlıq sevgisi.
7. Xeyirxahlıq cəhətindən olan sevgi.
8. Başqasının vəzifəsinə görə onu sevmək.
9. Bir sirri gizlətmək üçün iki nəfərin bir-birilə sevişməsi.
10. Heyvani duyğunu söndürmək üçün olan sevgi.
11. Övlad sevgisi.
12. Valideyn sevgisi.
13. Aludəçilik sevgisi (bu sevgi heyvanlara və cansızlara qarşı da olur. Məs.: atbaz, quşbaz, itbaz, kolleksiyaçılıq və s.)

Bütün bu sevgilər (birincidən başqa) mütləq bir səbəbə görə baş verir və həmin səbəb ləğv olduqda sevgi də yox olur. Məs.: İlahi sevgi – insan başqa birisinə aşiq olursa, bu sevgini unudur, dindən üz döndərirsə, həmçinin.

Sirr gizlətmək üçün olan sevgi – sirri gizlətməyə ehtiyac qalmayanda və ya sirr açılanda bu sevgi pozulur.

Övlad sevgisi – övlad pis çıxanda aradan qalxır.

Elmli adama olan sevgi – həmin şəxsin pis əməlini gördükdə və ya sevənin çoxlu bilik əldə etdiyi vaxt aradan qalxır.

Məhz buna görə də onların heç birisi cəzbedici (eşq) sevgiyə bərabər tutula bilməz. Bunların heç birində əsil sevgidə olan əlamətlər yoxdur.

Əsil sevginin əlamətləri, əsasən, bunlardır:

1. Sevgilinin yanına getməyə tələsmək.
2. Hər yerdə sevgilinin yanında olmaq həvəsi.
3. Sevgilinin yanından uzaqlaşmaq istəməmək.
4. Sevgilini qəfil görərkən qorxmaq.
5. Sevgilinin yanında özünü itirmək.
6. Sevgiliyə oxşar adam görəndə və ya onun adını eşidəndə diksinmək, qızarmaq.
7. Əvvəllər xəsislik edib vermədiyi şeyləri əliaçıqlıqla paylamaq.
8. Geniş yerlərdə də darısqallıq hiss etmək.
9. Sevgilinin yediyi qabdan yemək, paltarını geymək.
10. Sevgilini görəndə və ya adı çəkiləndə tikənin boğazda ilişib qalması.
11. Tənhalığa meyl etmək.
12. Yuxusuzluq.
13. Azarsız, ağrısız arıqlayıb saralmaq.
14. Tez-tez ah çəkmək.
15. Ağlamaq (səbəbsiz yerə).
16. Sevgilinin ailəsinə və dostlarına qədərindən artıq mehriban olmaq.

Əsil sevgi cəzbedicidir. Yəni, sevilən sevəni cəzb edib özünə yaxınlaşdırır. Bu, bir növ maqnitlə dəmiri xatırladır.

Maqnit dəmiri özünə cəzb edən kimi sevgililər də biri-digərini cəzb edirlər. Heç bir zaman dəmir aralıda dura bilmədiyi kimi, sevən şəxs də sevgilisindən aralı dura bilməz. Bu, elə belə də olmalıdır. Çünki maqnitin tərkibində dəmir var, dəmir də öz həmcinsini özünə cəzb edir. Sevgililərin də hər ikisinin ürəyində eşq var, bu da mütləq birləşməlidir.

Sevgi – insan üçün üzücü xəstəlikdir. Lakin onun dərmanı da özündədir. Bu xəstəlik çox şirin və arzu edilən bir şeydir. Bu xəstəliyə tutulan adam sağalmaq istəmir.

Sevgi elə bir duyğudur ki, ürəyində bu duyğu olan adam kəskin surətdə dəyişilir: xəsislər səxavətli, qaraqabaqlar gülərüzlü, qorxaqlar qəhrəman, kobudlar nəzakətli, ağılsızlar bilikli, pintilər təmizkar, qocalar cavan, həyalılar həyasız, abırlılar ləkəli olur.

Lakin bütün bunlar məhəbbətin alovu hər iki ürəkdə tutuşana kimi olur. Elə ki, bu alov yanğına çevrildi, iki sevgili dünyada özlərindən başqa heç kimi görmür.

***Rəvayət.*** Qarabağda Rəfi bəy adlı bir nəfər orta yaşlı şəxs yaşayırdı. Bir gün bu, ova çıxır, çox ləngidiyi üçün gecəyə düşür, evə qayıda bilməyib yaxın kəndlərdən birisinə gəlir və orada bir evdə qonaq qalır.

Axşam yeyib-içib yatırlar. Səhər tezdən yuxudan duranda Rəfi bəy həyətdə bir gözəl gəlin görür. Bu gəlin, ev yiyəsinin böyük gəlini Zübeydə imiş. Bunlar hər ikisi bir-birinə aşiq olurlar. Bir neçə gündən sonra Rəfi bəy təkrarən bura gəlir. Bu dəfə Zübeydə öz eşqini gizlədə bilmir. Hər ikisi evdəki adamları unudub söhbətlə məşğul olurlar.

Zübeydənin qaynatası çox ağıllı adam imiş. O, deyir:

– Heç işiniz olmasın. Bu, eşqdir. Özü də elə bir eşqdir ki, onların nəinki gözünü bağlayıb, hətta ağlını da çaşdırıb.

Kişi tez gəlini boşatdırıb Rəfi bəyə verir.

Sevgi elə bir şeydir ki, əgər o, həqiqidirsə, onu itirmək olmaz. Yəni, əgər bir nəfər həqiqətən səni sevirsə, səni ata bilməz.

O şey ki, həqiqətən sənindir, ondan məhrum ola bilməzsən. Yalnız sənin olmayan şeyi itirə bilərsən.

Əgər sevgilini itirmisənsə, demək, o, sənin deyilmiş. Əgər sən itkinin ağırlığını hiss etmirsənsə, demək, sənin heç nəyin olmayıb.

***Rəvayət.*** Şamaxı şəhərində usta Rza adlı bir şəxs var idi. Onun Məleykə adlı gözəl bir arvadı var idi. Onlar bir-birini çox sevirdilər. Bir gün Xəlil bəy Məleykəni görüb xoşladı və onu zorla qaçırdıb evinə apardı. Məleykə bütün əzab-əziyyətlərə dözüb Xəlil bəyə arvad olmadı. Daim qan-yaş tökdü.

Usta Rza isə arvadı qaçırılandan az sonra başqa bir qadınla evləndi.

Məlum oldu ki, Məleykənin sevgisi həqiqi, usta Rzanınkı süni imiş. Çünki usta Rza sevgilisini itirdikdə onun ağırlığını hiss etmədi.

Sevən insanların bir sıra xasiyyəti bir-birininkinə oxşamalıdır. Elə sevgililər ola bilməz ki, onların xasiyyətində az da olsa, oxşarlıq olmasın, oxşarlıq mütləq olmalıdır. Bu oxşarlıqlar artdıqca sevgililərin məhəbbəti də artır. Axı insanlar ancaq öz xasiyyətlərinə uyğun olan adamı daha çox sevirlər. Əgər sevgililərin xasiyyəti bir-birinə uyuşmasa, onlar tezliklə ayrılırlar.

***Rəvayət.*** Bir məclisdə pis xasiyyətli adamlardan söz düşdü. Hərə öz tanıdığı pis xasiyyətlilərdən danışdı. Loğman da bir nəfərin adını çəkdi.

– Ey Loğman, amma o şəxs səni çox sevir.

Loğmanın üzü bulud kimi tutuldu, çox bikef oldu.

Dedilər:

– Ey Loğman, niyə bikef oldun?

Dedi:

– Gör məndə necə pis xasiyyətlər var ki, elə bir adam məni sevir. Əgər yaxşı olsaydım, pis məni sevə bilməzdi. İnsan ancaq öz xasiyyətinə uyuşan adamı sevə bilər.

Bütün əsas sevgi təsvirlərində sevilənlərin gözəl olduğu göstərilir. Düzdür, gözəllik cəzbedicidir. Lakin əsil sevgi üçün nəinki şərt deyil, hətta lazım da deyil. İnsan üçün sevdiyi şəxs idbar da olsa, huri-mələk misalındadır. Məsəl var ki, «Sən Leyliyə Məcnunun gözü ilə bax».

Odur ki, çalışın ki, sevdiyiniz adamın zahiri görkəminə deyil, batininə aşiq olasınız.

***Rəvayət.*** Xorasan şahı Moabad Vis adlı bir gözələ aşiq olub, onu alıb evinə gətirmişdi. Visin Moabad padşahdan zəhləsi gedirdi. O, padşahın nəzərindən düşmək və onu özündən kənar etmək üçün ac-susuz qalıb arıqladı, əl-üzünü yumadı ki, çirkin görünsün, cırıq paltar geydi ki, dilənçiyə oxşasın, saçını daramadı, sarımsaq yedi ki, bədənindən pis iy gəlsin, özünü dəli kimi apardı.

Hamı Visdən üz döndərdi, amma Moabad padşah onu daha da artıq sevməyə başladı.

İşi belə görüb Visin dayəsi Visə dedi:

– Sən özünü bu pis kökə salmaqla ancaq camaatın nəzərindən düşürsən. Moabad isə səni sevdiyi üçün nə cür şəklə düşsən də, səndən üz döndərməyəcək, çünki onun eşqi həqiqidir, sənin zahirini deyil, batinini sevir.

***Rəvayət.*** Mahmud adlı bir dövlətli gənc var idi. Bu, gün-gündən saralıb-solmağa başladı. Anası soruşdu:

– Ay bala, sənin nə dərdin var ki, belə saralırsan?

Mahmud cavab verdi ki, bəs qonşu kənddə filankəsin bir qızı var. Ona aşiq olmuşam. Onun fikrini edirəm.

Anası bir-iki arvad götürüb həmin qıza elçi getdi. Qıza baxanda gördü ki, rəngi qapqara, üzü çil-çopur, gözü çəp, saçı-qaşı ütük, lökdodağın birisidir. Qayıdıb oğluna dedi:

– Ay bala, sən heç o qıza diqqətlə baxmısanmı?

Oğlan dedi:

– Bəli, ana, baxmışam. Dünyada o gözəllikdə qız ola bilməz.

Anası dedi:

– Ay oğul, axı onun üzü çopur, gözü çəp, saçı-qaşı yoluq, dodağı sallaq, rəngi zil qaradır.

Mahmud cavabında dedi:

– Ana, o şeyləri sən görürsən, mən görmürəm. Mənim üçün bütün gözəllər bir yanadır, o qız bir yana.

Sevginin əsas şərtlərindən biri onun qarşılıqlı olmasıdır. Yəni, hər iki sevgili bir-birini eyni dərəcədə sevməlidir. Belə olmasa, sevgi baş tutmaz.

Sevgi – iki qayanın arasına salınan körpü kimidir. Əgər qayanın biri çökər və ya uçarsa, o biri tərəfi də körpünü saxlaya bilməz.

***Rəvayət.*** Xosrov şah Məryəmi sevib almışdı. Lakin Şirini görəndən sonra ondan üz döndərib Şirini sevdi.

Məryəm də Xosrovun xəyanətini görüb onunla düşmən oldu.

Sevən şəxslər gərək kənar adamların onların barəsində dediyi sözə inanmasınlar. Çünki kənar adamlar həmişə sevən şəxslərin paxıllığını çəkir, onları bir-birindən ayırmağa

çalışırlar. Başqasının sözünə inanıb öz sevgilisindən inciyən və ya ondan üz döndərən şəxs – yalandan sevirmiş.

**Rəvayət.** Kərim adlı bir gənc ilə Dürdanə adlı bir qız bir-birini çox sevirdilər. Bir gün bunları gözü götürməyən bir şəxs gəlib Dürdanəyə dedi:

– Ay bədbəxt, Kərim səni aldadır. Sənin yanında sevgidən dəm vurur, amma filan şəhərdə bir gözəl arvad alıb. Bunu məndən başqa iki nəfər də bilir.

Dürdanə həmin iki nəfərdən də soruşdu. Onlar da həmin şəxsin dostu olduqlarına görə, onun dediyini təsdiq etdilər.

Dürdanə bunların dediyinə inandı. Öz-özünə dedi:

– İndi ki, Kərim mənə xəyanət edib, arvad alıb, gərək cəzasını çəksin.

Dürdanə həmin gün Kərimə xəbər göndərdi ki, gəlsin. Kərim gələn kimi onunla şirin söhbət edib bir piyalə şərbət içirtdi. Şərbətə zəhər qatıldığı üçün azacıq sonra Kərim yerə yıxıldı. Dürdanə onun başını qucağına alıb dedi:

– Ey sevgilim, sən mənə etibarsız çıxıb filan yerdə arvad aldığın üçün mən də sənə zəhər verdim.

Kərim ah çəkdi:

– Dürdanə, düşman evimizi yıxdı. O arvad ki, deyirlər, mənim doğmaca bacımdır.

Bunu deyib Kərim öldü. Dürdanə özgə sözünə inanıb öz əlilə sevgilisini öldürdü.

Həmişə çalışın ki, sevdiyiniz şəxslə özünüz danışın. Çünki aradüzəldən nə qədər yaxşı adam olsa da, yenə sizə ziyanı dəyə bilər. Məs.: sirrinizi başqalarına deyər, aranızı vurar, sizi rüsvay elər və s.

***Rəvayət.*** Dərbənd şəhərində yaşayan Rzaqulu adlı bir çoban öz ağasının qızını sevirdi. Bunların arasında bir nəfər

süpürgəçi arvad var idi. Bu arvad onları arabir görüşdürürdü. Oğlan və qız bu arvada xeyli pay verirdilər.

Ağaya xəbər verdilər ki, bəs Rzaqulu sənin qızınla görüşür, özü də bu işi süpürgəçi arvad bilir.

Ağa süpürgəçi arvadı çağırıb dedi:

– Sənə yüz qızıl versəm və bir söz soruşsam, onu mənə deyərsənmi?

Süpürgəçi arvad yüz qızılı görcək baş əyib dedi:

– Əlbəttə, deyərəm.

Ağa yüz qızılı ona verib dedi:

– Rzaqulu ilə qızım görüşəndə mənə göstər.

Arvad yüz qızıl alıb getdi. Sabahı günü Rzaqulu ilə qızı bir yerə salıb ağaya xəbər elədi.

Ağanın adamları gəlib Rzaqulunu öldürdülər.

Sevən şəxslər gərək bir-birinin təqsirindən keçsin, xırda günahları ötürsün, hər sözü üzə vurmasın, sevdiyinə güzəştə getsin. Məsəl var ki, «biri od olanda, o biri su olsun».

Bir sıra dastan, nağıl və bədii əsərlərdə yuxuda görməklə, bir dəfə baxmaqla, özgənin tərif etməsilə və s. iki nəfərin bir-birini sevməsi təsvir olunur. Bu, mümkün olan şey deyil. İnsan ancaq uzun müddət bir-birini görəndən, isinişəndən, xasiyyətinə bələd olandan sonra bir-birini sevə bilər.

Bir dəfə baxmaqla və ya eşitməklə yalnız gözəlliyə qarşı ani həvəs oyana bilər ki, bu da eşq yox, maraqdır. Tez oyandığı kimi, tez də yatır. Həqiqi məhəbbət gec yetişir, gec inkişaf edir, lakin hələ-hələ də pozulmur.

Məhəbbətin on mərhələsi var. Həqiqi aşiqlər mütləq onun hamısını keçməlidirlər: görmək, xəyala getmək, yuxusuzluq, arıqlamaq, natəmizlik, kütləşmək, həyanı itirmək, dəlilik, ürəkgetmə və ölüm.

Ən zəif bitkilər daş kimi bərk torpaqdan, qayaların yarğanlarından özlərinə yol açırlar, məhəbbət də belə olmalıdır. Nə pazın, çəkicin, nə də ucu dəmirli tirin gücü məhəbbətin gücü ilə müqayisə edilə bilməz.

Heç bir şey məhəbbətin qarşısında dayanmağa qadir deyil.

## Ailə qurmaq haqqında

Ailə – kişi ilə qadının könüllü surətdə daimi olaraq birgə yaşamaqlarına deyilir. Bu, dövlət tərəfindən, din tərəfindən və ya hər ikisi tərəfindən rəsmiləşdirilir.

Ailə qurmaq aşağıdakı səbəblərə görə vacibdir:

A) kişi üçün

1- öz ehtirasının maneəsiz və istədiyi vaxtda söndürülməsi üçün;

2- nəsil artımı üçün;

3- ev işlərini görə biləcək bir nəfərin olması üçün;

4- müəyyən çətin şərait olduqda onu saxlaya biləcək, dalınca gedəcək bir şəxsin olması üçün və s.

B) qadın üçün

1- öz ehtirasının maneəsiz və istədiyi vaxt söndürülməsi üçün;

2- nəsil artımı üçün;

3- adının təmiz qalması üçün;

4- onu daimi olaraq maddi cəhətdən təmin edə biləcək bir nəfərin olması üçün;

5- ev qurmaqda özünə yoldaş olmaq üçün və s.

Ailə qurmaq kişi və qadını pis yollardan çəkindirir, onların var-dövlət toplamaqlarına imkan yaradır, ömürlərini şən keçirməyə yardım edir və ilaxır. Lakin ailə quran zaman tələsmək olmaz. Bunu yüz dəfə ölçüb biçəndən sonra etmiş

olsan da, yenə də səhvin olacaq. Odur ki, hər şeyi diqqətlə yoxlamaq, götür-qoy etmək, dönə-dönə araşdırmaq, sonra ailə qurmaq lazımdır.

Ailə qurmamışdan qabaq bu şərtlərə əməl olunmalıdır:

1- Kişi və qadın bir-birini yaxından görməli, ağzından və bədənindən pis iy gəlib-gəlmədiyini yoxlamalı, bədənində yara və nöqsan olduğunu, xasiyyətlərini bilməlidir. (Hərçənd bu barədə «Quran»da yazılıb, amma heç kim əməl eləmir) .

2- Ailə quran şəxslərin arasında sevgi olmasa da, heç olmazsa, qarşılıqlı hörmət, ehtiram, pərdə olmalıdır.

3- Ailə quran kişi mütləq evləndiyi qadından yaşca böyük olmalıdır (azı 5-10 yaş). Ona görə ki:

a) qadın tez qocalır, kişi gec. Əgər qadın cavan olsa, kişinin gözü çöldə qalmaz;

b) kişi böyük olarsa, ailədə rəhbərlik edə bilər, əks halda onun heç bir mövqeyi olmaz.

Əgər bu şərtlərə əməl etmədən ailə qurulursa, o ailənin aqibəti iki cür olur: ya dağılır, ya da itlə pişik kimi boğuşa-boğuşa ömürlərini çürüdürlər.

***Rəvayət.*** Şamaxılı Mehdi bəy Ağsu kəndlərindən birisində qonaq ikən ev sahibinin qızına bənd olur və tələsik onu alıb evinə gətirir. Elə gəlinin pərdəsini götürüb yatmağa girəndə pis bir iy onu çaşdırır. Güc-bəla ilə sabahı açır. O gündən daha gəlinə yaxın getmir. Çünki gəlinin nəfəsindən pis iy gəlirmiş. Az müddətdən sonra ayrılmağa məcbur olurlar.

***Rəvayət.*** İrəvanlı Qasım kişi öz qızını qardaşı oğluna nişanlamışdı. Amma oğlanın bədəni zəif idi. Özündə bir kişilik başa düşmürdü. Utandığından bunu heç kimə, hətta nişanlısına da deməmişdi.

Toy oldu. Oğlan bir neçə gün müxtəlif bəhanələrlə qızdan uzaq gəzdisə də, mümkün olmadı, axırı sirri açıldı.

Qız dayanmayıb boşandı.

**Rəvayət.** Nəcəf adlı bir gənc oğlan səyahət zamanı özündən 10-12 yaş böyük olan çox gözəl bir dul qadına aşiq oldu və onunla evləndi. Aylar keçdi, illər ötdü. Qadın 50 yaşına yetişib qocaldı, Nəcəf isə 38-40 yaşlarında, əsil kişilik həddində idi. Qadın daha onu təmin etmirdi. Odur ki, yavaş-yavaş onların arasında söz-söhbət başlandı, axırı böyük narazılıqlara gəlib çıxdı – ailə dağıldı.

Evlənən zaman çalışmaq lazımdır ki, evlənənlər arasında inciklik olmasın. Adətən toyqabağı evlənənlər arasında elə incikliklər olur ki, bu incikliklər sonralar ailənin dağılmasına səbəb olur. Məsələn, qadının (və ya ailəsinin) kişiyə üz vurub xeyli qiymətli geyim və bəzək şeyləri aldırması, oğlan evinin (və ya özünün) qadına üz vurub bahalı cehiz istəməsi, toy və nişanın keçirilməsi günü və s. üstündə.

Çalışmaq lazımdır ki, elə birinci gündən etibarən ailədə səmimiyyət, doğruçuluq, hörmət olsun. Ən böyük bədbəxtlik bir-birini aldatmaqdır.

Ailənin aşağıdakı növləri var:

1- Sevgi əsasında qurulan ailə. Belə ailədə kişi və qadın ölənə qədər can deyib – can eşidir.

2- Qarşılıqlı hörmət əsasında qurulan ailə. Belə ailədə sevgi olmur. Lakin kişi və qadın bir-birinə hörmət edərək, pərdəli şəkildə yola gedirlər.

3- İsinişmək nəticəsində qurulan ailə. Belə ailədə sevgi və hörmət olmur. Uzun danışıqdan sonra kişi və qadın bir-birinə isinişir, birtəhər gün keçirirlər.

4- «Birtəhər dözmək lazımdır» deyə saxlanılan ailə. Belə ailədə nəinki sevgi və hörmət, hətta pərdə də olmur. Kişi və qadın daim bir-birini gicitkan kolu kimi dalayır, bəzən də it kimi boğuşurlar. Belə ailənin dağılmamağının səbəbi, adətən, uşaqların olması olur. Bu cür ailədə kişi (bəzən qadın da) tezliklə pis yola düşür. Belə ailədə kişi və qadın vaxtından qabaq qocalır, əsəb və ya ürək xəstəliyinə tutulurlar.

5- Müəyyən səbəblər əsasında qurulan ailə (qadının qohumlarına, dövlətinə, vəzifəsinə görə və s.). Belə ailədə kişi arvad mövqeyində olur, arvad isə kişi. Ailə qurmağa şərt olan yuxarıdakı səbəb yox olduqda ailədə narazılıq baş verir.

6- Heyvani duyğunu söndürmək üçün qurulan ailə. Bu ailədə kişi qadına yalnız arvad kimi baxır. Ona yoldaş yox, arvad lazımdır. Burada sevgi, hörmət və ya pərdə olmur və ola da bilməz. Belə ailələr ancaq qadının səbəbinə dağılmır.

Ailədə kişinin vəzifəsi bunlardır:

1- Qadının kişiyə olan ehtiyacını təmin etmək;

2- Qadını mümkün qədər yaxşı geyindirmək;

3- Ailənin iqtisadiyyatını təmin etmək;

4- Qadını başqalarının təhqir və hücumlarından qorumaq və s.

Ailədə qadının vəzifəsi bunlardır:

1- Kişinin qadına olan ehtiyacını ödəmək. Bu məqsədlə kişini məhz özünə cəlb etmək üçün yaxşı geyinmək, özünü gümrah saxlamaq, xəstəliyi mümkün qədər kişidən gizlətmək, kişini əyləndirmək və s.;

2- Kişinin yeməyinə diqqət yetirmək. Çünki kişinin ürəyinə gedən yol onun mədəsindən keçir;

3- Kişinin geyiminə fikir vermək;

4- Kişinin təmizliyinə nəzər yetirmək;

5- Kişini isti və soyuqdan qorumaq;

6- Ailənin iqtisadiyyatını düzgün planlaşdırmaq. Belə ki, kişini çıxılmız vəziyyətdə qoymamaq üçün daima evdən ehtiyatı üzməmək;

7- Kişi dəli-zırrama da olsa, ona hörmət etmək. Belə olmasa, kişiyə başqaları hörmət etməz.

8- Kişinin dostlarını gülər üzlə qarşılamaq. Düşmənləri ilə əlaqəni kəsmək.

## Dostluq haqqında

Dostluq – sevginin bir növü olub iki nəfər şəxsin bir-birilə can bir şəkildə mehriban dolanmasına deyilir. Dost, dostu üçün nəinki maldan, addan, hətta candan da keçməlidir. Məsəl var ki, «dost yolunda boran olar, qar olar».

Dostluq etmək ona görə lazımdır ki, sən ürək sözünü deyə biləcəyin bir adam olur. Şad və qəmgin vaxtında, işin darda olanda, hər hansı bir iş barəsində məsləhətləşmək istəyəndə – dost hamıdan artıq lazımdır. Məsəl var ki, «yaxşı dost qardaşdan irəli olar».

Dostluq arasında yaş, cins, məsafə rol oynaya bilməz. Yəni, qoca cavan ilə, kişi qadın ilə, ayrı-ayrı şəhərlərdə yaşayan şəxslər bir-biri ilə dost ola bilər. Adam var ki, o, həmişə sənin yanındadır – ancaq səndən uzaqdır. Amma dost lap dünyanın o başında da olsa – sənin yanındadır, çünki ürəyin onu istəyir. Görmək istəmədiyin, sənə lazım olmayan adam gözünün qabağında olur, amma sən onu görmürsən. Görmək istədiyin adamı illərlə görməsən də, elə bilirsən ki, gözünün önündədir.

***Rəvayət.*** Əlibala adlı bir şəxs uzun müddət Nuru adlı birisi ilə dostluq etdi. Sonra belə oldu ki, Nuru köçüb başqa

şəhərə getdi. Onlar uzaqdan-uzağa olsa da, bir-birini əvvəlki kimi sevir, dostluq edirdilər.

Bir gün Əlibala evdə oturmuşdu, həyətdən qonşusu onu səslədi:

– Ay Əlibala, gəl birlikdə çay içək.

Əlibala:

– Gəlirəm, – deyə ayağa dururdu ki, dostu Nuru yadına düşdü. Ayaq üstə dayanıb xəyalən Nuru ilə danışmağa başladı. Əvvəl ürəyində, sonra isə bərkdən danışırdı. Sən demə, qonşu gözləməkdən yorulub qapıya gəlibmiş, Əlibalanın öz-özünə danışmağını görüb dayanıb qulaq asırmış. Axır qonşu dözə bilməyib dedi:

– Əlibala, kiminlə söhbət edirsən?

Əlibala elə bil yuxudan ayıldı. Fikri dağıldı, dedi:

– Dostum Nuru ilə.

– Məgər sən Nurunu görürdün? – deyə qonşu təəccübləndi.

-Bəli, hətta səni gördüyümdən aydın görürdüm, - deyə Əlibala cavab verdi.

-Əlibala, adam da uzaqda yaşayan adamı görə bilərmi? – deyə qonşu soruşdu.

Əlibala ah çəkib dedi:

- Qonşu, dost dostun gözünün içində yaşayır. Gözünü açdınmı, onu görürsən.

Dostluğun ən əsas əlamətləri bunlardır. Bunların biri olmasa, ona dostluq demək olmaz:

1- Sirri dosta demək və dostun sirrini bilmək.

2- Dosta, mümkün olan hədiyyələri vermək və ondan hədiyyə qəbul etmək.

3- Dostu tez-tez qonaq etmək və onun evinə qonaq getmək.

Dostluğun növləri çoxdur. Ən əsasları isə aşağıdakılardır:

1- Uşaqlıq dostluğu.

Uşaq vaxtı bir yerdə oynayanda, məktəbdə oxuyanda və s. vaxtda isinişmək nəticəsində yaranır. Adətən, sonralar bu dostluq pozulur. Ancaq dostlar görüşəndə keçmiş günləri xatırlayır, səmimi ayrılırlar.

Bu növ dostluq ona görə möhkəm olmur ki, adam uşaq vaxtı öz dostunun xasiyyətinin necə olacağını bilmir.

2- Vəzifə dostluğu.

Bəzi adamlar yüksək vəzifəli şəxslərlə dostluq etməyə çalışır, başqa sözlə desək, «qabıqdan çıxırlar». Bu – ən adi yaltaqlıq nümunəsidir. Çünki vəzifəli şəxs o vəzifədən çıxandan sonra bu dostluq pozulur, bəzən lap düşmənçiliyə çevrilir.

***Rəvayət.*** Maku xanı Rəsul xanın bir mirzəsi var idi. Adına Vəli mirzə deyirdilər. Vəli mirzə özünü oda-közə vurub xana yarımağa çalışır, hər yerdə yerli-yersiz onu tərifləyir, gücü çatan hədiyyələr verirdi. Əsil məqsədi isə xana yavuq olub ondan istifadə etmək idi. Bir müddətdən sonra o, öz istəyinə nail oldu. Xan inanıb, ölkəni idarə etməyi ona tapşırdı. Vəli mirzə istədiyini elədi: xalqı o ki var, incitdi. Axırda ölkədə üsyan oldu. Rəsul xanı taxtdan salıb yerinə başqa xan qoydular.

Vəli mirzə yenə əvvəlki qulluğunda qaldı. Amma o, Rəsul xanla nəinki dostluq etmədi, əksinə, təzə xana pıçıldadı ki, Rəsul xanı öldürməsən, gec-tez səni taxtdan salacaq.

Təzə xan da ona inanıb Rəsul xanı öldürtdürdü.

Bu da vəzifə dostluğunun nəticəsi.

3- Ehtiyac dostluğu.

Bu dostluq bir nəfərə olan ehtiyaca görə baş verir və həmin ehtiyacı təmin etmək mümkün olmayanda pozulur. (Məsələn, varlı adamdan pul, yemək, geymək almaq üçün, qüvvətli

adamdan davada, işdə istifadə etmək üçün, elmli adamdan bilik öyrənmək üçün və s.)

4- Yaxşı günün dostluğu.

Bu dostluq yaxşı yeyib-içən adamların arasında olur və elə ki, dostun birinin əli aşağı düşdü, daha bu dostluq pozulur.

«Yaxşı gündə yeyib, geyib, içərlər,
Səni özlərinə böyük seçərlər,
Yaman gündə salam verməz, keçərlər,
Aldanma, yazıqsan, biçarə könlüm».

5- Sirri saxlamaq üçün olan dostluq.

İki nəfər birlikdə etdiyi bir işi, sirri gizlətmək üçün bir-birilə mehriban dolanmağa çalışır və nəticədə arada müəyyən dostluq əmələ gəlir.

Adətən bu dostluq sirr açılanda və ya sirri gizlətməyə ehtiyac olmayanda pozulur.

6- Əqidə dostluğu.

Bir əqidədə olan (elmi, dini, əxlaqi və s.) adamların arasında olur. Bu dostluq uzun müddət davam edir, lakin belə dostların arasında istək olmur.

7- Çətin günün dostluğu.

Bu dostluq o zaman yaranır ki, hər iki adam çətinlikdə olanda dostlaşır və ya sən çətinlikdə olanda birisi səni xilas edir, onunla dostlaşırsan.

Bu dostluq hələ-hələ ələ düşmür və əgər mümkün olursa, belə dostluğu göz bəbəyi kimi qorumaq lazımdır.

Əgər bir nəfərlə dostluq etmək istəyirsənsə, bu şərtlərə əməl etməlisən:

1- Gərək sənin xasiyyətinlə dostunun xasiyyəti bir-birini tutsun. Xasiyyətiniz tutmazsa, gec-tez ayrılarsınız.

2- Dostluq etdiyiniz adamı həqiqi məhəbbətlə sevməlisən, çünki sevgisiz dostluq ola bilməz. Sevgisiz dostluq palçıqsız hörülmüş divar kimidir, silkələnib-silkələnib uçar.

3- Dostuna qarşı əliaçıq olmalısan. Çünki insanın ürəyinə gedən yol mədədən keçir.

4- Dostluq qarşılıqlı olmalıdır. Əgər dostun sənə qarşı sənin kimi olmazsa, bundan bir şey çıxmaz. Çünki şoran torpaqda əkin əkən həm toxumu, həm də məhsulu itirir.

5- Dostun evinə müntəzəm olaraq getməli və onu da öz evinə gətirməlisən.

6- Dostunun evində tez-tez yeyib-içməli və onu da tez-tez yedirtməlisən.

7- Çətin günündə, bir dərdin olanda onu ancaq dostuna deməlisən. Eləcə də dostun çətin günündə ona yaxın olmalısan.

8- Çalışmalısan ki, dostun: səndən ağıllı olsun, çünki gərək olanda sənə məsləhət verə bilər; səndən varlı olsun, çünki gərək olanda sənə əl tuta bilər; səndən igid olsun, çünki lazım olanda səni müdafiə edə bilər; səndən gözəl olsun, çünki başqalarının yanında utanmayasan.

9- Dostunun buraxdığı səhvi gərək ötürəsən, güzəştə gedəsən. Əgər dostun biri o birinin nöqsanını güzəşt etməsə, ən möhkəm dostluq belə pozular.

10- Dostluqda çalış ki, haqq-hesab söhbəti olmasın. Olsa da, tamahını az elə, payın çoxunu dosta ver, azını özün götür.

11- Dostunla çox zarafat etmə. Unutma ki, zarafat dostluğun qayçısıdır.

12- Dostunu həmişə gülər üzlə qarşıla. Unutma ki, üz – ürəyin güzgüsüdür.

13- Çalış ki, həmişə dostun səni yaxşı paltarda görsün. Çünki bəzəklə sən özünü gözəl və yaraşıqlı edirsən. Bu – həm sənin ömrünü uzadar, həm də dostunu sevindirər.

14- Çalış ki, dostun sənin ailənin də dostu olsun.

Dost – oxuduğun, öyrəndiyin vaxt – müəllim, dərdini, sirrini demək istəyəndə – ürək, arzularını yerinə yetirmək üçün – nökər, təhlükəli vaxtlarda – etibarlı qalaça, xəstələnib

yatağa düşəndə – həkim, dar günə düşəndə – köməkçi, əlin aşağı olanda – xəzinə, göz yaşın axanda – dəsmaldır.

***Rəvayət***. Bir padşahın Firuz adlı bir sərkərdəsi var idi. Padşah onunla bərk dost idi. Bir gün bu ölkəyə düşmən hücum etdi. Vuruşmada Firuz öldürüldü, xeyli ərazi əldən getdi. Padşah çox fikir eləyirdi. Vəzir soruşdu:

– Ey şah, de görüm, nəyin fikrini edirsən, əldən gedən torpaqlarınmı, yoxsa Firuzunmu?

Şah dedi:

– Əldən getmiş torpaqları geri qaytarmaq olar, əldən getmiş dostu isə yox.

Dünyada ən böyük bədbəxtçilik dostun düşmən olmasıdır. Çalış ki, ölənə qədər dostunla dost olasan. Əgər dostun sənə düşmən olsa, ölməyin vacibdir.

Nəinki insanlar, hətta heyvanlar və quşlar da insana isinişir, onunla bir növ «dost» olur və bu dostluq uğrunda candan da keçirlər.

***Rəvayət.*** Bir nəfərin Alabaş adlı bir iti var idi. Kişi iti çox istəyirdi. Zaman keçdi, it qocalıb əldən düşdü. Kişi bir neçə dəfə onu aparıb azdırdısa da, it yenə qayıdıb gəldi. Axırda kişi iti qayığa mindirib gölün ortasına apardı, onun boynuna bir iri daş bağlayıb suya atdı. Təsadüfən, daş itin boynundan açıldı və it üzə-üzə qayığın dalınca getməyə başladı. Kişi əlindəki avarı qaldırıb itin başına vurdu ki, ölsün. İtin başı yarıldı, amma kişi də qayıqdan suya yıxıldı. O, üzmək bilmədiyi üçün suya batdı. İt öz yarasını unudub sahibini sudan çıxartdı və çəkə-çəkə qırağa gətirdi.

Bundan sonra kişi başa düşdü ki, gərək illər boyu bir yerdə qaldığı, çörək verib saxladığı, onu daima qoruyan itini azdırmayaydı.

***Rəvayət.*** Bir xan qızılquşunu götürüb ova çıxmışdı. Yayın günü xeyli gəzib-dolaşdıqdan sonra susuzluqdan az qala ürəyi partlayacaqdı. Bir də gördü ki, altında durduğu qayadan damcı-damcı su axır. Ovcunu tutub həmin damcıdan bir qədər yığdı ki, içsin. Qızılquş gəlib qanadını bunun ovcuna toxundurdu, su dağıldı. Xan susuzluqdan yana-yana ikinci dəfə ovcunu damcının altına tutdu, quş yenə dağıtdı. Üçüncü dəfə xan yenə ovcunu tutdu, daha damcı tək-tək gəlirdi. Bu dəfə də quş özünü xanın ovcunun üstünə çırpıb suyu dağıtdı. Xan hirsləndi:

– Namərd quş, sən məni susuzluqdan öldürmək istəyirsən, – deyib quşu tutdu və öldürüb kənara atdı.

Damcı tamam kəsilmişdi. Xan düşündü ki, su hardansa yuxarıdan gəlir, çıxım ora baxım. O, dağın başına çıxıb gördü ki, qayanın üstündə bir yekə zəhərli ilan ölüb, aşağı damcılayan onun yağı və zəhəri imiş.

Quş bunu gördüyü üçün damcıları içməyə qoymurmuş.

Vəfalı quş öz dostunun yolunda canını verdi.

Xan peşman oldusa da, dostu qızılquş əlindən getmişdi.

***Rəvayət.*** Qaçaq Mehdinin bir atı var idi. Neçə illər idi ki, onun yanından ayrılmırdı. Atla çox mehriban dolanırdı.

Bir gün yatmış halda Mehdini tutdular və əl-qolunu yanına salıb başdan-ayağa sarıdılar. Atı da, Mehdini də götürüb bir kəndin yanında dayandılar. Atı bir ağaca bağladılar. Mehdini bir səmtə atıb, özləri yıxılıb yatdılar.

Sabahüzü Mehdi hamının yatdığını görüb astadan atını səslədi. At onun səsini eşitcək ipə güc vurdu, dartınıb noxtanı qırdı, Mehdinin yanına gəldi. Bir xeyli gözlədi ki, bəlkə Mehdi durub onu minər, gördü ki, Mehdinin hərəkəti yoxdur, ancaq astadan onu oxşayır.

At birdən Mehdinin bədəninə sarınmış kəndirləri gördü, dişlərini kəndirə ilişdirib Mehdini yerdən qaldırdı və birbaş dağlara tərəf götürüldü. At azı bir-iki saat sürətlə qaçandan sonra Mehdini yoldaşlarına çatdırdı.

At öz ağasını – dostunu ölümdən xilas etdi.

***Rəvayət.*** Qurban adlı bir şəxsin evində bir boz pişik yaşayırdı. Pişik həmişə Qurbanın ayağının alt tərəfində yatardı.

Bir gecə Qurban oyaq idi; gördü ki, pişik nə isə bərk narahatdır, arabir qəribə şəkildə mırıldanır. Bir azdan onu yuxu tutdu, azacıq sonra isə bərk gurpa-gurp səsinə yenidən ayıldı. İşığı yandırıb gördü ki, bir az aralıda yatmış oğlunun ayağına bir ilan dolaşıb, boz pişik də ilanın boynundan yapışıb öldürür.

Beləliklə, pişik dostu insanın oğlunu ölümdən xilas etdi.

Dostluğu həmişə göz bəbəyi kimi qoru. Çünki dostu on ilə də qazanmaq çətindir, amma onu onca dəqiqə ərzində itirmək olar.

## Ata-anaya münasibət haqqında

Ata-ana insanın yaradıcısı, onun necə deyərlər, kiçik Allahıdır. Hər bir şəxs öz ata-anasına ömrü boyu minnətdar olmalı, onların nazını çəkməli, qayğısına qalmalıdır. Axı ata-ana insanı bir parça ət ikən əmizdirir, yedirir, geydirir, iməkləyərkən qoruyub gözləyir, yerimək, danışmaq öyrədir, oxudur, sənət verir.

Məlumdur ki, ata-ana istəsə, hər hansı bir uşaq doğulan kimi ölər. Deməli, səni saxlayan, ölməyə qoymayan onlardır. Ana səni doqquz ay qarnında gəzdirib qanı ilə bəsləyir, doğulandan sonra bir-iki il südü ilə bəsləyir, sənə ən dadlı şeyləri yedirir, gecələri yuxusuz qalıb laylay çalır, sən hər «uf» deyəndə «can» deyir.

Ata daima səni yedirib-geydirmək üçün qan-tər içində işləyir, səni yaxşı yedirtmək, tox saxlamaq üçün çalışır, səni birisi döyəndə dava eləyir, sənin üçün ev tikir, dövlət yığır, səni evləndirir.

Ata-ana səni azı 18-20 il saxlayır. Sən onların bu zəhmətinin haqqından necə çıxa bilərsən? Unutma ki, ağaclar körpəlikdə onlara su verib bəsləyən adamları unutmur, ömürlərinin axırına kimi həmin adamlar üçün öz budaqlarında dadlı meyvələr yetirir və bununla da, onların zəhmətinin haqqını qaytarmağa çalışırlar.

Ata-ananın boynumuzdakı haqqını yalnız o zaman qaytara bilərik ki,

1- Heç bir zaman onların üzünə ağ olmayaq.

2- Əlimiz iş tutandan başlayaraq bacardığımız qədər onlara yardım edək.

3- Onların əli işdən qalan kimi, imkan daxilində onları heç bir iş görməyə qoymayaq.

4- Daima onların qayğısına qalaq, yaxşı yedirib-geydirək, hər nazlarını çəkək.

***Rəvayət.*** Bir gün bir nəfər usta şəhərə çıxıb iş axtarırdı. İşi olan adam ustaya yaxınlaşıb qiymət soruşanda usta dedi:

– Mənə hər axşam beş çörək verərsən.

Kişi bir söz deməyib razılaşdı. Usta hər gün işini görür, axşam isə beş çörəyi alıb evinə gedirdi.

Bir gün iş sahibi soruşdu:

– Ay usta, sən bu çörəkləri neynirsən?

Usta dedi:

– Çörəyin ikisini borcuma verirəm, ikisini borc verirəm, birini də arvad yeyir.

İş sahibi dedi:

– Ay kişi, bu nə deməkdir?

Usta cavab verdi:

– Çörəyin ikisini atamla anama verirəm, çünki ömrüm olduqca onlara borcluyam, borcuma verirəm, ikisini uşaqlarıma borc verirəm ki, vaxtında mən qocalan zaman mənə çörək versinlər. Birini də ki, arvadım yeyir.

Şair Cəfər Cabbarlı yazır:

«Ana! Bu adın qarşısında bir qul tək
Həmişə səcdədə olmaq mənə fəxarətdir,
Onun əlilə bəla bəhrinə yuvarlansam,
Yenə xəyal edərəm bəzmi-istirahətdir.

Ata-ana o dərəcədə qiymətlidir ki, onların qiymətini heç nə ilə ölçmək olmaz.

«Ana, can ana, qurbanam sana,
Dünya bir yanadır, sən də bir yana».

***Rəvayət.*** Şirvan mahalında Kazım adlı bir şəxs yaşayırdı. Bunun atası çoxdandı ki, xəstə yatırdı. Kazım nə qədər həkim-tüğcar gətirmişdisə də, mümkün olmamışdı. Yenə bir gün Kazım şəhərə getmişdi. Bazarda bir falçı gördü. Fala baxdırdı ki, görüm dədəmin əlacı nədir?

Falçı fal açıb dedi:

– Sənin atan ancaq o zaman sağalacaq ki, sən öz oğlunu kəsib ürəyini atana yedirdəsən.

Kazım bunu eşitcək evə qayıtdı. Fikir elədi ki, oğul məndən törənir, bunu kəsərəm, yenə biri törənər, amma ata təzədən törənə bilməz. Yüz oğul bir ata-anaya qurban olsun.

Bunu deyib oğlunu kəsdi və ürəyini bişirib atasına yedirtdi.

***Rəvayət.*** Mahmud adlı bir kişini adam öldürdüyü üçün tutub güllələnmə kəsdilər. Sabahı gün güllələyəcəkdilər. Bu-

nun Sara adlı bir qızı var idi. Qız olduqca gözəl idi və atasını çox istəyirdi.

Qız atasının saxlandığı yerə gəlib qapıçıya yaxınlaşdı və dedi:

– Al mənim qızıllarımı, atamı burax, qaçıb getsin.

Qapıçı dedi:

– Mənə qızıl gərək deyil. Əgər özün bu gecə mənimlə yatsan, atanı buraxaram.

Sara çox dedi, qarovulçu razı olmadı. Axır qız razı oldu. Qarovulçu qapını açıb kişini buraxdı.

Mahmud kişi uzaqlaşandan sonra Sara dedi:

– Hə, indi məni öldür, de ki, atasını qaçırdanda vurdum, amma sən deyənə razı deyiləm.

Qapıçı çox yalvardı, Sara razı olmadı. Axırda qapıçı vurub onu öldürdü.

***Rəvayət.*** Yəmən ölkəsində Teyyibə adlı bir qadın yaşayırdı. Bir gecə bunun atası, əri və oğlu padşahın xəzinəsini yarıb, neçə adamını öldürüb qaçanda tutulmuşdular. Şah əmr elədi ki, sabah onların üçünü də meydanda boğazından asın.

Teyyibə bir gecə-gündüzdə o qədər ağladı, döyündü, fikir elədi ki, sabaha kimi başı ağardı, beli büküldü, gözləri tutuldu. Sabahı gün meydan sulandı, bütün şəhər əhalisi toplaşdı, dar ağacları quruldu, şah qırmızı geyib taxta çıxdı, cinayətkarları gətirdilər.

Teyyibə onları görcək elə bir qiyyə çəkdi ki, meydandakı adamın hamısı ağlaşdı, şaha minnət elədilər ki, bu arvada rəhmin gəlsin. Şah Teyyibəni yanına çağırdı, baxıb gördü ki, bir-iki gündə bu arvad elə dəyişilib ki, tanımaq mümkün deyil. Ona rəhmi gəlib dedi:

– Ey Teyyibə, sən ki, bu qədər sızıldayırsan, bu üç nəfərin birini sənə bağışlayıram. Birini seç, götür, amma ikisini asdıracağam.

Teyyibə şahın ayağına yıxılıb təşəkkür edəndən sonra cinayətkarlara yaxınlaşdı. Əvvəl oğluna baxdı, neçə illər əziyyətini çəkmiş, böyüdüb boya-başa çatdırmış, təzəcə nişanlamışdı. Sonra ərinə baxdı. İyirmi il idi ki, can bir qəlbdə onunla yaşayırdı, bir-birini ürəkdən sevirdilər. Sonra da atasına baxdı. Axı bu ata idi, kiçik Allah idi, bunun qiyməti varmı? Nə qədər pis, oğru, dələduz, nanəcib də olsa, yenə də atadır. İllər boyu zəhmətini çəkib.

Teyyibə yavaşca atasının əlindən tutub dedi:

– Ey şah, atamı mənə ver.

Şah razı oldu, kişini açıb Teyyibəyə verdilər. Lakin xalq içində səs-küy qalxdı. Dindarlar deyirdi:

– Arvad gərək ərini istəyəydi. Yəqin o, fahişədir, başqa gözaltısı varmış.

Qadınlar deyirdi:

– O necə anadır ki, övladını istəmədi.

Səs-küy gücləndi. İşi belə görüb şah üzünü Teyyibəyə tutub soruşdu:

– Ey Teyyibə, bizə de görək, sən nə üçün ərini, oğlunu yox, atanı istədin? Məgər onları istəmirsən?

Teyyibə dedi:

– Ey şah, mən ərimi çox sevirəm. Lakin başqa ərə gedə bilərəm. Bu ərim kimi ola bilməsə də, hər halda ərim olar. Oğlumu da çox sevirəm. Lakin ərə getsəm, oğlum da ola bilər. Amma atanı mən haradan tapa bilərəm? Buna görə də atamı götürürəm.

Şah dedi:

– Ey Teyyibə! Sən ki, bu düşüncənin sahibisən, ərini və oğlunu da sənə bağışlayıram.

Ata-anaya hörmət edənlər həmişə xoşbəxt olur, işləri düz gətirir, övladları onlara hörmət edir.

O şəxs ki, ata-anaya pis baxa, onların üzünə ağ ola, onun nə bu dünyada, nə də o dünyada xoş günü olmayacaq:

1- Daima işi tərs gətirəcək.
2- Övladı üzünə ağ olacaq.
3- Əvvəl-axır çörək üzünə həsrət qalacaq.
4- O dünyada cəhənnəm odunda yanacaq.

***Rəvayət.*** Rizvan adlı bir kişi var idi. Nə qədər ki, kasıb idi, ata-anasına çox yaxşı baxır və işi də yaxşı gedirdi. Get-gedə dövlətləndi, daha ata-anaya əvvəlki kimi baxmadı, qocaları ayda bir dəfə də görmədi, əməlli yemək-içmək vermədi. Rizvanın işləri günü-gündən tərs gətirdi, dövləti heçə-puça çıxdı.

Bir gün namaz üstündə Allahdan soruşdu:

– Ey Xudavəndi-Kərim, niyə mənim işlərim tərs gətirir?

Qeybdən nida gəldi ki «ey Rizvan, and olsun qüdrətimə, mənə kəm baxsaydın, sənə o qədər qəzəbim tutmazdı. Amma ata-anana pis baxdığın üçün ömrün boyu işin tərs gətirəcək».

***Rəvayət.*** Bir nəfər şəxs qocalıb əldən düşmüşdü. Oğlu gördü ki, daha bunu evdə saxlamağın mənası yoxdur. Atasını dalına alıb dağa apardı, bir iri daşın yanında qoydu.

Atası soruşdu:

– Ay oğul, məni bura niyə gətirdin?

Oğlu dedi:

– Haçanacan səni yedirib-geydirəcəyəm. Daha yaşadığın bəsdir. Burada qalıb ölərsən.

Atası güldü.

Oğul soruşdu:

– Ay ata, niyə güldün?

Ata cavab verdi ki, doğru deyiblərmiş «hər kim ata-anasına nə cür baxsa, övladı da ona elə baxar». Oğul, vaxtilə mən öz atamı gətirib həmin daşın yanına qoymuşdum. İndi sən də məni düz buraya gətirdin. Yəqin ki, sənin də oğlun səni bura gətirəcək. Ona görə güldüm.

Oğlan tutduğu əməldən peşiman olub, atasını evə qaytardı və ona o ki var hörmət elədi.

***Rəvayət.*** Qədim adlı bir nəfər qoca anasına çox zülm edirdi. Bir gecə o, yuxu gördü. Gördü ki, ölüb, o dünyadadır. Bunu Allahın qabağına çəkdilər. Allah-taala sual elədi:

– Ey Qədim, günahlarını bir-bir söylə.

Qədim başladı saymağa: oğurluq, söyüş, pis əməl, qəlb sındırmaq və ilaxır.

Allah-taala dedi:

– Ey bədbəxt, niyə ən böyük günahını demirsən? Onun yanında bu saydıqların heçdir.

Qədim əsə-əsə soruşdu:

– Sənə fəda olum, mən nə günahın sahibiyəm?

Allah-taala dedi:

– Sən öz anana zulm etmisən. Ona görə də səni cəhənnəm odunda yandıracağam.

Mələklər Qədimi götürüb bir yerə atdılar, hamı od tutub yanırdı. Qədim baxıb gördü ki, tanıdığı adamlardan bir neçəsi buradadır. Soruşdu ki, bura haradır?

Dedilər:

– Bura cəhənnəmin ən pis yeridir. Burada ata-anasını incidənləri yandırırlar.

Elə bu yerdə Qədim hövlnak yuxudan ayıldı və o gündən anasını hörmət-izzətlə saxladı.

## Düzlük və əyrilik haqqında

Dünyada düzlükdən yaxşı əməl ola bilməz. Düzlük – ən böyük nemətdir, düzə heç bir yerdə ölüm yoxdur. Yalan ayaq tutsa da, yeriməz, həqiqət min il torpaq altında qalsa da, yenə bərqərar olar.

Çalış ki, hələ uşaqlıqdan özünü düzgünlüyə öyrəşdirəsən. Məsəl var ki, «paltarı təzə ikən, adını cavan ikən qoru». Qocalıqda müctəhid də olsan, cavanlıqda əyri olmusansa, sənin müctəhidliyin bir qəpiyə dəyməz.

Düzlük və yaxşılıq nədən ibarətdir:

1- Özün çətinlikdə olsan da, çətinliyə düşənlərə kömək et. Çünki səndəl ağacı parça-parça olanda da, öz ətrini başqalarına verir.

2- Ömründə heç zaman, heç kimə yalan demə. Çünki məsəl var «yalançı dünyanın o başına gedər, amma dala qayıda bilməz, çünki qayıdınca yalanının üstü açılacaq».

3- Heç bir zaman, heç kimə and içmə. Çünki and yalanı doğrultmaq üçündür.

4- Heç bir zaman tutquçuluq eləmə. Çünki o dünyada da olsa, onu səndən alacaqlar.

5- Böhtan demə. Allah-taala böhtanı bağışlamır.

6- Mərdüməzarlıq etmə. Şair deyir ki,

«Mey mixor, minbər besuzi, mərdüməzari məkon».

«Çaxır iç, minbəri yandır, mərdüməzarlıq etmə».

7- Qəlb sındırma. Çünki bundan böyük günah ola bilməz.

8- Çalış ki, səni öz əməlinə görə tanısınlar. Çünki yaxşı adamları öz adına, miyanə adamları atasının adına, aşağı adamları əmi-dayısının adına, alçaq adamları qaynatasının adına görə tanıyırlar.

9- Çalış ki, hər şeyi olduğu kimi görə biləsən. Çünki yaxşı adamlar ancaq yaxşı şeyi, pis adamlar ancaq pis şeyi görür. Təkcə qərəzsiz adamlar pisi pis, yaxşını yaxşı görürlər.

10- Pis adamların cəmiyyətində oturub-durma, çünki orada yaxşı şey görə bilməzsən.

11- Verdiyin vədi mütləq yerinə yetir. Vədə xilaf çıxmaq nanəciblik əlamətidir.

12- Həmişə, hər yerdə, hamını sevməyə çalış. Çünki hamını sevsən, hamı da səni sevər.

13- Həmişə özünü sakit və təmkinli apar. Çünki ancaq pis əməl sahibləri etdikləri pisliyə görə narahat olar və çığır-bağır salarlar.

14- Çalış ki, təkcə özün üçün yox, cəmiyyət üçün yaşayasan. Çünki çaylar insanlara su, ağaclar – meyvə, heyvanat – ət və süd vermək üçün yaşayırlar.

15- Hamını özünə qohum-qardaş bil. Bütün insanlar sənə dost və qardaşdır.

16- Güclü adamlarla (qüdrətli) düşmənçilik etmə. Çünki gücün çatmayan daşa güc vursan da, mənası yoxdur.

17- Bütöv bir xalqla, çox adamla mübahisə etmə. Çünki özünü gülünc vəziyyətə qoyarsan.

18- Darda olan adamları xilas et. Çünki bir nəfəri dardan xilas etmək, yüz dəfə ehsan verməyə, yüz qurban kəsməyə, yüz dəfə ziyarətə getməyə bərabərdir.

19- Ata-anana, həmçinin bütün özündən böyüklərə hörmət et. Hörmət – hörmət gətirər.

20- Çalış ki, hamı ilə şirin rəftar edəsən. Acılıq – acılıq gətirər. Çünki acı ağacı bal ilə sulasan da, onun meyvəsi acı olar.

21- Hamıya, hətta sənə pislik edənlərə də, yaxşılıq elə. Çünki «yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq mərd kişinin işidir».

22- Üzdə bir, batində qeyri olma. Necəsənsə, özünü elə göstər.

23- Tamahkar olma. Çünki «artıq tamah baş yarar» deyiblər.

24- Pis yoldan uzaqlaş. Zərərin yarısından qayıtsan da, xeyirdir.

25- Hər yerdə özünə dost tap. «Yüz manat pulun olunca, yüz dostun olsa, yaxşıdır» deyiblər.

***Rəvayət.*** Şuşada Məşədi Rza adlı bir tacir var idi. Bir gün bir nəfər kəndli gəlib bundan xeyli şey-şüy alır. Kəndli gedəndən sonra Məşədi Rza hesab edib görür ki, kişinin iki şahı pulu bunda qalıb. Cəld dükanı bağlayır. Soraqlaşıb kəndlini gəzir. Bir həftə gəzəndən sonra kişini tapıb iki şahını ona verir.

Qonşuları deyir:

– Ay Məşədi, kişinin iki şahısını qaytarmaq üçün bir həftə dükanın bağlı qaldı, xeyli ziyana düşdün, bu nə ağıldır?

Məşədi Rza cavab verir ki, adam gərək düzlük işlədə, bundan ötəri ziyana düşsən də, eyib etməz.

***Rəvayət.*** Şamaxı ətrafındakı Tava kəndindən bir dəstə adam mal almaq üçün Göyçay kəndlərinə gedir. Hamı özü üçün mal alır. Hacağalı adlı birisi ala bilmir. Qonaq qaldıqları evin sahibi deyir:

– Dur gedək, gün batana qədər qonşu kəndlərdən sənin üçün də mal alım, bu qədər adamın içində sən malsız getmə.

Hacağalı yoldaşlarına dönə-dönə tapşırır ki, bax, məni qoyub getməyin ha, mən bu yolu tanımıram.

Yoldaşları gözləməyə söz verirlər.

Hacağalı və ev sahibi yaxın kəndlərə gedib iki baş mal alıb evə gələndə artıq qaranlıq imiş; həyətə girən kimi görürlər ki, qonaqlar mallarını da götürüb gediblər.

Ev sahibi deyir:

– Bunlar nə pis yoldaşdırlar ki, verdikləri sözə əməl etmirlər. Allaha and olsun ki, gərək onları geri qaytaram.

O, at minir, tüfəng götürüb qonaqların dalınca gedir. Gecə yarıdan keçmiş onlara çatır, onları geri qaytarır. Hacağalını da onlara qoşub yola salır. O, deyir:

– Adam əyrilik eləməz. Yoldaşı darda qoyub qaçmaq kişilik deyil.

***Rəvayət.*** Uralda bərk quraqlıq olur. İnsanlar acından it-pişik əti yeyir. Belə vaxtda Kərim adlı bir nəfər öz dostunun evinə gəlib ondan kömək istəyir. Dostun özünün də bir elə şeyi olmur, ancaq dostunu boş qaytarmamaq, çətin gündə ona kömək etmək üçün özünün sonuncu taxılını götürüb ona verir.

***Rəvayət.*** Bir kişinin arvadı əxlaqsız idi. Bir gün bunlara qonaq gəlir, gecəni qalası olur. Gecə arvad durub qonağın yanına girir. Qonaq deyir:

– Ay arvad, məni pis yola çəkmə, get ərinin yanına.

Arvad deyir:

– Əgər mənimlə yatmasan, çığır-bağır salıb səni rüsvay edəcəyəm.

Qonaq cavab verir ki, düzə heç yerdə zaval yoxdur. Əyri ağacı isə nə qədər kəssən də, elə əyri bitəcək.

Sən demə, ev sahibi oyaq imiş. O, ayağa durub qonağın üzündən öpür, "çox sağ ol" deyir, arvadı isə qovur.

Düz və yaxşı adam bu on nəfərin nə yaxşı əməlini, nə də səhvini nəzərə almamalıdır: dəlinin, sərxoşun, qadının, xəstənin, sevən şəxsin, yorulmuşun, hirslənmişin, qorxağın, səfehin və xüsusilə acın.

## İçki içmək haqqında

İçki çox qədim zamanlardan bəri mövcuddur. Onun müxtəlif növləri müxtəlif millətlər arasında geniş yayılmışdır. Dinlərin bəziləri onu haram, bəziləri halal buyurmuşlar.

İçki – insanın kefini açmaq, onu şuxlandırmaq, güləş etmək, dilləndirmək üçün bir vasitədir. Qədərində və qaydası ilə içilən içkinin nə bədənə, nə də ad-sana ziyanı olmaz. İçki – insanlar arasında məhəbbət, dostluq, açıqlıq, istək yaradır.

İçki içərkən bu şərtlərə əməl edilməlidir:

1- İçki az-az içilməlidir. Əgər tez-tez içsən, alkoqolizm xəstəliyinə tutularsan və daha gərək həmişə içəsən.

2- İçki az miqdarda – şuxluq üçün içilməlidir. Çox içib özünü ağıldan aparmağın, pis kökə salmağın mənası yoxdur.

3- İçkini o şəxslə iç ki, içkinin qədrini bilsin. Hər nadanla içki içmə.

Ömər Xəyyam deyib ki:

«Şərabı ən arif insanlarla iç,
Gülüzlü, nazənin cananlarla iç.
Çox içmə, gizlin iç, meyə alışma,
Meyin hörmətini qananlarla iç».

4- İçkini cəmiyyətdən gizli iç. Çalış ki, içki içməyini bilən olmasın.

5- İçki məclisində içki içmə. İçsən də, qədərindən az iç ki, məst olub rüsvay olmayasan.

6- İçki içən zaman çoxlu ye. Yemək – içkinin qənimidir, onun təsirini azaldır.

7- Bir cür içki içsən, hələ-hələ məst olmazsan. Vay o gündən ki, əvvəl şərab, sonra araq və s. içəsən.

8- Çox içki içməyinlə lovğalanıb bəhsə girmə. Bu, çox yaxşı iş deyil, əksinə, pis işdir.

9- Əgər çox içmisənsə, tez yat. Yuxu səni rüsvayçılıqdan qoruyar.

10- Çalış ki, içki içdiyin yerdə bir-iki nəfər səni istəyən şəxs olsun. Belə olsa, sən məst olsan da, səni qoruyan tapılar.

Əgər bu şərtləri gözləməyəcəksənsə, heç içki içmə. Çünki, əks halda, içkinin başdan-ayağa ziyanı var:

1- Adamı ev içində, cəmiyyət içində hörmətdən salır.

2- Cibdə pul qalmır.

3- Adam tez qocalır; dişlər tez tökülür, baş dazlaşır, əl-ayaq əsir, üz qırışır, nəsil artımı kəsilir və s.

4- Məst olan zaman bir sıra bədbəxt hadisələr baş verir; yıxılıb şikəst olmaq, nəqliyyatın altına düşmək, cərəyan vurmaq və s.

5- Pal-paltarın pis günə düşməsi; məst adam hara gəldi yıxılıb paltarı biabır edir.

6- Yalançı dostlar məst olmuş adamın başına min cür oyun açır; onu soyur, rüsvay etmək üçün lüt soyundurur və s.

7- Adam ikçi içməyə alışdığı üçün həmişə içmək istəyir. Pul olmayanda ona-buna əl açır, bəzən oğurluq etməyə məcbur olur.

8- Məst olan adam cürbəcür nalayiq, insana yaraşmayan hərəkətlər edir.

***Rəvayət.*** Bağır adlı birisi içkiyə bərk uyunur. Hər gecə içəndən sonra aşnası ilə görüşüb evə qayıdır. Bir gecə aşnası harasa gedir, Bağır onu görməmiş evə qayıdır və evdə qoca anasını zorlayır.

Səhər cinayətini başa düşüb özünü öldürür.

***Rəvayət.*** Səftər mağaza qarovulçusu idi. Axşamlar dostları ilə birlikdə içki içərdi. Bir gün pulu olmadı ki, gedib içki alsın. Çox götür-qoy edəndən sonra qoruduğu dükanı yarıb oradan xeyli içki götürdü.

Az sonra cinayətin üstü açıldı və Səftər həbs olundu.

***Rəvayət.*** Salyanda Əliqulu adlı bir nəfər əxlaqsız şəxs yaşayırdı. Bunun sənəti cavanları yoldan çıxartmaq idi. Bir gün bu şəhərə bir cavan oğlan gəlir. Əliqulu nə qədər edirsə, onu yoldan çıxara bilmir; pul, hədiyyə, hədə-qorxu, istək və s. təsir etmir. Onda Əliqulu oğlanı içkiyə öyrədir; az vaxtdan sonra bir gün çox məst edib məqsədinə nail olur.

***Rəvayət.*** İrəvanda bir nəfər çox hörmətli vəkil var idi. Bunu istəməyənlər belə qərara gəldilər ki, bu vəkili hörmətdən salıb yerinə keçək. Onlar özlərini bu vəkilə dost kimi göstərirlər. Tez-tez onunla yeyib-içirlər. Axırda bir gün bu kişini o ki var içirib məst edir, lüt soyundurub küçə ilə evinə qaytarırlar. Vəkil tələsik başqa yerə köçür.

İnsanın elə bir vaxtı olur ki, ancaq sərxoş olduğu vaxt özünü ayıq hiss edə bilir. Çünki müəyyən gələcəyə malik olmayan bir həyatın ayıqlığı da sərxoşluqdur. Əslində sərxoşluq edənlərin bir çoxu başgicəlləndirici həyatın əyrim-üyrüm yollarında dolaşaraq ayıqlıq axtaranlardır. Bu adamlar həyatdan yorğunluğu çıxarmaq və yeni qüvvət toplayaraq yenə də çala-çuxur dünyada dolaşmaq üçün içki içməyi lazım bilirlər. Lakin bu adamlar içkini müəyyən səbəblər üzündən (fikir edəndə, yorğunluqda, çətinlikdə) içir və tezliklə də əl çəkirlər.

## Papiros və nəşənin ziyanı haqqında

Papiros və nəşənin insan bədəninə vurduğu ziyanları saymaqla qurtarmaz. Onlar insanın nəinki bədənini, hətta beynini belə qurudur, insanı əsəbi edir, vaxtsız qocalığa, ölümə səbəb olur.

Məsəl var ki, «əl yan, cib yan, can yan». Yəni, papirosu çəkərkən əvvəl əlin yanır, pulun qurtardığı üçün cibin də yanır, tüstü bədəninə daxil olduğu üçün canın da yanır.

Nəşə isə insanı ağıldan apardığı üçün o, daha ziyanlı bir şeydir.

Bəzi adamlar deyir ki, papirosu və ya nəşəni fikrimi dağıtmaq üçün çəkirəm. Hamı bilir ki, bu, doğru deyil. Papiros və ya nəşə çəkən vaxt adamın fikri dağılmır, əksinə, beynində dumanlanma əmələ gəldiyi üçün cəmlənir. Papiros və nəşənin əsas ziyanları bunlardır:

1- İnsanın bədəninə zəhərli maddə daxil olur, nəticədə insan gün-gündən quruyur.

2- İnsan papiros və nəşəni almaq üçün hər gün xeyli pul sərf edir.

3- Papiros və nəşə tapmadıqda başqalarına üz tutmalı, «kötük» yığmalı, yalvarmalı olur.

4- Yuxusuzluq xəstəliyinə tutulur.

5- Ağzından daima xoşagəlməz iy gəlir.

6- Dodağı qaralır, dişləri saralır, bığı yanıq olur.

7- Çəkməyə şey olmayanda əsəbiləşir.

8- Nəşə çəkmək insanı hər cür əxlaqsızlığa aparıb çıxarır.

***Rəvayət.*** Ramazan adlı bir nəfər bərk papiros çəkirdi. Bir dəfə onun papirosu qurtardı, almağa isə pulu olmadı. Hərçi etdisə də, dözə bilmədi, axırı qonşusu Rəhim kişidən borc pul istədi.

Rəhim kişi dedi:

– Pul da verərəm, tütün də. Bu şərtlə ki, üç gün gəlib mənim qapımda işləyəsən.

Ramazan, ayrı vaxt olsaydı, bu təklifə razı olmazdı. Amma indi razı oldu. Papiros çəkmək üçün üç gün özgənin qapısında nökərçilik edib rüsvay oldu.

***Rəvayət.*** Nuxa şəhərində Salman adlı bir şəxs var idi. O, nəşə çəkərdi. Nəşəyə o qədər öyrəşmişdi ki, əgər bir gün çəkməsəydi, bağrı çatlardı. Bir gün o, xeyli nəşə çəkdi, beyni lap dumanlandı. Oturub xəyala getdi. Birdən ona elə gəldi ki, içəri bir gürzə ilan girdi. Salman cəld baltanı götürüb ilanın başını əzib öldürdü. Bundan sonra rahat olub yatdı.

Səhər ayılanda məlum oldu ki, ilan bilib öldürdüyü öz doğma oğlu imiş.

***Rəvayət.*** Məlik çox gözəl oğlan idi. O, daima papiros çəkərdi. Axırda elə öyrəşdi ki, gecə də çəkdi. Bunun üstündən-başından tütün iyi gələrdi. Məlik bir qızı xoşlayıb, ona evlənmək istədi. Qız dedi:

– Sənin nəfəsindən tütün iyi gəlir, tütün dodaqlarını və dişlərini pis kökə salıb. Mən sənə ərə getmərəm.

Bəzi adamlar deyir ki, papiros və nəşəyə vərdiş eləmişəm, tərgidə bilmirəm. Düzdür, vərdişi tərk etmək çətindir, amma mümkündür. Elə adamlar var ki, onlar 20-30 il papiros və ya nəşə çəkir və sonra tərgidirlər.

Papiros və nəşəni necə tərgitmək olar:

1- İradə ilə. Yəni, özün-özünə «daha çəkməyəcəyəm» deyir və sözünün üstündə möhkəm durursan.

2- Kitab oxumağa həvəs etməklə.

3- Tum çırtlamaqla.

4- Şirniyyat yeməklə.

5- Müxtəlif oyunlara (nərd, dama, şahmat və s.) həvəs etməklə.

6- Kolleksiya düzəltməklə.

7- Müəyyən bir adamla çox yaxından dost olmaqla.

8- Kino, teatr və konsertlərə getməklə.

9- Daima bir-iki adamla söhbət etməklə.

10- Bir müddət saqqız çeynəməklə və s.

Papiros və nəşəni tərgitmək adama üç-yeddi gün əziyyət verir, sonra isə elə yaddan çıxır ki, elə bil heç ömründə çəkməmisənmiş.

## Zarafat haqqında

Zarafat – zəriflik deməkdir. İnsan başqalarına müraciətən zərif sözlər, şux, məzəli hadisələr söyləyirsə, buna zarafat deyilir.

Zarafat könül açan olmalıdır, kobud olmamalıdır. Hərçənd məsəl var ki, «zarafat dostluğun qayçısıdır», amma bu məsəl kobud zarafata aiddir. Dünyanın hər yerində insanlar zarafatı xoşlayır, zarafatcıl adamları əzizləyirlər.

Zarafat – incə, şux, yerində deyilmiş, tutarlı, toxuntusuz, şirin və abırlı olmalıdır.

Kobud, yersiz, toxuntulu, acı və abırsız atmacalara zarafat yox, qabalıq deyilir. Bəzən bir-birinə «ay tula», «ay qoduğ» kimi nalayiq sözlər, hətta söyüşlər deyir və bunu zarafat hesab edirlər. Buna əsla yol vermək olmaz.

Zarafatı az-az və zarafatı sevən adamlarla etmək lazımdır. Hər yetənə və həmişə zarafat etmək olmaz. Bununla adamları özünüzdən incitmiş olarsınız.

***Rəvayət.*** Dərbənd şəhərində iki dost var idi. Bunlar bir-birinə çox zarafat edirdilər. Bir gün dostun biri o birinin evinə gedir. Ev sahibi ov tüfəngini əlinə alıb dostuna zarafat etmək məqsədilə deyir:

– Geri qayıt, yoxsa səni vuraram.

Gələn adam bunu zarafat bilib irəliləyir. Ev sahibi tüfəngi boş bilib çaxmağı çəkir. Güllə dosta dəyib onu öldürür.

Sən demə tüfəngi qardaşı doldurubmuş.

***Rəvayət.*** Lənkəranda Rizvan və Müslüm adlı iki dost yaşayırdı. Hər ikisi çox zarafatcıl idilər. Zarafatla bir-birinin çayına duz, dərman, istiot, xörəyinə torpaq, daş, dəmir xırdası, qurd və s. atardılar. Bir gün nahar vaxtı Rizvan Müslümün evinə gəlir. Müslüm onun çayına tökmək üçün əl atıb rəfdəki stəkanda olan pis qoxulu dərmanı götürür. Çaya töküb Rizvana verir. Rizvan içən kimi ölür.

Sən demə stəkandakı maye zəhər imiş.

## Oyunlar

Bəzi adamların oyunlara pis münasibət bəsləməsi əsla düzgün deyil. Oyun – yarışdır, bir oyunçunun o birindən üstünlüyünü müəyyən edir. Əgər oyundan qumar kimi istifadə edilmirsə, bütün oyunları oynamaq məsləhətdir.

Əlbəttə, oyunçular oyun zamanı namuslu olmalı, istər qəsdlə, istər səhvən özünə xeyirli olan oyuna çalışmamalıdır. Məsələn, zəri cütləyib atmaq, daşı artıq aparmaq, kartı oğurlamaq və s. olmaz.

Nərd, kart, loto, domino kimi oyunlarda oyunçunun əsasən oyunu deyil, baxtı lazımdır. Belə olduqda lovğalanmaq və ya əsəbiləşmək olmaz.

Şahmat və dama kimi oyunlarda isə oyunçudan məharət tələb olunur. Bu oyunlarda tələsmək ziyandır.

Oyun oynadığınız vaxt:

1- Namuslu, vicdanlı oynayın.

2- Yoldaşınızı hirsləndirməyin və özünüz də hirslənməyin.

3- Oyunu yarımçıq buraxmayın.

4- Çığırıb-bağırmayın.

Çalışın ki, heç bir oyuna uymayasınız və məbadə pul, şey və ya mərclə oynamayasınız. Unutmayın ki, oyun üstündə minlərlə davalar düşmüş, evlər dağılmış, adamlar öldürülmüşdür.

***Rəvayət.*** Bakılı Ələkbər qumarbaz idi. O, kart oyununda hər şeyini uduzur, verməyə bir şeyi olmur. Oyunçular onun bu vəziyyətindən istifadə edib arvadını da qumara qoydururlar. Ələkbər arvadı da uduzur. Axır el içində rüsvay olur.

***Rəvayət.*** İki nəfər gənc nərd oynayır. Biri dalbadal bir neçə dəfə udduğu üçün lovğalanır. O biri deyir:

– Yəqin sən zəri cütləyib atır və ya daşı oğurlayırsan. Udanla uduzan əvvəl mübahisə edir, sonra söyüşür, axırda vuruşurlar. Uduzan vurub udanı öldürür.

Qumar oynanılan ev – rüsvayçılıq məkanı, oğru, əyyaş və dələduzlar yığıncağıdır. Qumar – ən biabırçı nöqsan, ən böyük günah, cəhənnəmə tərəf salınan bir yoldur. Hansı ağıllı qumar oynayar?

Qumarbaz üçün rüsvayçılıq, kasıbçılıq, dərd, qəzəb, tamah, oğurluq və qatillik bir şey deyil. O, ancaq bir şey bilir – nə olursa-olsun, ancaq qumar olsun.

Qumarbaz, alim də olsa, alçaq adamdır. Dünyada bu yeddi əsas günahı etmə:

1- Qumar oynamaq.
2- İçki içmək.
3- Oğurluq etmək.
4- Qatillik etmək.
5- Arvadbazlıq etmək.
6- Mərdüməzarlıq etmək.
7- Valideynə ağ olmaq.

## NAŞİRDƏN SON SÖZ

Əhməd Cəfərzadənin bu kitabını nəşr etdirərək sizə çatdırmaqdan çox məmnunuq. Bu ağrılı-acılı həyatın və mürəkkəb bir dövrü özündə əks etdirən bir əsərin tarixdən silinməməsinə çalışmışıq.

Əhməd Cəfərzadə ədəbi fəaliyyətə 1944-cü ildə başlayıb. Əvvəllər qoşma, gəraylı, qəzəl və bayatı yazıb, məhəbbətdən, dostluqdan, təbiət gözəlliklərindən bəhs edib. Sonralar siyasi mövzulara keçib, mövcud quruluşu tənqid edən «Azərbaycan, «Ey Yusif», "Stalin düşmənimdir", «Biz» və s. kimi şerlər yazıb.

**Problemlərin başladığı vaxt:** Dövlətə və rejimə ilk açıq etirazı "mən bu rejimə – dövlətə xidmət etməyəcəyəm" deyərək əsgərlikdən imtina etməsi ilə başlayib. Bundan sonra həbs edilib, dəlixanaya salınıb və ona olmazın işgəncələr verilib. Özü həyatı haqqında demək olar ki, danışmazdı, təkcə 1989-cu ildə çap edilmiş "Adsiz qəhrəmanlar" povestində bu işgəncələr nə şəkildəsə təsvir edilib. Amma qardaşının yoldaşı Zərxanım Cəfərzadə onun əsgərlikdən yayınaraq kənddə qaçıb zağada qalmasını, paltarını mürəkkəblə rəngləməsini, daha sonra hərbi komissarlıq ya milis əməkdaşlarının onu tutaraq atdöşü eləyib aparmasını, dəlixanaya salınmasını, Bakıdakı 173 nömrəli məktəbdən bir az yuxarıda yerləşən dəlixanaya onun üçün yemək aparmasını və tutulmasının detallarını danışıb. Bundan sonra Əhməd Daşkəsənə sürgün edilib. Onun həyatının bu dövrü haqqında demək olar ki, heç bir şey bilmirik.

Daşkəsəndən sonra Uduluya qayıdıb, yenə şeirlər yazmaqda davam edib və şeirlərini o vaxtın yazıçılarından birinə baxmaq üçün verib. Bu yazıçı da onu MQB-yə (MQB – minsterstvo qosudarstvennoy bezopastnosti və ya KQB – komitet qosudarstvennoy bezopastnosti SSRİ – dövründə dövlət

təhlükəsizlik komitəsinin (DTK) rusca tanınan adı) təhvil verib. Zərxanım Cəfərzadə onun 1953-ci ildə "xalq düşməni" kimi tutulmasını belə təsvir edir: "Mən sacda yayma bişirirdim, bir də gördük ki, dağ tərəfdən NKVD (DTK keçmiş adlarından biri) əməkdaşları gəlir. Başa düşdük ki, onlar Əhmədin dalınca gəlirlər. Qardaşı Məmməd bəzi dəftərləri və əlyazmalarını mənə verdi ki, sacın altına qoyub yandırım. Buna baxmayaraq gəlib Əhmədi tutdular, bütün yazılarını və əşyalarını yığıb apardılar."

"Stalin şairləri" "Stalin təranələri" yazdıqları dövrdə 19 yaşlı gənç Əhməd "Stalin düşmənimdir", "Ey Yusif" şeirlərini yazıb "xalq düşməni", Sibir düşərgələri, KQB işgəncələri, dəlixanalar qazanırdı. "Saray şairləri" isə ad, san, medal, orden, mükafatlar. Necə ki, 1937-38-də istedadlı Huseyn Cavidi, Yusif Vəzir Çəmənzəminlini, Mikayıl Müşfiqi və minlərlə sənət adamını məhv etdilər, həmin kəslər də Əhmədi KQB-yə təhvil verdilər! Bununla Sosilaist Əməyi Qəhrəmanı da, xalq yazıçısı da oldular, yüksək vəzifələr də tutdular!

Bu rejimin alçaq qulları – Stalinin riyakar məddahları vəzifə-medal üçün Azərbaycanı da, xalqını da, xalqının mənafeyini də, öz doğmaca ata-anasını da satmağa, qurban verməyə, kimlərinsə sümükləri üzərinə çıxıb qabağa getməyə çalışırdılar:

Stalinə və Azərbaycan dövlətini məhv etməyə çalışan daşnakköklü 26-lara necə yaltaqlıqla şeirlər yazırdılar. Onlar qabağa baxırdılar, xidmətində durduqları bu sovet rejimindən vəzifələr, özlərinə və uşaqlarına Bakının mərkəzində evlər aldılar, Bakıda heykəlləri ucaldıldı, təmtəraqlı yubleyləri keçirildi, küçə adları verildi, ev muzeyləri düzəldildi, dərsliklərə hələ də onların dəfələrlə redaktə edilmiş şeirləri salınır. Fəxri xiyabanda da yerləri oldu! "Stalinin eşqi ilə", Stalin getdi "Stalin"

sözü “Partiya” ilə əvəz olundu. Yenə gündəmdə oldular, öldülər, övladları hələ də onları gündəmdə saxlamağa çalışırlar.

Əhmədinsə yeri dəlixana, həbs, Sibir düşərgələri, daha sonra normal məktəb binası, yolu, qazı olmayan sadə, geridə qalmış kənd oldu! Əzizə ana demişkən “Azərbaycanın Kamçatkası”.

Əhməd xalq təbabətini gözəl bilirdi, eləcə də tibbə marağı çox idi və bu sahədə yaxşı bilikləri vardı. Buna görə Sibirdə həkimlərin az tapıldığı düşərgələrdə feldşerlık edib adamlara kömək etmişdi.

Bakı Teatr texnikumunda oxuyub və deyilənlərə görə (və öz yazdığı şeirlərin birində qeyd etdiyi kimi), gəncliyində Mahmud Esenbayev kimi ğözəl rəqqaslığı olub. Buna görə də Sibir düşərgəsində rəqs qrupu yaratmış və Azərbaycanlılar və qeyri millətləri bura cəlb edib işlərini yüngülləşdirib. Bu qrupla muxtəlif düşərgələri gəzib konsertlər verib. Deyilənlərə görə keçmiş Sovetlər Birliyində tanınan qrupa çevrilmiş “Sibirskiy ansanbl tansa i plyaski” onun yaratdığı qrup əsasında yaradılıb.

1953-cü ilə qədər ədəbi sahədə çox məhsuldar olub, lakin əsərlərinin böyuk qismi itib. Əhməd Cəfərzadə qeyd etdiyi kimi tutulduğu zaman xeyli sayda əlyazması aparılıb, lakin 1992-ci ildə (həbsindən 40 il sonra! Bəraət aldığından 37 il sonra!) KQB-dən cəmi 4 dəftəri və bir sıra tək vərəqləri qaytarılıb. Bu kitabda olan yazıların böyük qismi həmin dəftərlərdən götürülüb. Az qismini hafizəsindən bərpa edib, ona görə kitabda bəzi şeirlərin iki varianti verilib.

**Gənc yaşında pirani.** Çox gənc ikən, 17-23 yaş arasında yazdığı şeirlərini mən üç yerə bölərdim: Lirik, siyası şeirlər və nəsihətnamələr. **Lirik şeirləri** həm heca vəznində və bir hissəsi əruz vəznində olan qəzəlləridir. Maraqlısı odur ki, hər iki vəzndə yazdığı şeirləri çox başarılıdır. Bu da böyük

əzablardan keçən bir gəncin necə böyük istedada malik olduğunu bir daha sübüt edir.

"Ey Yusif", "Stalin düşmənimdir" kimi **siyasi şeirlər**ində o dövrdə Azərbaycan və keçmiş Sovetlər birliyində baş verən hadisələrə və eləcə də Stalinin avtoritar rejiminə öz münasibətini qorxmadan bildirmişdir.

Özü gənc olmasına baxmayaraq insani keyfiyyətləri, həyat tərzi, həyat normativləri və dəyərləri nədir, insan necə yaşamalıdır deyə yazdığı klassik **nəsihətnamə** – "Əfqannamə"si böyük maraq döğurur. Əlbəttə, bir cavanın belə nəsihətamiz əsər yazması qəribə görünsə də, təqdirəlayiqdir. Əsərdən göründüyü kimi o bunu nəinki öz həyat tərzinə çevirir, həm də öz yaşıdlarını və özündən yaşlıları bir pirani ağsaqqal kimi düz yola çağırır. Bunlar ümumbəşəri dəyərlərdir və Sovet-Stalin rejimi heç də bunların hamısını dəstəkləmirdi.

**Xalq düşməni dostları.** Başqa qardaş oğullarından fərqli olaraq onunla bir neçə dəfə yol yoldaşı olub, keçmiş Sovetlər Birliyinin bir neçə şəhərinə birgə səfərə getmişik. Onun keçmiş "xalq düşməni" dostlarına Lvovda qonaq olmuşam. Onun necə qarşılandığının, sevildiyinin şahidi olmuşam. Hələ onun xalq düşməni dostlarının özlərini və uşaqlarını görmüşəm. Sadə adamlar! Nəcib adamlar! Sovet repressiya maşınından keçib sağ qalmışları!

Amasiyada, Gümrüdə əsgərlikdə olduğum zaman onlar yanıma gəliblər, Dağıstandan, Xasavyurtdan bir necə dəfə Bakıya qonaq gəliblər. Batumidə onlara qonaq olmuşam. Evində xeyirdə-şərdə bu insanları görmüşəm. İndi də Əhməd əminin uşaqları onlarla əlaqədədirlər. Hələ Allah elə edib ki, iki xalq düşməninin nəvələri bu dostluq nəticəsində evləniblər də! Bunların çoxunun adını, təvəllüd tarixlərini və haradan olduqlarını "Sibir bayatı" folkloru dəftərindən yığıb çapa hazırladığımız materialdan tapa bilərsiniz.

**Xalq düşməninin oğlu.** Böyük oğlu Mahmud Əhməd tutulduqdan və anası rəhmətə getdikdən sonra yetimxanaya verilmiş, adı və familyası da dəyişdirilmişdi. Azadlığa çıxdıqdan sonra dəfələrlə müxtəlif şəhərlərə gedib oğlunu axtarmış və 1964-cü ildə tapıb gətirmişdir. Mənim uşaq yaddaşıma Mahmudu ilk dəfə Rusiyada internatda görməyim həkk olunub.

**Pedaqoji fəaliyyəti**. Əhməd Cəfərzadə bütün iş fəaliyyətində bir sənət sahibi idi – müəllim! Dərs verdiyi yer isə kənd məktəbləri. Udulu sovetliyinin Cəngən, Tava və Tağılı kəndlərində müəllim, məktəb direktoru işləmişdir. O təkcə dərs deməklə kifayətlənməyib, həm də pedaqogika və tədrisə dair elmi tədqiqatlar aparmış, "Azərbaycan məktəblərinin 5-8-ci sinif şagirdləri ilə rus dili üzrə sinifdənkənar işin təşkili və keçirilməsi metodikası" mövzusunda namizədlik, "Turkdilli xalqlarda ikidillilik" adlı doktorluq dissertasiyası müdafiə etmişdir.

**Folklor aşiqi və tədqiqatçısı.** Başqa Cəfərzadələr kimi və bəlkə də onların hamısından daha çox folklor bilicisi və toplayıcısı idi. Arxivində nə qədər bayatı, tapmaca, atalar sözü və s. yığılmış dəftərlər var.

Əhməd Cəfərzadə şox şirin nağıl, dastan, əfsanə və rəvayətlər danışardı. Uşaq vaxtı bunlardan ikisini maqnitafona yazmışdım: "Məhəmmədin nağılı", "Yuxu yozucunun nağılı". Əzizə ana bunları işləyib "Anamın nağılları" kitabına daxil etmişdi.

Əhməd Şirvan aşıq və şairlərinin yaradıcılığını bütün ömrü boyu tədqiq etmiş, çoxlu material toplamış, çox sayda məqalə və bir neçə kitab çap etdirmişdi.

Əhmədin hərtərəfli, unikal ensiklopedik biliyi vardı. Folklorla yanaşı o milli mətbəxin, xalq sənətinin müxtəlif növlərinin gözəl bilicisi və daşıyıcısı idi. Heç də təsadüfi de-

yil ki, hələ indi də Uduluda toxunan bir neçə **palaz naxışlarının** müəllifi olmuşdur.

Əhməd istedadlı müəllim olmaqla yanaşı, gözəl natiq, maraqlı məclislər aparan ağsaqqal idi. Şirin xalq dili ilə danışırdı. Nağılları elə istedadla və şirinliklə söyləyirdi ki, insan saatlarla yenə və yenə ona qulaq asmaqdan doymurdu.

**Zarafatçılığı və daimi şuxluğu.** Bütün ağrı-acılardan keçməsinə baxmayaraq çox zarafatçıl və şux insan idi. Qardaşı, bacısı uşaqları və öz balaları ilə zarafatları vardı: mənə – "baçımoğlu-köpəyoğlu", öz nəvələrinə "donuzyonoklar", "Aydın-yonoklar" və s. kimi müraciətləri olurdu.

Uşaqlar süfrədənkənar yeməyə cəhd etdikdə və yedikdə belə deyərdi: "Amerikalılar və donuzlar ayaq üstündə yemək yeyirlər. Ancaq mən dəqiq bilirəm ki, sən Amerikalı deyilsən."

Danışığında, bir də görürsən, elə zarafata keçirdi ki, "məni hirsləndirdi, dedim, ver bıçağını, cırım sənin qarnını..." – qorxdu vermədi!" və ya "elə hirsləndim ki, istədim bilet alam gələm Moskvaya, səninlə dalaşam.., ay canım belə olmaz axı..."

Yarızarafat və ciddiliklə deyərdi: "Övladlarım, üç millətlə evlənməyin: Erməni ilə, çünki erməni türkün düşmənidir, biz də türkük. Yəhudi ilə, çünki yəhudi müsəlmanın düşmənidir, biz də müsəlmanıq. Rusla, çünki rus bəşəriyyətin düşmənidir, biz də bəşər övladıyıq".

**Nar əhvalatı.** 1974-cü ilin payızında Əhməd əmi kənddən öz kiçik və azbəhərli bağından anası Böyukxanım nənəyə nar göndərir. Nənə də şübhəsiz ki, bu narların yaxşılarını seçib qonaq gələnə saxlayır. Biz evə gələndə stol üstündə partlamış, bir az əzilmiş narları gördük. Nənə "bunları Əhməd əmi göndərib" dedi. Bu da bizə ona zarafatyana bir şeir yazmağa vəsilə oldu:

Girdin narın bağına,
Əl atdın partlağına,

Toyuq-cücən yox idi,
Tökəydin qabağına.

**Anasına və bacısına çox bağlı idi.** Əzizə bacısının əsərləri üçün material, mövzu axtarır və maraqlı nə tapsa, tez onunla bölüşməyə çalışırdı. Əsərlərinin mövzusunu işləməyə yardım edir, yazılmış hissələri oxuyur tənqid edib öz fikirlərini bildirirdi. Çox vaxt Əzizə ana bir kitabı bitirdikdə Əhməd qardaşına xəbər göndərir, o da gəlib Bakıda oxuyur, ya da Əzizə ana əlyazmanı götürüb Uduluya, Əhmədin yanına gedir, orada kitabı müzakirə edib geri qayıdırdı.

**Udulu həyatı:** Bu həyat haqqında nə demək olar? Kasıb bir kəndin, yolu, qazı, telefonu olmayan bir kəndin az maaşlı müəlliminin həyatından təzə nə demək olar? Əlbəttə, kasıbdı, lakin buna baxmayaraq əliaçıqdı. Evinə nə vaxt getsəydin, həmişə evində ən azı 5-6 əlavə adam olurdu. Onlar hamısı bu kasıb evdə olandan-qalandan nə varsa, ona mütləq qonaq edilirdi.

**Həyatının son dövrü** gəncliyi kimi və ya gənclikdəki zülmün nəticəsində xəstəliklərlə keçdi. Ən çox onu incidən isə həyatını mütəmadi oxumaq və yazmaqla keçirən adamın gözünün pis görməsi və get-gedə tutulması idi.

**Məktublaşmaları:** Azərbaycanda, keşmiş SSRİ məkanında və eləcə də dünyanın müxtəlif ölkələrində olan 200-dən çox adamla mütəmadi məktublaşırdı. Özü Bakıya gələndə və ya biz kənddən şəhərə gələndə bir qalaq məktub verərdi ki, poçt qutusuna atılsın. Biz Cəlil Məmmədquluzadənin "Poçt qutusu" hekayəsinə işarə vuraraq zarafatlaşardıq ki, "məktubların atandan sonra qutunun yanında gözləyək ya yox?"

Məktublarından bir xeylisini görmüşəm: bacısı Əzizəyə, mənə, xanəndə-şair Ağakərim Nafizə və başqalarına yazılıb. Bunlardan biri isə DTK-dən geri qayitmiş bir üçbucaq məktubdur. Məktub bir xalq yazıçısına imzalanmışdır.

"*Yoldaş ...*

*Azərbaycanlı olan hər bir şəxs öz vətəninin Rusiyanın müstəmləkəsi olmaması üçün çalışmalıdır. Mən Sizə təklif edirəm ki, vətənə xidmət üçün lazım olan hər bir işi edin. Özümüzə söz, mətbuat azadlığı alaq.*

*İntiqam və mübarizə.*"

Bu məktubun üzərində daha 2 qeyd var. Məktubun 16 aprel 1948-ci ildə keçmiş KQB-yə daxil olması və 16 Aprel 1953-cü ildə həbs olunduğu vaxtda "bu məktubu mən yazmışam" deyə Əhmədin imza etməsi haqqında qeydlər.

**Bakıya səfərləri**. Əhməd Cəfərzadə Bakıda doğulmuşdu, Şamaxının, Bakının gözəl yeməklərinin bacarıqlı aşpazı, anası Böyükxanımın yeməkləri ilə böyümüşdü. Bakı mətbəxini sevirdi – düşbərə, qutab, fisincan-plov, qəlyə, dolmalar ... Çünki kənddə nə bu yeməkləri tanıyan, nə də bişirməyi bacaran vardı. Kəndin (ət tapılanda) bozartması, bozbaşı, küftəsi, çığırtması, qonaq gələndən gələnə sacüstüsü var idi. Bakıya payızda, qışda gələndə gedib çoxlu göyərti alıb yeməklə yeyərdi. O dövrlərdə ucqar kənddə qışda göyərti nə gəzirdi.

Yoldaşım Səadət Əhməd əminin söhbətlərinə elə aşiq idi ki, onun söhbətlərinə rahat qulaq asmaq, mətbəxdə qalmamaq üçün o gəlməmişdən sevdiyi yeməkləri hazır edirdi.

**Siyası dustaqlıqdan sonra şairlik fəaliyyəti.** 1959-cü ildə yazdığı və bu kitaba daxil edilmiş bir qısa yazıda qeyd etdiyi kimi sanki şeir yazmaqdan küsmüşdü və dayanmışdı. Ona nə qədər də yaxın olsam belə, öz şeirini oxuduğunu xatırlamıram. Keçmişdə yazdığı və mən Gümrüyə əsgərliyə getdiyimdə göndərdiyi bircə bu şeirdən başqa:

*Xəbər alsan Udulunun halını,*
*Arpası yox, samanı yox, otu yox.*

Bu zarafatı tamamlamaq üçün mən də yazmışdım ki, əmi, bu şeirdən sonra hərbi hissənin yarmalı horrasından sizə, kəndə göndərmək istəyirəm.

Siyası düstaqlıq illərindən sonra əsasən yazdığı dini mövzulu şeirlər və hafizəsindən bərpa etdiyi bəzi keçmiş şeirləridir.

**Nəşr olunmuş əsərləri:** Bir sıra elmi-tədqiqat, publisistik əsərləri dövri ədəbiyyatda – jurnal və qəzetlərdə dərc edilmiş, eləcə də kitabları çap edilmişdir: ”Rus dili və türkdilli xalqlar” (rus dilində, 1971), “Oktyabr dili – dostluq dili” (Azərbaycan və rus dillərində, 1973), “Şirvan şairləri” (1994), “Şamaxı” (1994), “Şirvan folkloru antologiyası” (1994), “Şirvanın qadın şairləri” (1996), “Udulu” (1997).

İlk şeirlərinə və eləcə də bütünlüklə bizim gözümüzün önündə olan həyatına nəzər saldıqda onun əsil bir dindar olduğunu deyə bilərik. 1990-cı illərdən sonra onun dini mövzuda çap edilmiş kitabları da vardır: ”Həzrət Əli haqqında qəsidələr” (1990), “Ey müsəlmanlar” (1991), “Şəriət” (1991), “İslam şəriəti” (1991), “Halallıqdan başlanan yol” (1998), “Həzrət Baba və onun kəramət verdiyi Şeyx Əyyub baba” (1998), “Mir Sədi ağa” (1999).

Nə yazıq ki, şeirlərini kitab şəklində öz sağlığında çap etdirə bilmədik. Buna əsas səbəb isə onun əlyazmalarının və eləcə də KQB-dən geri alınmış şeir dəftərlərinin bizim əlimizə son illərdə yetişməsidir. Nə yazıq ki, vəfatından sonra böyük kitabxanası və kataloqu, yazılarının bir xeylisi qeyb olmuşdur. Amma buna baxmayaraq, hələ onun darmadağın edilmiş arxivində çap olunmamış nə qədər folklor matetialları var! Bundan əlavə Əhmədin çap edilməmiş yüzlərlə şeiri, hekayələri, xatirələri və s. vardır.

Sonda bu əsərin çap olunması üçün materialları təqdim edən Aydın Cəfərzadəyə, kitabı çapa hazırlamaqda mənlə birgə çalışan Kəmalə Cəfərzadəyə və Afaq Ramazanovaya təşəkkür edirəm.

**Turan İbrahimov**

## MÜNDƏRİCAT

***ÖN SÖZ*** **.......................................................................... 3**
***ŞEİRLƏR*** **.......................................................................... 8**
**YARALI KÖNÜL ............................................................ 143**
**YARIMÇIQ QALMIŞ GÜNDƏLİK .................................. 169**
**SIBIR DÜŞƏRGƏLƏRINDƏN TOPLANMIŞ BAYATILAR ............................................................................ 237**
***ƏFQANNAMƏ*** **........................................................... 253**
Din və etiqad haqqında ................................................ 254
Sevgi haqqında ............................................................. 257
Ailə qurmaq haqqında .................................................. 266
Dostluq haqqında .......................................................... 270
Ata-anaya münasibət haqqında .................................... 277
Düzlük və əyrilik haqqında ........................................... 284
İçki içmək haqqında ...................................................... 288
Papiros və nəşənin ziyanı haqqında .............................. 290
Zarafat haqqında ........................................................... 293
Oyunlar .......................................................................... 294
**NAŞİRDƏN SON SÖZ ................................................... 296**

**Cəfərzadə Ə.M.**
**Yaralı könül.**
Bakı, “Elm və təhsil”, 2017.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompüterdə yığdı:
**Aidə Qafarova**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 306 səh.
Tirajı: 500

Kitab “Elm və təhsil” NPM-in
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
ofset üsulu ilə hazır diapozitivlərdən çap olunmuşdur.



9 789952 810875